# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

**2021, C. 69, № 2**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2021, C.69, №2**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, f.e.d., prof. V.H.Əliyev, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. B.Ə.Xəlilov, f.e.d., prof. Z.A.Xəlilov, f.e.d., prof. N.M.Xudiyev, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova, f.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, prof. Dr. V.Q.Aliyev, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. B.A.Khalilov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. N.M.Khudiyev, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova, Phd N.G.Aslanova ***(executive secretary)***

*©ADPU, 2021*
*©ASPU, 2021*

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Abdullayev Ə.Ə.***
KOQNİTİV DİLÇİLİK HANSI ZƏRURƏTDƏN YARANDI ……............................ 9
***Abdullazadə N.Ə.***
NİZAMİ İRSİ BERTELSİN ARAŞDIRMALARINDA ……..................................... 14
***Ağazadə M.Ç.***
ƏTRİYYAT VƏ KOSMETİK MƏHSULLARIN REKLAM MƏTNLƏRİNDƏ FRANSIZ SLOQANLARININ LİNQVİSTİK TƏHLİLİ ……................................... 26
***Bədəlova A.Z.***
LEV TOLSTOYUN HACI MURAD OBRAZININ 1960-80-ci İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ OBRAZLARLA MÜQAYİSƏSİNİN TİPOLOGİYASI 33
***Kərimli V.Q.***
MİR CƏLAL PAŞAYEVİN BƏDİİ NƏSRİNDƏ SÖZ SIRASI VASİTƏSİLƏ AKTUALLAŞMA VƏ ONUN FORMALARI ……................................................... 41
***Quliyev F.A.***
POETİK REFLEKSİYA KONTEKSTİNDƏ KLASSİK POEZİYA VƏ XALQ POEZİYASI ƏLAQƏLƏRİ: MƏHƏMMƏD FÜZULİ VƏ AŞIQ HÜSEYN BOZALQANLI ……................................................................................................ 49

## *İctimai elmlər*

***Əhmədli C.E.***
HİBRİD MÜHARİBƏ ALƏTLƏRİ VƏ YA HİBRİD TƏHDİDLƏRƏ KONKRET NÜMUNƏLƏR ƏSASINDA KONSEPTUAL BAXIŞ .................................................... 58
***Fərhadov Ə.R.***
XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCANIN GÜNEYİNDƏ XRİSTİAN MİSSİONERLİYİ TARİXİNDƏN ........................................................................... 70
***İftixari A.H.***
DAĞLIQ QARABAĞIN TARİXİ COĞRAFİYASINA DAİR (İRAN TARİXŞÜNASLIĞINDA) ........................................................................... 80
***İsmayılov V.S.***
AZƏRBAYCANDA İQTİSADİ MODERNLƏŞMƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ ..... 95
***Kərimova P.A.***
FƏLSƏFİ FİKİR TARİXİNDƏ KOMMUNİKASİYA PROBLEMİ .............................. 104
***Qəhrəmanova N.F.***
HÜQUQİ DÖVLƏT QURULMASININ MÜASİR DÖVRÜNDƏ SOSİAL İDARƏETMƏNİN İNFORMASİYA TƏMİNATI PROBLEMİ .................................... 115
***Qurbanzadə F.S.***
MİQRANT VƏ QAÇQIN ANLAYIŞLARININ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ ............ 123
***Seyidov A.Q., Məmmədova A.M.***
XVII ƏSRİN SONU – XVIII ƏSRDƏ AZƏRBAYCANDA PUL TƏSƏRRÜFATI: QAZANÇI DƏFİNƏSİ .................................................................................... 131
***Umudlu V.U.***
TÜRKMƏNÇAY MÜQAVİLƏSİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA ....................... 139
***Yaqublu N.N.***
QƏRBDƏKİ POPULİST SİYASİ HƏRƏKATLARIN BEYNƏLXALQ İNSTİTUTLARA VƏ DÖVLƏTLƏRARASI TƏRƏFDAŞLIĞA TƏSİRİ ..................... 147

## *Pedaqoji-psixoloji elmlər*

***Abasova S.A.***
SEREBRAL İFLİCİN HEMİPARETİK FORMASI OLAN UŞAQLARDA İNTELLEKTUAL FUNKSİYALARIN TƏDQİQİ ........................................................ 156

***Altınay AA.***
İBTİDAİ TƏLİMDƏ SƏRİŞTƏLİ MÜƏLLİM KADRLARININ HAZIRLIĞINDA İNTERAKTİVLİK ……….................................................................................. 163

***Arıxova G.X.***
MƏKTƏBDƏ UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLANMASI İŞİNİN MƏZMUNU VƏ METODLARI ........................................................................ 168

***Aslanova G.Ç.***
ETNOMƏDƏNİYYƏT KONTEKSTİNDƏ QADIN OBRAZLARININ TƏRBİYƏVİ FUNKSİYALARININ BƏZİ CƏHƏTLƏRİ .................................................. 174

***Aslanova S.R.***
DİZARTRİYA ZAMANI UŞAQ VƏ YENİYETMƏLƏRİN PSİXOLOJİ DİAQNOSTİKASI, KOMPLEKS KORREKSİYA VƏ REABİLİTASİYA İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ ........................................................................................ 180

***Əskərova Y.B.***
ERKƏN GƏNCLİK DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN İNKİŞAFINA VİRTUAL ÜNSİYYƏTİN TƏSİRİ .......................................................................................... 188

***Əsgərzadə Q.Ə.***
BƏDİİ SİLSİLƏDƏN OLAN TELEVİZİYA VERİLİŞLƏRİ ŞAGİRDLƏRİN ESTETİK MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA BAŞLICA PEDAQOJİ VASİTƏ KİMİ ......................................................................................................................... 197

***Xəlilov R.Ə.***
TƏHSİL PROSESİNDƏ UŞAQLARA HUMANİST ŞƏXSİYYƏTYÖNÜMLÜ YANAŞMA: Ş.A.AMONAŞVLİNİN PEDAQOJİ SİMFONİYASI ............................... 204

***İlyasov M.İ.***
"PEDAQOJİ UNİVERSİTET-MƏKTƏB" SİSTEMİNDƏ ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN FORMALAŞDIRILMASI ...................................... 215

***Kılıç H.T.***
AİLƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAFI ÜÇÜN MÜHÜM AMİL KİMİ ......................................................................................... 224

***Məmmədova Ü.C., Heybətov E.A.***
DİSTANT TƏHSİL VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ .................................. 229

***Rüstəmova S.F.***
AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİL .................................................................... 242

***Tağıyeva S.Ş., Əmirəliyeva S.Ə.***
TƏLİM PROSESİ ZAMANI YARANAN DİDAKTİK PROBLEMLƏR ....................... 255

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Абдуллаев А.А.***
НЕОБХОДИМОСТЬ ПОЯВЛЕНИЯ КОГНИТИВНОЙ ЛИНГВИСТИКИ .............. 9
***Абдуллазаде Н.А.***
НАСЛЕДИЕ НИЗАМИ В ИССЛЕДОВАНИЯХ БЕРТЕЛЬСА ................................. 14
***Агазаде М.Ч.***
ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ФРАНЦУЗСКИХ СЛОГАНОВ В РЕКЛАМЕ ПАРФЮМЕРНО-КОСМЕТИЧЕСКОЙ ПРОДУКЦИИ ………................................… 26
***Бадалова А.З.***
ТИПОЛОГИЯ СОПОСТАВЛЕНИЯ ОБРАЗА ХАДЖИ МУРАТА ЛЬВА ТОЛСТОГО С ОБРАЗАМИ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ 1960-80-х ГОДОВ 33
***Керимли В.Г.***
АКТУАЛИЗАЦИЯ ПО ИСПОЛЬЗОВАНИЮ ПОРЯДКА СЛОВ И ЕЕ ФОРМЫ В ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ МИРА ДЖАЛАЛА ПАШАЕВА ……….............. 41
***Кулиев Ф.А.***
ВЗАИМООТНОШЕНИЯ КЛАССИЧЕСКОЙ И НАРОДНОЙ ПОЭЗИИ В КОНТЕКСТЕ ПОЭТИЧЕСКОЙ РЕФЛЕКСИИ: МУХАММЕД ФИЗУЛИ И АШЫГ ГУСЕЙН БОЗАЛГАНЛЫ ……………………..........................................… 49

## *Общественные науки*

***Ахмедли Дж.Э.***
СРЕДСТВА ГИБРИДНОЙ ВОЙНЫ ИЛИ КОНЦЕПТУАЛЬНЫЙ ОБЗОР ГИБРИДНЫХ УГРОЗ НА КОНКРЕТНЫХ ПРИМЕРАХ ........................................ 58
***Фархадов А.Р.***
ИЗ ИСТОРИИ ХРИСТИАНСКИХ МИССИОНЕРОВ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКОВ ............................................................ 70
***Ифтихари А.Г.***
ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ НАГОРНОГО КАРАБАХА (В ИРАНСКОЙ ИСТОРИОГРАФИИ) ........................................................................................ 80
***Исмаилов В.С.***
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКОЙ МОДЕРНИЗАЦИИ В АЗЕРБАЙДЖАНЕ ....................................................................................... 95
***Керимова П.А.***
ПРОБЛЕМА КОММУНИКАЦИИ В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ ......... 104
***Гахраманова Н.Ф.***
ПРОБЛЕМА ПОЛНОТЫ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ СТРОИТЕЛЬСТВА ПРАВОВОГО ГОСУДАРСТВА ................................................ 115
***Гурбанзаде Ф.С.***
ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ПОНЯТИЙ МИГРАНТОВ И БЕЖЕНЦЕВ 123
***Сеидов А.Г., Маммадова А.М.***
МОНЕТНОЕ ДЕЛО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XVII – НАЧАЛЕ XVIII ВВ.: КЛАД ГАЗАНЧЫ ........................................................................................... 131
***Умудлу В.У.***
ТУРКМЕНЧАЙСКОЕ СОГЛАШЕНИЕ В ИСТОРИОГРАФИИ ТУРЦИИ ............. 139

***Ягублу Н.Н.***
ВОЗДЕЙСТВИЕ ПОПУЛИСТСКИХ ПОЛИТИЧЕСКИХ ДВИЖЕНИЙ НА ЗАПАДЕ НА МЕЖДУНАРОДНЫЕ УЧРЕЖДЕНИЯ И МЕЖПРАВИТЕЛЬСТВЕННОЕ ПАРТНЕРСТВО .................................................... 147

## *Педагогико-психологические науки*

***Абасова С.А.***
ИЗУЧЕНИЕ ИНТЕЛЛЕКТУАЛЬНЫХ ФУНКЦИЙ У ДЕТЕЙ С ГЕМИПАРЕТИЧЕСКОЙ ФОРМОЙ ЦЕРЕБРАЛЬНОГО ПАРАЛИЧА ……............. 156
***Алтынай А.А.***
ИНТЕРАКТИВНОСТЬ В ПОДГОТОВКЕ КВАЛИФИЦИРОВАННЫХ УЧИТЕЛЕЙ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ ……………………...........…....... 163
***Арыхова Г.Х.***
СОДЕРЖАНИЕ И МЕТОДЫ РАБОТЫ ПОДГОТОВКИ ДЕТЕЙ К ОБУЧЕНИЮ В ШКОЛЕ ........................................................................................................ 168
***Асланова Г.Ч.***
НЕКОТОРЫЕ АСПЕКТЫ ВОСПИТАТЕЛЬНЫХ ФУНКЦИЙ ЖЕНСКОГО ОБРАЗА В КОНТЕКСТЕ ЭТНОКУЛЬТУРЫ ........................................................... 174
***Асланова С.Р.***
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ КОМПЛЕКСНОЙ КОРРЕКЦИОННОЙ И РЕАБИЛИТАЦИОННОЙ РАБОТЫ И ПСИХОЛОГИЧЕСКАЯ ДИАГНОСТИКА ДЕТЕЙ И ПОДРОСТКОВ ПРИ ДИЗАРТРИИ ........................................................... 180
***Аскерова У.Б.***
ВЛИЯНИЕ ВИРТУАЛЬНОГО ОБЩЕНИЯ НА РАЗВИТИЕ ЛИЧНОСТИ В ПЕРИОД РАННЕЙ ЮНОСТИ ........................................................................... 188
***Аскерзаде Г.А.***
ТЕЛЕВИЗИОННЫЕ ПЕРЕДАЧИ ХУДОЖЕСТВЕННОГО ЦИКЛА КАК ОСНОВНОЕ ПЕДАГОГИЧЕСКОЕ СРЕДСТВО В РАЗВИТИИ ЭСТЕТИЧЕСКОЙ КУЛЬТУРЫ ШКОЛЬНИКОВ ..................................................... 197
***Халилов Р.А.***
ГУМАННО-ЛИЧНОСТНЫЙ ПОДХОД К ДЕТЯМ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ: ПЕДАГОГИЧЕСКАЯ СИМФОНИЯ В ИСПОЛНЕНИИ Ш.А.АМОНАШВИЛИ ........................................................................................ 204
***Ильясов М.И.***
ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОЙ ПРОФОРИЕНТАЦИИ ШКОЛЬНИКОВ В СИСТЕМЕ «ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ-ШКОЛА» ........................................................................................................... 215
***Кылыч Х.Т.***
СЕМЬЯ КАК ВАЖНЫЙ ФАКТОР СОЦИАЛЬНОГО РАЗВИТИЯ ДОШКОЛЬНЫХ ДЕТЕЙ .......................................................................................... 224
***Мамедова У.Дж., Хейбатов Э.А.***
ДИСТАНЦИОННОЕ ОБРАЗОВАНИЕ И ОСОБЕННОСТИ ЕГО РАЗВИТИЯ ....... 229
***Рустамова С.Ф.***
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ ....................................... 242
***Тагиева С.Ш., Амиралиева С.А.***
ДИДАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ........................................................................................................... 255

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Abdullayev A.A.***
THE NEED FOR THE APPEARANCE OF COGNITIVE LINGUISTICS ................. 9
***Abdullazade N.A.***
NIZAMI'S HERITAGE IN THE INVESTIGATIONS OF BERTELS ......................... 14
***Aghazade M.Ch.***
LINGUISTIC ANALYSIS OF FRENCH SLOGANS IN THE ADVERTISING OF PERFUMES AND COSMETICS .................................................................................. 26
***Badalova A.Z.***
COMPARISON TYPOLOGY OF THE IMAGE OF HAJI MURAD BY LEO TOLSTOY WITH THE IMAGES IN AZERBAIJANI PROSE IN 1960s-80s ............. 33
***Karimli V.Q.***
ACTUALIZATION BY USİNG WORD ORDER AND ITS FORMS IN MIR JALAL PASHAYEV'S LITERARY PROSE ............................................................... 41
***Quliyev F.A.***
THE RELATIONSHIP OF CLASSICAL AND FOLK POETRY IN THE CONTEXT OF POETIC REFLECTION: MUHAMMED FIZULI AND ASHUG HUSSEIN BOZALGANLY ........................................................................................... 49

## *Social sciences*

***Ahmedli J.E.***
MEANS OF HYBRID WAR OR A CONCEPTUAL OVERVIEW OF HYBRID THREATS ON SPECIFIC EXAMPLES ........................................................................ 58
***Farhadov A.R.***
FROM THE HISTORY OF CHRISTIAN MISSIONERS IN SOUTH AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURIES ...................................................... 70
***Eftekhari A.H.***
THE HISTORICAL GEOGRAPHY OF THE NAGORNO-KARABAKH (IN IRANIAN HISTORIOGRAPHY) ............................................................................ 80
***İsmayilov V.S.***
MAIN DIRECTIONS OF ECONOMIC MODERNIZATION IN AZERBAIJAN …… 95
***Karimova P.A.***
THE PROBLEM OF COMMUNICATION IN THE HISTORY OF PHILOSOPHICAL THOUGHT ...................................................................................... 104
***Gahramanova N.F.***
THE PROBLEM OF THE COMPLETENESS OF INFORMATION SUPPORT OF SOCIAL MANAGEMENT AT THE PRESENT STAGE OF THE CONSTRUCTION OF LAW STATE ........……………………………………………………………….….... 115
***Gurbanzadeh F.S.***
DISTINCTIVE FEATURES OF THE CONCEPTS OF MIGRANTS AND REFUGEES ............................................................................................................……... 123
***Seyidov A.G., Mammadova A.M.***
MONEY ECONOMY IN AZERBAIJAN AT THE END OF THE XVII CENTURY – IN THE XVIII CENTURY: GAZANCHI TREASURE ............................................ 131

***Umudlu V.U.***
TURKMENCHAY AGREEMENT IN THE HISTORIOGRAPHY OF TURKEY ...... 139
***Yagublu N.N.***
THE IMPACT OF POPULIST POLITICAL MOVEMENTS IN THE WEST ON INTERNATIONAL INSTITUTIONS AND INTERGOVERNMENTAL PARTNERSHIP ……………………………………………………………...….. 147

## *Pedagogical-psychological sciences*

***Abasova S.A.***
STUDY OF INTELLECTUAL FUNCTIONS IN CHILDREN WITH HEMIPARETHIC FORM OF CEREBRAL PARALYSIS .......................................... 156
***Altynai AA.***
INTERACTIVITY IN TRAINING QUALIFIED PRIMARY EDUCATION TEACHERS ........................................................................................................ 163
***Arykhova G.Kh.***
CONTENT AND WORKING METHODS OF PREPARING CHILDREN FOR LEARNING AT SCHOOL ............................................................................... 168
***Aslanova G.Ch.***
SOME ASPECTS OF THE EDUCATIONAL FUNCTIONS OF THE FEMALE CHARACTER IN THE CONTEXT OF ETHNIC CULTURE ..................................... 174
***Aslanova S.R.***
MAIN DIRECTIONS OF COMPREHENSIVE CORRECTIVE AND REHABILITATION WORK AND PSYCHOLOGICAL DIAGNOSTICS OF CHILDREN AND ADOLESCENTS IN DYSARTRIA .............................................. 180
***Askerova Y.B.***
INFLUENCE OF VIRTUAL COMMUNICATION ON PERSONALITY DEVELOPMENT IN THE PERIOD OF EARLY YOUTH .......................................... 188
***Asgarzadeh G.A.***
TELEVISION PROGRAMS OF THE ART CYCLE AS THE MAIN PEDAGOGICAL TOOL IN THE DEVELOPMENT OF THE AESTHETIC CULTURE OF SCHOOLCHILDREN ......................................................................... 197
***Khalilov R.A.***
HUMAN AND PERSONAL APPROACH TO THE CHILDREN IN THE EDUCATIONAL PROCESS: PEDAGOGICAL SYMPHONY BY Sh.A.AMONASHVILI .......................................................................................... 204
***Ilyasov M.I.***
FORMATION OF CAREER ORIENTATION OF STUDENTS IN THE "PEDAGOGICAL UNIVERSITY-SCHOOL" SYSTEM ............................................ 215
***Kylych H.T.***
FAMILY AS AN IMPORTANT FACTOR OF SOCIAL DEVELOPMENT OF PRESCHOOL CHILDREN ......................................................................................... 224
***Mammadova U.J., Heybatov E.A.***
DISTANCE EDUCATION AND FEATURES ITS DEVELOPMENT ....................... 229
***Rustamova S.F.***
INCLUSIVE EDUCATION IN AZERBAIJAN............................................................ 242
***Taghiyeva S.Sh., Amiraliyeva S.A.***
DIDACTIC PROBLEMS ARISING IN THE LEARNING PROCESS ........................ 255

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 9-13
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 9-13

# Humanitar elmlər

*UOT 81*

***Ə.Ə.Abdullayev***
*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*afgan_abdullayev@yahoo.com*

## KOQNİTİV DİLÇİLİK HANSI ZƏRURƏTDƏN YARANDI

***Açar sözlər***: *koqnitiv dilçilik, semantika, praqmatika, metafora, strukturalizm*

Məqalədə koqnitiv dilçiliyin müstəqil bir istiqamət kimi yaranmasını şərtləndirən amillərdən bəhs edilir. Tarixi inkişaf mərhələləri qısa da olsa araşdırılır, müxtəlif dilçi-tədqiqatçı alimlərin fikirlərinə müraciət olunur, onların əsərlərindən istinadlar verilir, təhlillər aparılır.

***А.А.Абдуллаев***

## НЕОБХОДИМОСТЬ ПОЯВЛЕНИЯ КОГНИТИВНОЙ ЛИНГВИСТИКИ

***Ключевые слова:*** *когнитивная лингвистика, семантика, прагматика, метафора, структурализм*

В статье рассматриваются факторы, которые привели к появлению когнитивной лингвистики как самостоятельного направления. Исследуются этапы исторического развития, хотя и кратко, рассматриваются мнения различных лингвистов-исследователей, даются ссылки на их работы, проводятся анализы.

***A.A.Abdullayev***

## THE NEED FOR THE APPEARANCE OF COGNITIVE LINGUISTICS

***Keywords:*** *cognitive linguistics, semantics, pragmatics, metaphor, structuralism*

The article deals with main factors of the formation of the cognitive linguistics as a new linguistic trend. The historical periods of the development of cognitive linguistics is analyzed briefly. The author addresses the points of view of many linguists, gives numerous citations from their works, and comments on them.

Həyatda heç nə birdən-birə yaranmır, nəyinsə yaranması üçün müəyyən zəmin olmalıdır. Bu, bütün sahələrdə, o cümlədən dilçilik sahəsində də belədir. Dilçiliyin ta qədimdən inkişafı ərzində yeni-yeni cərəyanlar, məktəblər

meydana çıxmış, bəziləri zaman keçdikcə təkmilləşmiş, özünə daha çox tərəfdaşlar cəlb edə bilmiş, digərləri isə elə meydana gəldikləri yerdən çox da qabağa gedə bilməmişlər.

Müasir dilçilikdə artıq özünü bir dilçilik istiqaməti kimi sübut etmiş koqnitiv dilçilik də bugünkü səviyyəyə çatmaq üçün uzun bir yol keçmişdir. Bu yol Aristoteldən tutmuş XIX əsrin diaxronik semantikasına və XX əsrdə metaforanın və ağlın koqnitiv, ritorik və sosial funksiyalara münasibətin canlanmasına qədər olan bir yol olmuşdur.

Vaxtilə ümumi dilçiliyin fonologiyadan sintaksis və semantika vasitəsilə praqmatikaya qədər, sinxroniyadan diaxroniyaya qədər və əksinə istiqamətlə olan bütün məsələləri əhatə etdiyini indi koqnitiv dilçilik bütövlükdə öz üzərinə götürüb. O, indi ədəbi tədqiqatları ədəbi düşüncə ilə, təfəkkürlə, inkişaf psixologiyasını dil mənimsənilməsi ilə, neyropsixologiyanı təcəssüm olunmuş ağılla, neyrobiologiyanı beynin ağlın işini necə yerinə yetirməsinin öyrənilməsi ilə, sosial psixologiyanın sosial interaksiyada dili və ağılı necə öyrənməsi ilə əlaqələndirir, bağlayır.

Bununla belə koqnitiv dilçiliyin gələcəyi nə qədər parlaq görünsə də, koqnitiv dilçilər unutmamalıdırlar ki, koqnitiv dilçiliyin zəngin keçmişi də vardır ki, biz bu məqalədə həmin keçmişə qısa bir baş vurmaq istərdik.

1908-ci ildə Ebbinqhaus yazırdı ki, psixologiyanın uzun keçmişi və qısa tarixi vardir (6, s.371). Hovard Qardner isə göstərirdi ki, koqnitiv elmin çox uzun keçmişi, amma nisbətən qısa tarixi vardır (4, s.9). Nerlix Briqitte və Klark Deyvid birgə yazdıqları "Kognitive dilçilik və dilçiliyin tarixi" adlı məqalələrində, eləcə də digər yazılarında qeyd edirlər ki, semantika və praqmatikanın qisa tarixləri, amma uzun keçmişləri vardır (9).

Bu cür deyilənlərə əsaslansaq, məntiqimizə əsaslanaraq biz də deyə bilərik ki, koqnitiv dilçiliyin də uzun keçmişi, qısa tarixi vardır. Başqa cür də ola bilməz. Çünki dilçilik elmi inkişaf etdikcə ondan müəyyən ayrılmalar da meydana gəldı və bu ayrılmalar, cərəyanlar isə dilçiliyin tədqiq etdiyi sahələrlə sıx surətdə əlaqədardır. Bu yazımızda isə biz koqnitiv dilçiliyin uzun keçmişinin bəzi aspektlərini təhlil etməyə çalışaçayıq. Xüsusilə də, baxmayaraq ki, koqnitiv dilçilik öz inkişafı zamanı fəlsəfə, psixologiya və koqnitiv elm sahələri ilə əhəmiyyətli surətdə əlaqəli olub, biz isə bu yazıda daha çox dilçiliyin tarixi prizmasından məsələyə baxacağıq. Lazım gələrsə fəlsəfənin tarixinə də qısa səfərlər etməli olacağıq.

Bəs koqnitiv dilçilik necə oldu ki, dilçilikdən ayrılaraq ayrıca bir dilçilik cərəyanı kimi formalaşmağa başladı? İlk olaraq biz XX əsr dilçiliyinin xüsusiyyətlərinə diqqət çəkmək istərdik. Əsrin əvvəllərində dilçilkdə dominant olan Avropa semantikasının əsasında dayanan struktur-formal ənənələr, XX əsrin ikinci yarısından Şimalı Amerika və Avropada sintaksisdə generativ-formalist tədqiqatlar dominantlıq etməyə başladı. Nə qədər təzadlı olsa da,

koqnitiv dilçiliyin təbii tərəfdaşı kimi funksionalistlər və kontekstualistlər Praqa məktəbindən başlayaraq üzü bəri çıxış ediblər. Funksional Qrammatika (Dik), Sistemli-Funksional Qrammar (Həllidey), Dilin funksional-tipoloji nəzəriyyələri (Givon), Praqmatika (adi dil fəlsəfəsi, Qrays), Təbii morfologiya və Təbii fonologiya (Dressler, Stampe, Doneqan), Uilyam Diverin başçılıq etdiyi Kolumbiya Dilçilik Məktəbi Andre Martinenin fikirlərini dəstəkləyirdi. Lanqaker yazır: "Koqnitiv dilçilik deyilən cərəyan funksional ənənələrə söykənən bir istiqamətdir. Bu da o deməkdir ki, formalist yanaşmanın əksinə olaraq dil daha avtonom sistem kimi yanaşılmır, daha çox koqnisiyanın inteqral faseti (üzü) kimi (ayrıca bir modul, yaxud mental bacarıq, qabiliyyət kimi yox) yanaşılır. Mümkündür ki, linqvistik struktur daha çox əsas sistemlər və qabiliyyətlər prizmasından (məs., diqqət, kateqoriyalaşma, qavrayış) analiz edilir ki, bundan da ayrı mümkün deyil" (8, s.251).

Ənənəvi dilçiliyin tədqiqatlarının əsaslandığı müxtəlif mülahizələr və cərəyanlar bir çox hallarda sual doğururdu, xüsusilə də obyektiv biliyin subyektiv bilikdən ayrılması, linqvistik biliyin ensiklopedik bilikdən ayrılması, ədəbi dilin məcazi dildən ayrılması, konseptual-koqnitiv strukturların linqvistik strukturlardan ayrılması və nəhayət, sinxronik strukturların diaxronik dəyişikliklərdən ayrılması. Prototipləşmə nəzəriyyəsinin (həmçinin qeyri-səlis məntiq) təsiri isə formalist-strukturalist yanaşmanın yenidən dəyərləndirilməsini gündəmə gətirdi, xüsusilə də variantlılığı, polisemiyanı, diaxronik semantik dəyişməni. Halbuki dilçiliyin əvvəlki nəsli sadəliyi, monosemiyanı, qanunauyğunluğu, və qaydaları axtarırdı. Koqnitiv dilçilər isə daha çox mürəkkəbliyi, dəyişkənliyi, və modelləri öyrənirdilər. Bernardes yazırdı ki,  koqnitiv dilçiliyin meydana gəlməsinin əsas səbəblərindən biri dilin elə bil aspektlərinə xüsusi diqqət çəkmək oldu ki, onlar nizamsız, yaxud marginal (son) aspektlərdir (1, s.13).

Sonralar koqnitiv elmin yeni cərəyanının təsiri (bunu Kognitiv Elmin İkinci Nəsli adlandırdılar) (2) özü ilə elə bir fikir də gətirdi ki, ağıl formal simvolların, dil isə sintaktik qaydaların, ağıl mənanı görməyin formal simvollarının təcəssüm olunmayan manipulyasiyasıdır,  dil isə təcəssüm olunan manipulyasiyadır. Sintaksis, semantika, morfologiya və fonologiya hamısı yığışdılar bir yerə ki, insanın anlamasının, bədən quruluşunun və sosial interaksiyasının universal xüsusiyyətlərini öyrənsinlər. Bu da o deməkdir ki, koqnisiya və praqmatika dilin bütün aspektlərinin ayrılmaz komponentləridir.

Koqnitiv dlçiliyin meydana gəlməsi təxminən 1975-ci illərə təsadüf edir. Bu həmin vaxtdır ki, Lakoff ilk dəfə koqnitiv dilçilik terminini işlədir (7). Elə həmin vaxtlarda Lakoff özünün Generativ Semantika ideyalarını inkişaf etdirmək cəhdlərindən daşınır. O, öz ideyasının inkişafı üçün Çomskinin törəmə qrammatika ideyasını formal məntiqlə birləşdirirdi. 2000-ci ildə Brookmana verdiyi müsahibəsində Lakoff göstərir: "Noam iddia edirdi ki, (indi də bu

fikirdədir) bildiyim qədər deyə bilərəm ki, sintaksis mənadan, kontekstdən, arxa bilgilərdən, yaddaşdan, koqnitiv proseslərdən, kommunikativ məqsəddən və bədənimizin hər bir aspektindən asılı deyil" (2, s.19) Bununla belə törəmə semantikanın üzərində işləyərkən Lakoff göstərdi ki, semantikanın, kontekstin, və digər belə faktorlara bir neçə halda frazaların və morfemlərin sintaktik qurulmasında rast gəlmək olar və bu da törəməçilərin uyğunsuzluqlar adlandırdıqları vəziyyətinə gəlir. Eyni zamanda Lakoff anladı ki, nitq iştirakçıları üçün metafora və metanomiya təkcə linqvistik dekorasiyalar deyildir. O, 1979-cu ildə filosof Mark Consonla əməkdaşlığa başlayır, tezliklə onlar "Bizim Yaşadığımız Metaforalar" (Metaphors We live By) adlı kitablarını 1980-ci ildə çap etdirdilər. Məhz bu kitab sayəsində koqnitiv dilçilik geniş auditoriyanın diqqətinə çatdırıldı.

1970-ci illərdə törəmə dilçiliyin müddəaları ilə razı olmayan təkcə Lakoff deyildi. Əslində koqnitiv dilçilik tam formada bir mənbədən yaranmamışdır. Onun nə mərkəzi, nə də kristallaşmış formalizmi vardır.

Faktiki olaraq Çarlz Filmor freym semantikası nəzəriyyəsi üzərində işləyirdi, Ronald Lanqaker koqnitiv qrammatikanın əsasını qoyurdu (ilk olaraq Məkam Qrammatikası adlandırırdı). Leonald Talmy 1972-ci ildə öz dissertasiyasını yazdı və Geştald psixologiyanın prinsiplərini linqvistik təhlilə təqdim etməyə başladı. Xüsusilə bu məsələ onun güc dinamikası və hadisə freymlərinə dair araşdırmalarında daha çox hiss olunurdu (10).

Talmynin bəzi müddəalarını əsas götürərək Lanqaker özünün konseptual profilləşmə (conceptual profiling) nəzəriyyəsini yaratdı ki, bu da koqnitiv dilçilikdə mərkəzi rol oynadı.

1980-ci illərdən başlayaraq koqnitiv dilçilik metaforik kateqoriyalaşmaya dair (Lakoff), şəkil sxemləri (image schemata) (Johnson), koqnitiv qrammatika (Lanqaker), əqli məkanlar (mental spaces) və qovuşma (blending) (Fauconnier, Turner) və diaxronik prototip semantika (Geeraerts) tədqiqatları istiqamətində çiçəklənməyə başladı. 1980-ci illərin ikinci yarısından koqnitiv dilçilik sosioloji tədqiqatlar istiqamətində inkişaf etdi. 1989-cu ildə Rene Dörvin koqnitiv dilçiliyin beynəlxalq cəhətdən genişlənməsində mühüm əməyi oldu. O, Duisburqda (Almaniya) Koqnitiv dilçiliyə dair Birinci Beynəlxalq Konfrans təşkil etdi və orada da Beynəlxalq Koqnitiv Dilçilik Assosiasiyasını yaratdılar. Koqnitiv Dilçilik jurnalı Dirk Geerartsin redaktorluğu ilə çıxmağa başladı (5). Eyni zamanda Koqnitiv Dilçilik Tədqiqatı jurnal-seriyası Rene Dirvenin (3) və Ronald Lanqakerin redaktorluğu ilə nəşr olundu. Sonralar Jon Taylor da bu jurnala qoşuldu.

1990-cı illərdə koqnitiv dilçilik öz inqilabçı statusunu yaradıcı statusuna dəyişdi. Beynəlxalq Koqnitiv Dilçilik Assosiasiyasının (İCLA) illik konfransları Santa Kruzda (1991), Lüvündə (1993), Albukuerqe (1995), Amsterdamda (1997), Stokholmda (1999), Santa Barbarada (2001), Logronada

(2003) və Seulda (2005), Krakovda (2007), Xian Beynəlxalq Universitetində, Çin (2011), Alberta Universitetində, Kanada (2013), Nosumbria Universitetində, BB (2015), Tartu Universitetində (2017), Kuansei Qakuin Universitetində, Yaponiya (2019) – cəmi 15 illik beynəlxalq konfranslar olmuşdur. Bu konfranslarda iştirakçı saylarının çox olması, tanınmış dilçilərin konfranslarda iştirakı onu deməyə əsas verirdi ki, koqnitiv dilçilik artıq nəzəri dilçilik arenasında öz yerini tutmuşdur. Bir çox ölkələrdə koqnitiv dilçilik assosiasiyaları yaranmağa başlamışdır. Bu isə o demək idi ki, koqnitiv dilçilik artıq özünə ayrıca bir dilçilik istiqaməti kimi yaşamaq statusu qazanmışdır.

## ƏDƏBİYYAT

1. *Bernardes Enrique*. Some reflections on the origins of cognitive linguistics // Journal of English Studies 1999, 1: pp.9-28
2. *Brockman John.* Interview with George Lakoff after the publication of Philosophy in Flesh (1999), 2000
3. *Dirvin Rene*. Metaphor and metanymy in comparison and contrast. Berlin: Mouton de Gruyter, 1993
4. *Gardner Howard.* The Mind’s new science. A history of the cognitive revolution. New York, Basic Books, 1985
5. *Geeraerts Dirk.* A Cognitive Gramma and the history of lexical semantics. In Brygida Rudzka-Ostyn, ed. Topics in cognitive linguistics 647-77. Amsterdam: John Benjamins, 1988
6. *Farr Robert M*. The long past and the short history of social psychology // European Journal of Social Psychology, 1991, 21: pp.371-80
7. *Lakoff George and Mark Johnson.* Metaphors we live by, Chicago University Press, 1980
8. *Langacker Ronald W.* Foundations of cognitive grammar, Vol 1. Theoretical Prerequisites, Stanford: CA, Stanford Univcxersity Press, 1987
9. *Nerlich Brigette and David Clarke.* Blending the past and the present: Conceptual and linguistic integration, 1800-2000. Logos and language // Journal of General Linguistics and Language Theory, 2000 1: pp.3-18
10. *Talmy Leonard.* Towards a cognitive semantics, Vol. 2, Typology and process in concept structuring, Cambridge, MA: MIT, 2000

Redaksiyaya daxil olub 09.06.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 14-25
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 14-25

*UOT 82.(091)*

***N.Ə.Abdullazadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nazile.s.m.d@mail.ru*

# NİZAMİ İRSİ BERTELSİN ARAŞDIRMALARINDA (I məqalə)

"Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır".

***Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***
***05 yanvar 2021-ci il***

***Açar sözlər:*** *Bertels, Nizami, poema yaradıcılığı, Avropa və İran nizamişünaslığı*

Ümumtürk ədəbiyyatının bir qolu olan Azərbaycan yazılı ədəbiyyatının tarixi XI-XII əsrlərdə fars və ərəb dillərində yaranan ədəbi nümunələrdən başlayır. Qətran Təbrizi, Əbülüla, Xaqani Şirvani, Nizami Gəncəvinin yaratdığı poetik nümunələr farscada olsa da, türk-oğuz təfəkkürünün, türk mədəniyyətinin məhsulu idi. Şərq və dünya ədəbiyyatında fenomen mövqe tutan Nizami Gəncəvi bu təfəkkürün və mədəniyyətin Azərbaycan ədəbiyyatında ən qüdrətli siması olmuşdur.

Böyük şairin bədii irsinin öyrənilməsi tarixini zaman və məkan kontekstində təhlilə cəlb edən alimlərdən biri də Yevgeni Eduardoviç Bertels olmuşdur. Nizamişünaslıqda Azərbaycan alimləri onu özlərinə ustad saymış, Nizami haqqında fikirlərini dəyərli və etibarlı mənbə saymışlar. Qərb və Şərq nizamişünaslığında şairin həyatı və yaradıcılığı, əsərləri ilə bağlı fikirləri təhlil süzgəcindən keçirən Bertels böyük şairin bədii yaradıcılığını yüksək qiymətləndirmişdir. O, şairin lirikasını, poemaları "Xəmsə"yə daxil olan müxtəlif əlyazma nümunələri əsasında təhlil etsə də, Nizami irsinin hələ də ciddi və sistemli araşdırmaya ehtiyacı olduğunu bildirmişdir.

***Н.А.Абдуллазаде***

## НАСЛЕДИЕ НИЗАМИ В ИССЛЕДОВАНИЯХ БЕРТЕЛЬСА

***Ключевые слова:*** *Бертельс, Низами, эпическое творчество, европейское и персидское низамиведение*

История азербайджанской письменной литературы – ветви общетюркской литературы, начинается с литературных примеров на персидском и арабском языках в XI и XII веках. Хотя поэтические образцы, созданные Катраном Тебризи, Абулулой, Хагани Ширвани, Низами Гянджеви были на персидском языке, они также являлись продуктом тюркско-огузского мышления и тюркской культуры. Низами Гянджеви, занявший феноменальное положение в восточной и мировой литературе, был самой сильной фигурой этого мышления и культуры в азербайджанской литературе.

Евгений Эдуардович Бертельс был одним из ученых, проанализировавших историю изучения художественного наследия великого поэта в контексте времени и пространства. В низамистике азербайджанские ученые считали его мастером и ценили мнение о Низами ценным и надежным источником. Бертельс, проанализировавший жизнь и творчество поэта в западном и восточном низамиведении, а также его представления о его произведениях, высоко оценил художественное творчество великого поэта. Хотя он анализировал лирику и стихи поэта на основе различных рукописей, включенных в «Хамсу», отметил, что наследие Низами все еще нуждается в серьезном и систематическом исследовании.

***N.A.Abdullazade***

## NIZAMI'S HERITAGE IN THE INVESTIGATIONS OF BERTELS

***Keywords**: Bertels, Nizami, poem creation, European and Iranian Nizamisearching*

History of Azerbaijani written literature, a branch of all Turkish literature, begins with created literary samples in Persian and Arabic from XI and XII centuries. Although, poetic samples created by Katran Tabrizi, Abulula, Khagani Shirvani, Nizami Ganjavi were in Persian, they were the product of the Turkic-Oguz thought and Turkish culture. Nizami Ganjavi, who took a phenomenal position in Easten and world literature, was the most powerful figure of this thinking and culture in Azerbaijani literature.

Evgeny Eduardovich Bertels was one of the scientists, who researched the history of exploring literary heritage of the great poet in the context of time and space. Azerbaijani scholars named him a master of Nizami's researches and considered his opinions about Nizami − origin of a valuable and reliable. Bertels, who searched the life and work of poet in exploring Western and Eastern searches, as well as thoughts about works, had highly praised the artistic work of the great poet. Although, he analyzed the poet's lyrics and poems, based on various manuscripts, which included in to the “Hamsa”, he had noted the need in solution for Nizami's legacy also requires serious and systematic research.

XII əsr Azərbaycan şairi Nizami Gəncəvi − yaradıcılığı ilə hələ sağlığında maraq doğuran bir sənətkar olmuşdur. Zaman keçdikcə dünyanın müxtəlif

xalqları – ingilis, rus, polyak, alman, fransız, fars və b. – Nizami şeiriyyətinə biganə qala bilməmiş, onun sehrinin, cazibəsinin səbəblərini müxtəlif aspektlərdən araşdırmışlar. Lakin Nizami düz 9 əsrdir nə qədər öyrənilmiş olsa da, bu irs tükənmir, onun barəsində yazılanlar, deyilənlər "sanki dəryadan götürülmüş bir damlaya" [4, s.180] bənzəyir. Təkcə ədəbiyyatşünaslar deyil, filosoflar, tarixçilər, siyasətçilər, ilahiyyatçılar, riyaziyyatçılar, təbiətşünaslar, dilçilər və bir çox elm sahələri Nizami irsindən faydalanmış, hərə öz sahəsinə, özünə aid olanı tapmış və əldə etdiklərinin qədim dövrlərdən üzü bu yana bəşəri olduğuna həqiqətin özü kimi inanmışlar.

Nizami yaradıcılığı, daha dəqiq, "Xəmsə" Y.Balasaqunlunun "Kutadqu bilik", Ə.Yüqnəkinin "Atibət-ül-həqaiq", Ə.Yəsəvinin "Divani-hikmət" əsərlərindəki tarixi təkamülü özündə əks etdirir. Akad. N.Cəfərov Nizami "Xəmsə"sinin fəlsəfi əsaslarının Əl-Fərabidən gəldiyini vurğulayaraq yazır: "Nizami Gəncəvi yaradıcılığı XI-XII əsrlər Azərbaycan ədəbiyyatının tarixi xarakterini ifadə edir və həmin ədəbiyyatın təşəkkülü prosesinin "məntiqini" bütün mükəmməlliyi ilə əks etdirir: Azərbaycan ədəbiyyatı qədim tarixə malik ümumtürk ədəbiyyatının "müsəlmanlaşması", "regionallaşması" və "ümumşərq" keyfiyyətləri qazanması nəticəsində təşəkkül tapmışdır – bu isə o deməkdir ki, Azərbaycan ədəbiyyatının genezisi etibarilə "müstəqil" (yəni qeyri-türk mənşəli) hadisə olması barədəki geniş yayılmış nöqteyi-nəzərin əsası yoxdur. Və N.Gəncəvi yaradıcılığının əsasında duran etnik mənbələr, ümumiyyətlə, Azərbaycan ədəbiyyatının etnik mənbələrini təşkil edir" [2, s.44].

Avropa ədəbiyyatşünaslığında Georq Yakob, Vilhelm Baxer, H.Ete, P.Horn, H.Pitter, C.F.Oldenburq Nizami irsini tədqiqata cəlb etmişlər. Bu tədqiqatlarda Nizami müasirləri ilə müqayisə edilərək onlardan üstün tutulmuş, "Firdövsidən sonra İranın ikinci böyük epopeya şairi" (Krımski) adlandırılmış, "İtaliya ədəbiyyatı ilə İran ədəbiyyatı arasında qiymətli qarşılaşdırmalarda" (İ.Pittsi) Nizami əsərlərindən nümunələr verilmiş, "həyəcan, ehtiras, hüzn və kədəri ifadə etməkdə" (C.Vilson) Şekspir və Petrarka ilə əkiz sayılmış, üslub baxımından Firdovsidən üstün tutulmuş (P.Horn), İran ədəbiyyatı simaları içərisində müstəsna mövqeyi vurğulanmaqla yanaşı, "Almaniyada və bütün Avropada heç tanınmadığı" təəssüflə (V.Baher) qeyd edilmişdir [5, s.84-93]. Gördüyümüz kimi, istər orta əsrlər, istərsə də XVIII-XIX əsrlər Qərb ədəbiyyat-şünaslığında Nizami İran şairi, İran ədəbiyyatının nümayəndəsi kimi təqdim edilmiş, Firdovsidən sonra İranın ikinci böyük şairi adlandırılmışdır. Halbuki Nizamidə türklük motivləri, türklük simvolları – qüvvət, qəhrəmanlıq, gözəllik, təmizlik, doğruluq, başçılıq, dövlətçilik əsərlərinin hər sətrində özünü göstərir.

Dövlətşah Səmərqəndi, Vahid Dəstgirdi, Lütfəli bəy Azər (təzkirəçilər), M.Ə.Tərbiyət, M.Ə.Rəsulzadə Nizamini "müsəlman Şərqinin ürfan xəzinəsinə daxil olan, İran və dünya ədəbiyyatında tanınan" [5, s.5] şair adlandırır. Qərb

və Şərq tədqiqatçılarının Nizamini daha çox İran şairi kimi öyrəndikləri və onun şəxsiyyətini yalnız o ad altında tanıyanlara cavab olaraq M.Ə.Rəsulzadə yazırdı: "Əsərlərini araşdırdıqda Nizaminin fars millətçiliyindən uzaq olub türk sevgisi ilə dolu, Zaqafqaziya mühit və şəraitinə bağlı, yurdunun tarixi müqəddərat və geosiyasətindən doğan qayğılarla məşğul olduğu aydın görünür ki, beləliklə də o, əlbəttə, bir Azərbaycan şairidir" [5, s.28].

Nizami yaradıcılığını sistemli və dərin elmi araşdırmaya cəlb edən tədqiqatçılardan biri də Yevgeni Eduardoviç Bertels olmuşdur. Nizami mövzusu Bertelsin elmi yaradıcılığının mərkəzi kimi adlana bilər. Alimin bir çox əsərləri ona həsr olunub və bununla da Nizami və onun dövrünün öyrənilməsi işindəki əsas məsələ müəyyən dərəcədə həll olunmuş olub. Alim Nizaminin poemalarının mətinlərinin həqiqi olmasını müəyyən etmək üçün çox nəhəng olan tekstoloji iş aparmış, hər beş poemanın (çapdan buraxılıb: "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Şərəfnamə", "İqbalnamə") elmi tənqidçisi olmuş və nəhayət, "Şərəfnamə"nin elmi tərcüməsini həyata keçirmişdir. Tekstoloji işin konsepsiyasını o, "Nizaminin mətnləri üzərində iş" adlı məqaləsində açıqlamışdır [8, s.35-50]. Y.E.Bertels ilk dəfə olaraq Nizami şeirinin bədiiliyini onun qabaqcıl humanist məzmunu ilə sıx əlaqədə götürmüş, şəkli gözəlliklərin, poetik qəlibin arxasındakı mənanı, fəlsəfi-fikri, vüsəti üzə çıxarmağa çalışmışdır. Y.E.Bertelsin Nizami irsi ilə bağlı araşdırmaları dünya nizamişünaslığında tədqiqatçılara bir çox sirlərə yiyələnməkdə başlanğıc verir.

Nizamini sistemli tədqiqata cəlb edən alim ilk olaraq onun yaradıcılığı haqqında silsilə məqalələrini "Литературный Азербайджан" jurnalında nəşr etdirir. Bu yazılarda o, oxucuya əsas faktlar – Nizami kimdir, onun yaradıcılığı özündə nələri əks etdirir və niyə bu yaradıcılıq geniş şöhrət tapdı və s. barədə məlumat verir. 1940-cı ildə Bakıda alimin rus və Azərbaycan dillərində "Böyük Azərbaycan şairi Nizami" monoqrafiyası nəşr olunur. Monoqrafiya şairin anadan olmasının 800 illik yubileyinə həsr olunmuşdu. A.Krımski əsəri yüksək qiymətləndirərək onu "yubiley ədəbiyyatının bəzəyi" adlandırır. Monoqrafiyanı Bertels 22 ilə ərsəyə gətirmişdi. "Giriş" və 9 fəsildən ibarət əsərdə tədqiqatçı alim Nizami yaradıcılığı ilə bağlı hərtərəfli araşdırılmanı müasir elmdə mümkünsüz sayır və bunu şairin sənətkarlığının qüdrəti ilə izah edir.

Bertelsin Nizami poeziyasına marağı Şərq bədii təfəkkürünə, Şərq fəlsəfəsi və poetikasına vurğunluqdan irəli gəlirdi. Alimin Nizami obrazlarının bədii gücünü, ecazkarlığını təsəvvüf elmi araşdırmalardan kənarda görür, onların dünyəviliyini, tarixiliyini, hər bir obrazın şəxsində şairin bəşəri ideyalarının əbədiliyini yüksək qiymətləndirirdi. Digər tərəfdən, Nizami yaradıcılığının öz dövründə və sonralar da geniş yayılması bir şərqşünas araşdırmaçı kimi Bertelsi cəlb edirdi.

Bertelsin Nizami ilə bağlı mülahizələri, gəldiyi qənaətlər 20-ci illərdə şərqşünaslıqda bu şair haqqında yayılmış fikirlərlərdən köklü şəkildə

fərqlənirdi. Onun “insan ruhunun daxili motivlərini üzə çıxaran ən incə ruhlu, zərif sənətkarı” görməyi qəhrəmanların psixoloji təhlilinin dərinliyini görməyə imkan verirdi. Nizami yaradıcı təfəkkürünün və ideyalarının düzgün dərki, sənətkarlığının alim tərəfindən bu cür qiymətləndirilməsi Avropa ədəbiyyatşünaslığında şairin əsərlərinin dini mahiyyəti barədə köhnə fikirləri alt-üst edir, “insan ruhunun Tanrıya can atan alleqorik təcəssümü” fikrini təkzib edirdi. Lakin onu da qeyd etmək lazımdır ki, Bertels Qərb şərqşünaslığında irəli sürülən fikirləri öz tədqiqatında əsas götürürdü; Qumda anadan olduğu fikrinə şərik çıxır, Nizamini fars ədəbiyyatı tarixinə daxil edirdi. Bu, Bertelsin fars ədəbiyyatına vurğunluğundan irəli gəlirdi. Müasirlərinin dediyinə görə, Bertels, “demək olar ki, farsdilli poeziya korifeylərinin yaradıcılığı ilə nəfəs alır, çoxsaylı şagirdlərinə bu poeziyanın mənasını uzun illər boyu öyrədir, onunla sovet və xarici ölkə oxucularının geniş təbəqələrini tanış edirdi” [1, s.16]. Lakin “Xosrov və Şirin” poemasından danışarkən o, fars ənənəsində qəhrəmanlığın ikinci plana keçdiyini, xarakterlərin psixoloji təhlilinin əsas olduğunu qeyd etməyi də unutmur. Hər bir halda, Bertels Qərb-Avropa şərqşünaslarının bir çox məqamlarda mülahizələrinə tənqidi münasibət bildirmirdi. Bu isə Krımskinin göstərdiyi kimi, onun E.Brounun “Fars ədəbiyyatı tarixi”nə bütünlüklə istinad etməyi ilə izah olunur.

Əsərin ilk fəsli Nizami yaradıcılığının öyrənilməsi tarixinə həsr olunmuşdur. Bu fəsildə Bertels Nizami əsərlərinin əlyazmalarına – XIV əsrə aid 1, XV əsrə aid 5, XVI əsrə aid 7 əlyazmaya müraciət etdiyini, bu nüsxələri Paris Milli Kitabxanasında 2, Oksforddakı Bodlean kitabxanasında XIV əsrə aid 3 məşhur əlyazma ilə müqayisə etdiyini göstərir. Nizami mətnlərindən müəyyən hissə kimi 1786-cı ildə Kəlküttədə nəşr olunan “Asiatic miscellan'y” kitabında Bertels “Məxzənül-əsrar”ın (“Sirlər xəzinəsi”) 20 hekayətinin toplandığını qeyd edir [7, s.17]. O, hələ 1844-cü ildə ingilis şərqşünası N.Blendin Nizaminin ilk poemasının farsca mətnini, 8 il sonra isə məşhur şərqşünas A.Sprengerin Kəlküttədə “Nevski Aleksandr haqqında poemalar” kitabının nəşr olunduğunu, lakin bunlarda heç bir mənbənin, göstəricinin və müqəddimənin belə olmadığını təəssüflə bildirir.

Bertels Nizami əsərləri ilə bağlı araşdırmalara uzun zaman fasilə verildiyini əldə olan mətnlərin müasir tələblərdən araşdırma üçün əlverişli olmadığı ilə əlaqələndirir. 1924-cü ildə Marrın SSRİ EA Şərqşünaslıq İnstitutunun əlyazma materialları əsasında Nizami lirikasından fraqmentlər, 1934-cü ildə Y.Rıpkanın “Həft peykər” (“Yeddi gözəl”) poeması, 1935-ci ildə isə İstanbulun Aya-Sofya kitabxanasındakı əlyazmalar əsasında 25 qəzəlini nəşr etdirdiklərini, nəticədə əldə olan 650 sətrin şairin lirik şeirlərinin təhlilinə imkan yaratdığını göstərir
[7, s.18]. O, şairin əsərlərinin nəşri sırasında Vahid Dəstgirdinin 1935-ci ildə “Xəmsə” (6 cilddə) və lirik şeirlər divanının (VII cild) tam versiyada nəşrini

yüksək qiymətləndirir. Nizaminin həyat və yaradıcılığı haqqında araşdırmalarını da Dəstgirdi 7 cilddə verir. Nizamişünas alim XIV-XVIII əsrlərdə İran kitabxanalarında qorunub saxlanan 30 əlyazmadan istifadə etmiş, özünəqədərki tədqiqatçıların oxuya bilmədiyi mürəkkəb hissələri öz mətnoxuma bacarığı sayəsində oxumuşdur [7, s.19-21]. V.Dəstgirdinin həmçinin Berlin, Bodlean, Buxara və Kəlküttə kitabxanaları və Təbriz əlyazmalarına istinadlarını da Bertels alimin gərgin və yorulmaz elmi fəaliyyətinin uğuru kimi dəyərləndirir.

Nizami irsinin tədqiqi sahəsində Bertels şairin əsərlərinin tərcümə tarixini də nəzərdən keçirir. Şairin əsərlərinin tərcüməyə cəlb edildiyini vurğulayan alim bu tərcümələrin heç də hamısının elm üçün dəyərli ola biləcəyini də qeyd edir. Onun təbirincə, Nizami əsərlərinin tərcüməsində ilk addım ingilis şərqşünaslığına aiddir. 1836-cı ildə Etkimo tərəfindən “Leyli və Məcnun” poemasının tərcüməsində müəyyən təhriflərə yol verilsə də, sonralar iki dəfə təkrar nəşr olunur. Alman şərqşünaslığında “Həft peykər” poeması şərhlərlə (K.Uilson), müxtəlif poemalardan ayrı-ayrı hissələr (İ.Hart), rus dilində “Xosrov və Şirin” (Y.Dunayevski), “Leyli və Məcnun” (A.Qloba) poemalarından bədii parçaların kamil tərcümə olmadığını alim Nizami sənətinin zənginliyi və ecazkarlığı ilə əlaqələndirir. O, yazırdı: “Nizami yaradıcılığı nəinki məzmununa görə dərin və zəngindir. Nizami həm də poetik texnikanın böyük ustadıdır. Yalnız öz ustalığına görə bu böyük şairə bərabər olan tərcüməçi məna dərinliyini və formanın ecazkar vəhdətini qoruyub saxlaya bilər [7, s.23].

Nizami yaradıcılığını dövr, mühit və zaman kontekstində araşdıran alim “XII əsr Azərbaycanda ədəbi proses” adlanan fəsildə X əsrdə Abbasilər xilafətinin tənəzzülü nəticəsində fars dilində İranda və Orta Asiyada yerli sülalələrin möhkəmlənməsi nəticəsində fars dilində ədəbiyyatın çiçəkləndiyinin, pərvəriş tapdığının Azərbaycandan da yan keçmədiyini göstərir. XI əsrdə Təbrizdə Q.Təbrizinin yaradıcılığının müəyyən məqamlarını təhlil edərkən o, hələ Şəddadilər dövründə Arranda və Azərbaycanda fars poeziyasının geniş yayıldığını bildirir. Tədqiqatçı alim Şirvan ədəbi mühiti şairlərinin – Ə.Gəncəvi, İ.Şirvani, X.Şirvani, F.Şirvani, M.Beyləqani yaradıcılığını dövrün ictimai-siyasi kontekstində təhlil edir, onların formalaşdığı saray mühitinin, saraylarda yaranan ədəbiyyatın səciyyəvi xüsusiyyətlərinə nəzər salır. Bertels Nizamiyəqədərki yazılı ədəbiyyat və bu ədəbiyyatı yaradanların dünyagörüşlərini, sənətkarlıq xüsusiyyətlərini Nizami ilə əlaqələndirməyə cəhd edir. Nizaminin böyüklüyünü Bertels dövrünün qeyri-adi sənətkarlıq xüsusiyyətlərini mənimsəməklə yanaşı, özünü hakimiyyətdən (saraylardan) asılı etməməkdə, poeziyaya məzmun və forma zənginliyi gətirməyində görür.

Nizaminin həyat yolundan söz açan Bertels şairin tərcümeyi-halı ilə bağlı əsas məqamları müəyyənləşdirərkən şərqşünasların ilk mənbə olaraq V.Baxerin monoqrafiyasına müraciət etdiklərini bildirir. Baxerin çoxsaylı səhvlərini Bertels alimin o dövr Azərbaycan tarixi haqqında məlumata malik olmadığı, yalnız "Xəmsə"nin əlyazması əsasında tədqiqat apardığı ilə bağlayır. Əlyazmanın üzünü köçürənin təhriflərini şairin əsl sözü olmadığının Baxerin fərqinə varmadığını isə o, fars dili və ədəbiyyatı haqqında biliyə malik olmadığı ilə izah edir. Bertelsə görə, Baxerin yolunun üstündə dayanan çətinliklərin bu gün də (Bertelsin dövrünə görə) nizamişünaslıqda həllini tapmaması XII əsr Azərbaycan tarixinin hələ də qaranlıq səhifələrinin açılmadığı ilə bağlıdır. Bütün bunları əsas götürərək Bertels nizamişünaslığın qarşısında dayanan vəzifələri də müəyyənləşdirir:

1. Nizamin yaradıcılığının digər Qafqaz ədəbiyyatı, ilk növbədə gürcü ədəbiyyatı ilə əlaqələrinin tədqiqi;
2. Nizami dövründə elmin inkişafı və vəziyyəti, müxtəlif sahələr üzrə terminologiyanın öyrənilməsi;
3. Nizami sələflərinin və müasirlərinin əsərlərinin toplanılması və tədqiqi.

Baxerdən sonra Qərbdə şairin tərcümeyi-halı diqqət çəkməmiş, İran filologiyasında Səid Nəfisi və Vahid Dəstgirdi bu mövzuya müraciət etmişlər. Hər iki tədqiqatçının əsərlərində Nizaminin anadan olduğu yer, xarakteri və şəxsiyyətinin formalaşması, ailəsi, avropalı alimlərin Nizami haqqında fikirləri, Nizami "Divan"ı və s. aydınlıq gətirilir. Bertels əksini tapan məlumatlara əsasən V.Dəstgirdinin əsərini daha etibarlı mənbə hesab edir [7, s.23]. O, haqlı olaraq vurğulayır ki, farsca yazan orta əsrlər müəllifinin tərcümeyi-halını öyrənmək üçün tədqiqatçılar 4 əsas mənbəyə əsaslanmalıdırlar. Bunlar: 1) təzkirə; 2) tanınmış şeyxlərin tərcümeyi-halları toplanmış toplu; 3) salnamələr; 4) ədəbi əsərlərdir. Nizaminin həyatının öyrənilməsində ilk 3 mənbənin verə biləcəyi məlumatlar olduqca az olduğundan Bertels daha çox şairin əsərlərinə istinad etməyi tövsiyə edir.

Əldə olan təzkirələrdən Nizami dövrünə xronoloji yaxın olanı Arifinin 600-625-ci illərdə tərtib olunmuş "Lubub əl-əlbab" təzkirəsidir. Lakin Arifi Dehlidə İltutmuş sultanın sarayında yaşamış, orda yazıb-yaratmış, uzaq Zaqafqaziyanın ədəbi həyatı ilə bağlı heç bir məlumata malik olmamışdır. Bu səbəbdən Nizaminin ölümündən 3 əsr sonra 1487-ci ildə Dövlətşahın təzkirəsində olan məlumatların zənginliyini Bertels qiymətləndirir. Digər təzkirələr zamanca Nizamidən uzaqdır və demək olar ki, Dövlətşahın dediklərini bu və ya digər şəkildə təkrarlayır.

Tanınmış şeyxlərin tərcümeyi-hal kitablarında Nizami ilə bağlı məlumatlara rast gəlmədiyini Bertels şairin heç bir dərviş ordeninə mənsub olmaması ilə əlaqələndirir. Salnamələr də daha çox saray həyatını əks

etdirdiyidən Nizami ilə bağlı burada da heç bir məlumatın olmadığını Bertels əminliklə bildirir.

Ədəbi əsərlərə gəlincə, alim göstərir ki, Nizami poemalarında özü haqqında tez-tez söhbət açır. Şairin adının müxtəlif mənbələrdə İlyas kimi təqdim edilidyi halda, Bertels "Xilafət-əl-əfkar" təzkirəsində onun adının Əhməd olduğunu göstərir. "Leyli və Məcnun" poemasında şairin öz adının "İlyas", atasının, dayısının adları, künyəsi, Gəncədən olduğunu gətirdiyi nümunələrlə əsaslandıran alim Nəvainin də beş poemasında Nizaminin Gəncədən olduğu, bu şəhərlə bağlılığı barədə məlumat verildiyini göstərir.

Şərq və Qərb tədqiqatlarında şairin doğum tarixi ilə bağlı mülahizələri Bertels hind alimi C.Modinin müqayisəsində nəzərdən keçirir, qərbşünaslıqda təzkirələrin verdiyi məlumatlara tənqidi yanaşmadığını bildirir. Poemaların yazılma-bitmə tarixini bir-bir təhlil edən alim onun 63 yaşında – "İqbalnamə"ni bitirdikdən sonra dünyadan köçdüyünü də əlyazmasına əsasən müəyyənləşdirir.

Nizaminin anadan olduğu il mənbələrdə müxtəlif çür təsnif edilir; 1180 (Dövlətşah Səmərqəndi, İ.Hammer- Purqstal), 1190 ("Atəşgədə"), 1199/200 (Hacı Xəlifə, "Cahan-ara"), 1200 (Q.Auzli), 1201/02 (B.İvanov, Ç.Rye), 1205/06 ("Sübhi-sadiq"), 1209/10 ("Xülasət-əl-əsar"), 1200/03 (V.Baher, H.Ete) kimi müxtəlif tarixlər, həmçinin Nizaminin təhsili ilə bağlı Bertelsin fikirləri maraq doğurur. Şairin Gəncədə elmli adamlardan təhsil aldığı, müxtəlif elm sahələri – ədəbi fars dili, fiqh (hüquq), məntiq, fəlsəfə, astrologiya, coğrafiya, kosmos, riyaziyyat, kimya, tibbi dərindən bilməsini alim şairin öz dövründə ərəbcə elmi ədəbiyyatın əsaslarını bildiyi ilə bağlayır və göstərir ki, aldığı elmi biliklər onu qane etmirdi. Bertelsə görə, Nizaminin elmdən əsas tələbi insan həyatını yaxşılaşdırmaq, onun mövcud vəziyyətini yüngülləşdirmək idi.

Nizaminin bir şair kimi şöhrətlənməsini "Sirlər xəzinəsi" ilə bağlayanları Bertels haqlı saymır. Əsərin poetik texnikası aydın surətdə bildirir ki, Nizaminin ilk bədii nümunələri lirik şeirlər olmuşdur.

O, Baxerin irəli sürdüyü – "Leyli və Məcnun"u yazmağa başlayarkən artıq "Divan"ı olduğu fikrini şairin Nüsrətəddinə həsr etdiyi şeirlər və 1188-ci ildən sonra da lirik şeirlər yazdığını bildirməklə təsdiqləyir. Onun fikrincə, Nizami hələ gənclik illərindən şöhrət qazanmışdı. O, saray şairinə lazım olan hazırlığa, təhsilə malik olmuş, bu sahədə özünü sınamışdı. Sarayın qapıları onun üçün açıq olsa da, bizə məlum olmayan bəzi səbəblər onu bu şöhrətdən üz çevirməyə, fərdi azadlığını sarayın əzəmətindən üstün tutmaga məcbur edir. Bertels şairin bu qərarını iki səbəblə izah edir; əvvəla, uğur qazanan Nizami saray şairləri – rəqibləri ilə üz-üzə gəlməli idi. Yəqin ki, onlar Nizaminin şöhrətini duymuş, onları çətinliklə qazandıqları bu mövqedən uzaqlaşdıra biləcək rəqiblərini tanıyırdılar. Bertels Nizaminin ilk böyük əsərində ("Sirlər xəzinəsi") onu sıxışdıran paxıl qocalardan təsadüfən bəhs etmədiyini göstərir:

*Чем старее эти люди, тем они хуже,*
*Они – только звук, как «горная госпожа».*
*Тот, кто тебя видел грудным младенцем,*
*Для того твое молоко – горький яд.*
*У старика редко бывает справедливость к молодым,*
*Редко старик – благожелателен к юноше* [7, s.116].

Nizaminin qıpçaq qızı Afaqla qanuni nikahı, oğluna nəsihətləri, Afaqdan sonra ikinci dəfə evlənməsi, daha sonra üçüncü nikahı ilə bağlı Bertels "Xosrov və Şirin" poemasından gətirdiyi nümunələr əsasında maraqlı mülahizələr irəli sürür. O, özünəqədərki tədqiqatlardan çıxış etməmiş, poemaların yazılma tarixləri ilə bağlı Ç.Rye, V.Baher, S.Nəfisi, V.Dəstgirdinin əsərlərini təhlil süzgəcindən keçirir və belə bir qənaətə gəlir ki, poema yaradıcılığına Nizaminin 40 yaşından sonra başlaması məntiqəuyğundur, belə ki, daha gənc yaşda ciddi və bəşəri problemləri düşünüb qələmə almaq qeyri-mümkündür. Nizaminin Xaqani ilə bir yerdə Həcc ziyarətinə getməsi ilə bağlı Səid Nəfisinin fikrini o təkzib edir; Xaqaninin ikinci Həcc ziyarəti Nizaminin Afaqla evlilik illərinə təsadüf edir, əgər Nizami bu çətin və uzun səfərdə Xaqani ilə olsaydı, o zaman Afaqla bir yerdə ömür sürməmişdir.

"Leyli və Məcnun" poeması ilə bağlı Bertels göstərir ki, poemanı bitirdikdən sonra onu Şirvanşah Axsitana oğlu Məhəmmədlə göndərmək istəyən şair əslində oğlunun gələcək həyatının təmin olunmasını fikirləşibmiş. Axsitanın heç olmasa ona ömürlük təqaüd kəsəcəyi Nizaminin ən böyük ümidi idi. Lakin Axsitanın yerinə hakimiyyətə gələn oğlanları şairin ümidlərini puç edir.

Monoqrafiyada diqqət cəlb edən məqamlardan biri də Bertelsin Nizamiyə poemalarını yazmaq üçün mükafat vəd edilməsi barədə qeydlərdir. "Həft peykər" əsərinə görə mükafat alacağına sevinən şair "sifarişçinin" mövzu təklif etmədiyinə sevinir və tarixi salnamələrə baş vurur. Uzun axtarışlardan sonra Bəhram Gurun üzərində dayanır və "Yeddi gözəl"i ərsəyə gəlir. Bertels poemanı yazarkən

55 yaşında olan şairin fiziki sağlamlığının pis olduğunu, hakimiyyətdən narazılığını, özünün ədalətə, haqqa çağırışının, mübarizəsinin hədər olduğuna heyifsiləndiyini, zəmanənin ona qarşı qəddar olduğunu poemadan nümunələr gətirməklə şərh edir [7, s.161]. Ömrünün son illərini qaraldan çətinliklər qoca şairi "ömrün çiçəklənən çağında cavan ölmək qocalığın gətirdiyi əziyyətləri yaşamaqdan daha yaxşıdır" fikrinə gətirir. Bertels göstərir ki, "doğru sözü demək üçün var-dövlətdən və mülkdən imtina edən, himayədarlarının təzyiqi altında, ehtiyac, ağır əzab-əziyyət içində, təklikdə böyük şairin həyatı sona yetdi".

Bertelsin təbirincə, şair əsərlərini gecələr yazmışdır. Bunu o, gecələr ilham pərisinin gəldiyi üçün deyil, özünün dediyi kimi, bu saatlarda digər işlərdən azad olduğu ilə izah edir. O, Nizamini "Vis və Ramin" əsərinin müəllifi Fəxrəddin Gürgani ilə müqayisə edərək göstərir ki, Gürgani də aristokratların, hakim təbəqənin çatışmazlıqlarını görür, saray həyatının satirik təsvirini verməyə cəhd edirdi. Lakin öz oxucusuna heç bir müsbət proqram, yol təklif edə bilmirdi. Nizami isə bütün ömrünü bu ideyaların həyata keçirilməsinə sərf etmişdi; o, dağınıq fikirləri bir sistem halına salmış, onları quru əxlaqi risalələr şəklində deyil, ölməz bədii obrazlara bürünmüş şəkildə təqdim etmişdi.

Nizaminin poemalarını orta əsrlər Avropa cəngavər romanları ilə müqayisə edən alim istər məzmun, istərsə də sənətkarlıq xüsusiyyətlərinə görə bu romanları üstələdiyini yazır. Əgər orta əsrlər romançısı üçün fantastika romanın ayrılmaz bir hissəsi, möcüzələr adi və anlaşılandırsa, Nizami fantastikaya yalnız nağılı düşünülmüş şəkildə verdikdə və onun "stilistikasından" (üslubundan) istifadə edəndə müraciət edir. Bertels belə hesab edir ki, əgər Nizami poemaları orta əsrlər ədəbiyyatının səciyyəvi xüsusiyyətlərini əks etdirirsə, quruluşuna görə Avropa intibahının ən yaxşı nümunələrinə çox yaxındır. Onun təbirincə, Nizami "İnsan" sözünü ona görə böyük hərflə yazırdı ki, o özü dünyanın ən böyük insanlarından idi.

Monoqrafiyada Bertels ayrıca fəsillərdə Nizami poemalarının təhlilini vermiş, özünəqədərki tədqiqatları müqayisə edərək nizamişünaslıqda mübahisə doğuran suallara aydınlıq gətirməyə çalışmışdır. "Sirlər xəzinəsi" poemasını Bertels didaktik-fəlsəfi poeziya janrına aid edir. Nizamiyə qədər Rudəkinin bizə gəlib çatmayan "Kəlilə və Dimnə" poeması, Əbu Şükür Bəlxinin "Afərinnamə" kiçik nağılları da didaktik məzmunludur. Bertels Nizaminin poemasında irəli sürdüyü didaktik ideyalara hələ X əsrdə Təyyan, Səffar Mərqəzi, Xusrəvi, Hücəstə Sərəxsi, Ləbibi, Məarufi və Əmmərinin sufi görüşlərində rast gəlindiyini bildirir.

Nizaminin Sənainin "Hədiqətül-həqayiq" əsərindən bəhrələndiyini vurğulasa da, Bertels əsərin Sənaiyə nəzirə olmadığını, bunun Nizaminin ağlından belə keçmədiyini əsaslandırır. Belə ki, Sənai əsərini xəfif bəhrində yazdığı halda, Nizami səri bəhrində yazmışdır. Alim Nizamiyə qədər heç kimin epik lirikada səri bəhrindən istifadə etmədiyini, şairin özünün də poemasını yeni formada yazdığını göstərir:

*Эту жемчужину новым метром создал* [7, s.183]
*(bu incini yeni ölçüdə yaratdım).*

Dil və üslub baxımından Bertels "Sirlər xəzinəsi"nı Nizami poemaları içərisində ən mürəkkəbi sayır və bunu şairin qarşısına qoyduğu məqsədlə

əlaqələndirir. Onun fikrincə, Nizami bu poemanı yazarkən hər sətri anlamaq üçün oxucudan diqqətli və maraqlı olmağı tələb edir. Bəs Nizaminin poetik dilinin mürəkkəbliyi nədə idi? Bertelsə görə, bir çox sənətkarların dilinin çətin başa düşülməsi onların lüğətlərdən axtarıb tapdıqları nadir ifadələrdən, sözlərdən istifadə etmələri olub. Nizaminin isə lüğət tərkibi zəngindir, o, fars ədəbi dilinin leksik imkanlarından geniş istifadə edir, digər şairlər kimi söz dalınca qoşmur. Onun dilində bir sözün, ifadənin müxtəlif məna çalarlarından ustalıqla istifadəsinə rast gəlmək mümkündür.

Poemanın özündən sonra yazılı ədəbiyyata təsirini Bertels ona yazılan nəzirələrdə görür; fars dilində 42, qədim özbək dilində 2, türk dilində 2 poema Nizami yaradıcılığının təkcə türkdilli xalqlar içərisində deyil, fars ədəbiyyatına da təsirinin bariz nümunəsidir.

Şairin ikinci poeması – “Xosrov və Şirin” poemasında Şirin obrazı alimin diqqətini daha çox cəlb edir. O, Firdövsinin “Şahnamə”sindəki Şirin obrazı ilə müqayisə aparır və belə nəticəyə gəlir ki, “Şahnamə” də Şirinin Xosrova nikahlı həyat yoldaşı ola bilmədiyinin səbəbi iranəsilli olmadığıdır. Bertels tarixi obraz kimi də Şirinin İrandan olmadığı qənaətini bildirir. Nizami yaradıcılığını yüksək dəyərləndirən alim bu poemanı yazarkən də onun Firdövsidən istifadə etmədiyini vurğulayır. Lakin Şirinlə Şapurun Ərmən dağlarında görüş yerini rus dilinə “Armeniya” (Ermənistan) kimi tərcümə edən və Şapurun rahib olduğunu göstərən alim Azərbaycan tarixinin orta əsrlər, xüsusilə Sasanilər dövrü mənzərəsinə bir yanlış naxış da vurur. Sasani imperiyasının hakimiyyəti illərində albanların (azərbaycanlıların) xristian olduqları, alban monastırlarının fəaliyyət göstərdiyi və Ərmən dağlarının Azərbaycan ərazisində olması Bertelsin hadisələri Azərbaycanla bağlamadığını deməyə heç də əsas vermir. O, Xosrovun özünə Bərdədə sığınacaq axtarması, Göy gölün zəlzələ nəticəsində yaranması, Şirinin azərbaycanlı qızı olduğu və s. məqamları faktlarla təsdiqləyir və əsəri Azərbaycanla əlaqələndirir. Şirin kimi dolğun və müsbət qadın obrazının yaradılmasını Bertels böyük cəsarət sayır. O yazırdı: “Nizaminin ikinci poeması nəinki Azərbaycan, dünya ədəbiyyatında tayı-bərabəri olmayan bir əsərdir. İlk dəfə oaraq, Yaxın Şərq ədəbiyyatında insan şəxsiyyəti bütün təzadları, əksiklikləri, yüksəlişi və tənəzzülü ilə təqdim olunmuşdur” [7, s.229].

Nizaminin ikinci məhəbbət poemasını – “Leyli və Məcnun”u Bertels “Romeo və Cülyetta” ilə müqayisə edir və “Leyli və Məcnun” mövzusunun daha geniş yayıldığını etiraf edir. O yazır ki, “Romeo və Cülyetta” ilə Avropada ya ədəbiyyat, ya da teatr vasitəsilə tanış olduqları halda, “Leyli və Məcnun” əfsanəsi Yaxın Şərq folklorundan süzülüb gəlmişdir. İki nakam sevgili obrazı erkən yaşlarından belə hamının yaxını və sirdaşına çevrilir. Poemanın dörd aya yazılıb tamamlandığını göstərən alim əsərdən çıxış edərək bildirir ki, başqa işlərə vaxt ayırmasaydı, Nizami bu sevgi dastanını 14 gecəyə bitirərdi. Poemanı

yazarkən Bertels Nizaminin 3 əsas mənbəyə söykəndiyini qeyd edir: 1) İbn Küteybənin poeziya və şairlər haqqında traktatı, 2) Əbülfərəc əl-İsfahaninin "Kitab-əl-əqəni" əsəri, 3) Əbu Bəkr əl-Valibinin şərhlərilə Məcnunun şeirləri toplanmış "Divani-Məcnun". Monoqrafiyada Bertels poemanın 62 bölməsinin ayrı-ayrılıqda geniş təhlilini verir, Nizami poemasının mənbələrdə olmayan fərqli hadisələri və motivləri şərh edir. Məsələn, Bertels göstərir ki, Nizamidə Leyli ilə Məcnun məktəbdə tanış olduqları halda, mənbələrdə dəvə otararkən (karvanda) tanış olurlar. O bunu Nizami dövründə bədəvilərin patriarxal məişətindən fərqli yaşam tərzi, şairin Məcnunu çoban kimi təsəvvür edə bilməməsi ilə bağlayır.

Nizamişünas alim şairin "Xəmsə"sinin ətraflı və geniş şərhini vermiş, özündən sonra nizamişünaslıqda silinməz iz qoymuşdur. Nizaminin poetikası və üslubu haqqında söz açmayan alim bunu şairin sələflərinin və müasirlərinin divan yaradıcılığı ilə bağlı tənqidi mətnlərini öyrənmədən yarımçıq xarakter daşıya biləcəyi ilə izah edir. Bu səbəbdən Nizaminin lirikası ilə bağlı əsərə ayrıca fəsil daxil edilməmişdir.

Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının sistemli tədqiqatçısı Yevgeni Eduardoviç Bertelsin "Nizami" monoqrafiyası nizamişünaslıqda şairin "Yüz il sonra sorsan bəs o hardadır? Hər beyti səslənər: burda, burdadır!" sualına bundan sonra da əvəzsiz və orijinal araşdırma olaraq verilən cavablardan biridir.

**ƏDƏBİYYAT**


1. *Bağırov A.* Bertels və Azərbaycan ədəbiyyatı. Bakı, 2006, 147 s.
2. *Cəfərov N.* Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s.
3. *Əlibəyzadə E.* Azərbaycanşünaslığa giriş. Bakı: Ozan, 2010, 856 s.
4. *Əlibəyzadə E.* Nizami və tariximiz. Bakı: ADPU, 2004, 188 s.
5. *Rəsulzadə M.Ə.* Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, 232 s.
6. *Rüstəmova A.* Nizami Gəncəvi: həyatı və sənəti. Bakı: Elm, 1979, 210 s.
7. *Бертельс Е.* Низами и Фузули. Москва: Изд. Восточной литературы, 1962, 552 с.
8. *Бертельс Е.* Избранные труды. Навои и Джами. М.: Наука, 1965, 498 с.


Redaksiyaya daxil olub 28.03.2021

***УДК 81***

***М.Ч.Агазаде***
*Азербайджанский университет языков*
*maleyka91@gmail.com*

# ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ФРАНЦУЗСКИХ СЛОГАНОВ В РЕКЛАМЕ ПАРФЮМЕРНО-КОСМЕТИЧЕСКОЙ ПРОДУКЦИИ

***Ключевые слова**: рекламные тексты, слоган, целевая аудитория, лингвистика*

Статья посвящена анализу лингвистических способов выражения французских слоганов. Проведенное исследование позволяет сделать вывод о том, что слоган является заголовком определенного рекламного сообщения, служит для того, чтобы привлекать внимание целевой аудитории, а также подчеркивает преимущества товара или фирмы. В рекламных слоганах парфюмерно-косметической продукции используются такие лингвистические приемы, как повелительное наклонение и начальная форма глагола, а также такие стилистические приемы, как эллипсис, повторы, риторические вопросы. В рекламных слоганах, ориентированных на женскую целевую аудиторию, в отличие от слоганов, ориентированных на мужскую целевую аудиторию, больше используются метафоры, сравнения и эпитеты.

***M.Ç.Ağazadə***

# ƏTRİYYAT VƏ KOSMETİK MƏHSULLARIN REKLAM MƏTNLƏRİNDƏ FRANSIZ SLOQANLARININ LİNQVİSTİK TƏHLİLİ

**Açar sözlər:** *reklam mətnləri, sloqan, hədəf auditoriyası, dilçilik*

Məqalə fransız reklam sloqanlarının linqvistik ifadə vasitələrinin təhlilinə həsr edilmişdir. Aparılan tədqiqata əsasən nəticə çıxarıla bilər ki, sloqan müəyyən bir reklam mesajının başlığı olduğunu, müəyyən bir hədəf auditoriyasının diqqətini çəkdiyini və bir məhsul və ya şirkətin üstünlüklərini vurğulamağımıza imkan verən qısa reklam mətnidir. Kosmetika və ətriyyat sahəsinə aid olan reklam sloqanlarında fellərin əmr və məsdər forması kimi linqvistik, təkrarlama, ellipsis, sorğu cümlələri kimi stilistik üsullardan istifadə olunur. Qadın kosmetik məhsulları üçün reklam sloqanlarını tərtib edənlər, kişi hədəf auditoriyasına yönəlmiş sloqanlarından fərqli olaraq daha çox epitetlərdən, metaforalardan, müqayisələrdən istifadə edilir.

***M.Ch.Aghazade***

**LINGUISTIC ANALYSIS OF FRENCH SLOGANS IN THE ADVERTISING OF PERFUMES AND COSMETICS**

***Keywords****: advertising texts, slogan, target audience, linguistics*

The article analyzes slogans in French advertising texts. The analysis allows us to conclude that the slogan is the heading of a specific advertising message, it attracts attention of a specific target audience and highlights the benefits of a product or a company. Advertising slogans related to the field of cosmetics and perfumery often include such linguistic techniques as the use of verbs in non-personal and imperative mood, include a lot of stylistic techniques such as repetition, ellipsis, interrogative sentences and contrasts. It was also concluded that the compilers of advertising slogans for women's cosmetic products use a lot of epithets, metaphors, comparisons, interjections, in contrast to those intended for male target audience, which are more restrained and strict in text.

**Введение**

Сегодня реклама занимает важную роль в обществе и отражает жизнь социума. Цель текстов реклам – воздействовать на потенциального покупателя и вызывать желание обладать тем или иным товаром. Основная задача рекламы – продвижение того или иного товара на рынке.

Понятие "реклама" обозначает информацию о товарах, услугах для привлечения потребителей, зрителей и создания спроса на эти услуги или товары [6, с.33].

Исследование того, как рекламные тексты способны убеждать человека, проводится многими дисциплинами, такими как лингвистика, социология, психология.

Выбор лингвистических средств в рекламных текстах связан с попытками использовать язык с целью достижения намерений говорящего. С этой целью наряду с визуальными средствами используются разнообразные стилистические и морфологические приемы.

С целью продвижения рекламируемого объекта на рынке и достижения коммерческих целей реклама способна оказывать коммуникативное воздействие на целевую аудиторию, то есть она удерживает объект в сознании адресатов, расширяет и углубляет знания о нем, улучшает мнение адресатов о рекламируемом объекте, убеждает в его преимуществах, формирует и поддерживает заинтересованность в нем, сообщает о реальных или символических выгодах для адресатов и таким образом создает предрасположенность к выбору данного объекта [3, с.10].

Слоган является инструментом, с помощью которого производители заявляют в рекламе об уникальности и оригинальности продукта.

**Понятие «слоган».** Считается, что понятие «слоган» (slaugh-ghairm) произошло от галльского языка (в переводе обозначает «боевой клич»). Первоначальное значение слова «боевой клич» в полной мере определяет функцию слогана: привлечь потенциальных потребителей [7, p.2145].

Однако слоган не используется в каждой рекламе. Слоган отражает сущность фирмы, ее философию и корпоративную политику в тех или иных сферах. Определенная фирма или компания может производить десятки, сотни или тысячи разных товаров или услуг. Создавать новый слоган для каждого нового товара/услуги неестественно и неэффективно, поскольку иногда рекламный заголовок сам способен отразить специфику рекламы конкретного товара или услуги. Основные требования к слогану – быть кратким, постоянным, запоминаемым, содержать название торговой марки и легко переводиться на другие языки [1, с.3].

Самой важной характеристикой слогана является его способность запоминаться как удачная фраза и, в идеальном варианте, войти в повседневную речь, как это случается с удачными высказываниями [2, с.41].

Задачей слоганов является помочь привлечь внимание и заставить человека вспомнить конкретный товар и бренд.

**Лингвистические особенности слоганов**. Как правило, слоган располагается в конце рекламного текста. Такое расположение слогана не случайно. Оно обусловлено резюмирующей задачей слогана. Он подводит итог всему сказанному в рекламном тексте.

На основании проведенного практического анализа рекламных текстов, были выделены следующие характеристики слоганов:

- Слоганы всегда довольно лаконичны, легко запоминаются и состоят из 4-7 слов: *"Parce que vous le valez bien" (L'Oréal) («Ведь вы этого достойны»); "Se réinventer chaque jour" (Yves Rocher) («Каждый день открывать себя заново»),* т.е. формальная организация рекламного слогана имеет тенденцию к сжатию конструкций, к более компактному изложению рекламного текста.

- Убедительность в слоганах всегда преобладает над информативностью: "*Tout dire sans un mot" (Lancôme) («Сказать все без слов»), "C'est prouvé. Clairins rend la vie plus belle" (Clairins) («Это доказано. Clarins делает кожу красивее»).*

- Обладают заинтригованностью и аттрактивностью текста, которые необходимы, чтобы привлечь внимание потребителя и поблудить его к приобретению товара: "*Quelque chose en moi d'éternel" (Givenchy, parfum Organza) («Что-то вечное во мне»).*

Лингвистические особенности слоганов заключаются в:

1. Использовании глаголов в побудительном наклонении. Таким образом текст стилизуется под спонтанную разговорную речь и создает атмосферу доверительного общения с потребителем: «*Soyez totalement prêt pour la vie» (Colgate) («Будьте полностью готовы к жизни»);*

2. Иногда для большей убедительности и солидности прибегают к использованию инфинитива глагола: *"Nourrir et revitaliser les cheveux secs et très secs" (Karité, shampooing) («Питание и оживление сухих и очень сухих волос»); L'Occitane «Art de vivre»* («Искусство жить»).

3. Использование безглагольных предложений: *Sea-spray de Yardley, une eau de toilette pas comme les autres.* («Туалетная вода «Sea-spray de Yardley», не такая как остальные»).

4. Использование определенных стилистических средств, таких как **повтор** (*"De plus en plus forts, de plus en plus longs" (Garnier, shampooing), («Все сильнее и сильнее, все длиннее и длиннее»*), «**Tout** feu **tout** femme» (Opium de **Yves Saint Laurent**) (слишком огненно, слишком по-женски); **антитеза** *"Oui à l'été, non au vieillissement de ma peau!" (L'Oréal, lait soin protection avancée), («Да – лету, нет – старению кожи»),* **вопросительные предложения** *" – Ma beauté? – C'est le teint! – Mon teint? – Célestins!" (Vichy Célestins, eau minérale) (« - Моя красота? – Это цвет лица! – Мой цвет лица? - Célestins!");* **эллипсис**: «*5 problèmes – une solution» (Elsève) ("5 проблем – одно решение");* **фонетический каламбур** (игра созвучий): «Di**or**. J'ad**or**e»; **рифма:** *«Belle dans mon âge bien dans ma peau» (Clarins);* **оксюморон**: *«Rapprochez-vous, il n'y a rien à voir» (Garnier, shampooing anti-pelliculaire)(Подойдите ближе, вы ничего не увидите) (Garnier, шампунь от перхоти);* **метафора:** *«Arpège. Parfum de lumière»* (Lanvin) («Arpège. Аромат света»).

С семантической точки зрения, слоган может содержать:

1. Характеристики рекламируемого объекта: Yves Rocher. Créateur de la Cosmétique Végétale (Yves Rocher. Создатель косметики на растительной основе)

2. Чувства и эмоции: Un véritable art mêlant élégance et plaisir des sens (Bourjois) (Настоящее искусство, сочетающее элегантность и удовольствие от чувств).

3. Результат использования рекламируемого объекта: Lancôme fait plus belle la beauté (Lancôme делает красоту еще более красивой). La douceur et le velouté de la peau (Garnier) (Мягкость и гладкость кожи).

Сильное воздействие будет в том случае, если реклама сумеет создать стимул у потенциального покупателя пойти и совершить покупку. С этой целью в рекламных слоганах используются словосочетания типа «*en 3 secondes*» («за 3 секунды»), «*en un seul geste*» («одним жестом»), «*dès la goutte*» («с первой капли»): «*une belle peau en 3 secondes*» (Clinique)

(«красивая кожа за 3 секунды»), «*Une peau neuve dès la goutte*» (Vichy) («эффект обновленной кожи с 1-й капли).

Довольно часто название фирмы, которой принадлежит продукт, является составной частью слогана и стоит в самом начале, чтобы привлечь внимание потребителя, создавая ассоциации с уже приобретенными ранее товарами этой фирмы:

*“Eau de Cologne Hermès. Le plaisir après le plaisir”,* («Одеколон «Hermès». Наслаждение за наслаждением»); *“Trussardi Skin. Le nouveau parfum féminin*” («Trussardi Skin. Новый женский парфюм»).

Таким образом, современный французский рекламный слоган реализует одну из главных функций рекламного текста – обращает внимание потенциального клиента на саму рекламу, и, как следствие, вызывает интерес к самому товару.

Во французских слоганах все чаще ставится акцент на состав продукта, который оценивается как натуральный, безопасный для здоровья. Например:

***Clinique*** *«Soumis à des tests d’allergie et formulés 100 % sans parfum»*. («Проверено на аллергию. 100% без отдушек»).

***Yves Rocher*** *«Créateur de la Cosmétique Végétale»* («Создатель растительной косметики»).

Во французских рекламных слоганах парфюмерно-косметической продукции наиболее часто используется концепт «красота» и связанные с ним подконцепты:

Le soin anti-âge redensifiant intensif pour rayonner de beauté (Clarins) (Интенсивная омолаживающая процедура, дающая сияние красоты); Votre dose de force pour une peau éclatante de santé (Vichy) (Ваша доза силы для здоровой сияющей кожи).

**Гендерный фактор в рекламных слоганах.** Составители рекламных текстов умело используют особенности женской и мужской психологии и речи для привлечения потенциальных покупателей. Для того чтобы привлечь внимание женщины и убедить её в необходимости приобретения данного товара, рекламодатели делают рекламу более привлекательной, яркой и выразительной. Поскольку речь женщин по сравнению с речью мужчин более эмоциональна, то и в рекламных слоганах женской косметический продукции много эпитетов, метафор, сравнений, образных слов, междометий, недосказанности: “*C’est nouveau, c’est voluptueux, c’est la première mousse solaire” (Nivea visage) («Новый, чувственный, первый спрей от солнца»), “Fou d’elle” (TED Lapidus, parfum) («Без ума от нее»), “ô” (Lancôme) («о»!) , “Couleur intense, peau sublime...” (Lierac, gel solaire) («Насыщенный цвет, красивая кожа»).*

Рекламодатели не забывают о том, что женщины в своей речи чаще используют конкретные существительные: *«Trussardi Skin. Le nouveau parfum féminin» («Trussardi Skin. Новый женский парфюм»).*

Что касается рекламы для мужчин, то рекламодатели стремятся отразить его силу, мужественность. Словесный репертуар рекламных текстов заметно отличается. Реклама для мужчин более сдержанна и менее эмоциональна:

*«Azzaro pour les hommes qui aiment les femmes qui aiment les hommes» («Azzaro для мужчин, которые любят женщин, любящих мужчин»),*

*«Givenchy pour l'animal qui dort en vous» («Пробуди в себе зверя»).*

Способами указания на целевую аудиторию являются:

1) грамматические указатели на пол адресата: Vous êtes plus belle que vous le pensez (Dove) (Вы гораздо более красивая, чем Вы думаете);

2) лексические указатели на адресата: Pour **les hommes**, à la peau sensible ou à problèmes (Vichy Homme) (Для **мужчин** с чувствительной или проблемной кожей); L'essence du **gentleman** (Givenchy. Gentleman) (Суть **джентльмена**).

Образ потребителя, представленный в тексте слогана, весьма специфичен: главное в нем – адресованность определенному типу человека. Он предельно лаконичен по содержанию и средствам выражения, порой даже схематичен; строится на выделении типичной характеристики, которая привлекает соответствующую целевую аудиторию. Это образ-ориентир, отражающий идеальное представление потребителя о самом себе, приподнимающий его в собственных глазах [5, с.48]. Он определяется особенностями рекламируемого товара и имеет определенные характеристики, зависящие от целевой аудитории. Так, в рекламных текстах, предназначенных для женской целевой аудитории, с помощью слоганов создается образ красивой женщины; для мужской – образ сильного, агрессивного мужчины.

Le parfum envoûtant d'une femme qui sait jouer de son charme pour fasciner l'homme qu'elle aime. (Hypnôse. Eau de Parfum) (Чарующий аромат женщины, которая умеет использовать свое обаяние, чтобы очаровать любимого мужчину).

Pour l'animal qui dort en vous. (Guerlain. Homme) (Пробуди в себе зверя).

**Выводы**

Таким образом, проведенный анализ позволяет сделать вывод о том, что слоган является заголовком определенного рекламного сообщения, он привлекает внимание определенной целевой аудитории и

выделяет преимущества продукта или фирмы. Чаще всего слоган находится в конце рекламного текста, поскольку он подводит итог всему сказанному ранее в рекламе. В рекламных слоганах, которые относятся к области косметики и парфюмерии, часто используются такие лингвистические приемы, как употребление глаголов в неличной и побудительной формах, а также такие стилистические приемы, как повтор, эллипсис, вопросительные предложения и противопоставления. Так же был сделан вывод о том, что составители рекламных слоганов женской косметический продукции используют много эпитетов, метафор, сравнений, междометий, в отличие от слоганов, ориентированных на мужскую целевую аудиторию, которые отличаются большей сдержанностью и строгостью текста.

## ЛИТЕРАТУРА

1. *Кафатаджиев Х.* Тексты печатной рекламы. М.: Мысль, 1995, 73 с.
2. *Морозова И.* Слагая слоганы. М.: РИП-Холдинг, 2001, 126 с.
3. *Олянич А.В.* «Рекламный дискурс и его конститутивные признаки». Рекламный дискурс и рекламный текст: коллективная монография / науч.ред.Т.Н.Колокольцева. М.: Флинта, 2016, с.10-38
4. *Романов А.А.* Современная реклама: проблемы социально экономического, статистического и правового анализа. М.: Финстатинформ, 2003, 32 с.
5. *Романова Т.П.* Современная слоганистика. Самара: «Универс групп», 2011, 121 с.
6. *Рябчук Ю.М.* Перевод рекламного текста: передача субъектно-объектных отношений; Вестник ВолГУ. Серия 9. Вып. 9. 2011, с.33-34
7. Webster’s Third New International Dictionary**.** Massachusetts (USA): Merriam Company; Publishers Spring field, 1967, 2662 p.
8. https://www.clarins.fr/
9. https://www.colgate.fr/
10. https://www.cosmopolitan.fr
11. https://www.garnier.fr/
12. https://www.givenchy.com/
13. https://www.hermes.com/fr/fr/
14. https://www.lancome.fr/
15. https://www.lierac.fr/
16. https://www.loreal-paris.fr/cheveux/soin-cheveux
17. https://www.nivea.fr/
18. https://www.trussardi.com/fr/fr
19. https://www.vichy.fr/
20. https://www.yves-rocher.fr/

Redaksiyaya daxil olub 09.06.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 33-40
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 33-40

*UOT 82.(091)*

***A.Z.Bədəlova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*badalovaaynurrr@gmail.com*

# LEV TOLSTOYUN HACI MURAD OBRAZININ 1960-80-ci İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ OBRAZLARLA MÜQAYİSƏSİNİN TİPOLOGİYASI

***Açar sözlər:*** *yazıçı, roman, povest, qəhrəman, xarakter*

L.N.Tolstoyun "Hacı Murad" povesti yaradıcılığında əhəmiyyətli yer tutan dəyərli əsərlərindəndir. L.Tolstoy povestdə bir sıra tarixi prosesləri əks etdirməklə yanaşı, Hacı Murad adlı tarixi şəxsiyyətin bədiiləşdirilməsi ilə rus ədəbiyyatına yeni, mübariz və əzmkar bir qəhrəmanın daxil edilməsinə müvəffəq olmuş dahi sənətkardır. Roman Qafqaz müharibəsi, zülmə qarşı güc tətbiq etmək ideyası, rusların və Qafqaz xalqının mənəvi həyatı, Hacı Murad xarakterinin taleyi və s. məsələləri özündə birləşdirir. Bildiyimiz kimi, 1960-1980-ci illər Azərbaycan nəsrində də tarixi prosesləri əks etdirən bir sıra əsərlər vardır. Bu əsərlər sırasına İsmayıl Şıxlının "Dəli Kür" romanı və Fərman Kərimzadənin "Qarlı aşırım" əsəri də daxildir. Məqalədə Lev Tolstoyun Hacı Murad povestinin eyniadlı qəhrəmanı ilə Fərman Kərimzadənin "Qarlı Aşırım" romanının qəhrəmanı Kərbəlayı İsmayıl və İsmayıl Şıxlının "Dəli Kür" romanının qəhrəmanı Cahandar ağa müqayisə edilmiş, xarakterlər arasındakı oxşar və fərqli xüsusiyyətlər araşdırılmışdır. Beləliklə, Hacı Murad obrazının Azərbaycan nəsrində obrazlarla müqayisəsinin tipoloji xüsusiyyətləri müəyyənləşdirilmişdir.

***А.З.Бадалова***

# ТИПОЛОГИЯ СОПОСТАВЛЕНИЯ ОБРАЗА ХАДЖИ МУРАТА ЛЬВА ТОЛСТОГО С ОБРАЗАМИ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ 1960-80-х ГОДОВ

***Ключевое слова:*** *писатель, роман, повесть, герой, характер*

«Хаджи Мурат» – одно из ценных произведений, занимающее важное место в творчестве Л.Толстого. Л.Толстой гениальный писатель, который, помимо отражения ряда исторических процессов в повести, сумел ввести в русскую литературу нового, воинственного и решительного героя через вымысел исторического деятеля по имени Хаджи Мурат. Роман повествует о Кавказской войне, идее применения силы против угнетения, духовной жизни русских и народов Кавказа, судьбе персонажа Хаджи Мурата и т.д. Как известно, в 1960-1980-х гг. в Азербайджанской прозе также есть ряд произведений, отражающих исторические процессы. Среди них романы Исмаила Шыхлы «Буйная Кура » и «Снежный перевал» Фармана Каримзаде. В статье главный герой повести Льва Толстого Гаджи Мурад сравнивается с героем романа Фармана Каримзаде

«Снежный перевал» Кербалаи Исмаилом и главным героем романа Исмаила Шыхли «Буйная Кура » Джахандар ага, исследуются сходства и различия между персонажами. Таким образом, выявлены типологические особенности сопоставления образа Гаджи Мурада с образами в Азербайджанской прозе.

***A.Z.Badalova***

## COMPARISON TYPOLOGY OF THE IMAGE OF HAJI MURAD BY LEO TOLSTOY WITH THE IMAGES IN AZERBAIJANI PROSE IN 1960s-80s

***Keywords:*** *writer, novel, story, hero, character*

"Haji Murad" is one of the most valuable works that occupies an important role in the work of L. Tolstoy. L. Tolstoy is a genious artist who, in addition reflected a number of historical processes in the story. Moreover, he managed to introduce a new, warlike and decisive hero into Russian literature through the fiction of a historical figure named Haji Murad. Clearly the novel tells about the Caucasian War, the idea of using force against oppression, the spiritual life of the Russians and the people of the Caucasus, the fate of the character of Haji Murad and other significant moments.Speaking generally, in 1960s-1980s, there are a number of works in Azerbaijani prose reflecting historical processes. Afor instance, they are Ismail Shikhli's novel " Exuberant Kur" and "Snow Pass" by Farman Karimzade. The article compares the protagonist of Leo Tolstoy's story Haji Murad with the hero of Farman Karimzade's novel "Snow Pass" Karbalai Ismail and the protagonist of Ismail Shikhli's novel " Exuberant Kur" Jahandar aga. It examines the similarities and differences of the characters. Thus, in comparison, the place of the image of Haji Murad in Azerbaijani literature was studied.

1960-80-ci illər nəsrində tarixi prosesləri özündə əks etdirən dəyərli əsərlərimiz çoxdur. Bu əsərlərdə əsas mövzu tarixi prosesləri əks etdirmək deyil, həmin proseslərin Azərbaycan xalqının həyatına təsirləridir. Bu baxımdan İsmayıl Şıxlının "Dəli Kür" romanını və Fərman Kərimzadənin "Qarlı aşırım" əsərini misal göstərmək olar.

Azərbaycan ədəbiyyatına kifayət qədər dəyərli bədii nümunələr bəxş etmiş görkəmli şəxsiyyətlərdən biri məhz Fərman Kərimzadə olmuşdur. Yazıçının özünəməxsus yaradıcılıq yolu vardır. Onun əsərləri millilik, tarixilik baxımından dəyərlidir və yazıçı psixologizmi bədii nümunələrin hər sətrində diqqət çəkir. "Qarlı Aşırım" (1972) romanı tarixi əsərdir və haqqında kifayət qədər araşdırmalar vardır. Romana elmi yanaşmalar fərqli və müxtəlifdir. Maqsud İbrahimbəyov "Qarlı Aşırım" romanını Azərbaycan ədəbiyyatında 3 ən yaxşı romandan biri hesab etmişdir (9). Roman haqqında İ.Şıxlı, Y.Qarayev, A.Hüseynov, T.Salamoğlu, N.Cabbarov və b. müxtəlif fikirlər söyləmiş, əsəri müxtəlif yönlərdən tədqiqata cəlb etmişlər. Ədəbi tənqid sahəsində tanınmış görkəmli professorumuz T.Salamoğlunun roman haqqında bir sıra yazılarını və

məqalələrini misal göstərmək olar. O, romanda yazıçının tarixi hadisələri təhlil predmetinə çevirməsindən, əsərdə millilik məsələlərinin sinfi dərəcə ilə bağlılığından, sovet hökuməti və milli varlıq qarşıdurmasından, eyni zamanda romanda epos ənənələri və s. məsələlərə toxunmuşdur ( 3, s.79-80)

Romanın baş qəhrəmanlarından biri Kərbəlayı İsmayıl xarakteridir. Kərbəlayı İsmayıl obrazını birmənalı şəkildə qiymətləndirmək olmaz. İlk öncə Kərbəlayı İsmayıl tarixi şəxsiyyətdir. Romanda yazıçı xarakteri bədiiləşdirmiş, tarixilik, millilik, öz vətəninə, torpağına, adət-ənənələrinə sadiqlik, dürüstlük, qürurluluq, əyilməzlik, əzmkarlıq, mübarizlik kimi xüsusiyyətlərin daşıyıcısı olaraq qələmə vermişdir. Bəli o, Abbasqulu bəyi öldürtdürür. Lakin vicdanı hər dəfə sızlayır, tutduğu işdən peşmançılıq hissi keçirir, özünü bağışlaya bilmir, əzab çəkir. Kərbəlayı İsmayılın düşmənçiliyi şura hökumətinə qarşı idi. O, bolşeviklərlə mübarizə aparırdı, qiyam qaldırmışdı. Çünki ömrünü ağalıq etməklə, hörmətlə, başqalarını özünə tabe etməklə yaşamışdı. İndi əkdiyi torpaqların məhsulunu da onun əlindən almaq istəyirdilər, şura hökumətinin niyyəti xalqı bərabərləşdirmək, ağa, fəhlə sinfi arasında fərqi aradan qaldırmaq idi. Kərbəlayı İsmayıl özünü alçalmış, şərəf və qürurunun yerlə bir olmasını qəbul edə bilmirdi. Vaxtilə onun torpağını becərənlərin, ona möhtac olanların indi onunla eyni səviyyədə olması, rahatlıqla onunla üz-üzə dayanması onun üçün yolverilməz idi. Kərbəlayı İsmayılın düşməninə qarşı olan münasibəti də oxucunun gözündən yayınmır. Namusunun ayaqlar altında qalmaması üçün Kərbəlayı İsmayıl düşmənindən kömək istəyir. Kərbəlayı İsmayılın düşməninə qarşı olan münasibətində namusunu düşməninə etibar edəcək qədər dürüstlük, sözübütövlülük və hörmət var idi. Onun üçün düşmənçilik ayrı, tutulan sözlər, verilən vədlər sözlə ifadə edilə bilməyəcək, hər şeydən yüksəkdə duran şərəf və qürur məsələsi tamamilə başqa bir şey idi. Eyni zamanda çarəsizlikdən düşməndən kömək istəyəcək qədər acizlik hissləri onun qəlbini doldurmuşdu. Çünki başqa çıxış yolu yox idi, çarəsizlikdən doğan acizlik var idi....

Bu qədər əzmkar, mübariz, qeyrətli, eyni zamanda güclü göründüyü qədər də vicdanı sızlayan, kövrək, bəzi məqamlarda aciz olsa belə, əyilməzliyi ilə yaddaqalan bir güclü xarakter yaratmaq yazıçı ustalığıdır. Belə güclü obrazın ərsəyə gəlməsində Fərman Kərimzadə də müəyyən yaradıcılıq yolu keçmişdir desək, yanılmarıq. Dünya klassiklərinin yaradıcılığından faydalanmış, bəzi əsərlərdən təsirlənərək xarakterlərdəki xüsusiyyətləri daha fərqli, dəyişkən, bəzən isə olduğu və ya görmək istədiyi kimi yaradıcılığında əks etdirməklə daha orijinal və fərqli əsərlər ərsəyə gətirmişdir. Bu yazıçı ustalığıdır. Hesab etmək olar ki, Kərbəlayı İsmayıl obrazı haradasa müəyyən məqamlarda L.Tolstoyun Hacı Murad obrazını xatırladır.

Bildiyimiz kimi, “Hacı Murad” povesti yazıçının ölümündən sonra çap edilmişdir. Hacı Murad xarakterini Lev Tolstoy xüsusi məhəbbətlə yaratmış və ona böyük rəğbət bəsləmişdir. Bir çox mənbələrə istinadən yazıçının Hacı

Murad xarakteri haqqındakı məşhur sözlərini misal çəkmək istərdim: “Mən povestimin qəhrəmanını qəlbimin var qüvvəsi ilə sevirəm. Onu bütün gözəllikləri ilə əks etdirməyə çalışmışam. O, həmişə gözəldir, gözəl olub və olacaq. Bu qəhrəman – həqiqətdir. Həqiqət Rusiyadan böyükdür” (L.N.Tolstoy).

1900-cü illərin ən böyük və əlamətdar əsəri sayılan “Hacı Murad” povesti haqqında ədəbiyyatşünaslıq sahəsində fərqli və müxtəlif fikirlər söylənməyə başlandı və əsər müxtəlif aspektlərdən təhlilə cəlb olundu. N.S.Rodionov, K.N.Lomunov, M.B.Xrapçenko, O.N.Mixaylov, V.A.Tunimanov, V.B.Şklovski və b. povesti hərtərəfli araşdırmış və nəticə olaraq müxtəlif, maraqlı fikirlər ortaya qoymuşlar.

N.S.Rodionov deyirdi: “Tolstoyun digər əsərləri ilə müqayisədə “Hacı Murad” povestində əsas motiv sarsılmaz mübarizəyə qarşı “pisliyə zorakılıqla müqavimət göstərməmək” ideyası obyektiv şəkildə rədd edilir (7).

M.B.Xrapçenko isə qeyd edirdi: “Bəzi nəzəri quruluşlara baxmayaraq “Hacı Murad” povestini yazmaqda Tolstoyu cəlb edən əsas səbəb mübarizənin əsas həqiqətini ortaya qoymaq və güclü xarakter yaratmaq oldu” (8).

“Hacı Murad” povesti Azərbaycan ədəbiyyatşünaslığında da diqqət çəkmişdir. Bildiyimiz kimi, Cəfər Cabbarlının arxivində Lev Tolstoyun “Hacı Murad” povestinin səhnələşdirilmiş əlyazması mövcuddur. Bu əlyazma professor Fikrət Rzayevin araşdırması sayəsində ortaya çıxmışdır. Belə ki, professor Fikrət Rzayev Cəfər Cabbarlının arxivindən “Hacı Murad” povestinin səhnələşdirilmiş tərcüməsini tapmış və mətni tərtib edərək kitab şəklində çap etdirmişdir (6).

Bir çox elmi məqalələrdə “Hacı Murad” povestində problemli məsələlər haqqında olduqca fərqli əks fikirlər meydana çıxmışdır. Bu problemlər arasında Tolstoyun Qafqazın Rusiya tərəfindən fəth edilməsi, xüsusən Qafqaz müharibəsilə bağlı, zülmə qarşı güc tətbiq etmək ideyası, rusların və Qafqaz xalqının mənəvi həyatı, Hacı Murad xarakterinin taleyi və s. idi. Əlbəttə ki, əsas məsələ müəllifin mövqeyidir. Yazıçı burada bir çox tərəflərə toxunmuşdur. Dini, müharibə, mübarizlik, güclülük və bəzi məqamlarda məcburən addım atmaq və səhvə yol vermək kimi məsələlər povestdə öz əksini tapmış və bütün məsələləri Hacı Murad xarakterində ümumiləşdirmişdir. Povest Tolstoyun dini və estetik fikirlərinin bədii təcəssümüdür desək, yanılmarıq. Povest bədii bütövlük təşkil edərək yazıçının mənəvi axtarışlarının bir hissəsidir.

Fikrimizcə, Hacı Murad Tolstoy realizminin və psixologizminin ən yüksək nailiyyətlərindəndir. Həm tarixilik baxımından, həm də xarakterin daxili aləmini ifadə etmək baxımından olduqca dəyərli və dolğun bir əsərdir. Povestdə Qafqaz dövrü, yazıçının dini baxışları və tarixi hadisələrə şəxsi yanaşması, dinə, vətənə, vətənpərvərliyə, milli məsələlərə baxışı öz əksini tapmışdır. Hacı Murad mübarizdir. Çar Rusiyasına qarşı Şeyx Şamillə birləşərək mübarizə

aparır. Çünki igid, qorxmaz və mərd Qafqaz xalqının tipik nümayəndəsi olan Hacı Murad Rusiyaya boyun əymək istəmir. Hacı Muradın İslam dininə yanaşmasını L.Tolstoy povestdə gözəl təsvir edir. Əslində L.Tolstoyun dinə yanaşması birmənalı olmuşdur. O, heç bir dini qəbul etməmişdir. Amma Hacı Murad kimi bir qəhrəmana həyat verməsi ilə yazıçı İslam dininə olan hörmətini və münasibətini nümayiş etdirmişdir. Hacı Murad dindar, Qafqaz ruhlu, mərd, igid, qorxmaz bir xarakterdir. Obrazın xarakterik xüsusiyyətlərini qarşı-qarşıya qoyaraq ümumi və fərqli cəhətləri saydıqca bitməyəcəkdir. Hacı Murad tarixi şəxsiyyətdir. Tolstoyun Hacı Murad obrazını bədii bir xarakter olaraq canlandırmağının səbəbləri Hacı Muradda olan insan gücü, yaşamaq istəyi, onun enerjisi və fəaliyyətidir. Hacı Murad obrazında güclülük, cəsarət və qürur hissi və bununla yanaşı, qafqazlılara xas olan azadlıq sevgisi cəmləşmişdir. Yazıçı povesti yazmazdan əvvəl Qafqazda gedən döyüşlər, Şeyx Şamil və Hacı Murad haqqında tarixi mənbələri araşdırmışdır. Tolstoy povestdə hadisələri tarixilik baxımından dəqiq vermiş və islam ruhu həyatlarının əsasını təşkil edən avar xalqının mübarizlik əzmini ustalıqla təsvir etmişdir.

Povestin əsas qəhrəmanı avar xalqının mübariz döyüşçüsü Hacı Muraddır. Hacı Murad şərəfli və cəsarətli, öz torpağı və xalqı uğrunda çar Rusiyasına qarşı mübarizə aparmış qəhrəmandır. Hacı Murad obrazı oxucu üçün sadəliyi ilə cəlbedici idi. Hacı Murad şərəfli, cəsarətli, aydın və dolğun xarakteri ilə diqqət cəlb etməyə bilməzdi. Yazıçı Hacı Muradda döyüşkən qəhrəman xarakterini sənətkarlıqla ifadə etmişdir. Sadəcə müəllifin təhkiyəsi xarakteri dəyərləndirmək və qiymətləndirmək üçün kifayətdir. Hacı Murad xarakteri haqqında birtərəfli fikir bildirmək düzgün olmazdı. Bəli, o, mübarizdir, mərd, cəsur, sözübütöv, xalqını sevən, adət-ənənələrinə, İslam dəyərlərinə yüksək qiymət verir. Gündə 5 dəfə namaz qılması, Allahın hüzurunda durmağın onun üçün vacibliyi Hacı Muradın İslam dininə olan inam və etibarının göstəricisi idi. Tolstoy povestdə onun uşaq kimi sevinməsini də nümayiş etdirmiş və bununla oxucu sadə və saf, ürəyitəmiz Hacı Muradı tanıyır. Ona hədiyyə edilən saatın qapağını hər dəfə açanda Hacı Murad sanki uşaqlaşır, üzündə xoş, məsum bir təbəssüm yaranır. Yazıçı qəhrəmanını uşaq şəfqətli xarakterizə edir. Bunu hətta Hacı Muradın ölmüşkən belə üzündə qorunub saxlanılan təbəssüm ilə də əks etdirir. Lakin oğlundan aldığı məktubları oxuyanda, ailəsinin başına gələ biləcək müsibətləri düşünəndə biz tamamilə başqa, mübariz, əzmkar, eyni zamanda çarəsiz və ailəsi üçün hər şeyə qadir, cəsarətli, güclü və sarsılmaz bir xarakteri tanımış oluruq. Hacı Muradın çar Rusiyasından kömək istəməsini müxtəlif yöndən dəyərləndirirlər. Bəziləri Hacı Muradı satqın adlandırır. Bəli, Hacı Murad Şeyx Şamillə birləşərək çar Rusiyasına qarşı mübarizə aparır, lakin Hacı Muradın ailəsinin Şeyx Şamil tərəfindən əsir götürülməsi qarşısında Hacı Murad tək, köməksiz qalmışdı. Ona qoşun, mübarizə aparmaq üçün dəstək, kömək lazım idi. Hacı Murad çarəsizlikdən çar Rusiyasından kömək istəyir.

Ona kömək ediləcəyinə söz verilsə də, ona qoşun göndərilmir. Tolstoy burada bir çox tarixi məqamlara da toxunur. Əslində çar Rusiyasının daxilində çəkişmələr və münaqişələr var idi. Hacı Murad da məhz bu münaqişələrin qurbanı olur.

Fərman Kərimzadənin "Qarlı Aşırım" romanına nəzər saldıqda, demək istərdim ki, Hacı Muradla Kərbəlayı İsmayıl obrazı arasında ümumi və oxşar xüsusiyyətlər çoxdur. İlk öncə onu bildirmək istərdim ki, hər iki obraz tarixi şəxsiyyətlərin prototipidir. Əsərlərin hər ikisi ilk öncə millilik və tarixilik baxımından yüksək qiymətləndirilir. Hacı Murad və Kərbəlayı İsmayıl obrazı, hər ikisi əzmkar, mübariz, əyilməz, vətənini, torpağını sevən, adət-ənənələrinə sadiq, İslam dini dəyərlərini yüksək qiymətləndirən güclü xarakterlərdir. Namus, qeyrət, kişilik qüruru və s. bu kimi məsələlərə yanaşmasında da fikirlər eynidir. Hacı Murad anasının, arvadının, ailəsinin Şeyx Şamil tərəfindən əsir götürülməsinə dözə bilmir, 3-5 nəfərlik qoşun ilə ailəsini xilas etmək üçün məğlub ola biləcəyini bilə-bilə hücuma keçir və ya Kərbəlayı İsmayıl gəlininin namusunu qorumaq üçün düşməninin qapısına getməkdən, düşmənə əyilməkdən belə çəkinmir. Hər iki obraz mübarizdir. Hacı Murad çar Rusiyasına qarşı mübarizə aparırdı, Kərbəlayı isə şura hökumətinə qarşı. Məqsədləri hökumətə qarşı çıxmaq deyildi. Ləyaqətlə və namusla yaşamaq, İslam dəyərlərindən uzaqlaşmamaq, kimsəyə tabe olmamaq, niyyətləri qalan ömürlərini qeyrətlə başa vurmaq idi. Hər iki qəhrəmanın mübarizəsi azadlıq uğrunda mübarizədir. Onların yeni hakimiyyətə qarşı mübarizə aparmaqda məqsədləri yeni quruluşla barışmamaları, köhnə patriarxal qayda-qanunlara tərəf çıxmaq, Qafqaz adət-ənənələrinə zidd xristian qanunlarına tabe olmamaq idi. Kərbəlayı İsmayıl və ya Hacı Murad milli varlıq uğrunda mübarizə əzmi nümayiş etdirirlər. Hər iki obrazın mübarizə fonunda millilik xarakteri, milli tarixi varlıqdan gələn əzmkarlıq, mübarizlik, birləşərək gücünü nümayiş etdirmək xüsusiyyətlərini xüsusilə vurğulamaq lazımdır. Hər iki obraz milli varlığın, milli xarakterin göstəricisidir. Sona qədər dözüm göstərərək düşmənə qarşı böyük bir əzmlə mübarizə aparırlar.

Obrazları bir-birindən fərqləndirən xüsusiyyətlər Kərbəlayı İsmayıldan fərqli olaraq Hacı Muradın kövrək qəlbə sahib olmasıdır. Povestin bəzi məqamlarında onun uşaq kimi sevinməsi, bəzən qıpqırmızı qızarıb başını aşağı salması, dinməyib danışmaması onun xaraktercə mülayim, çox danışmağı xoşlamayan, səbirli olduğunu göstərir. Eyni zamanda Hacı Murad cəsarətli idi. O, döyüşlərdə özü şəxsən iştirak edirdi. Kərbəlayı İsmayıl isə şura hökumətinə tabe olmamaq üçün dağlara çəkilir. Mübarizəsini Hacı Muraddan fərqli olaraq uzaqdan, gizlin yollarla davam etdirir. Hər iki xarakter güclüdür, məqsədinə çatmaq üçün sona qədər mübarizə aparır.

1960-80-ci illər kəsiyində qələmə alınmış dəyərli bədii əsərlərdən biri də İsmayıl Şıxlının "Dəli Kür" romanıdır. XIX əsrdə baş vermiş tarixi prosesləri

özündə əks etdirən bu roman ədəbiyyatşünaslıqda Fərman Kərimzadənin "Qarlı aşırım" romanı ilə müqayisə edilir. Çünki Cahandar ağa obrazı ilə Kərbəlayı İsmayıl obrazı arasında oxşar xarakterik xüsusiyyətlər çoxdur və hər iki romanın tarixi prosesləri özündə birləşdirməsi baxımından da müqayisəsi məqsədəuyğun hesab edilir. Yazıçı bu romanı 1957-ci ildə qələmə almağa başlamış və on il sonra 1967-ci ildə başa çatdırmışdır.

Roman ədəbiyyatşünaslıqda milli tarixilik baxımından, romanın dili və Cahandar ağa obrazının əsaslı şəkildə təhlili, obrazların müqayisəsi aspektində geniş tədqiqata cəlb olunmuşdur. Roman haqqında ədəbiyyatşünaslıqda maraqlı və ətraflı araşdırmalara rast gəlirik. Muxtar İmanov "Müasir Azərbaycan nəsrində psixologizm" (60-70-ci illər) adlı kitabında romanı psixologizm aspektindən tədqiqata cəlb etmiş və Cahandar ağa xarakterini hərtərəfli təhlil etmişdir: "Romanın bir neçə yerində biz Cahandar ağanın qəzəblənməsinin və hiddətlənməsinin şahidi oluruq. Bu hissin hər dəfə mümkün qədər genişliklə ifadəsi təsadüfi olmayıb, Cahandar ağanın xarakterindəki sərtliyi və həssaslığı işıqlandırmağa, qəhrəmanın fəaliyyətinin fiziki-mənəvi başlanğıcını duymağa yaxından kömək edir" (1, s.12).

Eyni zamanda roman T.Əlişanoğlu, T.Salamoğlu, A.Hüseynov, Y.Seyidov, C.Məmmədov, V.Yusifli, S.Əsədullayev, İ.Mustafayev, Q.Xəlilov və digərləri tərəfindən də tədqiqata cəlb olunmuşdur.

Təyyar Salamoğlu romanda milli tarixi varlıq məsələsinə toxunmuş, eyni zamanda Cahandar ağa obrazı ilə Kərbəlayı İsmayıl obrazını müqayisəli aspektdə vermişdir: "Cahandar ağa və Kərbəlayı İsmayıl patriarxallığın faciəsini yaşasalar da, onlar öz mühitlərində idilər (öz zamanlarında yaşayırdılar). Cahandar ağanın və Kərbəlayı İsmayılın ətrafı bu yazılmamış qanunları bilirdilər. Öz mühitlərində Kərbəlayı İsmayıl və Cahandar ağa "ögey" deyildilər, mühit onları başa düşür, qəbul edirdi" (3, s.81).

Cahandar ağa mərd, yenilməz, qeyrətli, sözübütöv bir xarakter olaraq hər bir oxucunun yaddaşına həkk olunub. Zamanının qanunları ilə yetişən Cahandar ağanı heç kəs alçalda və ya özünə tabe edə bilməz. O, çox güclü bir xarakterdir. Ən çıxılmaz vəziyyətlərdə belə o, özünü sındırmır, yenildiyini qəbul etmir, sona qədər müqavimət göstərir. Bəzən onun kövrək və həssas anları, tutduğu əməlindən peşman olduğunu da görə bilirik. Lakin o, bu hisslərini büruzə vermir. Bacısını öldürdükdən sonra keçirdiyi daxili sarsıntı, Cahandar ağanın mənəvi əzabı onun daxilindədir. Cahandar ağa bu əzabı və dərdi daxilən, təkbaşına yaşayır. Və ya onun atının quyruğunun qırxıldığı an o, alçaldıldığı, namusunun tapdalandığı sarsıntısı ilə təkbaşına mücadilə edir. Üzüntüsünü, mənəvi sarsıntısını o, daxilən yaşayır. O, bütün problemlərini təkbaşına həll edir, heç kimdən kömək istəmir. Beləliklə, obrazın güclü bir xarakter olduğu hər hərəkətində və davranışında özünü ifadə edir.

Bu baxımdan Tolstoyun Hacı Murad obrazı ilə Cahandar ağa obrazı arasındakı oxşar və fərqli xarakterik xüsusiyyətləri ümumiləşdirmək olar. Bəli, Cahandar ağa da, Hacı Murad da mübarizdirlər. Hər iki obraz cəsur, mövcud zamanın qanunlarına tabe olmaqdan boyun qaçıran, qeyrətlə, namusla yaşayan, düşmənə qarşı sona kimi vuruşan, igid, mübariz xarakterlərdir. Cahandar ağa da Hacı Murad kimi bəzi məqamlarda zəiflik göstərir, kövrəlir, tutduğu işdən peşman olur. Lakin bu zəiflik və kövrəklik xarakterlərin mənəvi sıxıntılarıdır və onların daxilində yaşadıqları və heç kimə göstərmədiyi tərəfləridir. Əsərin sonunda hər iki obraz öldürülür. Vuruşaraq, müqavimət göstərərək, qəhrəmanlıqla düşmən gülləsinə tuş gələrək həlak olur. Obrazların arasındakı oxşar xüsusiyyətlərlə yanaşı, fərqli xüsusiyyətlər də vardır. Cahandar ağa çarəsiz vəziyyətlərində belə heç kimdən kömək istəmir, hər bir problemin öhdəsindən özü gəlməyə çalışır. Lakin Hacı Murad isə ailəsini xilas etmək üçün çar Rusiyasından kömək istəmək məcburiyyətində qalır. Çar Rusiyası isə ona vəd etsə də, kömək etmir. Hacı Murad qəhrəmancasına vuruşur və düşmən tərəfindən məğlub edilərək öldürülür. Hər iki obraz İslam dini dəyərlərini yüksək qiymətləndirən xarakterlərdir.

## ƏDƏBİYYAT


1. *İmanov M.* Müasir Azərbaycan nəsrində psixologizm. Bakı: Elm, 1991, 116 s.
2. *Kərimzadə F.* Qarlı aşırım. Bakı: Kitab klubu, 2016, 400 s.
3. *Salamoğlu T.* Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: BQU, 2008, 554 s.
4. *Şıxlı İ.* Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, 400 s.
5. *Tolstoy L.* Seçilmiş əsərləri: 3 cilddə, I c., Bakı: Şərq-Qərb, 2009, 648 s.
6. *Tolstoy L.* Hacı Murad (tərcümə edəni Cəfər Cabbarlı). Bakı: Nurlan, 2008, 165 s.
7. *Бердникова О.А.* Концепция творческой личности в прозе И.А.Бунина: Автореф. дис. … канд. филол. наук. Воронеж, 1992, 24 с.
8. *Бердяев Н.А.* Смысл истории. Москва: Мысль, 1990, 176 с.
9. https://kulis.az/news/7918


Redaksiyaya daxil olub 10.06.2021

***UOT 81***

***V.Q.Kərimli***
*AZMİU-nun nəzdində İnşaat kolleci*
*vusala.karimli@gmail.com*

# MİR CƏLAL PAŞAYEVİN BƏDİİ NƏSRİNDƏ SÖZ SIRASI VASİTƏSİLƏ AKTUALLAŞMA VƏ ONUN FORMALARI

***Açar sözlər:*** *Mir Cəlal Paşayev, bədii nəsr, aktual üzvlənmə, tema, rema*

Bildiyimiz kimi, dilçilikdə bütün vahidlərin informasiyaverici funksiyası vardır. Bu funksiya vasitəsilə yeni məlumat əldə edilir. Əldə edilən məlumat isə başqa yeni məlumatın verilməsi əsasında artıq köhnəlmiş informasiyaya çevrilir. Bu bölgünü cümlə və sintaktik bütövün tərkibində daha aydın müşahidə etmək mümkündür. Baş verən bu proses dilçilikdə "aktual üzvlənmə" adlanır və aktuallıq müxtəlif yollarla yaranır. Bədii yaradıcılığı ilə seçilən Mir Cəlal Paşayevin əsərlərində cümlənin aktual üzvlənmə yollarının öyrənilməsi önəmli məsələlərdəndir.

Məqalədə "aktual üzvlənmə" anlayışı ətraflı izah edilmiş, onun komponentləri haqqında geniş məlumat verilmiş, Mir Cəlal Paşayevin bədii nəsrində söz sırası vasitəsilə aktuallaşmanın necə və hansı formalarda özünü göstərməsi ilə bağlı araşdırma aparılmışdır.

***В.Г.Керимли***

# АКТУАЛИЗАЦИЯ ПО ИСПОЛЬЗОВАНИЮ ПОРЯДКА СЛОВ И ЕЕ ФОРМЫ В ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ МИРА ДЖАЛАЛА ПАШАЕВА

***Ключевые слова:*** *Мир Джалал Пашаев, художественная проза, актуальное членение, тема, рема*

Как известно, в лингвистике все единицы выполняют информативную функцию. Новая информация получается с помощью этой функции. Полученная информация становится устаревшей в результате предоставления новой информации другим лицам. Этот цикл более отчетливо прослеживается в структуре предложения и синтаксического целого. В лингвистике этот процесс называется «актуальное членение», и релевантность возникает по-разному. Одним из важных моментов в творчестве Мир Джалала Пашаева, отличающегося художественным творчеством, является исследование актуальных способов построения предложений.

В статье подробно разъясняется понятие «актуальное членение», приводится подробная информация о его составляющих, а также проводится исследование того, как и в каких формах актуализация проявляется через порядок слов в прозе Мир Джалала Пашаева.

**V.Q.Karimli**

# ACTUALIZATION BY USING WORD ORDER AND ITS FORMS IN MIR JALAL PASHAYEV'S LITERARY PROSE

***Keywords:*** *Mir Jalal Pashayev, artistic prose, actual division, theme, rema*

As we know, in linguistics, all units have an informative function. New information is obtained through this function. The obtained information becomes obsolete information on the basis of giving new information to another. This loop can be more clearly observed in the structure of the sentence and syntactic whole. In linguistics, this process is called "actual division" and relevance arises in different ways. One of the important moments in the work of Mir Jalal Pashayev, who is distinguished by his artistic creativity, is the study of actual ways of constructing sentences.

The article explains in detail the concept of "actual division", provides detailed information about its components, and also conducts a study of how and in what forms actualization manifests itself through the word order in the prose of Mir Jalal Pashayev.

## Giriş

Mir Cəlal Paşayevin bədii nəsrində aktual üzvlənmənin necə özünü göstərdiyini aydınlaşdırmadan öncə "Aktual üzvlənmə nədir?" sualını cavablandırmaq yerinə düşər. Aktual üzvlənmə informativlik və kommunikativlik funksiyalarını özündə birləşdirən anlayışdır.

Cəmiyyət yaranandan yer üzündə informasiya mübadiləsi prosesi getmişdir. İstər səsli, istərsə də yazılı formada həyata keçirilən bu məlumat axışı dilin əsas funksiyalarından biridir. İnformasiya səs, söz və ya daha böyük vahidlərlə ötürülə bilər. Gündəlik həyatda rastlaşdığımız "M" hərfi həmin ərazidə metronun olduğu barədə bizə informasiya ötürür. Və ya körpənin "su" deməsi ilə onun su istəməsi, suya işarə etməsi barədə informasiya qəbul edirik. Deməli, informasiya ən kiçik vahidlərdən ən böyük vahidlərə qədər bütün linqvistik elementlər vasitəsilə ötürülə bilir. Məhz informativlik funksiyası sayəsində bu proses həyata keçirilir.

## Aktual üzvlənmə

Aktual üzvlənmənin kommunikativlik funksiyası isə linqvistik elementlərin kommunikativ xarakter daşımasıdır. İstər yazılı nitq aktı, istərsə də şifahi nitq aktı kimi özünü göstərən bu elementlər informasiya daşıyıcısı kimi fəaliyyət göstərir. Bir tərəf məlumatı ötürür, digər tərəf isə həmin məlumatı qəbul edir. Məlumat mübadiləsi prosesində verilən informasiyada məlum olan və yeni olan qütblər vardır. Dilçilikdə həmin qütblər tema və rema şəklində adlandırılır və onlar birlikdə aktual üzvlənməni yaradır. Aktual üzvlənmə sayəsində verilən informasiya bir-birini tamamlayır və informasiyanı ötürən

linqvistik vahidlər bir-biri ilə əlaqələnərək daha böyük vahidləri yaradırlar. Bu özəllik aktual üzvlənməni mətnyaratmanın ən vacib ünsürlərindən birinə çevirir.

Hələ mətn dilçiliyinə qədər aktual üzvlənmə cümlə səviyyəsində öyrənilmişdir və aktual üzvlənmə ilə formal üzvlənmə qarşılaşdırılmış, onlar arasında əlaqənin mövcudluğu ilə bağlı suallara cavab axtarılmışdır. Mir Cəlal Paşayevin də bədii nəsrində sintaktik bütövlərin aktual üzvlənməsindən öncə bu üzvlənmənin cümlə səviyyəsində öyrənilməsi daha məqsədəuyğundur.

Aktual üzvlənmə ilə formal üzvlənmə arasında əlaqə barədə ilk araşdırma aparan V.Matezius aktual üzvlənmə ilə formal üzvlənmə arasında münasibəti hər bir dilin qrammatikasının səciyyəvi xüsusiyyəti kimi qeyd edir. "Aktual üzvlənmə" terminini dilçiliyə gətirən V.Matezius aktual üzvlənmənin formal üzvlənmə əsasında meydana gəldiyini söyləyir. O, formal üzvlənmənin qütbləri kimi "qrammatik subyekt" və "qrammatik obyekt" terminlərindən istifadə edir. Aktual üzvlənmənin qütbləri olan temanı "çıxış nöqtəsi", remanı isə "söyləmin nüvəsi" adlandırır. Lakin əsərinin başqa yerində bu fikrə etiraz edərək aktual üzvlənmə ilə formal üzvlənmə arasında sərhədin olduğunu vurğulayır [15, s.239].

K.Abdullayev aktual və formal üzvlənmə arasında əlaqədən bəhs edərkən onların hər ikisinin cümlənin formalaşmasında əsas rol oynadığını qeyd edir, hər ikisinin birlikdə cümlənin əvəzedilməz məqsədi – kommunikativ məqsədinə xidmət etdiyini söyləyir. Təbii ki, bu prosesdə söz sırasının – formal üzvlənmənin aktual üzvlənmənin yaranmasına xidmət edən vasitələrdən biri olmasını xüsusi qeyd edir [1, s.225].

G.A.Məhərrəmovanın fikrinə görə, aktual üzvlənmə və qrammatik üzvlənmə iki qarşı-qarşıya dayanan əks tərəfləri əks etdirir. Onlardan birincisi – aktual üzvlənmə təbii olaraq aktual sintaksisin, digəri isə qrammatik üzvlənmə olmaqla, potensial sintaksisin problemidir [5, s.24].

A.Əsədov bu məsələ ilə bağlı yazır: "Ənənəvi formal qrammatik üzvlənmədə başlıca məqsəd cümlənin üzvlərə bölünməsidir. Bu zaman verilən cümlənin obyekti qrammatik quruluşu, yəni sintaktik cəhətdən cümlə üzvlərinə ayrıla bilməsi aydınlaşdırılır. Aktual üzvlənmədə isə müvafiq cümlənin həmin kontekstdə ifadə etdiyi hökm ünsürlərə bölünür. Cümlənin bu cür parçalanması onun qrammatik quruluşu deyil, cümlədəki hökmün obyektiv quruluşunu ayırd etmək üçün bir üsuldur" [3, s.21].

Formal üzvlənmədə cümlənin bölünə biləcək üzvləri beşdirsə, aktual üzvlənmədə bu ikidir. Həmin iki vahid – tema və rema formal üzvlənmə vahidlərinin birindən də ibarət ola bilər, bir neçəsindən də. Həmçinin onu da vurğulamaq lazımdır ki, aktual üzvlənmə dinamik və situativ xarakterli, qrammatik üzvlənmə isə statik və qeyri-situativ xarakterlidir.

Bu fikirlərə əsasən qeyd edə bilərik ki, formal üzvlənmə cümləni konstruktiv baxımdan, aktual üzvlənmə isə semantik baxımdan formalaşdırır.

Onlar birlikdə çıxış edərək sintaktik vahidləri qrammatik və semantik cəhətdən tamamlayırlar.

Bəs aktual üzvlənməni formalaşdıran tema və rema nədir? Tema ən az informasiya bildirəndir, məlum olandır. Tema həm məlumatı ötürənə, həm də məlumatı qəbul edənə bəlli olur və bu müəyyənlik qeyri-müəyyənliyin, yəni remanın yaranmasını doğurur. Dilçilikdə ona bəzən "verilən", "baza" deyilir [12, s.399]. "Haqqında artıq danışılaraq aktivləşdirilmiş, iki altsistemdən – tematikləşmə və informasiyalaşmadan ibarət anlayışdır" [11, s.2].

Rema isə "yeni"dir, yeni məlumatdır, maraqlı olandır. Yeni məlumat kontekstdə verilməyən informasiya ilə üst-üstə düşür, haqqında ilk dəfə danışıldığı üçün "aktivləşdirilməmiş" [11, s.3] informasiyadır. O, temadan doğur, proses temadan remaya doğru irəliləyir, dinləyici və oxucu yeni olan məlumatı qəbul edir. Məlum olan temanın rema sayəsində yeni cəhətləri üzə çıxır. Qarşılıqlı anlaşmada tema üçün mühüm sayılan, insanlar arasındakı ümumi bilik bazasının mövcudluğu hesab olunan rema üçün həlledicidir; remalaşma temaya görədir, əsasən natiqin intellektual səviyyəsindən asılı olaraq temanın remalaşması baş verir [4, s.16]. "Tema fon, rema isə fiqurdur" [16, s.145]. Tema və remanın bir-birini izləməsi və tamamlaması sintaktik vahidlərin semantik cəhətdən bütövlüyünə və kommunikasiyasının tam, əhatəli şəkildə həyata keçirilməsinə gətirib çıxarır.

**Söz sırası vasitəsilə aktuallaşma**

Cümlə səviyyəsində aktual üzvlənmənin yaranmasında bəzi vasitələr iştirak edir və dilçilikdə bu aktuallaşma üsulları aşağıdakı kimi qruplaşdırılır:

"1. Söz sırası vasitəsilə aktuallaşma;

2. Formal-qrammatik vasitələrin köməyi ilə aktuallaşma;

3. Prosodik aktuallaşma" [1, s.229].

Mir Cəlal Paşayevin bədii nəsrində aktual üzvlənmə hər üç vasitənin iştirakı ilə yaransa da, söz sırası ilə aktuallaşma daha geniş yer tutur. Dünya dilçiliyinə əsaslanaraq Mir Cəlal Paşayevin bədii yaradıcılığında söz sırası vasitəsilə aktuallaşmanın aşağıdakı təsnifatını verə bilərik:

a) Sabit söz sırası əsasında aktuallaşma;
b) "Sualvermə" metodu ilə aktuallaşma;
c) Xəbərlə işlənmə mövqeyinə görə aktuallaşma.

a) Azərbaycan dilçiliyində cümlə üzvlərinin sabit sıralanması özünü göstərir. Dil vahidlərinin düzülüş mexanizmi informasiya mübadiləsi prosesi ilə bağlıdır. Azərbaycan dilində sintaktik dil vahidlərinin – cümlə üzvlərinin sıralanmasına əsasən Ə.Cavadov cümlə daxilində həcm ardıcıllığı, müəyyənlik-qeyri-müəyyənlik, yaxından-uzağa, aktivlik-pasivlik, kəmiyyət-keyfiyyət, zaman-məkan, dinamik-statik modellərini qeyd etmişdir [2, s.269-277].

Cümlənin aktual üzvlənməsində tema-rema münasibəti müəyyənlik – qeyri-müəyyənlik sıralanmasına əsaslanır. Ədibin bədii nəsrində də cümlələrin əksəriyyətinin quruluşu bu prinsipə uyğundur. Cümlə mübtəda ilə başlayır, xəbər ilə tamamlanır. İkinci dərəcəli üzvlər isə aid olduqları, izah etdikləri baş üzvün ətrafında cəmlənir. Bu sıralanmaya əsasən cümlənin mübtəda qütbü-subyekt qütbü temaya, xəbər qütbü-predikat qütbü isə remaya bərabər tutulur. Bunu mübtəda=tema, xəbər=rema şəklində düsturlaşdıra bilərik. Cümlə üzvlərinin bu cür nizamlanması obyektiv nizamlanmadır. Sintaktik bütövdə tema cümlələr arasında semantik əlaqə yaradır və bunun əsasında da bir cümlədən digər cümləyə keçid olur. Hər növbəti cümlədə verilən informasiya remadır. Bu da cümlə daxilində tema və remanın yerini sabitləşdirir. Birinci tema gəlir, sonra isə rema. Bu zaman tema mübtədaya, rema isə xəbərə uyğun gəlir. Cümlə daxilində əsas olan tema yox, remadır. Çünki tema artıq həm söyləyənə, həm də dinləyənə məlumdur:

*Tələbələr **(tema)** mühazirəçini diqqətlə dinləyir və qeydlər götürürdülər **(rema)**. Qələmlərin dəftər üzərindəki hərəkəti **(tema)** payız yağışının taxtapuşu döyən damlaları kimi xoş ahəngli bir səs çıxarırdı **(rema)*** [8, s.200].

Sabit söz sırası vasitəsilə aktuallaşmanın əksinə olaraq, cümlə daxilində inversiya nəticəsində tema-mübtəda, rema-xəbər uyğunluğunun pozula biləcəyini qeyd etmək lazımdır. Q.F.İsrafilova bu prosesi belə izah edir: "Bülbül oxuyur" cümləsində "bülbül" mübtəda, "oxuyur" isə xəbərdir. Deməli, "bülbül" tema, "oxuyur" isə remadır. Məlumdur ki, əgər cümlədə mübtəda və xəbər yerini dəyişərsə, bu onların funksiyalarının dəyişməsi deyil. Və həmin cümləni "Oxuyur bülbül" şəklində yazsaq, görəcəyik ki, "bülbül" yenə mübtəda, "oxuyur" isə xəbərdir. Amma həmin əlaqəni tema və rema üçün deyə bilməyəcəyik. İkinci qurulan cümlədə "oxuyur" tema, "bülbül" isə remadır. Buradan yola çıxaraq qeyd edə bilərik ki, temanın rema kimi çıxış etməsində əsas rol inversiyaya aiddir" [13, s.134].

Deməli, əsas olan tema-mübtəda, rema-xəbər əlaqəsi deyil, əsas verilən informasiyadır, ötürülən məlumatdır, çatdırmaq istənilən fikirdir.

M.C.Paşayevin bədii yaradıcılığında cüttərkibli cümlələrdə aktual üzvlənmənin əsasən sabit söz sırası əsasında olduğunu izah etdik. Bəs ədibin yaradıcılığındakı təktərkibli – ismi xəbərli şəxssiz cümlələrdə və adlıq cümlələrdə aktual üzvlənmə necə olur? Ümumiyyətlə, o cümlələrdə aktual üzvlənmə olurmu? Bu sualın bir cavabı var. Bəli, olur. Çünki aktual üzvlənməsiz cümlə yoxdur.

*"Yayın yandırıcı günlərindən biri idi"* [7, s.323] , *"Yay tətilinin sonuncu günü idi"* [7, s. 328] , *"Günəşli, sərin və xoş bir gün idi"* [7, s. 322] cümlələrində bütöv cümlə yeni informasiya verir. Bu cümlələr remanı özündə faktiki olaraq əks etdirir, leksik vahidlər birlikdə rema rolunu oynayır. Tema isə "sıfır tema" [14, s.23-27] şəklində olur.

Bu tip cümlələrdə hər hansı zaman və ya yer zərfliyi əlavə edildikdə artıq tema həmin cümlə üzvü vasitəsilə özünü göstərir, zaman və məkan anlayışı kontekstdən doğaraq bu cümlələrin teması olur:

*Aprelin otuzunda hava dağ havası kimi açıq, duru və sərin idi* [7, s.415].

b) Mir Cəlal Paşayevin roman və hekayələrində söz sırası ilə aktuallaşmanın ikinci forması "sualvermə metodu" ilə aktuallaşmadır. Bu zaman mətndə tema və remanın müəyyənləşməsində verilən sual önəmli rol oynayır. Dilçilikdə demək olar ki, bütün tədqiqatçılar tema və remanın tərkibinin müəyyənləşməsində "sualvermə" metoduna müraciət edirlər. Hər hansı informasiyanın kontekstə daxil olub-olmadığını təyin edərkən bu metoddan istifadə etmək məqsədəuyğundur. Bir sual əsasında cümlənin hansı hissəsinin tema, hansının rema olduğunu söyləmək olar: sualda iştirak edən hissə temaya, sualda özünü göstərməyən, cavab cümləsində olan hissə isə remaya uyğun gəlir [17]. Bu fikrin təsdiqi kimi Mir Cəlal Paşayevin bədii nəsrindən aşağıdakı sintaktik bütövə diqqət yetirək:

*-Nə edə bilərik? Çox şey edə bilərik. Mərdanın da, Suren "dayının" da yerini, anası – "Sona arvad" deyirsiniz, nə deyirsiniz, bilməmiş deyil. Günü sabah əmr ver, Mərdanın evinə od qoysunlar* [6, s.56].

Bu parçada müəllif "sualvermə" metodundan istifadə etmişdir. Predikat hər iki cümlə üçün məlumdur, obyekt isə sual cümləsində naməlumdur, cavab cümləsində yenidir. Ona görə də tamamlıq rema, xəbər isə tema kimi çıxış edir. Aktuallaşmanın bu forması dialoji nitqdə sözün tam mənasında özünü büruzə verir.

c) Söz sırası vasitəsilə aktuallaşmanın üçüncü halı kimi xəbərlə işlənmə mövqeyi əsas götürülür. Azərbaycan və türk dilləri sabit söz sıralı dillərə daxil olduğundan söz sırasında baş verən hər hansı dəyişiklik aktuallaşmaya gətirib çıxarır. Cümlədə xəbərlə işlənmə mövqeyi əsasında aktuallaşmış üzv təyin edilir. Xəbərlə işlənmə mövqeyi əsasında remanın, yəni yeninin iki mövqeyi müəyyən edilir: postpozisiya və mütləq postpozisiya. Postpozisiya zəif aktuallaşma, mütləq postpozisiya isə güclü aktuallaşmadır. Mübtəda, tamamlıq, təyin və zərfliyin inversiya nəticəsində xəbərdən sonra gəlməsi həmin cümlə üzvünün aktuallaşmasını yaradır və fikri həmin üzv üzərində cəmləşdirir. Bu cür aktuallaşma subyektiv xarakter daşıyır və müəllif istəyi əsasında baş verir. Hər bir cümlə üzvünün aktuallaşma potensialı rema kimi çıxış edən həmin üzvün təkcə o cümlə daxilində deyil, bütün sintaktik bütövdə əsas rol oynamasına gətirib çıxarır, özünün iştirak etdiyi cümlədən kənardakı cümlələr arasında bir növ öz cümləsinin təmsilçisi kimi çıxış edir [1, s.231]:

*Sonra Vahidə döndü: - Görürsən? Yazıq hökumət neyləsin, Nikolayla aşkara tutuşurdu, amma bunlar tülkü ölümcüllüyü ilə iş görürlər.* ***Sən də deyirsən belə. Görmürsən köpək uşağını!*** [9, s.246]

Yuxarıdakı sintaktik bütövdə M.C.Paşayev sonuncu iki cümlədə xəbərlə işlənmə mövqeyi əsasında aktuallaşma yaratmışdır. Dördüncü cümlədə zərflik, sonuncu cümlədə tamamlığın aktuallaşması var. Zərflik və tamamlıq xəbərdən sonra işlənərək aktuallaşır.

Təyinin aktuallaşmasında isə fərqli cəhət diqqəti çəkir. Belə ki, təyin adətən ismi xəbərdən öncə işlənir və o təkcə deyil, xəbərlə birlikdə rema olur. Təyinin güclü aktuallaşdığı mövqe isə cümlə sərhədlərini aşaraq başqa cümlə daxilində remalaşır. Dilçilikdə buna parselyasion quruluş deyilir. “Parselyasiya sözünün lüğəvi-leksik mənası yer sahələrinin bölünməsi deməkdir. Linqvistikada isə bu, hər şeydən öncə, nitq fəaliyyətində özünü göstərən kommunikativ və informativ fakt kimi başa düşülür. Şifahi və yazılı olaraq gerçəkləşən söyləmlərin və ya mürəkkəb sintaktik bütövlərin ayrı-ayrı qoşan (bazis-cümlə) və qoşulan (parselyatik) vahid bir struktur-semantik bütöv təşkil edir. Bu cür sintaktik formalaşma nitq fəaliyyətində bazis-cümləyə və parselyatiklərə bölünür. Parselyatik – qoşulma konstruksiyalar bazis-cümlənin hər hansı bir ifadə edilməmiş üzvünü konkretləşdirir, aydınlaşdırır, yaxud da ümumiləşdirir” [10, s.218]. “Parselyasion quruluş o quruluşa deyilir ki, cümlənin təyini cümlənin əsas strukturunun içindən çıxarılıb, cümlədən kənarda ayrıca şəkildə formalaşıb təqdim edilsin” [1, s.235]. Bu cür aktuallaşma ilə bədii əsərlərdə çox qarşılaşmasaq da, Mir Cəlal Paşayevin bədii nəsrində mövcuddur:

*Vahid qayğılı olsa da, yorğunluq onu götürüb yuxu aləminə atmışdı.* ***Orada o, boş və sakit bir yerdə rahat əyləşib kitab oxuyurdu.*** ***<u>Q</u>əribə bir kitab!*** [9, s.250]

Sonuncu cümlədə işlənən təyin özündən əvvəlki cümlədəki “kitab” sözünün təyinidir. Müəllif təyinin güclü aktuallaşmasını yaratmaq üçün təyini əlavə cümlə şəklində təqdim etməklə parselyasion struktur yaratmışdır. “*Qəribə bir kitab!”* cümləsində *“qəribə”* sözü rema, *“kitab”* sözü isə temadır. Parselyasion quruluş həm cümlə səviyyəsində, həm də sintaktik bütöv səviyyəsində ola bilər. Bu parselyasion strukturu sintaktik bütövün aktual üzvlənməsi səviyyəsində izah etsək, *“Orada o, boş və sakit bir yerdə rahat əyləşib kitab oxuyurdu”* bazis cümləsi bütövlükdə bu sintaktik bütövdə tema, *“Qəribə bir kitab!”* parselyatik qoşulan hissəsi isə rema kimi çıxış edir.

**Nəticə**

Nəticə kimi qeyd etmək olar ki, Mir Cəlal yaradıcılığında söz sırası ilə aktuallaşmadan başqa həm formal-qrammatik vasitələrin, həm də prosodik vasitələrin iştirakı ilə formalaşmış cümlənin aktual üzvlənməsinə rast gəlinsə də, aktual üzvlənmənin araşdırılan aktuallaşma formasında tema-rema münasibəti daha aydın görünür. Ədibin yaradıcılığında aktuallığın cümlə

səviyyəsindən araşdırılması cümlədən böyük vahid olan sintaktik bütövlərin də aktuallaşmasının öyrənilməsi üçün təməl rolunu oynayır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər: Dərs vəsaiti / Abdullayev K.M., Məmmədov A.Y., Musayev M.M. və b. Bakı: Mütərcim, 2012, 608 s.
2. Azərbaycan dilçiliyi müntəxəbatı. Azərbaycan dilçiliyi tarixi: XX əsrin 60-cı illərindən günümüzə qədər, III c., Bakı, 2013, 521 s.
3. *Əsədov A.* Azərbaycan və ingilis dillərində mübtədanın rema kimi işlənməsinin müqayisəli tipoloji tədqiqi. Bakı: Nurlan, 2006, 168 s.
4. *Hacıyeva N.H.* Müstəqillik dövrləri Azərbaycan ədəbi mətnlərinin struktur-semantik xüsusiyyətləri (aktual üzvlənmə) // Bakı: Bakı Universiteti xəbərləri, 2013, №3, s.12-20
5. *Məhərrəmova G.A.* Mətnin aktual üzvlənməsi və mətn vahidləri: Filol. üzrə fəls. dok. diss. ... avtoref. Bakı, 2018, 30 s.
6. *Mir Cəlal Paşayev.* Bir gəncin manifesti. Bakı: Kitab klubu, 2016, 264 s.
7. Mir Cəlal. Əsərləri: 5 cilddə, II c., Bakı: Adiloğlu, 2013, 444 s.
8. Mir Cəlal. Əsərləri: 5 cilddə, IV c., Bakı: Adiloğlu, 2013, 468 s.
9. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
10. *Musayev M.* Türkoloji dilçilik. Bakı, 2012, 441 s.
11. *Визавицкая Т.П.* Понимание актуального членения предложения как необходимое условие эффективной речевой коммуникации и перевода // ПГУ, Университетские чтения, 2014, часть 05, с.1-5
12. *Жеребило Т.В.* Словарь лингвистических терминов. Назрань: Пилигрим, 2010, 486 с.
13. *Исрафилова Г.Ф.* Роль порядка слов и актуального членения в создании текста // Вестник КазНУ, Серия филологическая, 2011, №4 (134), с.132-134
14. *Крылова О.А., Хавронина С.А.* Порядок слов в русском языке. Москва: Русский язык, 1986, 239 с.
15. *Матезиус В.* О так называемом актуальном членении предложения // Пражский лингвистический кружок: Сборник статей, Москва: Прогресс, 1967, с.239-245
16. *Саттарова А.Ф.* Актуальное членение как фрактальная структура // Вестн. Ом. ун-та, 2014, №3, с.143-147
17. *Сгалл П., Гаичова Е.* Актуальное членение предложения и метод вопросов // Sbornik Pragi Filozoficke fakulty Brnenske Univerzity, A 28, 1980, с.51-57


Redaksiyaya daxil olub 02.02.2021

*UOT 165.12*

***F.A.Quliyev***
*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbi*
*fakhraddin.kuliev@mail.ru*

# POETİK REFLEKSİYA KONTEKSTİNDƏ KLASSİK POEZİYA VƏ XALQ POEZİYASI ƏLAQƏLƏRİ: MƏHƏMMƏD FÜZULİ VƏ AŞIQ HÜSEYN BOZALQANLI

***Açar sözlər:*** *poetik refleksiya, idrak, xalq poeziyası, klassik poeziya, ənənə, kateqoriya, xalq hikməti*

Məqalədə Azərbaycan klassik poeziyası ilə xalq poeziyası arasındakı qarşılıqlı əlaqələr poetik refleksiya kontekstində nəzərdən keçirilmişdir. Klassik poeziyadan Məhəmməd Füzuli və xalq poeziyasından isə aşıq Hüseyn Bozalqanlı yaradıcılığına diqqət ayrılmışdır.

Klassik poeziyanın nümayədələri poeziya və poetik yaradıcılığın mahiyyəti probleminə öz dövrünün fəlsəfi təlimləri baxımından yanaşırlar, xalq poeziyasının nümayəndələrinin yanaşmaları isə adi şüur, sağlam düşüncə və xalq hikməti kateqoriyalarına əsaslanır.

Xalq poeziyası klassik poeziyanın təməli, milli dünyagörüşünün nüvəsi və milli varlığın ifadəçisidir, klassik poeziya isə milli fəlsəfənin mahiyyətini ifadə edərək öz növbəsində xalq poeziyası nümayəndələrinin yaradıcılığına əhəmiyyətli dərəcədə təsir edir. Hər iki poeziya vahid Azərbaycan poeziyasının bir-birini tamamlayan iki istiqamətini təşkil edir.

***Ф.А.Кулиев***

# ВЗАИМООТНОШЕНИЯ КЛАССИЧЕСКОЙ И НАРОДНОЙ ПОЭЗИИ В КОНТЕКСТЕ ПОЭТИЧЕСКОЙ РЕФЛЕКСИИ: МУХАММЕД ФИЗУЛИ И АШЫГ ГУСЕЙН БОЗАЛГАНЛЫ

***Ключевые слова:*** *поэтическая рефлексия, познание, народная поэзия, классическая поэзия, традиция, категория, народная мудрость*

В статье рассмотрены вопросы взаимоотношения народной и классической поэзии Азербайджана в контексте поэтической рефлексии. Внимание уделено на творчество Мухаммеда Физули как представителя классической поэзии и на творчество ашыга Гусейна Бозалганлы, как представителя народной поэзии.

Представители классической поэзии подходят к проблемам сущности поэзии и поэтического творчества с позиции философских учений своего времени, а подходы представителей народной поэзии основаны на категории обыденного сознания, здравого смысла и народной мудрости.

Народная поэзия является основой классической поэзии, ядром национального мировоззрения и выражением национального быта, а классическая

поэзия, содержащая суть национальной философии, в свою очередь оказывает заметное влияние на творчество представителей народной поэзии. Эти поэзии составляют две взаимодополняющие направления единой Азербайджанской поэзии.

***F.A.Quliyev***

## THE RELATIONSHIP OF CLASSICAL AND FOLK POETRY IN THE CONTEXT OF POETIC REFLECTION: MUHAMMED FIZULI AND ASHUG HUSSEIN BOZALGANLY

***Keywords:*** *poetic reflection, knowledge, folk poetry, classical poetry, tradition, category, folk wisdom*

The article deals with the relationship between folk and classical poetry of Azerbaijan in the context of poetic reflection. Attention is paid to the work of Muhammad Fuzuli as a representative of classical poetry and to the work of ashug Hussein Bozalganly as a representative of folk poetry.

Representatives of classical poetry approach the problems of the essence of poetry and poetic creativity from the perspective of the philosophical teachings of their time, and the approaches of representatives of folk poetry are based on the categories of everyday consciousness, common sense and folk wisdom.

Folk poetry is the basis of classical poetry, the core of the national worldview and the expression of national life, and classical poetry, which contains the essence of national philosophy, in turn has a noticeable impact on the work of representatives of folk poetry. These poetry constitute two complementary directions of the united Azerbaijan poetry.

Xalq poeziyası ilə klassik poeziya vahid Azərbaycan poeziyasının özül və onun üzərində qurulub intişar tapmış istiqamətlərini təşkil edir. Bunu, bir tərəfdən mövzu uyğunluğu, daha doğrusu, milli varlığın poetik ifadəçisi funksiyası, digər tərəfdən isə bəzi şeir formalarının eyniliyi və bədii ifadə vasitələri arasındakı əlaqələr aydın şəkildə göstərir.

Xalq poeziyası ana dilinin formalaşdırıcısı olmaqla yanaşı, xalqın dünyagörüşü, gerçəkliyə münasibəti, etik-estetik baxışları, dini mənsubiyyəti, milli xarakteri və milli özünüdərkini ifadə edir.

Ozan aşıqlarımız poetik sözü Dədə Qorqudun davamçıları kimi müdriklik və xalq psixologiyasına dərindən bələdçilik prinsipləri əsasında xalqa daha anlaşıqlı formada çatdırır.

Milli klassik poeziya folklorun, məxsusi olaraq xalq poeziyasının təməlində təşəkkül tapıb inkişaf edir, klassik poeziyanın nümayəndələri isə öz əsərləri ilə ustad aşıqların dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan klassik poeziya ilə xalq poeziyası arasındakı dialektik münasibətlərin tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

Milli poeziyanın bu iki aparıcı sahəsi arasındakı vəhdətin zəminində poetik refleksiya kateqoriyası dayanır.

Məqalədə klassik və xalq poeziyalarının qarşılıqlı münasibətləri poetik refleksiya kontekstində araşdırılır, nümunə kimi klassik poeziyadan Məhəmməd Füzuli yaradıcılığına, xalq poeziyasından isə aşıq Hüseyn Bozalqanlı yaradıcılığına müraciət edilmişdir.

Tədqiqatın metodoloji əsaslarını dialektikanın metodları və komparativ analiz təşkil edir, belə ki, obyekt və proseslər arasındakı qarşılıqlı əlaqələr dialektik prinsiplərə əsaslanır, obyektlərin müqayisəsinə gəlincə, bu məqsədlə komparativ analizin tətbiqi daha məqsədəuyğundur.

Refleksiya uzun bir tarixə malik fənlərarası anlayışdır, fəlsəfənin predmeti, insanın düşüncə prinsipi və nəzəri fəaliyyət forması kimi qiymətləndirilir.

Fəlsəfi ədəbiyyatda refleksiyanın müxtəlif definisiyarı mövcuddur: nəzəri insan fəaliyyətinin formasını xarakterizə edən, öz hərəkətləri, mədəniyyəti və onun əsaslarını dərk etməyə yönəlmiş fəlsəfi diskurs anlayışı [11, s.445]; "öz forma və ilkin şərtlərinin dərkinə yönəlmiş düşüncə prinsipi və idrak metodlarının tənqidi təhlili" [12, s.555]. Bu definisiyalarda insanın mənəviyyat dünyasını təcəssüm edən özünüdərk prosesi də yer alır. Mikeşinanın fikrincə, refleksiya – özünün və başqalarının düşüncə və hərəkətlərini əhatə edir, bununla yanaşı mədəniyyət, elm və onların əsaslarının dərkinə yönəlmiş nəzəri fəaliyyət formasıdır [10, s.412].

Bu definisiyalardan göründüyü kimi, refleksiya mədəniyyət, dil və elmdə mövcud olan nəzəri fəaliyyət prinsiplərini əhatə edir, insanın intellektual, mənəvi inkişafının və özünüdərkinın mənbəyi funksiyasını daşıyır. Bu baxımdan refleksiyanın nəzəri fəaliyyət prinsipi kimi tətbiqi idrak, etika və estetika, daha doğrusu, mütləq həqiqət, mütləq xeyirxahlıq və mütləq gözəllik triadasının vəhdəti formasında daha məqsədəuyğundur.

Poetik refleksiya idrak metodlarına poeziyanın nəzəri prinsipləri çərçivəsində yanaşmadır: şairə öz yaradıcılığını təhlil etməyə və onu təkmilləşdirməyə, gerçəkliyin poetik inikası və dərkinə yönəlmiş nəzəri-mənəvi fəaliyyət formasıdır. Beləliklə, poetik refleksiya poeziyanın mahiyyətini, onun nəzəri və praktik aspektlərini, ümumən, poetik yaradıcılıq prinsiplərini müəyyən edən bir kateqoriyadır.

Poetik refleksiyanı biz poeziya əsərlərində, poeziyanın mahiyyəti və yaradıcılıq haqqında ifadə olunmuş düşüncələr əsasında tədqiq edir, onun prinsiplərini üzə çıxarırıq. Poetik refleksiya bu baxımdan xalq poeziyası və klassik poeziya arasında mövcud əlaqələri araşdırmaq üçün metodoloji əhəmiyyət kəsb edir.

Məqalənin mövzusu ilə əlaqədar klassik poeziyaya Füzulinin yaradıcılığı timsalında nəzər salaq.

Füzuli dahi şair olmaqla yanaşı, zəmanəsinin böyük alimi kimi antik dövr Yunan fəlsəfəsindən başlayaraq İslam Şərqinin dini və fəlsəfi təlimlərinə dərindən bələd olmuş və Azərbaycan fəlsəfi fikir və poeziyasına böyük təsir göstərmişdir [9, s.128].

Şeirin idrak metodu qismində elmlə əlaqəsini Füzuli özünün məşhur "elmsiz şeir əsası yox divar olur və əsassız divar qayətdə bietibar olur" [4, s.42] kəlamında aydın şəkildə ifadə etmişdir. Poeziyanın öz elmi əsasları mövcuddur, əsl şair bu elmə vaqif olmalıdır. Böyük filosof Hegelin bir neçə əsr sonra söylədiyi "poetik qavram, tərtibat və fikir söyləmək müəyyən əsaslarla xalis nəzəridir" [8, s.170] fikri ilə Füzulinin şeirə elmi münasibəti arasında tam uyğunluq açıq görünür. Beləliklə, poeziyaya elmi-fəlsəfi münasibət təbii və əhəmiyyətlidir.

Poeziyaya alim-filosof mövqeyindən yanaşan mütəfəkkir şair poeziyanın mövzusunu və insan cəmiyyətindəki rolunu belə müəyyən edir: "Aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər görmədim" [6, s.26], yəni dünyanın əşrəfi insandır, insanın kamil bir varlıq kimi yetişməsində isə ən əhəmiyyətli olan söz sənəti, poeziyadır.

Füzuli poeziya haqqında təlimin böyük mütəfəkkiridir, türk, ərəb və fars dillərindən məharətlə istifadə edərək, özünün dediyi kimi, nəzm fənlərinin şəhərlərini fəth etmək üçün söz bayrağını qaldırmış, nəzm fənninin qapılarını açmağa başlamışdır [6, s.27-28]. O, poeziyada məzmun və formanın dialektik münasibətlərini dərindən və hərtərəfli təhlil etmiş, çox sayda qanunauyğunluqlar aşkar etmiş və nəzəri fikirlərini öz zəngin yaradıcılığında ölməz əsərləri ilə nümayiş etdirmişdir.

Böyük sənətkarlar insanın mənəviyyat dünyasını və idrak potensialını tədqiq edərək onun ruhuna təsir edəcək və yaddaşına hopacaq zərgər dəqiqliyi ilə seçilmiş metaforik dildə elə ifadələr tapır ki, əsrlər boyu bu tükənməz xəzinəyə böyük həvəslə müraciət edirlər. İnsan fəlsəfəsinin poetik şərhi, fəlsəfə ilə poeziyanın üzvi vəhdəti öz parlaq təcəssümünü məhz Füzuli dühasında tapmışdır.

Füzulinin poeziya haqqında fikirləri, əslində, milli fəlsəfi düşüncələrimizdə poeziyaya münasibətin təməl prinsiplərini təşkil edir.

Füzuli söz sənəti haqqında fikirlərinin bir qismini "Söz" rədifli qəzəlində lakonik və dolğun şəkildə ifadə etmişdir:

Xazini-gəncineyi-əsrardır hərdəm çəkər,
Rişteyi-izharə min-min gövhəri-asrar söz.
Olmayan qəvvasi-bəhri-mərifət arif degil,
Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar - söz.
Gər çox istərsəm, Füzuli, izzətin, az et sözü,
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz[4, s.167].

Yəni bütün sirlərin açarı sözdədir, fikirlərin ifadə forması üçün şairdən zərgər dəqiqliyi tələb olunur, bəlağət, metaforik forma, oxucunu öz cazibə

sahəsinə daxil etmək, bununla da söz sənətindəki dərin qatlara baş vurmağa maraq oyatmaq.

İkinci beytdə şair sözü şahlara layiq bir lələ bənzədir, insan bədəni isə həmin ləli qoruyan sədəfdir. Şair arif olmaq üçün mərifət bəhrində qəvvas olub dərinliklərə baş vurmalıdır, çünki mərifət elmi dərin dənizlər kimidir. Sonda Füzuli ustadı dahi Nizaminin sözdən qənaətlə istifadə etmək prinsipini xatırladır.

Füzulinin zəngin yaradıcılığı el şairlərimizin öz ustalıqlarını artırması üçün ən nüfuzlu məktəbdir. Xalq poeziyasının nadir nümunələrini yaratmış el şairləri həmişə Füzuli dühasından bacardıqları qədər öyrənməyə çalışmışlar. Xalq poeziyasının və Füzuli yaradıcılığının tanınmış tədqiqatçısı akademik Həmid Araslı "Bozalqanlının ayrı-ayrı qoşmalarında bəzən Füzuli rayihəsi duyulmaqdadır" [1, s.106] ifadəsi ilə Füzulinin aşıq Hüseyn Bozalqanlı yaradıcılığına təsirini qısaca və dəqiq ifadə etmişdir. Məqalədə Həmid Araslının bu fikrini əsas götürərək Füzuli və Hüseyn Bozalqanlı yaradıcılıqları arasında paralellər aparmağa çalışacağıq.

Aşıq Huseyn Bozalqanlı yaradıcılığı bir tərəfdən xalq poeziyasının özünəqədərki klassikləri ilə, digər tərəfdən isə klassik Azərbaycan poeziyasının nümayəndələri ilə bağlıdır. Aşıq Hüseynin bir el şairi kimi formalasmasında mühüm rol oynayan mənbələrdən biri də Füzuli dühasıdır. Füzuli xalqın söz xəzinəsini bütün incəlikləri ilə araşdırmış, özünəqədərki poeziyanı dərindən öyrənmiş, xalq xoryat və manilərində insanı düşündürən problemlər haqqında ifadə edilmiş milli düşüncələrdən ustalıqla istifadə etmişdir.

Füzulinin poeziya ilə elm arasındakı münasibətləri haqqında konseptual xarakter daşıyan fikirlərini qısaca qeyd etdik.

Bu mövzuya Bozalqanlı Hüseyn də bir el sənətkarı kimi münasibətini öz şeirlərində ifadə etmişdir.

Aşıqlıq elmindən xəbərdar olan,
Gəl, dolanaq bu meydanı qırmızı.
De, necə qurulub dünya binası?
Aşıqlıq sözünün nədir mənası? [2, s.3].

Burada "Elm" anlayışını milli dünyagörüşünün xalq poeziyası çərçivəsində, onun kateqoriya və prinsipləri əsasında şərh etməyi məqsədəuyğun hesab edirik.

El şairləri Dədə Qorqudun davamçıları kimi milli psixologiyaya, etnik stereotiplərə, milli dünyagörüşünə, xalqın gerçəklik haqqında düşüncələrinə, əsrlərdən bəri yaratdığı əxlaqi dəyərlərə dərindən bələd olmalıdırlar. Bu məntiqə uyğun olaraq aşıq Hüseyn Bozalqanlı "aşıqlıq elmi" dedikdə, məhz poeziya haqqında aşıq-ozan sənəti ənənələri əsasında formalaşmış, nəzəri-praktiki əhəmiyyət kəsb edən düşüncələri nəzərdə tutur: xalq poeziyasının əsas mövzusu fəlsəfədə olduğu kimi, insan problemidir, yəni əsas məqsəd insanların dönyagörüşünü formalaşdırmaq, yeni nəslə yüksək əxlaqi dəyərlər, vətənə, ana

yurda məhəbbət aşılamaqdır.

El şairinin geniş dünyagörüşü olmalıdır, aşıq Hüseyn aşıqlıq sözünün mənasını dünya binasının necə qurulmasını bilməklə əlaqələndirir. Burada “dünya binası” ifadəsi yalnız kainat mənasında deyil, eyni zamanda cəmiyyətdə gedən prosesləri izləmək, ictimai həyatda bir sənətkar fəallığı göstərmək, insanların formalaşmasına öz töhfələrini vermək mənasında işlənilir.

Aşıqlıq elmində pürkamal gərək,
Divanı, təcnisi hər misal gərək [2, s.16].

Aşıqlıq elmi dedikdə, aşıq Hüseyn yuxarıda qeyd olunanlarla yanaşı, həmçinin yaradıcılıq problemləri, xalq poeziyasının şeir formalarında ustadların yaratdığı irsə yaradıcı münasibəti nəzərdə tutur. Aşıqlıq elmində pürkamal olan sənətkarın yaratdığı şeirlərdəki müdrik fikirlər zaman keçdikcə zərbi-məsələ çevrilir, yaddaşlara həkk olur, insanlar gündəlik həyatda rastlaşdıqları suallara bu şeirlərdə cavab tapır. Həmid Araslı aşıq Hüseyni məhz belə sənətkarların sırasında görür: “Aşıq Hüseyn gözəl, qüvvətli, bədii cəhətdən kamil və təsirli qoşmalar yazmışdır” [1, s.105].

Xalq poeziyasında ümumiləşdirmələr adi şüur, sağlam düşüncə və xalq hikməti kateqoriyaları vasitəsi ilə aparılır. Xalq hikməti insanların gündəlik həyat və fəaliyyətində xalqın böyük əksəriyyətinin sağlam düşüncəsinə uyğun maddi və mənəvi təcrübəsinə əsaslanır, qısaca olaraq, xalq hikmətinin dayaqları dərin zəka və zəngin həyat təcrübəsidir. Xalq hikməti bu mənada xalq yaradıcılığının məhsuludur, milli və ümumbəşəri dəyərlər xəzinəsi kimi özünün cilalanmış, nəsildən-nəslə ötürülməsi üçün əlverişli ifadə formasını məhz xalq poeziyasında tapır.

Şairə elmi dünyagörüşü ilə birlikdə mövzunlu təb lazımdır. Füzuli öz yaradıcılığında şair təbini yüksək qiymətləndirərək yazır: “Üfüqi-təbimdə hilali-mövzuniyyət tülü edib…” [4, s.42], yəni təbimin üfüqündə mövzuniyyət ayı doğdu və yaradıcılıq yollarıma işıq saldı.

Aşıq Hüseyn şair təbi haqqında yazır:

Dostumun dərsini verib ərənlər,
Təbi mozunludur, nitqi sərasər.
Xəstə Qasım, Məmmədsöyün, Ələskər,
Seçmək olmaz imtahana gələndə [2, s.179].

Bəndin birinci iki misrasında Füzulinin elm, təhsil və təb haqqında fikirləri xalq poeziyası çərçivəsində öz poetik əksini tapır. Aşıq Hüseynə görə, təhsil ərənlərdən – müdriklərdən dərs almaqdır, aşıq ustad yanında yetişir, aşıq sənətinin sirlərini ondan əxz edir. Nitqin sərasərliyi bütövlük, kamillikdir. Bütövlük optimallıqdır, yəni şeirdə nə çatışmazlıq, nə də artıqlıq olur. Təbin mozunlu olması vəznli, təbii olması deməkdir. Bu iki misra poeziyada məzmun və forma mütənasibliyi, harmoniya və ahəngdarlığı məsələsinin lakonik və metaforik ifadəsidir. Xəstə Qasım, Məmmədsöyün, Ələsgər məhz belə

şairlərdəndir.

Füzuliyə görə, poeziyanın qarşısında duran əsas məsələ həqiqəti göstərməkdir: "Xülasə, ondakı şeir bağçasından doğruluq qoxusu duydum, məsləhət gördüm mən də bu bağçada elə bir ağac əkim ki, onun kölgəsində əbədi olaraq yaşayım [6, s.27]. Bunun üçün isə Füzulinin özünün dediyi kimi, əsas şərt şeirin elmə söykənməsidir. Çünki hələ qədim filosofların göstərdiyi kimi, insan zəkası həqiqətin dərkinə yönəlmişdir. Həqiqəti alimlər analitik təfəkkürə əsaslanaraq tədqiq edir, təbiətdə, cəmiyyətdə və insan təfəkküründə gedən proseslərin qanunauyğunluqlarını üzə çıxarır, şairlər isə həqiqəti metaforik dildə yaratdığı obrazlarda verirlər. Beləliklə, incəsənət estetik zövq mənbəyi olmaqla yanaşı, eyni zamanda dünyanın dərk olunmasına xidmət edir. Aşıq Hüseynin «Gəda» rədifli dodaqdəyməz divanisində bu barədə deyilir:

Həqiqət nəzərindən, dostum həqiqət eləsin;
Gətirsin arifləri, fəhm ilə diqqət eləsin;
Sözümdə xilaf varsa, göstərsin, isbat eləsin;[2, s.218].

Bu misralardan aydın görünür ki, şair söylədiyi fikirlərin həqiqət olduguna əmindir, bu həqiqəti yoxlamaq üçün o, ariflərin – müdriklərin yığılıb bu fikirlərə qiymət verməsini istəyir, yəni, əgər bu sözlərdə xilaf varsa, buyurub isbat etsinlər.

Füzuli yaradıcılığının dominant atributlarından biri də onun xəlqiliyidir. Şeir dilinin sadəliyi, yəni poetik fikrin xalqa daha sadə, anlaşıqlı şəkildə çatdırılmasına Füzuli xüsusi önəm verir: "Bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir" [5, s.20]. Bu sadəliyin əsl nümunəsi məhz xalq poeziyası özüdür.

Gözəllik kateqoriyasına baxışlardakı ümumilik xalq poeziyası ilə klassik poeziya arasındakı üzvi vəhdəti daha qabarıq şəkildə göstərir. Xalq öz estetik idealını gözəlliyi ilahiləşdirməkdə görür. Xalq yaradıcılığına filosof şair kimi yanaşan Füzuli xalqın estetik idealını fəlsəfi konsepsiya səviyyəsinə qaldırmışdır.

Gözəlliyin ilahiləşdirilməsi mövzusuna xalq təfəkkürü baxışları ilk növbədə bayatılarımızda öz poetik ifadəsini tapmış və xalq poeziyasının əksər şeir formalarında davam etdirilmişdir. Aşıq Hüseyn yaradıcılığında bu mövzuya münasibət daha çox islam təfəkkürü ilə bağlıdır.

Heyran oldum qamətinə, boyuna,
Şükür ol Xudanın haqqı-sayına,
Qaşların bənzətdim bayram ayına,
Zikr oxuyub, salavata düşmüşəm [2, s.167].

Qaşa qövsi-qaməti İlahi vermişdir. Qaşın qövsi-qaməti, yəni tağ şəklində olması mehrabı xatırladır. İlahi varlıq həmişə real varlıqdan mükəmməldir, ondan yüksəkdə durur. Real varlıq kamilləşmə yolunda ilahi varlığa can atir. Ona görə müqayisələrdə ilahi varlığın ideal funksiyasını daşıması dominantlıq təşkil edir. Asıq Hüseynin aşiqi də gözəlin qaşlarını bayram ayına – ayparaya bənzədir, qiblə

kimi qəbul edir, zikr oxuyub salavat çevirir.

Ol xəmi - əbruyə qılsam səcdə hər saət nola,
Qiblə ilə ol xəmi-əbru bərabərdir mana [4, s.73].

Füzulinin aşiqi də öz sevgilisinin qaşlarını mehraba bənzədir. O, gözəlin qaşını qoyub, üzümü mühraba döndərmərəm; zahid, sən Allah, mənə çox əzab vermə, rahat qoy – deyir [3, s.46]. Əgər mehrab insan əli ilə tikilirsə, gözəlin qaşları canlıdır, İlahinin qüdrəti ilə yaradılmışdır.

Ərzimi söylədim xublar xasına,
Yanaqdan bir busə təmənnasına,
Əbrişim tellərin müsəllasına,
Səcdə qılıb ibadətə düşmüşəm [2, s.167].

Gözəlin camalı mehrabdır, aşıq Hüseyn əbrişim telləri namaz yerinə – müsəllaya bənzədir, gözəlin camalı qarşısında səcdə qılıb ibadət edir. Xalq poeziyasının nümayəndəsi kimi aşıq Hüseynin istifadə etdiyi metafora orijinal və təsirlidir.

Ney kimi cismim oldu oxundan dəlik-dəlik,
Dəm urduğumca yerli-yerindən səda verər [4, 154].

Müjganı sinəmə vurubdu yara,
Neçə yerdən cərahətə düşmüşəm [2, s.167].

Füzulidə aşiqin cismi gözəlin oxundan dəlik-dəlik olur, ney tək yerli-yerindən səda verir, aşıq Hüseynin metaforası isə realist notlara köklənir, aşiqin sinəsinə vurulan yaraların müalicəsi ancaq cərrahiyyə əməliyyatı ilə mümkündür.

Araşdırmanın nəticələri qismində qısaca olaraq aşağıdakı istiqamətləri qeyd etməyi məqsədəuyğun hesab edirik:

1. Poetik refleksiya, gerçəkliyin idrak metodu və milli dünyagörüşlərinin ifadə forması qismində xalq və klassik poeziyaları arasındakı əlaqələri tədqiq etmək üçün nəzəri-fəlsəfi kriteri funksiyasını yerinə yetirir.

2. Füzuli poeziyanın mahiyyəti və cəmiyyətdəki rolunu öz dövrü üçün mövcud elmi-fəlsəfi konsepsiyaları nöqteyi-nəzərindən qiymətləndirir. Poeziyanın definisiyası haqqında Füzulinin konseptual fikirləri bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır.

3. Aşıq Hüseyn Bozalqanlı "aşıqlıq elmi" dedikdə, poeziya haqqında aşıq-ozan sənəti ənənələrinə, Abbas Tufarqanlıdan bəri ustadların yaradıcılığına, xalq poeziyasının mövzusuna, şeir formalarına yaradıcı münasibəti, ürfan elminə bələdçiliyi, Quran ayələrindən istifadə səriştəsini nəzərdə tutur.

## ƏDƏBİYYAT


1. *Araslı H.* Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 135 s.
2. Bozalqanlı Aşıq Hüseyn. Əsərləri: 2 cilddə, I c., Bakı: Vətən, 2015, 316 s.

3. *Əlizadə S.* Şah beytlər. Bakı: Azəbaycan Dövlət Nəşiyyatı, 1996, 172 s.
4. *Füzuli M.* Əsərləri: 5 cilddə, I c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1958, 466 s.
5. *Füzuli M.* Əsərləri: 5 cilddə, III c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1958, 456 s.
6. *Füzuli M.* Əsərləri: 5 cilddə, IV c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1961, 392 s.
7. *Mir Cəlal.* Füzuli sənətkarlığı. Bakı: Maarif, 1994, 252 s.
8. *Гегель.* Сочинения: в 14 томах, т. XIV, М.: Издательство социально-экономической литературы, 1958, 440 с.
9. *Закуев А.К.* Мухаммед Физули и идеологические течения в Азербайджане и на Ближнем Востоке в средние века. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1958, с.127-141
10. *Микешина Л.А.* Философия науки: Современная эпистемология. Научное знание в динамике культуры. М.: Прогресс-традиция, МПСИ: Флинта, 2005, 464 с.
11. Новая философская энциклопедия: в 4 т-х, т. 3, М.: Мысль, 2010, 692 с.
12. Философский энциклопедический словарь. М.: Сов. Энциклопедия, 1989. 815 с.

Redaksiyaya daxil olub 14.04.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 58-69
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 58-69

# İctimai elmlər

*UOT 327.5*

***C.E.Əhmədli***
*Bakı Dövlət Universiteti*
*jeyhun.ahmadli9204@gmail.com*

## HİBRİD MÜHARİBƏ ALƏTLƏRİ VƏ YA HİBRİD TƏHDİDLƏRƏ KONKRET NÜMUNƏLƏR ƏSASINDA KONSEPTUAL BAXIŞ

***Açar sözlər:*** *hibrid müharibə, hibrid təhdidlər, hibrid müharibə alətləri*

Müasir münaqişə və müharibələrin fundamental analizi onu göstərir ki, bəşəriyyət hibrid müharibə çağını yaşayır. Ayrı-ayrı ölkələrin öz rəqiblərinə (və ya düşmənlərinə) qarşı açıq hibrid müharibə strategiyası həyata keçirdiyi müşahidə olunmaqdadır. Hətta bəzi ölkələr artıq özünün hərbi doktrina və təhlükəsizlik konsepsiyalarına hibrid təhdidlərlə bağlı xüsusi müddəalar daxil etmişdir. Hibrid müharibə zamanı istifadə olunan alətlər isə sonsuz saydadır. Lakin elə alətlər var ki, onlar demək olar ki, bütün müasir münaqişələrdə özünü göstərməkdədir. Bu alətlərə informasiya hücumları, kiber müdaxilələr, hədəf ölkələrdə terrorçu təşkilatların maliyyələşdirilməsi, siyasi partiya və ayrı-ayrı təşkilatlara sponsorluq edilməsi, özəl (muzdlu) hərbi birləşmələrin köməyindən faydalanmaq, iqtisadi təzyiqlər, çirkli təbliğat və s. daxildir. Məqalənin yazılmasında məqsəd adıçəkilən hibrid müharibə alətlərinin müasir münaqişə və ya müharibələrdə tətbiqini göstərməkdir.

***Дж.Э.Ахмедли***

## СРЕДСТВА ГИБРИДНОЙ ВОЙНЫ ИЛИ КОНЦЕПТУАЛЬНЫЙ ОБЗОР ГИБРИДНЫХ УГРОЗ НА КОНКРЕТНЫХ ПРИМЕРАХ

***Ключевые слова:*** *гибридная война, гибридные угрозы, инструменты гибридной войны*

Фундаментальный анализ современных конфликтов и войн показывает, что человечество живет во времена гибридных войн. Замечено, что некоторые страны используют стратегию открытой гибридной войны против своих соперников (или врагов). Некоторые страны даже включили специальные положения о гибридных угрозах в свои военные доктрины и концепции безопасности. Инструменты, используемые в гибридной войне, безграничны. Однако есть инструменты, которые проявляются практически во всех современных конфликтах. К ним относятся информационные атаки, кибератаки, финансирование террористических организаций, спонсирование политических партий и отдельных организаций в целевых странах, использование частных (наемных) воинских формирований, экономическое давление, грязная

пропаганда и так далее. Цель написания этой статьи – показать применение этих инструментов гибридной войны в современных конфликтах или войнах.

***J.E.Ahmedli***

**MEANS OF HYBRID WAR OR A CONCEPTUAL OVERVIEW OF HYBRID THREATS ON SPECIFIC EXAMPLES**

***Keywords:*** *hybrid warfare, hybrid threats, hybrid warfare tools*

A fundamental analysis of modern conflicts and wars shows that humanity is living in a time of hybrid warfare. It is observed that some countries have an open hybrid war strategy against their rivals (or enemies). Some countries have even included special provisions on hybrid threats in their military doctrines and security concepts. The tools used in hybrid warfare are endless. However, there are tools that are manifested in almost all modern conflicts. These include information attacks, cyber-attacks, financing terrorist organizations, sponsoring political parties and individual organizations in target countries, use of private (mercenary) military units, economic pressure, dirty propaganda, and so on. The purpose of writing this article is to show the application of these hybrid warfare tools in modern conflicts or wars.

Yeni nəsil müharibələri xarakterizə etmək üçün indiyə qədər bir neçə termindən istifadə olunmuşdur. Bəzi elmi araşdırmalarda asimmetrik müharibə, IV nəsil müharibə, qarışıq müharibə (“compound wars”), sərhədsiz müharibə (“unrestricted wars”), təmassız müharibə (“contactless war”) və s. terminlər diqqəti cəlb edir. 2014-cü ildə Krımın anneksiyası və Ukraynanın şərqində alovlanmış separatizm Qərbdəki siyasi və akademik dairələr tərəfindən müasir müharibələrin daha dərindən və konseptual şəkildə öyrənilməsinə səbəb olmuşdur. Həmin vaxtdan etibarən yeni nəsil müharibələrin ümumi məcmusu elmi ədəbiyyatlarda “hibrid müharibə” kimi adlandırılmağa başlayıb.

Təxminən 10 ildir bu mövzuda qəbul olunan bütün beynəlxalq hüquqi-siyasi sənədlərdə “hibrid müharibə”, “hibrid təhdid” terminlərindən istifadə edilir. 2011-ci ildə NATO komandanlığının hazırladığı hesabatda hibrid təhdid “terrorizm, miqrasiya, piratçılıq, korrupsiya, etnik toqquşma və digər düşmən fəaliyyətləri əhatə edən termin” kimi xarakterizə olunmuşdur [32, s.77-98]. Həmin hesabatda vurğulanır ki, hibrid müharibə elementləri keçmişdə olduğu kimi situativ deyil, sistemli və çoxşaxəli formada həyata keçirilən strategiyadır. Hesabatın müvafiq hissəsində bu cümlə olduğu kimi öz əksini tapır: “Hibrid təhdidlər düşmənlər tərəfindən uzun vədəli siyasi hədəfləri gerçəkləşdirmək üçün istifadə olunur”. NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen Rusiyanın Ukraynada həyata keçirdiyi kampaniyanı açıq hibrid müharibə kimi dəyərləndirmiş və baş verən prosesləri belə özətləmişdir: Rusiya Ukraynadakı yeni hökuməti zəiflətmək və Şərqi Ukraynada Rusiyanın siyasi təsirini davam

etdirmək məqsədilə hərbi əməliyyatlara paralel olaraq müxtəlif gizli fəaliyyətlər və geniş dezinformasiya kampaniyasını eyni anda aparır [20]. ABŞ Müdafiə Nazirliyinin 2006-cı və 2010-cu illərdə yayımladığı 4 illik hesabatda keçmiş müdafiə naziri Robert Geitsin çıxışlarında hibrid təhdidlərdən bəhs olunmuşdur.

Hibrid təhdidlər elmi ədəbiyyatlarda həm də hibrid müharibə alətləri kimi öyrənilir. Tarixi aspektlərdən yanaşdıqda bu alətlərin bir qisminin əslində tarixin ən müxtəlif dövrlərində bu və ya digər şəkildə istifadə olunduğunu görə bilərik. Elm və texnologiyanın sürətli inkişafı həmin alətlərin zamanla təkmilləşərək müasir forma və məzmun kəsb etməsini şərtləndirmişdir. Bu mənada bəzi hibrid müharibə alətlərinin yeni olmadığını irəli sürə bilərik, lakin bütövlükdə hibrid müharibənin əsas səciyyəvi xüsusiyyəti heç də alətlərin yeniliyi ilə yox, onların birləşərək yaratmış olduğu effektlə xarakterizə edilir. Böyük Britaniya Müdafiə Nazirliyinin hibrid təhdidlərə qarşı qlobal mübarizə məqsədilə təşəbbüs etdiyi MCDC proqramının 2017-ci il hesabatında qeyd edilir ki, hibrid müharibə asimmetrikdir və üfüqi, şaquli ox boyunca çoxsaylı güc alətlərindən istifadəni nəzərdə tutur. Hesabatda qeyd olunur ki, hibrid müharibə aktoru effektiv nəticə əldə etmək üçün bir və ya daha çox aləti intensiv tətbiq edə (şaquli yüksəlmə) və ya bir çox alətin təsir imkanlarını eyni anda sinxronlaşdıra (üfüqi yüksəlmə) bilər [21, s.8]. Daha sadə ifadə etsək, ən müxtəlif alət və vasitələr ortaq bir siyasi hədəf uğrunda eyni anda tətbiq olunduğu təqdirdə hibrid müharibə meydana gəlir. Lakin elə alətlər də vardır ki, onlar hibrid müharibənin sütununu təşkil edir və demək olar ki, hibrid müharibə aparan əksər ölkələr tərəfindən istifadə olunmaqdadır. Həmin alətlər barədə tədqiqat aparılmışdır.

Təcrübələr onu göstərir ki, hibrid müharibə aparan ölkənin ən çox müraciət etdiyi vasitələrdən biri rəqib (düşmən) ölkədə ictimai şüura təsir etmək məqsədilə ayrı-ayrı təşkilatların fəaliyyətinə dəstək olmaqdır. Qlobal geosiyasi ambisiyalara sahib olan bəzi ölkələr xaricdə öz maraqlarına uyğun fikirləri təbliğ edən təşkilat və ya düşüncə mərkəzlərini maliyyələşdirməyə çalışır, ya da təməldən bu cür təşkilatlara sponsorluq edirlər. Rusiya və Çinin bu metoddan istifadə etdiyini bir çox nümunələrdə görə bilərik. Məsələn, 2015-ci ildə Pekinin maliyyə dəstəyi ilə ABŞ-da Çin-Amerika Elmləri İnstitutu yaradıldı. Siyasi analitiklər hesab edir ki, bu elmi-tədqiqat mərkəzinin yaradılmasında əsas məqsəd ABŞ-da Çinlə bağlı müsbət təsəvvürlər aşılamaqdır [16].

Eyni qaydada Rusiya da Avropada bir sıra təşkilat və partiyalara sponsorluq etməklə həm özü ilə bağlı müsbət imic formalaşdırmağa çalışır, həm də bu təşkilatlardan ayrı-ayrı ölkələrin hakimiyyətlərinə qarşı təsir aləti kimi istifadə edir. 2006-cı ildə Rusiya dövləti xarici ölkələrdəki təşkilatları arasında kommunikasiyanı təmin etmək məqsədilə Dünya Ruslarının Koordinasiya Şurasını təsis etdi. 2016-cı ildə Berlində əsası qoyulan və rusiyalı biznesmenlərin maliyyəsi ilə fəaliyyət göstərdiyi iddia olunan Sivilizasiyaların

Dialoqu Araşdırma İnstitutu Rusiya dövlətinə bağlılığını təkzib etsə də, öz fəaliyyətində Rusiyanın maraqlarından çıxış etdiyini gizlədə bilmir. Almaniyanın "Frankfurter Allgemeine Zeitung" qəzeti həmin təşkilatı "Moskvanın hibrid müharibə aləti" kimi təsvir edib [10]. Rusiyanın Avropada maliyyələşdirdiyi beyin mərkəzlərinin əsas fəaliyyət istiqaməti Moskvanın yürütdüyü qlobal siyasətin Avropa xalqlarının mənafeyinə cavab verdiyi reallığını təbliğ etməkdir. Məsələn, Rusiyanın Strateji Tədqiqatlar İnstitutunun Avropada yerləşən ofisləri uzun illər Monteneqro və İsveçin NATO ilə yaxşınlaşmasını önləmək məqsədilə geniş təbliğat işi aparmış və bu ölkələrin NATO-ya üzv olmasının heç bir müsbət perspektiv vəd etmədiyi fikrini formalaşdırmağa çalışmışdır [27].

Eyni alətdən istifadə edərək hibrid müharibə strategiyasının qurulması ABŞ üçün də səciyyəvidir. Belə ki, dünyanın dörd bir yanında demokratiya və insan hüquqlarına dəstək adı altında ayrı-ayrı qeyri-hökumət təşkilatlarına maliyyə donorluğu etməsi bu reallığı aydın şəkildə üzə çıxarır. Araşdırmalar onu göstərir ki, həm Soros, həm də onun Açıq Cəmiyyət Vəqfləri dünyada 200-dən çox ABŞ təşkilatını birbaşa, yaxud da dolayı yolla maliyyə ilə təmin edir [34]. Bütün fəaliyyətində ABŞ-ın milli maraqlarından çıxış edən Soros vəqfləri elə bu amilə görə Rusiya elmi-siyasi dairələri tərəfindən Amerikan imperializminin təsirli alətlərindən biri kimi təsvir olunur. Rusiyalı analitiklər hesab edir ki, Soros fondu "milli dövlət" anlayışını aradan qaldırmaqla ABŞ-ın öncüllüyü ilə qlobal supergücün formalaşması məqsədinə xidmət edir [5].

Hibrid müharibə aparan ölkələrin xaricdə maliyyələşdirdiyi əsas təsisatlardan biri də siyasi partiyalardır. Xüsusən, Avropa ölkələrində Rusiya ilə yaxınlığı ilə seçilən bir sıra siyasi partiyaların Kremldən maliyyələşdiyi haqqında xeyli iddialar irəli sürülmüşdür. Latviyada fəaliyyət göstərən Harmoniya Mərkəzi partiyasının, Estoniyada isə Mərkəz Partiyasının Moskvadan maliyyələşdiyi haqqında ciddi şübhələrin olduğu irəli sürülmüşdür [8, s.20]. Eyni qaydada Fransada Marin le Penin ultra-sağçı Milli Cəbhə partiyasının 2017-ci il prezident seçkiləri ərəfəsində Rusiya banklarından kreditlər aldığı iddia olunmuşdur [24]. Adıçəkilən siyasi partiyaların fəaliyyətində diqqət cəlb edən əsas xüsus liberal dəyərlərə qarşı olması, anti-Amerikan və anti-Qərb baxışları ilə seçilməsidir. Siyasi partiyaların maliyyələşdirilərək hibrid müharibə aləti kimi istifadə olunması Qərb dövlətləri üçün də xasdır. Məsələn, Ermənistanın hazırda hakimiyyətdə olan "Mənim addımım" siyasi blokunun Qərb fondlarından maliyyə dəstəyi aldığına dair ciddi iddialar irəli sürülmüşdür. Qeyd olunur ki, Soros fondu 1997-2008-ci illər arasında hazırkı baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi təşkilatlara 48 milyon dollar yardım etmişdir [10]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin oktyabrında "TASS" agentliyinə müsahibəsində Paşinyanı "Sorosun əlaltısı" adlandırması bu baxımdan diqqəti cəlb edir [1].

Ümumiyyətlə, son illər dünyada populyarlıq qazanmış "narıncı inqilablar" dalğasının arxasında müxalif siyasi partiyaların ABŞ və bir sıra Avropa ölkələri tərəfindən maliyyələşdirildiyi faktının olması şübhə doğurmur.

Düşmən (rəqib) ölkələrdə etiraz mitinqlərinin təşkil olunması hibrid müharibənin ən effektiv alətlərindən biri hesab edilir. Kremlin Avropada təşkil etdiyi küçə nümayişlərini buraya daxil edə bilərik. Məsələn, 2017-ci ildə Hollandiyada Ukrayna ilə ticarətə dair keçirilmiş referendumun nəticələrinə təsir göstərmək məqsədilə Moskva anti-Avropa İttifaqı meyilli qrupların etiraz mitinqlərini təşkil etməyə nail oldu [14]. Ehtimal olunur ki, Rusiya həm də Bolqarıstanda şist qazın istifadəsinə qarşı çıxan qrupların etiraz nümayişinə dəstək göstərmişdir. Bu da o məqsəddən irəli gəlir ki, Bolqarıstan hökuməti Qərbdə üstünlük verilən şist qaz istifadəsi fikrindən daşınsın və dolayısilə Bolqarıstanın Rusiya təbii qazından asılılığı bundan sonra da davam etsin [12]. Qeyd edək ki, bu etirazlar Bolqarıstan baş naziri Boyko Borisovun şist qazın kəşfiyyatını aparmaq üçün "Chevron" şirkətinə verilmiş lisenziyanı ləğv etməsi ilə nəticələndi. 2011-ci ildən etibarən dünyada böyük əks-səda yaratmış "Ərəb baharı" hərəkatının ABŞ və bir sıra qərb dövlətləri tərəfindən təşkil olunduğu heç kəsə sirr deyil. O baxımdan ki, ABŞ-ın o vaxtkı prezidenti Barak Obama həmin inqilabi prosesi açıq şəkildə dəstəklədiyini ifadə etmişdir [18]. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Rusiyanın hibrid təhdidlərə qarşı mübarizə strategiyasının əsasını təşkil edən Gerasimov doktrinası "Ərəb baharı"ndan təsirlənmişdir.

Hibrid müharibə aləti kimi istifadə olunan metodlardan biri də oliqarxların nüfuzundan və maliyyə imkanlarından faydalanmaqdır. Bu daha çox Rusiyanın tətbiq etdiyi mexanizmlərdən biridir. Moskva hər zaman xarici ölkələrdə siyasət, kommersiya, media və ticarət əlaqələri olan Rus oliqarxları ilə təmaslarını möhkəm saxlayır. Bu oliqarxlar yerli qurumlarla sıx əlaqələr saxlayır, lazım olduqda isə öz sahələrindəki nüfuz və imkanlarından istifadə edərək siyasi proseslərə Kremlin müəyyən etdiyi istiqamətlər üzrə təsir göstərirlər. Məsələn, Rus-Yunan əsilli iş adamı İvan Savvidisin Yunanıstan iqtisadiyyatında çox böyük yatırımları mövcuddur. Savvidis həm də Yunanıstanın televiziya və media sektorunda önəmli paylara sahibdir. O, ötən müddət ərzində əlində olan resurslardan istifadə edərək Yunanıstandakı Qərbyönümlü siyasi qüvvələrə qarşı təbliğat işi aparmışdır [7, s.7-8]. Rusiya bu texnologiyadan Ukraynada daha geniş tətbiq etmişdir. Hətta Vladimir Zelenski prezident seçildikdən sonra Ukraynada Rusiya meyilli oliqarxlara qarşı sanksiyalar da həyata keçirməyə cəhd etmişdir [33].

Müşahidələr onu göstərir ki, varlı oliqarxlardan hibrid müharibə aləti kimi istifadə etmək daha çox Rusiyanın müraciət etdiyi təcrübə olub. Lakin elə hibrid müharibə alətləri də vardır ki, onlardan daha çox ABŞ başda olmaqla bir sıra Qərb ölkələri, eyni zamanda İran daha çox faydalanmışdır. Söhbət məzhəb

və ya təriqətlərdən, o cümlədən ayrı-ayrı etnoslardan proksi güc vasitəsi kimi istifadədən gedir. ABŞ Orta Şərqdə öz geosiyasi maraqlarını reallaşdırmaq, xüsusən İranı blokada şəraitində saxlamaq üçün təkcə sünni məzhəbinə məxsus dövlətlərlə müttəfiqlik münasibəti qurmaqla kifayətlənməmiş, həm də sünni mərkəzli qanunsuz silahlı birləşmələri maliyyə və zəruri silah-sursatlarla təmin etmişdir. Vaşinqton bu məqsədini reallaşdırmaq üçün ayrı-ayrı etnoslara xüsusi rəğbətini də heç vaxt gizlətməmişdir. Dünyanın bir çox ölkələri tərəfindən terrorçu təşkilat kimi tanınan Suriyadakı PKK-PYD silahlı birləşmələrinin ABŞ tərəfindən aşkar sürətdə dəstəklənməsi İran və Rusiyanın bölgədəki fəallığından duyulan narahatlıqlarla bağlıdır [2]. Təkcə 2020-ci ildə ABŞ sözügedən təşkilata 400 milyon dollarlıq dəstək proqramı həyata keçirmişdir [3]. Ziddiyyətli məqam ondan ibarətdir ki, ABŞ rəsmi şəkildə İran, Suriya, Şimali Koreya və Kubanı terrorizmi maliyyələşdirən ölkələr kimi tanımasına baxmayaraq özü müttəfiqi Türkiyənin terrorçu təşkilat kimi tanıdığı qanunsuz silahlı birləşmələri dəstəkləməkdən çəkinməmişdir. Bu, bir tərəfdən ikili standartlı yanaşma kimi diqqəti cəlb edirsə, digər tərəfdən, ABŞ-ın həyata keçirdiyi hibrid müharibə strategiyasının mürəkkəb kombinasiyalara malik olmasından xəbər verir.

İran idarəçilik fəlsəfəsi baxımından teokratik ölkə olduğuna görə məzhəb faktorundan öz rəqibləri ilə müqayisədə daha effektiv güc vasitəsi kimi istifadə edə bilir. Rəsmi Tehranın aşkar sürətdə dəstəklədiyi şiə mərkəzli “Hezbullah” təşkilatı Orta Şərq coğrafiyasında ən təsirli proksi güc alətlərindən biri hesab olunur. İran məhz həmin təşkilat vasitəsilə regionda şiə koridoru yaratmaq kimi əsas strateji məqsədini reallaşdırmağa çalışır. İddialara görə, “Hezbullah”ın təkcə Suriya ərazisindəki fəaliyyətini təşkil etmək üçün İran tərəfindən hər il 50-100 milyon dollar vəsait ayrılır [16, s.1].

Hibrid müharibə alətləri içərisində ən müasir və geniş tətbiq olunanlar arasında kiber əməliyyatların xüsusi yeri vardır. Ümumiyyətlə, kiber əməliyyatlar riski az, maliyyəsi aşağı olsa da, effektiv nəticələri kifayət qədər yüksəkdir. Bu, kiber alətləri yoxsul və ya iqtisadi göstəriciləri aşağı olan ölkələr üçün daha cəlbedici edir. Bu gün dünyada demək olar ki, əksər ölkələr, o cümlədən, ABŞ, Rusiya, Çin kimi supergüclər də kiber hücumlara məruz qalırlar. Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FSB) açıqladığı məlumatlara görə, təkcə 2016-cı ildə Rusiya dövlətinin ayrı-ayrı təsisatlarına ümumilikdə 70 milyon kiber hücum təşkil olunmuşdur [6]. Ümumiyyətlə, kiber fəza üç formada istismar edilir: casusluq, hücum və manipulyasiya [36]. Kiber casusluq məzmun etibarilə ənənəvi casusluğa çox yaxındır və hibrid müharibə aparan ölkə üçün zəruri məlumatları toplamağı nəzərdə tutur. Bu cür məlumatlar hibrid müharibə aparan ölkələr tərəfindən ya ictimailəşdirilir (süni şəkildə rəy formalaşdırmaq məqsədilə), ya da məxfi saxlanılmaqla müxtəlif məqsədlər üçün istifadə edilir. Məsələn, “APT 28” və “APT 29” Rusiya kəşfiyyat

xidmətinə bağlı dünyaca məşhur haker qruplarıdır və xarici ölkələrdə kiber casusluq etməkdə peşəkarlaşmışdır [35]. Kod adı qeyd olunmuş həmin haker qruplarının ABŞ-da Dövlət Departamenti, Ağ Ev və digər dövlət agentliklərinə casusluq məqsədilə çoxsaylı hücumları təşkil olunmuşdur [30]. Rusiyaya bağlı haker qrupları ABŞ-da 2016-cı il prezident seçkilərinin gedişatına süni yollarla ciddi təsir göstərməkdə ittiham edilirlər [28]. Həyata keçirilən haker müdaxilələrinin 2016-cı il seçkilərinin nəticələrinə birbaşa təsiri hələ tam aydınlaşmasa da (baxmayaraq ki, ABŞ kəşfiyyatının gəldiyi qənaətə görə, kiber müaxilələrin səslərin hesablanmasına heç bir təsiri olmamışdır), ehtimal olunur ki, Rusiya dövlətinin əsas məqsədi ABŞ-dakı seçki sisteminin zəif tərəfləri ilə bağlı material və zəruri məlumatlar əldə etməkdir ki, gələcəkdə bu ölkəyə qarşı kiber müstəvidə daha effektiv hibrid müharibə apara bilsin. Bu da nəzəri olaraq kiber casusluğun əsas məqsədi kimi dəyərləndirilə bilər.

Kiber fəzada aparılan müharibənin digər bir forması kiber hücumlardır. 2010-cu ildə İranın komputer şəbəkələrində "Stuxnet" adlı zərərverici proqramın aşkar olunması yeni bir kiber müharibə texnikasının yaranmasına gətirib çıxardı. Dünyanın ilk rəqəmsal silahı hesab olunan "Stuxnet" digər zərərli haker proqramlarından fərqli olaraq, təkcə informasiyanı oğurlamaqla kifayətlənməyib, həm də kompüterlərin nəzarət etdiyi fiziki avadanlıqları məhv edirdi [8]. Qərbdən təşkil olunmuş bu haker hücumlarının əsas məqsədi İranın nüvə proqramına xəsarət yetirmək idi. "Stuxnet" dövlətlərin milli təhlükəsizliyi baxımından böyük dilemma yaratdı. Bu, ilk növbədə kiber alətlərin fiziki müstəvidə ağır zərər vura bilmə qabiliyyəti ilə bağlıdır. Kiber hücumlar xüsusən 2007-ci ildə Estoniyada strateji infrastrukturu hədəf alaraq ağır böhrana səbəb oldu. Tallinin mərkəzində bir Sovet abidəsinin dağıdılmasına cavab olaraq hakerlər Estoniyanın demək olar ki, bütün elektron infrastrukturunu – əsas ticarət banklarını, telekampaniyalarını, mediya qurumlarını və serverlərini iflic etdilər [20].

Kiber müdaxilələrin üçüncü forması kiber manipulyasiyalarıdır. Haker qrupları bir sistemə giriş əldə etdikdən sonra komputer şəbəkəsində saxlanan məlumatları idarə etmək və ya dəyişdirmək istəyə bilərlər. 2015-ci ildə ABŞ Milli Təhlükəsizlik Agentliyinin direktoru Maykl Rogers ifadə etmişdir ki, informasiya manipulyasiyaları gələcəkdə çox böyük problemlərə yol aça bilər. Ən ciddi elektron manipulyasiya insidentlərindən biri 2013-cü ildə Suriyalı hakerlərin "Assosiated Press" agentliyinin rəsmi Tvitter hesabını sındıraraq həmin media qurumunun adından Ağ Evdə partlayışın olduğu, Barak Obamanın isə yaralandığı barədə feyk məlumat paylaşılan zaman yaşanmışdır. "Bloomberg"in verdiyi məlumata görə, bu insident nəticəsində "Dow Jones" indeksi 150 ballıq enişi etdi, dünya səhm bazarı isə 136 milyard dollarlıq itki ilə üzləşdi [20]. Siyasi məqsədlər üçün məlumatları manipulyasiya etmək üçün ilk cəhdlərdən biri 2016-cı ildə ABŞ prezident seçkiləri zamanı yaşandı. Həmin

vaxt İllinoys ştatının seçicilər bazasına giriş əldə etmiş rus hakerlər qeydiyyatdan keçən şəxslərin məlumatlarını dəyişdirməyə cəhd etmişdilər, lakin bu, uğursuzluqla nəticələnmişdir [23]. Təcrübələr onu göstərir ki, məlumat sabotajı (və ya kiber manipulyasiya) potensial dağıdıcı təsirləri nəzərə alınmaqla digər iki kiber təhdid formasından daha ağır nəticələrə səbəb ola bilər.

Təsirli hibrid müharibə alətlərindən biri də iqtisadi amillər üzərindən təzyiq siyasətidir. Hər nə qədər yeni vasitə olmasa da, müasir dövrdə ən vacib və təsirli rıçaqlardan biri hesab olunur. Birləşmiş Ştatlar uzun müddətdir ki, bu alətdən ən effektiv istifadə edən ölkə kimi diqqəti cəlb edir. Qloballaşma prosesinin də təsiri ilə iqtisadi təzyiq alətlərinin effektivliyini əhəmiyyətli dərəcədə artırmışdır. ABŞ-ın rəhbərliyi ilə bir sıra Qərb ölkələri artıq 10 illiklərdir ki, liberal dəyərlər arxasında gizlətdikləri geosiyasi maraqları naminə Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etməkdədirlər. Qərbin Rusiyaya qarşı ən genişmiqyaslı iqtisadi sanksiyası Ukrayna böhranının yaşandığı dövrə təsadüf edir. O sanksiyaların bir çoxu hələ də qüvvəsindədir. Sanksiyalar gözlənildiyi kimi, Rusiya rublunun çökməsinə və Rusiya maliyyə böhranına səbəb oldu [31]. Maraqlı məqam odur ki, Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar Rusiyadan çox Qərbin özünə ciddi zərər vurmuş oldu. Belə ki, 2015-ci ilədək Avropa ölkələri bu sanksiyalara görə 100 milyard avro itki ilə üzləşdi [25]. Rusiya Maliyyə Nazirliyinin açıqlamasına görə isə 2014-cü il ərzində tətbiq olunan sanksiyaların Rusiya iqtisadiyyatına vurduğu zərərin ümumi məbləği 40 milyard avro təşkil edir [15]. Rusiya Prezidenti Vladimir Putin isə ABŞ-ın Səudiyyə Ərəbistanı ilə birlikdə dünya neft bazarındakı qiymətləri də qəsdən süni şəkildə aşağı endirdiklərini bildirmişdir [4]. 2016-cı ilin ortalarına qədər sanksiyalardan dolayı Rusiya iqtisadiyyatının üzləşmiş olduğu zərərin məbləği 170 milyard dollardır. Həmin dövr ərzində neft-qaz qiymətlərindəki düşüşə görə Rusiya 400 milyard dollar itirmişdir [29]. Rusiya Prezidentinin yuxarıda qeyd olunan bəyanatından çıxış etsək, Ukrayna hadisələrinə görə Qərbin tətbiq etdiyi iqtisadi sanksiyalar təkcə 2016-cı ilə qədər Rusiya iqtisadiyyatına 570 milyard dollar zərər vurmuşdur. Digər tərəfdən isə Qərb dövlətlərinin özünün bu sanksiyalara görə üzləşdiyi itkiləri nəzərə alsaq, iqtisadi sanksiyaların hibrid müharibə aləti kimi ən maliyyətli vasitə olduğunu deyə bilərik. Sanksiyaların effektivliyini dəyərləndirsək, bəzi analitiklər hesab edir ki, sanksiyalar Kremlin Ukrayna ilə bağlı siyasətinin dəyişməsinə, habelə Rusiyanın bölgədəki hərbi aktivliyinin qismən zəifləməsinə səbəb olmuşdur [19]. Ukraynanın o vaxtkı prezidenti Pyotr Poroşenko isə sanksiyaları "Rusiyanı aqressiv siyasətdən çəkindirəcək əsas faktorlardan biri" kimi dəyərləndirmişdi [26].

Çin də artan iqtisadi gücündən beynəlxalq məsələlərdə təsir mənbəyi kimi istifadə edir. ABŞ-a məxsus THAAD raketdən müdafiə komplekslərinin

Cənubi Koreyada yerləşdirilməsi Pekinin öz qonşusuna qarşı bir sıra iqtisadi sanksiyalar tətbiq etməyə vadar etdi. Çindən Cənubi Koreyaya turist səfərlərinə qadağalar qoyuldu, Cənubi Koreya məhsulları boykot edildi. Nəticədə Çin və Cənubi Koreya Prezidentlərinin 2017-ci ildə keçirilmiş görüşündə razılıq əldə olunur ki, Seul ABŞ-la hərbi müttəfiqliyi məhdudlaşdırmaq barədə öhdəlik götürür, bunun müqabilində isə sanksiyalar aradan qaldırılır [13]. Beləliklə, Çin bir dənə güllə atmadan ABŞ raketdən müdafiə komplekslərinin öz qonşuluğundan çıxarılmasına nail olur.

Təəssüf ki, Ermənistan dövləti ölkəmizə qarşı apardığı təcavüz siyasətində həm də hibrid müharibə təhdidlərindən geniş istifadə etmişdir. İşğal dövründə Ermənistan tərəfdən həm ölkəmizin informasiya məkanına mütəmadi hücumlar təşkil olunmuş, çoxsaylı kibercinayətlər törədilmiş, həm də xaricdəki erməni şəbəkələri tərəfindən Azərbaycanın beynəlxalq imicinin korlanmasına hesablanan çirkli təbliğat siyasəti həyata keçirilmişdir. Ermənistan dövləti apardığı işğalçılıq siyasətini ört-basdır etmək üçün dezinformasiya oyunu təşkil edərək dünya ictimaiyyətini aldatmağa cəhd etmişdir. Lakin düşmənin informasiya təhdidlərinə qarşı həyata keçirdiyimiz sistemli mübarizə bu mənfur niyyətin baş tutmamasını şərtləndirmişdir. Ermənistan terrorçu təşkilatları açıq şəkildə dəstəkləyən, onları maliyyələşdirərək öz məqsədləri naminə istifadə edən bir ölkədir. Qarabağ döyüşlərində Ermənistan tərəfdən çoxsaylı terrorçuların vuruşması aşkar hibrid müharibə nümunəsidir. Ümumiyyətlə, İrəvan Orta Şərqdə əməkdaşlıq etdiyi terrorçu birləşmələrin köməyindən həm birinci, həm də ikinci Qarabağ müharibəsində faydalanmışdır.

## ƏDƏBİYYAT


1. İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib.19 oktyabr 2020-ci il / https://president.az/articles/43547
2. ABD'nin YPG ısrarının perde arkası, Ali Çınar, 22 fevral 2021 / https://www.milliyet.com.tr/yazarlar/ali-cinar/abdnin-ypg-israrinin-perde-arkasi-6437530
3. ABD'den terör örgütü YPG/PKK'ya 400 milyon dolarlık destek, 03.10.2020 / https://www.aa.com.tr/tr/dunya/abdden-teror-orgutu-ypg-pkkya-400-milyon-dolarlik-destek/1994279
4. Владимир Путин: мы сильнее, потому что правы / https://tass.ru/top-officials/1589319
5. Многополярность и открытое общество: геополитический реализм против космополитической утопии. Pluriversum vs Universum, 30.10.2019 / https://www.geopolitica.ru/article/mnogopolyarnost-i-otkrytoe-obshchestvo-geopoliticheskiy-realizm-protiv kosmopoliticheskoy
6. ФСБ: около 70 млн. кибератак было совершено на российские объекты в течение года. 24 января, 2017 / https://russian.rt.com/world/news/353071-

fsb-kiberataki-na-rossiyskie-obiekti

7. *Alina Polyakova and others.* The Kremlin's Trojan Horses 2.0: Russian Influence in Greece, Italy, and Spain, Atlantic Council, November 2017 / https://www.atlanticcouncil.org/wp-content/uploads/2017/11/The_Kremlins_Trojan_Horses_2_web_1121.pdf
8. *Andrew Radin.* Hybrid Warfare in the Baltics: Threats and Potential Responses. Santa Monica, CA: RAND Corporation, 2017 / https://www.rand.org/pubs/research_reports/RR1577.html
9. An Unprecedented Look at Stuxnet, the World's First Digital Weapon by Kim Zetter. 11.03.2014 / https://www.wired.com/2014/11/countdown-to-zero-day-stuxnet/
10. Armenia is a country controlled by Soros Foundation, 05 october, 2020 / https://news.ru/en/business/armenian-russian-economic-relations-unilateral-benefit/
11. *Ben Knight.* "Putin associate opens Russia-friendly think tank in Berlin" Deutsche Welle, July 1, 2016 / https://www.dw.com/en/putin-associate-opens-russia-friendly-think-tank-in-berlin/a-19372110
12. Bulgarians see Russian hand in anti-shale protests. 30 nov. 2014 / https://www.ft.com/content/e011d3f6-6507-11e4-ab2d-00144feabdc0
13. China wins its war against South Korea's US THAAD missile shield – without firing a shot, David Josef Volodzko, 18 Nov., 2017 / https://www.scmp.com/week-asia/geopolitics/article/2120452/china-wins-its-war-against-south-koreas-us-thaad-missile
14. *Christopher S.* Chivvis, "Understanding Russian "Hybrid Warfare": And What Can Be Done About It" / https://www.rand.org/pubs/testimonies/CT468.html
15. Finance Minister: oil slump, sanctions cost Russia $140 billion a year, Smith, Geoffrey. November 24, 2014 / https://fortune.com/2014/11/24/finance-minister-oil-slump-sanctions-cost-russia-140-billion-a-year/
16. Hezbollah: The Model of a Hybrid Threat, Bulletin, The Polish İnstitute of İnternational Affairs, 2 march 2015 / https://www.files.ethz.ch/isn/188946/Bulletin%20PISM%20no%2024%20(756)%202%20March%202015.pdf
17. *Isaac Stone Fish*. "Beijing Establishes a D.C. Think Tank, and No One Notices," Foreign Policy, July 7, 2016 / https://foreignpolicy.com/2016/07/07/beijing-establishes-washington-dc-think-tank-south-china-sea/
18. Islamism, the Arab Spring and the Failure of America's Do-Nothing Policy in the Middle East. October 9, 2015 / https://www.theatlantic.com/international/archive/2015/10/middle-east-egypt-us-policy/409537/
19. Is it time for Europe to excuse Russia's aggression? by Liubov Nepop, 25 september 2015 / https://www.euractiv.com/section/europe-s-east/opinion/is-it-time-for-europe-to-excuse-russia-s-aggression/
20. *Joshua Davis*. Hackers Take Down the Most Wired Country in Europe, Wired, August 21, 2007 / https://www.wired.com/2007/08/ff-estonia/

21. *Mark Landler, Michael R. Gordon*, "NATO Chief Warns of Duplicity by Putin on Ukraine", The New York Times, 8 iyul 2014 / https://www.nytimes.com/2014/07/09/world/europe/nato-chief-warns-of-duplicity-by-putin-on-ukraine.html
22. MCDC Countering Hybrid Warfare Project, Understanding Hybrid Warfare, 2017 / https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/647776/dar_mcdc_hybrid_warfare.pdf
23. *Michael Riley and Jordan Robertson*. Russian Cyber Hacks on U.S. Electoral System Far Wider than Previously Known, June 13, 2017 / http://cs.brown.edu/people/jsavage/VotingProject/2017_06_13_Bloomberg_RussianCyberHacksOnUSElectoralSystem.pdf
24. National Front seeks Russian cash for election fight, by İvo Oliviero, 2016 / https://www.politico.eu/article/le-pen-russia-crimea-putin-money-bank-national-front-seeks-russian-cash-for-election-fight/
25. Newswalk: Sleep Scientist Russell Foster on How He Stopped Seeing Life in Black and White, Sharkov, Damien (19 June 2015) / https://www.newsweek.com/newswalk-sleep-scientist-russell-foster-how-he-stopped-seeing-life-black-and-328999
26. Poroshenko: Sanctions, heroism of our warriors are key elements to overcome Russian aggression, 03.09.2015 / http://www.nrcu.gov.ua/en/news.html?newsID=6022
27. Putin's Asymmetric Assault On Democracy In Russia And Europe: Implications For U.S. National Security / https://www.foreign.senate.gov/imo/media/doc/FinalRR.pdf
28. Report of the select Committee on intelligence United States Senate on Russian active measures campaigns and interference in the 2016 US election, Volume 1: Russian efforts against eletion infrastructure with additional views / https://www.intelligence.senate.gov/sites/default/files/documents/Report_Volume1.pdf
29. Russia loses $600 billion on sanctions and low oil prices, Trude Pettersen / https://thebarentsobserver.com/ru/node/414
30. Russian government hackers are behind a broad espionage campaign that has compromised U.S. agencies, including Treasury and Commerce, By Ellen Nakashima and Craig Timberg, Dec. 14, 2020 / https://www.washingtonpost.com/national-security/russian-government-spies-are-behind-a-broad-hacking-campaign-that-has-breached-us-agencies-and-a-top-cyber-firm/2020/12/13/d5a53b88-3d7d-11eb-9453-fc36ba051781_story.html
31. Russia's rouble crisis poses threat to nine countries relying on remittances, 18 January 2015 / https://www.theguardian.com/world/2015/jan/18/russia-rouble-threat-nine-countries-remittances
32. *Sascha-Dominik Bachmann, Hakan Gunneriusson*, Hybrid Wars: The 21st Century's New Threats to Global Peace And Security", Scientia Militaria - South African Journal of Military Studies, Vol. 43, Num. 1, 20 may 2015

33. Ukraine’s Sanctions Against Pro-Russian Oligarch Medvedchuk - All About Oil and Coal, by Alla Hurska, February 24, 2021 / https://jamestown.org/program/ukraines-sanctions-against-pro-russian-oligarch-medvedchuk-all-about-oil-and-coal/
34. US organisations sponsored by Soros, 2017 / https://www.geopolitica.ru/en/article/us-organisation-sponsored-soros
35. What to know about the Russia-linked hackers accused of stealing COVID vaccine data, 16 July 2020 / https://abcnews.go.com/International/russia-linked-hackers-accused-stealing-covid-vaccine-data/story?id=71819152
36. WikiLeaks Releases Trove of Alleged C.I.A. Hacking Documents. New York Times, March 7, 2017 / https://www.nytimes.com/2017/03/07/world/europe/wikileaks-cia-hacking.html?_r=0

Redaksiyaya daxil olub 20.04.2021

***UOT 94 (479.24)***

***Ə.R.Fərhadov***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*ali_farhadov@yahoo.com*

# XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCANIN GÜNEYİNDƏ XRİSTİAN MİSSİONERLİYİ TARİXİNDƏN

***Açar sözlər:*** *Qacar, Azərbaycan, İslam, xristian, missioner*

XX əsrin əvvəllərində çar Rusiyası Azərbaycanın güney bölgəsini də təsiri altına almağa çalışır, bu məqsədlə xristian icmalarından – ermənilərdən, aysorlardan istifadəyə cəhd göstərirdi. İngiltərə və digər Qərb ölkələri də öz imperialist maraqları naminə Azərbaycan xristianlarından Qacar dövlətinə qarşı mübarizədə faydalanmaq istəyirdilər. Bu məqsədlə öz dövlətlərinin maraqlarına xidmət edən xarici missionerlərin Qacar dövlətindəki aktiv fəaliyyətini dəstəkləyirdilər. Həmçinin Azərbaycan xristianlarını müsəlmanlara qarşı təşkilatlandırmaq, məktəblər və mətbuat vasitəsilə onları gücləndirmək, silahlandırmaq, Qacar dövlətini parçalamaq, müsəlmanları assimilyasiyaya cəhd etməyə çalışırdılar. Qacar dövləti xadimləri də bəzən laqeydlik, bilgisizlik və ya məcburiyyət qarşısında bu missioner fəaliyyətlərinin güclənməsinin qarşısını ala bilmədi. Nəticədə qanlı müharibələr, müsəlmanlara qarşı soyqırımlar baş vermişdir. Bu soyqırımların qarşısının alınmasında Osmanlı Türkiyəsi xüsusi rol oynadı.

***А.Р.Фархадов***

## ИЗ ИСТОРИИ ХРИСТИАНСКИХ МИССИОНЕРОВ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКОВ

***Ключевые слова:*** *Гаджар, Азербайджан, Ислам, христианин, миссионер*

В начале XX века царская Россия пыталась влиять на южную часть Азербайджана, пытаясь использовать для этой цели христианские общины – армян, ассирийцев. Англия и другие западные страны также хотели использовать азербайджанских христиан в борьбе против государства Гаджар в своих империалистических интересах. С этой целью они поддерживали активную деятельность иностранных миссионеров в штате Каджар, служа интересам своей страны. Они также пытались настроить азербайджанских христиан против мусульман, укрепить и вооружить их через школы и прессу, разделить государство Гаджар и попытаться ассимилировать мусульман. Государственные деятели Гаджара иногда были не в состоянии предотвратить активизацию этой миссионерской деятельности перед лицом безразличия, невежества, или принуждения, что приводило к кровавым войнам и геноциду против мусульман. Османская Турция сыграла особую роль в предотвращении этих геноцидов.

***A.R.Farhadov***

**FROM THE HISTORY OF CHRISTIAN MISSIONERS IN SOUTH AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURIES**

***Keywords:*** *Gajar, Azerbaijan, Islam, christian, missionary*
At the beginning of the twentieth century, tsarist Russia tried to influence the southern part of Azerbaijan, trying to use for this purpose Christian communities - Armenians, Assyrians. England and other western countries also wanted to use Azerbaijani Christians in the struggle against the Gajar state for their imperialist interests. To this end, they supported the active work of foreign missionaries in the Gajar state, serving the interests of their country. They also tried to organize Azerbaijani Christians against Muslims, to strengthen and arm them through schools and the press, to divide the Ghajar state, and to try to assimilate Muslims. Gajar statesmens, too, could not prevent the intensification of these missionary activities in the face of indifference, ignorance or coercion. As a result, bloody wars and genocides against Muslims took place. Ottoman Turkey played a special role in preventing these genocides.

## 1. I Dünya müharibəsindən əvvəl Azərbaycanın güneyində xristian missionerliyi tarixindən

Missionerlərin Qacar dövləti ərazisində missionerlik fəaliyyətləri hələ Fətəli şahın dövründə başlamış, fars dilinə tərcümə olunmuş “İncil” ingilis missionerləri tərəfindən Fətəli şaha təqdim olunmuş və şah tərəfindən bəyənilmişdi [46, s.12-13]. Onlar ölkədə zərdüştiləri də xristianlaşdırmağa çalışırdılar [14, s.35]. Almaniyadan olan missionerlər [49] və isveçrəli Bazel missionerləri də xristianlığı təbliğ üçün Təbrizdə məktəb açmışdılar [29, s.2; 24, s.19]. 1896-cı ildə fransız katolik missionerləri Urmiyada “Qaltşrara” qəzetini nəşr etdirmişdi [43, s.412]. Onların Urmiyada və Səlmasda mərkəzləri və qadın monastrı da var idi [21, s.542]. Fransız missionerlərin əsas məqsədi bölgədə fransız dilini və xristianlığın katoliklik məzhəbini yaymaq idi [4, s.284]. Aysorları katolikləşdirmədə fransız lazarist missionerlərə sonralar müsəlman olmuş aysor katolik din xadimi Abdulahad Davud da yardım edirdi [32, s.177-178]. Qeyd edək ki, Məhəmməd şah lazaristlərə xoş münasibət göstərmişdir [37, s.349]. Nəsrəddin şah da vəliəhdliyi dövründə fransız şərqşünas, missioner E.Borenin [51] təşəbbüsü ilə Təbrizdə açılmış məktəbdə təhsil almışdı. İngilislər də fransız missionerlərinin timsalında Rusiyaya qarşı müttəfiq görürdülər [25, s.150]. Missionerlərin anti-islam fəaliyyəti ölkədə xristianlara qarşı bəzi hücumlara da səbəb olurdu [13, s.270-271].

Amerikalı protestant missionerlər Təbrizdə hələ məşrutə inqilabından öncə prisviterian məktəbi – “Memorial school” açmışdılar və fəaliyyət

göstərirdilər [47; 30, s.123]. Burada amerikalılar tərəfindən ingilis dili, dünyəvi elmlər tədris edilirdi. Bu məktəbin müəllimlərindən – hərbi məktəb məzunu Hovard Baskervil öz hökumətinin razılığı olmasa da, məşrutəçilərin döyüş hazırlığında və Məhəmmədəli şah hökumətinə qarşı döyüşlərdə fəal iştirak etmiş, qəhrəmancasına həlak olmuşdu [16, s.1027-1032]. Onun Təbriz qəbristanlığındakı dəfni izdihamla keçirilmiş, böyük mitinq təşkil edilmişdi [19, s.440-441].

Bu dövrdə Urmiyada xarici missionerlər tərəfindən aysor (kəldani) dilində "Urumi ortodoksata" adlı qəzet də nəşr olunur, xristian mədəniyyətinin və hüquqlarının qorunmasını təbliğ edirdi [43, s.445; 17, s.407]. Urmiyadakı Amerikan missionerlərinin sayı təxminən 50 nəfər olub, cəmiyyətin 3000 nəfər üzvü də var idi. Bütün Qacar dövləti üzrə 100-dən çox protestant məktəbində 2000 şagird dərs keçirdi. Bu məktəblərin ən məşhuru isə amerikalıların açdığı Urmiya kolleci idi. Amerikan missionerləri daha öncələri Roma Papası tərəfindən afaroz edilmiş [3, s.85-86] nəsturi aysorları protestant etmək istəyir, lakin nəsturi kilsəsi buna müqavimət göstərirdi [28, s.13]. Alman Lüteran Şərq Missiyası missionerləri də bölgədə fəaliyyət göstərir, hələ 1899-cu ildə Urmiyada yetimxana və 1906-cı ildə mətbəə qurmuş [38, s.155], 1901-ci ildə fransız katolik missionerləri – lazaristlər də Təbrizdə məktəb açmışdılar [48].

1902-ci ildə rusiyalı arximandrid Kirill Smirnovun və müavini Sergey Lavrovun başçılıq etdiyi pravoslav missionerləri Urmiyada fəaliyyətə başlamışdılar. Onlar Urmiyada Rusiyanın vitse-konsulluğunun və mətbəə açılmasına nail oldular, bir çox pravoslav kitabı aysor dilinə tərcümə edilib çap olundu [23, s.26-27]. 1903-cü ildə Rusiya imperatriçəsi Mariya Fedovranın himayəsində Urmiyada "Kirill-Sergey Urmiya qardaşlığı cəmiyyəti" yaradıldı. Cəmiyyətin məqsədi Urmiyadakı rus icmasının fəaliyyətinə diqqəti cəlb etmək idi. 1904-cü ildə arximandrid Sergey Lavrov Urmiyadakı missionerlər cəmiyyətinin sədri seçildi [23, s.27-28]. Aysor dilini öyrənən Sergey Lavrov bölgədə böyük nüfuza malik idi. Onun səyi ilə Urmiyanın kəndlərində qırx kilsə, qızlar və oğlanlar üçün altmış prixod (ibtidai kilsə) məktəbi açılmışdı. Bu məktəblərdə iki min beş yüz şagird təhsil alırdı. Urmiya şəhərində oğlan və qızlar üçün müəllimlik məktəbləri də açılmışdı. Pravoslav missionerlərinin nüfuzu və xeyriyyəçilik fəaliyyəti sayəsində ondan çox müsəlman ailəsi də pravoslavlığı qəbul etmişdi [23, s.29]. Pravoslav missionerləri Rusiyanın Təbrizdəki konsulluğunun vasitəsilə burada da iki məktəb açdılar [26, s.15]. Kürdlərin xristianlara qarşı hücumları artdığına görə 1911-ci ildə rus missioner heyətinin dəvətilə Təbrizdən gətirilən 100 nəfərlik kazak hərbi birliyi Urmiyada yerləşdirildi. Hərbi birlik həm də rus missionerlərini bölgədən qovmaq istəyən və pravoslav məbədlərini ələ keçirməyə çalışan ingilis missionerlərindən qorumaq üçün idi [23, s.32-33]. 1913-cü ildə Azərbaycanın güneyindəki aktiv

missionerlik fəaliyyətinə görə Müqəddəs Sinod Sergey Lavrova yepiskop rütbəsi və "Salmasski" titulu verdi [23, s.31].

Xaricdən gələn missionerlərə müsəlman ruhanilərin təşviqi ilə hücumlar təşkil edilir, çox vaxt onları qətl edirdilər. Bunda missionerlərin müsəlmanlara xristianlığı təbliğ etməsi də rol oynadı. Məsələn, Həmidə xanım Cavanşir yazır ki, "Təbrizdə bir Amerika missioner məktəbi var idi. Məktəbdə müəyyən saatlarda şagirdləri ibadətxanaya aparıb katolik dini ayinləri üzrə dua oxumağa məcbur edirdilər" [45]. C.Məmmədquluzadə də "Molla Nəsrəddin" jurnalında qeyd edirdi ki, "Amerika məmləkətindən professorlar və ustadlar əvəzinə xaçpərəst dərslərini və ibadətlərini məcbur edən missionerlər göndərilir, fənni mədrəsələr və sənətxanalar yerində keşişxanalar bina olunur" [8, s.4; 9, s.40].

1903, 1905-ci illərdə Urmiyada amerikalı missionerlərin öldürülməsi [38, s.153] və günahkarların pul ödəyərək cəzadan azad olması haqqında Ə.Hüseynzadə "Həyat" qəzetində məlumat verir. Bu kimi hadisələrin Qacar dövlətinin zərərinə olduğunu yazan müəllif müsəlmanları cinayətdən uzaq olub məktəblər, universitetlər açmağa, maariflənməyə dəvət edirdi [5, s.1-2; 6, s.93-385]. M.T.Sidqinin verdiyi məlumatlarda da qeyd olunur ki, Urmiyada kilsələrin zənglərinin gurultusu müsəlmanların əzan səslərinə üstün gəlir. Şəhərin "Dilgüşa" bağında ingilislər xəstəxanalar, məktəblər, kilsələr tikiblər. Onların müsəlmanlıq aləminə qətiyyən etinaları yoxdur" [11, s.187-188]. Həmçinin qeyd edirdi ki, "İslam dininin düşmənləri hər tərəfdən baş qaldırıb. Hər yerdə kafir adamları bizim aramıza salıblar. Onlar bəzən müsəlmanların cəhalətini ələ salır və islam mədəniyyətinə rişxənd edirlər" [11, s.209-210].

Bu missionerlərin Qacar dövlətində, Qafqazda müsəlmanların əleyhinə fəaliyyət göstərdiyini xeyriyyəçi H.Z.Tağıyevin Axund Yusif Talıbzadə vasitəsilə 1907-ci ildə Osmanlı sultanı II Əbdülhəmidə göndərdiyi məktubda da görürük. Burada Urmiya şəhərindəki "Erməni-Amerikan və Erməni-Protestant Komitəsi"nin Azərbaycan türklərini xilafətə tabe olmaqdan və islam ittihadından uzaqlaşdırmaq üçün nəşrlər hazırladığı və yaydığı qeyd olunur, sultandan yardım istənirdi [31, s.69].

31 avqust 1907-ci il tarixində Peterburqda Rusiya-İngiltərə arasında müqavilə imzalanmışdı [42, s.458]. Qacar dövləti üzərində daim planlar quran və yeni imtiyazlar əldə etməyə çalışan bu iki dövlət "Qacarların ərazi bütövlüyünə və müstəqilliyinə hörmət etmək üçün qarşılıqlı fəaliyyət göstərdiklərini" [22, s.17] bəhanə ilə bildirib "Qacar şahının həyatının təhlükədə olduğu iddiası" [36, s.232-233] ilə müqavilə bağladılar. Qacar dövlətinin şimal və cənub bölgələrini öz nüfuz dairələrinə bölüb bir-birlərinə bu nüfuz dairələrində mane olmayacaqlarına dair vəd verdilər [22, s.17-18]. Müqavilə haqqında ancaq 30 sentyabr tarixində Qacar Xarici İşlər Nazirliyinə məlumat verdilər [42, s.461]. Lakin Qacar parlamenti bu müqaviləni tanımayacağını elan etdi [16, s.538-540]. Müqavilə nəticəsində rus

missionerlərinin Azərbaycanda, ingilis missionerlərinin isə Qacar dövlətinin cənubunda fəaliyyəti gücləndi, yeni missioner məktəbləri açıldı [26, s.15-16]. Rusiya bolşeviklərinin rəhbəri V.İ.Lenin qeyd edirdi ki, "Kapitalist ölkələri öz soyğunçuluq siyasətlərini xristianlığı yaymaq adı altında hiyləgərcəsinə gizlədirdilər" [26, s.17].

Çar Rusiyası bölgədə öz nüfuzunu artırmaq üçün missionerlərdən aktiv istifadə edirdi. Rusiya vətəndaşı olan missioner Sergey Lavrovun sayəsində Urmiya bölgəsində 15 min aysor pravoslavlığa keçmişdi. Rusiyanın dəstəyilə Sergey Lavrov Urmiyada böyük bir katedral da tikdirmişdi. Aysorlar üçün məktəblər, yetimxanalar tikib mətbu orqanları quran Rusiyanın aysor din adamlarına pul yardımı onların bölgədəki nüfuzunu xeyli gücləndirdi. Aysor dini icmasının rəhbərlərilə yaxın olan erməni mənşəli Ağa Petros da Rusiyanın Urmiyadakı konsulluğunda tərcüməçi olub Rusiyanı dəstəkləyirdi [38, s.168]. Aysorlar bölgənin əsas gücü olan Rusiya səfirinin [38, s.162] dəstəyilə Qacar dövlətində və Osmanlı sərhədində müsəlmanlara qarşı hücumlara və qarətlərə başladılar [33, s.55-56]. Rusiyanın Təbriz konsulu ermənilərə də müstəqillik vədi, silah-sursat, pul verib onları Qacarlara və Osmanlıya qarşı müharibəyə sövq edirdi. Osmanlıya qarşı müharibədə Rusiya aysorlardan və kürdlərdən ibarət hazırladığı silahlı dəstələri də hazır etmişdi [33, s.56-57].

Şərqi Anadolu, Şimali İraq və Urmiya arasındakı dağlıq bölgələrdə yaşayan nəsturilər [2, s.214] Mar Şəmun ailəsindən olan patriarxları özlərinə dini rəhbər sayırdılar [40, s.19-30]. Patriarx Mar Şəmun Bünyamin (ö.1918) əslən Hakkari bölgəsindən – cənub-şərqi Anadoludan olub 1903-cü ildən nəsturi aysorların patriarxı idi. O, daim Osmanlı və Qacar dövlətlərinə qarşı mübarizə aparmış, Tiflisdə Qafqaz canişini Nikolay Nikolayeviçlə görüşərək I Dünya müharibəsinin başlanğıcında ona bölgədə muxtariyyət vəd edən Rusiyanı hərbi və siyasi şəkildə dəstəkləmişdi. Çar II Nikolay da canişinə yazdığı məktubda patriarxa öz təşəkkürünü bildirmiş, "Tanrının köməyilə Türkiyə xristianlarını zülmdən xilas edəcəyini" bildirmişdi [50].

## 2. I Dünya müharibəsi dövründə və sonra Azərbaycanın güneyində xristian missionerliyi tarixindən

Birinci Dünya Müharibəsinin başlamasından sonra Rusiya və İngiltərənin Qacar dövlətinə qarşı işğalında onların ən böyük dəstəkçisi ermənilər və aysorlar olmuşdu. Rusiya yerli xristianlara silah və pul yardımı edib müsəlmanlara qarşı müharibəyə sövq etdi [33, s.5]. Qacar hökuməti Rusiya və İngiltərə təhlükəsinə görə müharibədə Almaniya və Osmanlı ilə ittifaqdan çəkinmiş, tərəfsizliyini elan etmişdi. Lakin Qacarların tərəfsizliyinə baxmayaraq 1914-cü ilin noyabrında Rusiya Təbrizi işğal edib Almaniya, Avstriya-Macarıstan və Osmanlı konsullarını həbs etdilər, Urmiyadakı Osmanlı konsulunu da qovdular [33, s.47].

Osmanlı hərbi birlikləri Xəlil paşanın rəhbərliyi ilə 1915-ci ilin yanvarında Təbrizi [27, s.190], apreldə isə Urmiyanı ələ keçirdilər və Urmiya hakimi Cəmşid xan Məcdüssəltənə onların buradakı əsas nümayəndəsi oldu. Özü də mükəmməl mədrəsə təhsili almış olan Cəmşid xan Məcdüssəltənənin tapşırığı ilə müctəhidlər tərəfindən ruslara qarşı cihad fətvası verilmiş, fətva kitabça şəklində nəşr edilib yayılmışdı. Şiə müctəhidi Hacı Mirzə Feyzullah ağ kəfən geyərək müsəlman xalqı işğalçı Rusiyaya və xristian silahlılara qarşı cihada təşviq etmişdi. Lakin 1917-ci ildə rus ordusu kürd və aysorların yardımı ilə osmanlı birliklərini məğlub edib Azərbaycanın güneyindən geri çəkilməyə məcbur etdilər [34, s.487-491; 35, s.331-337]. Azərbaycandakı aysor kilsələri də müsəlmanlara qarşı qətliam fətvası vermiş, silahlı erməni-aysor birliklərinin bölgədə qalmış Çar ordusu qüvvələrinin dəstəyi, ingilis, fransız və amerikanların maddi yardımı ilə türklərə qarşı savaşı davam etdirməsinə və Azərbaycanda xristian dövlət yaratmağa qərar vermişdilər. Aysorlar qətliamlar vaxtı hətta məscidlərə sığınan müsəlmanları da ucdantutma qırırdılar. Soyqırımların əsl məqsədi Azərbaycan müsəlmanlarını qırıb bölgədə xristian dövləti qurmaq idi [7, s.76-79].

Mar Şəmun Bünyamin Təbrizi də ələ keçirmək istəyir, "Qacar dövlətində və Osmanlının bir hissəsində aysor dövlətinin yaradılmasını" istəyirdi [10, s.49]. O, ittifaq qurmaq üçün Qacar ərazisindəki ən böyük kürd tayfası Şikakilərin başçısı İsmayıl ağa Simko ilə danışıqlara gedir, ona -"Bu ölkə bizim də vətənimizdir. Nə var ki, din bizi bölmüş. Birləşməmiz gərəkdir. Ordumuzu birləşdirsək, Təbrizi almaq bizim üçün asan olar. Şimalda da rusların köməyi, Şaumyanın rəhbərliyi ilə Xəzərdən Qara dənizə, Diyarbəkirdən İran körfəzinə qədər dövlət yaradacağıq" [12, s.7], deyir. Qeyd edək ki, məşhur ingilis tarixçisi, I Dünya müharibəsi dövründə Hərbi Nazirliyin əməkdaşı olan Arnold Toynbi [Arnold Toynbee] yazırdı ki, "Bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır" [1, s.24]. Britaniya Xarici İşlər Nazirliyinin Tarix Sektoru Müdiriyyəti tərəfindən 1920-ci ildə hazırlanan "Ermənistan və Kürdüstan" adlı əsərdə də Şərqi Anadolu, İrəvan və Yelizavetpol (Gəncə) Ermənistanın, Urmiya gölünün qərbi Kürdüstanın tarixi torpaqları kimi təqdim edilir, bölgənin yenidən bölüşdürülməsində nəsturi aysorların rolu vurğulanırdı [18, s.1-5].

1918-ci ilin 3 mart tarixli Brest-Litovsk müqaviləsi ilə işğal etdiyi xarici torpaqları tərk edib Rusiyaya qayıdan rus əsgərləri bütün silah-sursatlarını da aysor və ermənilərə satdılar [33, s.116]. Qacarların hərbi zəifliyindən istifadə edən aysor və ermənilər burada öz dövlətlərini yaratmaq iddiasında idilər. Urmiya, Sulduz şəhərlərində toplanan iyirmi min nəfərlik bu hərbi birliyə bolşevik hakimiyyətini qəbul etməyən keçmiş çar ordusu zabitləri, ingilis, fransız hərbçiləri rəhbərlik edir, ABŞ missionerləri maliyyə dəstəyi verirdi [33,

s.117-118]. Nəsturi Aysor dini icmasının rəhbəri, patriarx Mar Şəmun Bünyaminin və əvvəllər Osmanlının Urmiya fəxri konsulu olmuş Ağa Petrosun da üzv olduğu Mutva adlı xristian hökuməti quruldu [33, s.118]. Beləliklə, Təkcə Urmiya şəhərində 10 min müsəlman əhalini qırdıqdan sonra erməni-aysor qüvvələri Salmas və Xoyu da ələ keçirməyə çalışdılar. Əksəriyyəti müsəlman olan 130 min adam bu döyüşlərdə xristian silahlılar tərəfindən öldürüldü [44].

Azərbaycanda aysor dövləti yaratmaq istəyən Mar Şəmun Bünyaminin hakimiyyəti kürd əşirət rəhbəri İsmayıl ağa Simko ilə bölüşdürmək təklifi təkbaşına kürd dövləti qurmaq istəyən Simko tərəfindən qəbul edilmədi. O, Mar Şəmunu aldadaraq görüşə çağırdı və sui-qəsdlə onu qətl etdirdi. Lakin bölgədə ingilis və rusların yardımı ilə Aysor dövlətini qurmaq cəhdləri bundan sonra da davam etdi [12, s.7]. Əvvəllər Osmanlıya qarşı silahlı mübarizədə aktiv rol oynamış erməni mənşəli Ağa Petros ingilis və rusların yardımı ilə Qacar ərazisində xristian dövlətini qurmaq cəhdinə davam etdi [12, s.7]. O, nəsturilərin üsyanının Qacarlara məğlubiyyətindən sonra peşman olmuş və "Müharibədən əvvəl biz xoşbəxt idik" deyərək üzüntüsünü dilə gətirmişdi [39, s.74-75].

Qeyd edək ki, ABŞ-dan olan protestant missionerlər, xüsusilə həm də Urmiya konsulu olmuş V.Şedd (ö.1918) aysorları ciddi mənada dəstəkləyir və təşkilatlandırırdılar. Onlar Osmanlıların hücumundan sonra bölgəni tərk etməyə məcbur olmuşdular [20, s.14]. Erməni-aysor hücumları nəticəsində soyqırımlara məruz qalan müsəlman əhalinin imdadına Osmanlı ordusu yetişir. Simko da aysorlara və Qacar dövlətinə qarşı Osmanlı ilə ittifaqa gedir [33, s.120].

1918-ci ilin iyun ayında Ehsan Paşanın komandanlığı ilə Osmanlı ordusu Azərbaycanın güneyinə girir, Urmiya və Salmasda erməni və aysorların türklərə qarşı etdiyi soyqırımların qarşısnı alır. Osmanlının şəhəri ələ keçirməsindən sonra urmiyalı aysorlar Həmədana qaçdılar, sonra isə ingilis hərbçilərinin mühafizəsi altında İraqa köçdülər. Aysorlarla birgə rus missioner heyəti də Urmiyanı birdəfəlik tərk etdi. Aysorların ancaq bir hissəsi 1920-ci ildən sonra öz vətənlərinə qayıda bildilər.

Osmanlı ordusunun Azərbaycana girməsi Qacarlara görə Osmanlı tabeliyində vahid Azərbaycan qurmaq planının tərkib hissəsi idi. Osmanlının bu planı Qacarlar tərəfindən narazılıqla qarşılanmışdı. Sənədlərdə də Ənvər paşanın belə bir planının olması bilinir [41, s.569]. I Dünya müharibəsində məğlub olan Osmanlı ordusu son nəticədə Azərbaycanı tərk etməyə məcbur olsa da, Azərbaycan xalqını erməni-aysor soyqırımından xilas edə bildi.

Çar Rusiyasının Qacar dövlətinə imperialist missionerlik siyasətinə də ancaq Rusiyada bolşevik çevrilişindən sonra son qoyuldu [26, s.17]. Lenin elan etmişdi ki, "1907-ci ildə Rusiya-İngiltərə arasında bağlanmış müqavilə parçalandı və zülmkar çar hökumətinin Qacarlardakı bütün imtiyazları ləğv

edildi" [15, s.76]. Azərbaycanlı mütəfəkkir S.H.Tağızadə bunu təsdiqləyərək qeyd edirdi ki, "1917-ci ildə Rusiyada baş verən Böyük Oktyabr sosialist inqilabı ölkəmizin istiqlaliyyəti üçün çox mühüm bir amil oldu. Əgər o inqilab baş verməsəydi, bu gün nə İran, nə də Türkiyədən bir iz belə qalmazdı" [15, s.76]. S.C.Pişəvəri də bu inqilabın imperializmin qalasını yıxdığını bildirmişdi [15, s.73]. Lakin Sovet Rusiyası Qacarlar üzərindəki imtiyazlarından imtina etsə də, 1920-ci ildə Azərbaycanın şimalını işğal etməklə özünün imperialist maraqları baxımından çar Rusiyasından fərqlənmədiyini ortaya qoydu.

**Nəticə**

Son olaraq deyə bilərik ki, Rusiya və Qərb dövlətlərinin xristian missionerləri vasitəsilə Qacar dövlətini parçalamaq, burada özlərinə tabe xristian dövləti qurmaq, müsəlmanları assimilyasiya etmək cəhdləri baş tutmadı. Bunda Rusiyada hakimiyyətə gələn bolşeviklərin Qacarlar üzərindəki bütün keçmiş imtiyazlardan imtina etməsi və Qacarların torpaq bütünlüyünü tanımaları da böyük rol oynadı. Hər nə qədər erməni-aysor silahlı dəstələri müsəlmanlara qarşı soyqırımlar törətsə də, Osmanlı türklərinin Azərbaycan xalqına yardımı sayəsində bu faciələrə son qoyuldu. Xarici missionerlərin müsəlmanların əleyhinə olan fəaliyyəti isə öz məqsədinə nail olmadı.

## ƏDƏBİYYAT


1. *Arif (Şıxəliyev) E.* İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, 144 s.
2. *Bünyadov Z.* Dinlər, təriqətlər, məzhəblər. Bakı: Şərq-Qərb, 2007, 336 s.
3. *Əlizadə A.* Xristianlıq: Tarix və fəlsəfə (ilk çağlar). Bakı: Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 2007, 172 s.
4. *Həsənzadə T.* Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri. Bakı: Tural, 2001, 224 s.
5. *Hüseynzadə Ə.* İranda misyonerlər // "Həyat" qəz., Bakı, 1905, 1 iyul, s.1-2
6. *Hüseynzadə Ə.* Seçilmiş əsərləri: 2 cilddə, II c., Bakı, 2008, 496 s.
7. *İsmayıl X.* Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı. Bakı: "Saral" Poliqrafiya MMC, 2017, 304 s.
8. *Məmmədquluzadə C.* Misyonerlik // Molla Nəsrəddin, Tiflis, 1921, № 6, s.3-4
9. Molla Nəsrəddin: satirik jurnal, VI c., / red. İ.Həbibbəyli, T.Kərimli. Bakı: Şərq-Qərb, 2018, 675 s.
10. *Səfəri H.* Cənubi Azərbaycan: 1918-ci il soyqırımı. Bakı: Araz, 2016, 204 s.
11. *Sidqi M.T.* Əsərləri. Bakı: Çaşıoğlu, 2004, 280 s.
12. *Süleyman T.* Simko inqilabının Kürdüstan və Azərbaycan tarixində rolu // "Diplomat" qəz., 2013, 9-15 dekabr, s.6-7

13. Şahzadə Nadir Mirzə Qacar. Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri. Bakı: Elm, 2019, 566 s.
14. *Şəfiyeva Ə.H.* İranın modernləşməsində S.H.Tağızadənin rolu: tarix üzrə fəlsəfə dok. dis. Bakı, 2013, 196 s.
15. *Şəmsi M.* İranın ictimai və siyasi xadimləri Böyük Oktyabr sosialist inqilabının əhəmiyyəti haqqında / Böyük Oktyabr və xarici Şərq. Bakı: Elm, 1987, 208 s.
16. *Təbrizi Ə.K.* İranın məşrutə inqilabının tarixi. Tərc. ed. A.Ə.Haşimi. Essen: Nima Verlag, 2003, 1047 s.
17. *Tərbiyət M.* Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1967, 464 s.
18. Armenia and Kurdistan. Ed. G.W.Prothero. London, 1920, 110 p.
19. *Browne E.* The Persian Revolution of 1905-1909. Cambridge Univercity Press, 1910, 473 p.
20. *Call E.N., Baker M.* Documenting Protestant Missionary Activism during the Armenian Genocide // New York: Philanthropy, Faith, and Influence: The Reading Room, 2016, Vol.1, pp.7-18
21. *Curzon G.N.* Persia and the Persian question. Vol. 1, London, 1892, 731 p.
22. *Shuster W.M.* The strungling of Persia. New York, 1912, 434 p.
23. Архиепископ Курганский и Шадринский Костантин. История православной миссии в Иране // Вестник Екатеринбургской духовной семинарии. Вып. 2(4), 2012, с.12-39
24. *Вердиева Х.* Немцы в Северном Азербайджане. Баку: Элм, 2009, 208 с.
25. *Герд Л.А.* Англиканская и русская православная миссии к несторианам Персии и Турции в конце XIX в. // Христианское Чтение, № 2, 2015, с.137-157
26. *Шамси М.* Развитие просвещения в Иране (1851-1917). Автореф. дисс. ... док. истор. наук. Баку, 1981, 45 с.
27. *Aydemir Ş.S.,* Makedonya'dan Ortaasya'ya Enver Paşa 1914-1922. III c., İstanbul: Remzi, 1978, 530 s.
28. *Aydın M.* Misyonerlik Kıskacında Nesturiler: Katolik, Ortodoks ve Protestan Misyonerlerin Nesturiler Arasındaki Faaliyetleri ve Bunun Siyasi Sonuçları // Erdem, № 2 (60), 2011, s.1-30
29. *Domazeti R.* İranda eğitim: Batı eğitim mirasından devrimçi eğitime // İNSAMER, 2008, № 76, s.1-9
30. *Doulatabai F.* Ahter gazetesi çerçevesinde İran-Türkiye fikri ve edebi ilişkileri. İzmir: TC. Ege Üniversitesi, 2005, 231 s.
31. *Esedli M.* Ahund Yusuf Ziya Talıbzadenin Türkiyedeki dini, siyasi ve herbi fealiyyetleri (1906-1918) // Türk Dünyası İncelemeleri Dergisi, İzmir, 2007, № 7 (1), s.67-78
32. *Harman Ö.F.* Abdulahad Davud // TDV İslam Ansiklopedisi, İstanbul, 1988, s.177-178
33. *Karabalık K.* Birinci Dünya Savaşında Güney Azerbaycan. Bolu: Bolu Abant İzzet Baysal Üniversitesi, 178 s.
34. *Karadeniz Y.* İran tarihi (1700-1825). İstanbul: Selenge yay., 2012, 577 s.
35. *Karadeniz Y.* Kaçar hanedanı (1795-1825). Malatya: İnönü Üniversitesi, 2004, 424 s.

36. *Karadeniz Y.* 1907'deki İngiliz-Rus Anlaşması'nın İran Siyasetine Etkisi // Route Educational and Social Science Journal, March 2017, Vol. 4(2), s.222-236
37. *Poole S.* Eugene Boré ve Katolik Vincentian Cemaati'nin Yakındoğu'da Kurduğu Misyoner Merkezleri. Terc. A.Aksu // FSM İlmî Araştırmalar İnsan ve Toplum Bilimleri Dergisi, 2016, №7, s.337-366
38. *Satılmış S.* I. Dünya Savaşı Öncesinde Nesturiler ve Onlara Yönelik Misyonerlik Faaliyetleri. Balıkesir: Balıkesir Üniversitesi, 2006, 187 s.
39. *Şenoğlugil M.* Nesturi isyanı ve Musul sorununa etkileri. İstanbul: İstanbul Üniversitesi, 2015, 118 s.
40. *Turgut R.* Koçanis: Üç Asırlık Nesturi Patrikhane Merkezi (1600-1915) / Uluslararası Tarihte Hakkari Sempozyumunun materyalleri. Hakkari, 14-16 kasım 2014, s.19-34
41. *Yel S.* Azerbaycan Cumhuriyeti Devleti'nin Kuruluşunda Türkiye'nin Yardımları İlhak Amacına mı Yönelikti? // Ankara Üniversitesi Türk İnkılâp Tarihi Ensitüsü Atatürk Yolu Dergisi. Sayı: 24, Kasım 1999-2003 s. 563-578
42. *Kəsrəvi Ə.* Tarixe-məşruteye-İran. Tehran: Əmir Kəbir, 1343, 906 s.
43. *Tərbiyət M.* Danişməndane-Azərbaycan. Tehran, 1314, 414 s.
44. *Nəsibzadə N.* Güney tarixində fədakarlıq və qəflət dövrü / URL: http://davam.az/6068-gney-azrbaycan-tarxnd-fdakarlq-v-qflt-dvr-1.html
45. *Yigitoğlu N.* "Molla Nəsrəddin" jurnalında erməni-müsəlman münaqişəsi və onun səbəbləri / URL: https://modern.az/az/news/200512
46. *Bennett C.* The Legacy of Henry Martyn. – 15 p. URL:https://www.researchgate.net/publication/278966768_The_Legacy_of_Henry_Martyn
47. *Ekbal K.* Baskerville Howard C. / URL:http://www.iranicaonline.org/articles/baskerville-howard-c
48. *Hadidi D.* French schools in Persia / URL:http://www.iranicaonline.org/articles/france-xv
49. Иран. URL: https://www.pravenc.ru/text/673877.html
50. *Наумов Н.* Россия и Ассурия. URL: https://serg-slavorum.livejournal.com/1646510.html
51. *Эжен Боре* / URL:http://ru.hayazg.info/%D0%AD%D0%B6%D0%B5%D0%BD_%D0%91%D0%BE%D1%80%D0%B5

Redaksiyaya daxil olub 15.02.2021

*UOT 94(479.24)*

***A.H.İftixari***
*AMEA Tarix İnstitutu*
*arasheftekhari@yahoo.com*

# DAĞLIQ QARABAĞIN TARİXİ COĞRAFİYASINA DAİR (İRAN TARİXŞÜNASLIĞINDA)

***Açar sözlər**: İran tarixşünaslığı, Dağlıq Qarabağ, tarixi coğrafiya, erməni amili, fars şovinizmi*

XX əsrin sonlarında Azərbaycanın Dağlıq Qarabağ vilayətində qızışdırılmış ermənilərin separatçı hərəkətləri və Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüz nəticəsində Dağlıq Qarabağın siyasi taleyi və tarixi məsələləri yenidən gündəmə gətirilmişdir. Ermənilərin yaratdığı Dağlıq Qarabağ münaqişəsi istər-istəməz qonşu ölkələrin reaksiyasına səbəb olmuşdur. Bu arada İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyü və münaqişə haqqında tutduğu mövqeyi xeyli önəmlidir. Həmin məsələlər İran tarixşünaslığında tamamilə əks olunmuşdur. Məqalədə İran tarixşünaslığını təmsil edən şovinist-fars və erməni müəlliflərin əsərlərində Azərbaycanın Dağlıq Qarabağ vilayətinin tarixi coğrafiyasına dair dərc olunmuş qeyri-elmi, saxta və qərəzli iddiaların həqiqi mahiyyəti üzə çıxarılmışdır.

***А.Г.Ифтихари***

# ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ НАГОРНОГО КАРАБАХА (В ИРАНСКОЙ ИСТОРИОГРАФИИ)

***Ключевые слова:** иранская историография, Нагорный Карабах, историческая география, армянский фактор, персидский шовинизм*

Политическая судьба и исторические вопросы Нагорного Карабаха были вновь подняты в конце XX века в результате сепаратистских действий армян в Нагорно-Карабахском регионе Азербайджана и военной агрессии Армении против азербайджанских территорий. Созданный армянами Нагорно-Карабахский конфликт неизбежно вызвал реакцию соседних стран. Между тем, позиция Исламской Республики Иран по территориальной целостности Азербайджана и конфликту очень важна. Эти вопросы полностью отражены в иранской историографии. В статье раскрывается истинный характер ненаучных, ложных и предвзятых утверждений об исторической географии Нагорно-Карабахского региона Азербайджана, опубликованных в трудах шовинистско-персидских и армянских авторов, представляющих иранскую историографию.

***A.H.Eftekhari***

## THE HISTORICAL GEOGRAPHY OF THE NAGORNO-KARABAKH (IN IRANIAN HISTORIOGRAPHY)

***Keywords**: Iranian historiography, Nagorno-Karabakh, historical geography, armenian factor, persian chauvinism*

The political fate and historical issues of Nagorno-Karabakh were brought up again in the late twentieth century as a result of the separatist actions of the Armenians in the Nagorno-Karabakh region of Azerbaijan and the military aggression of Armenia against the Azerbaijani territories. The Nagorno-Karabakh conflict created by the Armenians inevitably provoked a reaction from neighboring countries. Meanwhile, the position of the Islamic Republic of Iran on the territorial integrity of Azerbaijan and the conflict is very important. These issues are fully reflected in Iranian historiography. The article reveals the true nature of the unscientific, false and biased claims about the historical geography of the Nagorno-Karabakh region of Azerbaijan published in the works of chauvinist-Persian and Armenian authors representing Iranian historiography.

### Giriş

XX əsrin 20-ci illərində ingilislərin açıq-aşkar müdaxiləsi nəticəsində yaradılan Pəhləvi hakimiyyəti və onun ideoloji əsaslarını təmin edən irançılıq, farsçılıq və millətçilik məfkurələri bir zərurət kimi gündəmə gətirilmiş və dövlət doktirinasına çevrilmişdir. 1979-cu il fevral inqilabından sonra din pərdəsi altında gizlənən həmin məfkurələr İrana məxsus şiəçilik (Ruhullah Xomeyninin "Vilayəte fəqih" nəzəriyyəsi) prinsiplərinin təsiri nəticəsində mürəkkəb formaya salınmışdır. Həmin məfkurələr əsasında tədqiq olunan İran tarixi və ona aid iddia olunan konsepsiyalar tamamilə İran tarixşünaslığı adlanır. Onun mahiyyətini təşkil edən qədimlilik, paniranizm, panfarsizm, antiərəb, antitürk və antiazərbaycan kimi qeyri-elmi məfkurələrin təsiri nəticəsində Azərbaycan həqiqətlərinə və onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağın tarixi coğrafiyasına dair bir sıra saxta və qərəzli fikirlər irəli sürülmüşdür. Qeyd edək ki, İran tarixşünaslığına mənsub ilkin müəlliflərin əsərlərində əsasən vətənpərvərlik, irançılıq və dövlətçilik tarixi kimi mövzuların təbliği çoxluq təşkil etsə də, sonrakı əsərlərin məzmunu və mahiyyəti tarixşünaslıq elminin prinsiplərindən tamamilə kənarda yazılmışdır. Belə ki, son zamanlar İranda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar nəşr olunan əsərlərin əksəriyyətində Azərbaycan tarixinin konseptual məsələləri, o cümlədən Azərbaycanın dövlətçilik tarixi, tarixi coğrafiyası, etnik mənsubiyyəti, dili, dini, mədəniyyəti və ən başlıca, Qarabağın və onun dağlıq ərazilərinin tarixi haqqında bir sıra qərəzli və həqiqətdən kənar iddialar irəli sürülmüşdür.

İranda ermənilərlə eyni istiqamətdə çalışan şovinist-fars müəlliflərin

əsərlərində tədqiq edilən türk və Azərbaycan tarixinin konseptual məsələləri tam mərkəzdə dayanır. Onların nəşr etdikləri əsərlərində Azərbaycan həqiqətlərinin təhrifi bir həyati misiyya kimi hədəf götürülmüşdür. İran tarixşünaslığında əsas istiqamətə çevrilən antitürk və antiazərbaycan məfkurələrin təbliği vasitəsi ilə ermənilərin uydurma iddialarına haqq qazandırmağa səylər göstərilir. İranda geniş miqyasda nəşr olunan antiazərbaycan müəlliflərin əsərlərində bütün dünya ictimaiyyətinin xəbəri olduğu və beynəlxalq təşkilatların qınadığı ermənilərin işğalçılıq siyasətləri, ərazi iddiaları, xəyanətləri, ötən əsrdə və əsasən Dağlıq Qarabağ ərazilərində törətdikləri qanlı cinayətləri tamamilə ört-basdır edilir. Onların əsərlərində lazım gəlirsə ermənilərin cinayətləri, separatçı hərəkətləri və hərbi təcavüzləri kimi çirkin əməlləri çəkinmədən milli azadlıq hərəkatı kimi təqdim olunur. Hal-hazırda İran tarixşünaslığını əhatə edən şovinist fars millətçilərlə bərabər onların erməni müttəfiqləri əl-ələ verərək Azərbaycan tarixinin həqiqətlərini təhrif etməkdə israrlıdırlar. Onlar öz əsərlərində Dağlıq Qarabağ ərazilərini "tarixi İran" və "qədim Ermənistan" ərazisi kimi təqdim etməyə can atırlar. Məqalədə İran tarixşünaslığına söykənən həmin saxta və əsassız məfkurələrin mahiyyəti açıqlanır.

**Qarabağ və Dağlıq Qarabağın tarixşünaslığına dair**

Əksər ümumi tarixi mənbələrdə Qədim və böyük Azərbaycanın ayrılmaz parçası olan Qarabağın və onun dağlıq ərazilərinin tarixi coğrafiyası, siyasi tarixi, əhalisi, etnik tərkibi, mədəniyyəti və iqtisadi həyatına dair dəyərli məlumatlar dərc olunmuşdur. Tarixi mənbələrdə dərc olunan ümumi məlumatlardan əlavə əsasən XIX əsrin birinci yarısında rusların işğala məruz qalan Qarabağın əhvalatına dair əsasən türk və fars dillərində qələmə alınmış tarixi əsərlər 2qüdə mövcuddur. Həmin əsərlərdə məhz Azərbaycanın Qarabağ mahalının hərbi, siyasi və ictimai hadisələri öz detalları ilə əks olunmuşdur. Qarabağ tarixinə dair yazılan ilkin əsərlərdən Mirzə Adıgözəl Bəyin Azərbaycan türkcəsində yazdığı "Qarabağnamələr", Mirzə Camal Cavanşirin fars dilində yazdığı "Tarixe Qarabağ", Həsənəlixan Qarabağlının Azərbaycan türkcəsində yazdığı "Pənahxan, İbrahimxanın və Mehdiquluxan hökmranlığı dövrdə Qarabağ vilayətninin vəziyyəti və əhvalatı", "Mirzə Rəhim Fənanın Azərbaycan türkcəsində yazdığı "Qarabağın yeni tarixi" və "Qarabağ əhvalatı" əsərləri, Mirzə Yusif Qarabağinin "Tarixe safi", Pənahxanın nəvəsi Əhmədbəy Cavanşirin yazdığı "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi vəziyyətinə dair" kitabı və Gövhərağa Xanımın "Vəqfnamə"si kimi mənbə və əsərlərdə Qarabağın daxili və regional vəziyyəti öz detalları ilə şərh olunur.

Müasir Azərbaycan tarixşünaslığında tədqiqat aparan müəlliflərin əsərlərində də həmin mənbələrə istinad edilmiş və yüzlərlə elmi əsər nəşr edilmişdir. Bu haqda tarixçi N.Məmmədovun "Akademik Yaqub Mahmudov

elmi yaradıcılığında Qarabağ mövzusu" [8] əsərində Qarabağ tarixinə dair çox əhəmiyyətli faktlara işarə olunur. Əsərdə Qarabağ bölgəsi də daxil olmaqla Azərbaycan ərazilərində ilk dövlətlərin yaranma tarixi, Skif çarlığı, Qarabağ Albaniya dövlətinin tərkibində, Roma işğalları, erkən və orta əsrlədə Qarabağın tarixi coğrafiyası, Qarabağ ərəb xilafəti dövründə, IX-XII əsrlərdə, monqol yürüşləri dövründə, teymurilər və səfəvilərin hakimiyyətində, Qarabağ xanlığı, XIX əsr rusların işğalı dövründə, XX yüzilliyin əvvəllərində Qarabağın sosial-iqtisadi vəziyyəti, Xalq Cümhuriyyəti dövründə, Azərbaycan SSRİ Qarabağ bölgəsinin tarixi və Qarabağın yaxın keçmişinə dair tarixi faktlar əsasında geniş məlumatlar verilmişdir [8, s.18-26]. N.Məmmədovun "Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi" [9] əsərində də Azərbaycanın qədim şəhəri Şuşanın tarixindən bəhs edərkən, faktlar əsasında Qarabağın və digər qonşu ərazilərin Azərbaycan türklərinə aid olduğunu sübut edir.

Qarabağın tarixinə dair tədqiqat aparan müəlliflərdən akademik R.Mehdiyevin "Dağlıq Qarabağ: Məxəzlərdən oxunmuş tarix" [7] əsəri, akademik İ.Hacıyevin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri" [1], akademik Y.Mahmudovun K.Şükürovla birgə yazdıqları "Qarabağ. Real tarix, faktlar, sənədlər" [6] və C.Mustafayevlə birgə yazdıqları "Şuşa-Pənahabad" [5] əsərlərində Qarabağın tarixi coğrafiyası və siyasi tarixinə dair əhəmiyyətli məlumatlar verilmişdir. Həmçinin akademik T.Köçərlinin "Qarabağ: yalan və həqiqətlər" [3], K.Şükürovun [11], Q.Hacıyevin [2] və V.Piriyevin [10] əsərlərində Azərbaycanın Qarabağ bölgəsinin tarixi, tarixi coğrafiyası, siyasi tarixi, sosial-iqtisadi və demoqrafik vəziyyəti, əraziləri, sərhədləri, mədəni həyatı, inzibati ərazi bölgüsü, ermənilərin bu bölgədə yerləşdirilmə siyasəti və digər məsələlər tədqiq olunmuşdur.

Bütün bunlara baxmayaraq Qarabağın həqiqi tarixini və tarixi coğrafiyasını antik və orta əsrlərə aid mənbələr əsasında yazılan elmi əsərlərdən fərqli olaraq İran tarixşünaslığında nəşr olunan əsərlərin məzmunu və mahiyyəti tam fərqlidir. İranda hakim olan tarixçilik cərəyanının konsepsiyalarına əsasən Qarabağ və onun Dağlıq hissəsinin ümumi tarixi, tarixi coğrafiyası, mədəni həyatı və siyasi tarixinə dair yüzlərlə qərəzli əsər nəşr olunmuşdur. Xatırladaq ki, XX əsrin sonlarında tarixi Azərbaycanın şimal ərazilərinin bir parçasında öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikasının qarşısında düran müxtəlif təhdidlərlə yanaşı, şovinist-fars və erməni müəlliflərinin əsl mahiyyəti üzə çıxmışdır. Elə məhz həmin ərəfədən başlayaraq İranın Qafqaz siyasətində irəli sürdüyü antiazərbaycan mövqeyi gündəmə gətirilmişdir. Qeyd edək ki, İranda Qarabağ bölgəsinin tarixinə dair nəşr olunan əsərlərin əksəriyyəti Azərbaycanın müstəqillik ərəfəsində qızışdırılmış erməni separatizmi və Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü dövrünə təsadüf edir. İran İslam Respublikası istər-istəməz bu münaqişənin təsir dairəsinə düşərək İran cəmiyyətində və Cənubi Azərbaycan mühitində yaranan

milli düşüncə və vətən sevgisini məhv etdirmək məqsədilə özünün Qafqaz siyasətində və Qafqaz ölkələri ilə münasibətlərində bir sıra tarixi və strateji səhvlərə yol vermişdir. Bu siyasət birbaşa İran rəsmilərinin qeyri-şəffaf mövqelərində, şovinist müəlliflərin nəşr etdikləri əsərlərində, ermənilərin İran mətbuatında açıq-aşkar antiazərbaycan fəaliyyətlərində və İranın Ermənistanla qurduğu strateji münasibətlərində öz əksini tapmışdır.

Xatırladaq ki, İranda Qarabağın tarixi coğrafiyasına dair yazan şovinist müəlliflərin əsərləri tamamilə ermənilərin fars dilinə tərcümə etdikləri kitabların təsiri altında tərtib edilmişdir. Səbəb ondadır ki, təxminən XX əsrin əvvəllərindən indiyədək ardıcıl, yaxud müvəqqəti şəkildə nəşr olunan 100 ünvandan artıq erməni mətbuatı [27] və ermənilərin fars dilində nəşr etdikləri yüzlərlə tarixi və ədəbi əsərləri antitürk və antiazərbaycan müəllifləri öz təsir dairəsinə salmaya bilməzdi. Fars tədqiqatçıların ixtiyarında olan erməni müəlliflərinin əsərlərində Azərbaycanın Qarabağ bölgəsinin tarixi təmamilə təhrif edilmişdir. Həmin mövzu İran müəllifləri və rəsmilərinin tarixi təfəkkürünə mənfi təsir bağışlayan əsas amillərdən biridir. Halbuki İranda Azərbaycan həqiqətlərini əks etdirən farsdilli və əski əlifbada yazılan obyektiv əsərlərin sayı çox azdır. Yəqin ki, bu məsələ ötən yüz il ərzində hakimiyyəti ələ keçirən pəhləvilərin dəstəklədiyi şovinist-fars məktəbinin və indiki hakim dairələrin davam etdirdiyi antiazərbaycan və ermənipərəst siyasətinin nəticəsində yaranmışdır.

İran tarixşünaslığında Qarabağ tarixinə dair yazan müəlliflər əsasən qədim və orta əsrlərə aid mənbələrə istinad edərək subyektiv şəkildə öz fikirlərini irəli sürməyə cəhdlər göstərmişlər. Bu sahədə çalışan tanınmış antiazərbaycan müəlliflərdən İ.Rızanın [30, s. 4-25], K.Bəyatın [26], B.Ə.Əhmədiyanın [122], H.Əhmədinin [21], V.Kuzəgərin [32], M.İrfaniyanın [24, s. 65-72], K.X.Cavidin [28, s. 87-109], R.Şohrətifərdin [28, s. 111-128], M.Təqəvinin [28, s.129-140] və digər müəlliflərin əsərləri birinci yerdə dayanır. Azərbaycan həqiqətlərinin təhrifini özünə peşə seçən Ermənistanda, İranda və dünyanın digər ölkələrində olan erməni müəlliflərdən Karen Xanlərənin [29], Roben Qaliçiyanın [33; 34], Anuşik Məlikinin [36], İsak Yunansiyanın [35], Rafi Arakliyansın [20], Edik Bağdasariyanın, Şahin Huspiyanın, Hakup Məlik Hakupiyanın [37] və başqalarının əsərlərində Qarabağın tarixinə dair kifayət qədər təhriflər və uydurmalar nəşr olunmuşdur. Məqalədə İran tarixşünaslığında geniş şəkildə yayılan bu əsərlərin mahiyyətinə işarə olunmuş və münasibət bildirilmişdir.

**İran tarixşünaslığında Qarabağın tarixi coğrafiyası**

Ümumiyyətlə, İran tarixşünaslığının konsepsiyalarına görə iranlılarla (farslar) ermənilərin eyni irqə mənsub olduqları, ortaq mədəniyyətə sahib olduqları, tarixən qonşu dövlətlər statusunda olduqları və müasir beynəlxalq

şərtlərə görə müştərək mənafelərinin olduğu kimi məsələlər onları bir siyasi və təbii müttəfiq kimi birləşdirmişdir. Onların tarixi və müştərək düşmən hesab etdikləri türklərə və azərbaycanlılara qarşı apardıqları qərəzli fəaliyyətləri nəşr etdikləri qərəzli əsərlərində tamamilə öz əksini tapmışdır. Təbiidir ki, min ildən artıq sürən türk imperiyalarının tərkibində olan bu kiçik etnosların arxasında müstəmləkəçi Qərb dövlətlərinin antitürk və antiislam siyasətləri dayanır. O, səbəbdəndir ki, Azərbaycanın düşmənləri öz məqsədlərinə çatmaq üçün bütün vasitələrdən, o cümlədən erməni və fars amillərindən istifadə etməyi daima diqqət mərkəzində saxlamışlar. Bu gün haqsız olaraq Azərbaycan düşmənlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair tutduqları mövqeləri onların gizlətdiyi çirkin niyyətlərini tamamilə üzə çıxarmışdır.

İranda Azərbaycanın Qarabağ bölgəsinin tarixinə dair nəşr olunan əsərlərin mahiyyəti və məzmunu yuxarıda qeyd etdiyimiz istiqamətdə tərtib edilmişdir. O, səbəbdəndir ki, Azərbaycan ərazilərində separatçılıq hərəkətləri ilə məşğul olan, Azərbaycan ərazilərinə hərbi təcavüz edən və qanlı cinayətlər törədən ermənilərin çirkin niyyətləri və nəşr etdikləri əsərlərin öyrənilməsi çox vacibdir. Həmin istiqamətdə sərbəst fəaliyyət göstərən ermənilərə məxsus mədəni, dini, elmi və ictimai təşkilatlar aktiv şəkildə öz fəaliyyətlərini davam etdirirlər. İran tarixşünaslığında panfarsist müəlliflər tərəfindən Azərbaycan həqiqətlərinə qarşı nəşr olunan yüzlərlə kitab və məqalələr başda olmaqla ermənilərin nəşr etdikləri müxtəlif kitablarda, məqalələrdə, qəzetlərdə, jurnallarda, konfrans materiallarında, internet saytlarında və ictimai şəbəkələrdə Azərbaycan həqiqətləri tamamilə təhrif edilir. Aşağıda həmin müəlliflərin yazdıqları əsərlərin bir neçəsinə işarə olunur.

### a) Qarabağın tarixi coğrafiyası şovinist-fars müəlliflərin əsərlərində

İranda müstəmləkəçi Qərb alimlərinin və erməni müəlliflərin təsir dairəsinə düşən şovinist-fars tarixçilərin əsərlərində Azərbaycan həqiqətlərinə qarşı irəli sürülən iddiaların genişliyi və strateji əhəmiyyətı diqqəti daha artıq cəlb edir. Bu əsərlərdə demək olar ki, bütün Azərbaycan tarixinin konseptual məsələlərinin təhrifi əsas məqsəd kimi nəzərdə tutulmuşdur. Həmin cərgədə yerləşən köhnə nəsil İrançi, farsçı və şovinist müəlliflərdən başqa ən yeni dövrdə ərsəyə gələn antiazərbaycan müəlliflərin nəşr etdirdikləri kitablar və məqalələr çox önəm daşıyır. İranda saxta tarixçilik cərəyanının qurucularından olan M.Foruği, H.Pirniya, M.Əfşar, Ə.Kəsrəvi, A.Aştiyani, H.Tağızadə, S.R.Şəfəq, F.Adəmiyyət, İ.Purdavud, S.Nəfisi, R.Yasemi, C.Fəqih, İ.Əfşar, P.Vərcavənd, İ.Rza, İ.Rain, F.Coneydi, Ə.Karəng və C.Tabatabai kimi şovinist tarixçilərin davamçısı olan yeni müəlliflər sanki Azərbaycan həqiqətlərinin təhrifini özlərinə peşə seçiblər. Tanınmış antiazərbaycan tarixçisi K.Bayat ermənilərin və panfarsist müəlliflərin əsərlərinə istinad edərək yazdığı bütün

əsərlərində Azərbaycan həqiqətlərini inkar etməyə səy göstərmişdir. O, "Qarabağ böhranı" [26] adlı kitabında yazır: "Moğul və Tatar tayfalarının yürüşləri sona çatdıqdan sonra Qaraqoyunluların hakimiyyətə gəlişi nəticəsində İranın regional suverenliyi bərpa olundu. Həmin zaman Qarabağ vilayəti hələ erməni Cəlalilər xanidanının hakimiyyətində dururdu" [26, s.13]. K.Bayat Qarabağın Azərbaycana məxsus olduğunu inkar etməklə bu haqda mövcud olan qərəzli və mübahisəli fikirləri qabartmağa can atır. Müəllif N.Nərimanovun 1920-ci ildəki çıxışına istinad edərək Dağlıq Qarabağın, Zəngəzurun və Naxçıvanın Ermənistan ərazisi olduğu barədə nəticələr çıxarmışdır" [26, s.49].

K.Bayatın əsərlərində təkrar olunan qərəzli fikirlərdən belə qənaətə gəlmək olar ki, müəllifin əslində Azərbaycana qarşı töhmət və iftira yazmaqdan başqa digər missiyası yoxdur. O, erməniləri Qafqaz regionunun aborogen əhalisi hesab edərək, Dağlıq Qarabağ ərazilərini erməni ərazisi kimi təqdim etməkdən heç çəkinmir [26, s.13]. Həmçinin münaqişə haqqında yazarkən ermənilərə haqq qazandırmağa və onların törətdikləri cinayətləri ört-basdır etməyə səylər göstərmişdir. K.Bayat "İran və Qarabağ məsələsi" adlı məqaləsində də bu vəzifəni layiqincə yerinə yetirmişdir. Məqalədə qeyd edir ki, "Qarabağ münaqişəsinin kökləri XX əsrin əvvəllərinə qayıdır. O, zaman Dağlıq Qarabağ əhalisnin əksəriyyətini təşkil edən ermənilərin razılığı olmadan boşeviklərlə Atatürkün anlaşması nəticəsində bu ərazi Azərbaycana verildi" [25, s.190].

İranda Azərbaycanın Qarabağ bölgəsinin tarixinə dair yazan qərəzli müəlliflərdən bir də Qafqazşünas B.Ə.Əhmədiyandır. Onun Dağlıq Qarabağ tarixinə dair və hal-hazırda davam edən münaqişə haqqında yazdığı ilk məqaləsi 1993-cü ildə nəşr edilmişdir [21, s.78-83]. Müəllif bu məqalədə tamamən obyektiv baxışla çıxış etmişdir. Məsələn, qeyd edir ki, "Qarabağ Azərbaycanın Arazdan yuxarıda olan tarixi vilayətilərindən biridir [21, s.78]. Qarabağ xanlığı 1747-ci il Nadir Şahın vəfatından sonra Azərbaycanın müstəqil xanlıqlarından biri olmuş və Pənahəli Xan Cavanşir oranın birinci xanı olmuşdur [21, s.79]. 1805-ci ildə ruslara tabe olan xanlıq ərazilərinə İranda və Qafqazın başqa ərazilərində olan ermənilərin Qarabağ ərazilərinə köçürülməsi başlanmışdır [21, s.80]. Müəllif öz qeydlərini rəsmi statistika ilə təsdiq etdirərək yazır ki, "1828-ci ildən sonra ermənilərin Qarabağ ərazilərinə köçürülməsi başlandı və 1826-28-ci illər ərzində 18 min erməni Qarabağa köçürüldü. 1828-30-cu illər ərzində isə İrandan və Osmanlı ərazilərindən 40 min erməni ailəsi Qarabağ daxil olmaqla Yelizavetpol və İrəvan quberniyasına köçürüldü və yerləşdirildi" [21, s.81].

Lakin bütün bunlara baxmayaraq, B.Əmirəhmədiyanın 2005-ci ildə nəşr etdirdiyi "İran və Azərbaycan Respublikası münasibətləri (azərilərin İrana baxışı)" [22] adlı kitabında Azərbaycan tarixinə dair çox qərəzli və əsassız məsələlər dərc etmişdir. Müəllif bütün sabiq əqidəsinə zidd olaraq Dağlıq

Qarabağın tarixinə dair yazır ki, "Qarabağın aborogen əhalisi olan ermənilər ən qədim dövrlərdən orada yaşamışlar və əsasən əhalinin 80%-i ermənilərdən ibarət olmuşdur. Onlar öz vətənlərini qorumaq üçün illər boyu mübarizə etmiş və böyük döyüşçülər yetirmişlər" [22, s.323]. Bu kimi ifadələrin istinadsız və əsassız olduğu dəfələrlə müxtəlif tarixçilər tərəfindən ifşa edilmişdir.

**b) Qarabağın tarixi coğrafiyası erməni müəlliflərin əsərlərində**

XIX əsrin əvvəllərindən etibarən məhdud şəkildə yazılmış ermənidilli nağılların və ədəbi əsərlərin mahiyyəti tarixi cəhətdən xeyli əhəmiyyətlidir. Salmas ermənisi H.M.Hakupiyanın (1835-1777) yazdığı "Cəlaləddin", "Dəli" və "Qığılcım" romanları ilə bərabər "Davit bəy" və "Beş məliklər" adlı tarixi kitabları birmənalı olaraq ermənilərin Qarabağ ərazilərinə gəldiyini və onların daxili vəziyyətini əks etdirir. Onun yazdığı "Beş məliklər" [37] adlı kitabının müxtəlif səhifələrində məliklərdən dördünün sonradan Qarabağ ərazilərinə köçdüyü [37, s.11], erməni keşişlərinin dəfələrlə ruslara müraciətləri məsələsi [37, s.58-86], onların mərkəzi dövlətlərə xərac verdikləri və daxili ixtilafları haqqında dəyərli məlumatlar dərc olunmuşdur. Bunlara baxmayaraq, müəllif öz əsərinin müxtəlif yerlərində heç bir mənbəyə muraciət etmədən Azərbaycanın Qarabağ vilayətini erməni ərazisi kimi təqdim edir. Xatırladaq ki, ermənilərin Osmanlı padşahlarına da dəfələrlə müraciətləri olmuşdur. Səfəvi dövründən sonra ermənilərin ruslara göndərdikləri təbəəlik məktubları rus arxivlərində mövcuddur. Tarixçi George Bournotian yazdığı "Armenians and Russia" əsərində həmin məktubların əksəriyyətini toplamışdır.

Ermənilərin antiazərbaycan fəaliyyətləri yəqin ki, SSRİ-nin süqutu ərəfəsindən artmışdır. Onların 2017-ci il Tehranda nəşr etdikləri "Arsax məsələsi (Qarabağ), məqalələr toplusu" [35] o cümlədəndir. Bu kitab Qarabağ tarixinin təhrifi ilə məşğul olan ermənilərin iddialarını əks etdirən ən sonuncu əsərlərdən biridir. 12 məqalədən, 60 xəritədən və onlarla şəkildən ibarət olan bu kitabın tərtibçisi İran ermənilərinə məxsus "Hur" adlı tərcümə və tədqiqat mərkəzinin müdiri İsak Yunansiyandır. Müəllif özünün və digər erməni müəlliflərin əsassız iddialarını toplamaqla Qarabağ tarixinə və Dağlıq Qarabağ münaqişəsinə dair irəli sürdüyü ən qərəzli və səhv müddəaların təbliğinə səylər göstərmişdir.

Kitabda Şahin Huspiyanın "Ermənistan tarixinə qısa baxış", "Coğrafi atlaslarda və xəritələrdə Ermənistan" və "Naxçıvan tarixinə qısa baxış" adlı məqalələri, İsak Yunansiyanın "Qafqaz Albaniyası, Aran, yaxud indiki Azərbaycan Respublikası", "Ermənilərlə tatarların toqquşması və Bakı ermənilərinin öldürülməsi (1905-1906)", "Azərbaycan Respublikasında ermənilərin etnik təmizlənməsi və öldürülməsi (1988-1990)", "Qarabağ müharibəsi və onunla əlaqədar hadisələr", "Antiermənilik Azərbaycan Respublikasının təbliğat silahı" və Roben Qaliçiyanla birgə "Ermənistan

tarixinin saxtalaşdırılması və təhrifi" adlı məqalələri, ermənilərin İslam Şura Məclisində olan deputatı Karen Xanlarinin "Atlaslarda və rəsmi Osmanlı yazılarında Azərbaycan" və "İslam mənbələri Qarabağın Ermənistana aid olduğu haqqında" məqalələri və Anuşik Məlikinin "Arsax (Qarabağ) tarixi haqqında xülasələr" adlı məqalələri dərc olunmuşdur.

Kitabda verilir: "Bu kitabın nəşrində əsas məqsəd odur ki, Ermənistanın, Arsaxın (Qarabağ) və Azərbaycan Respublikasının konseptual tarixi məsələlərinin ana xətləri oxucuya təqdim edilsin. Azərbaycan tez-tez hərbi insidentlər yaratmaqla bərabər özünəməxsus saxta tarix və kimlik yaratmaq məqsədi ilə təbliğat aparmaqdadır. Azərbaycan tarixçiləri Qarabağda 1600-dan artıq qeydə alınmış tarixi abidəni, məşhur tarixçilərin xəritələrini və İranın neçə yüzillik Qafqazda hakimiyyətini təhrif edərək milyardlarla dollar xərcləməklə regionun tarixini saxtalaşdırmağa səy göstərirlər. Kitab Qafqaz regionunun həqiqi tarixinin kiçik bir hissəsini oxucu kütləsinə çatdırmaq məqsədi ilə yazılmışdır. Belə ki, İran və Ermənistan kimi böyük millətlərin tarixinin təhrifinə şahid olaraq oxucular tərəfindən lazimi nəticələr çıxarılsın" [35, s.14-15].

Xatırlatmaq lazımdır ki, ermənilərin əsərlərində Ermənistanın üç minillik tarixə malik olduğu iddia olunur və XX əsrin əvvəllərinə qədər Araz çayının şimalında yaşayan azərbaycanlıların müstəqil dövlətçilik tarixinə malik olduqları inkar edilir. Ş.Huspiyan "Ermənistanın tarixinə qısa baxış" adlı məqaləsində erməni müəllifləri H.Pasdermaciyanın və E.Bağdasariyanın "Ermənistan tarixi" əsərlərinə istinad edərək Ermənistanın bir müstəqil dövlət kimi Partiya, Roma, Selevki və Sasani imperiyaları ilə beynəlxalq əlaqədə olduğunu iddia edir. Müəllif İran, Roma və Ermənistan arasında baş vermiş 30 illik müharibələrdən bəhs edərək müharibə nəticəsində Ermənistanın iki hissəyə parçalandığını bəyan etmişdir [35, s.17-44]. Ş.Huspiyan qeyd edir ki, ən qədim zamanlardan bu gunədək mövcud olan xəritələrdə Ermənistanın adı qeyd olunur. Türkiyə dövləti Ermənistanın adını bu xəritələrdən pozmağa cəhdlər göstərir [35, s.45]. Müəllif Naxçıvan ərazilərinin qədim Ermənistan ərazisi olduğunu da iddia edir. O, hətta Naxçıvan adını erməniləşdirir və ermənicə "ilkin məskən" anlamını daşıdığını bəyan edir [35, s.90].

İ.Yunansiyan yazdığı "Qafqaz Albaniyası, Aran, yaxud indiki Azərbaycan Respublikası" adlı məqaləsində heç bir mənbəyə istinad etmədən iddia edir ki, "Neçə minillik tarixə malik olan Ermənistanın və Gürcüstanın tarixi Azərbaycan Respublikasının tarixindən tam fərqlənir. Azərbaycanın adı və tarixi saxtadır və xüsusi məqsəd üçün yaradılmışdır [35, s.111]. Müəllif İ.Rzay və K.Bayat kimi məşhur şovinist tarixçilərə istinad edərək Azərbaycan dilinin və termininin saxta olduğunu da iddia edir [35, s.113].

Ermənilərin İran İslam Şura məclisindəki deputatı Karen Xanlərinin yazıları da diqqəti cəlb edir. O, yazdığı "Atlaslarda və rəsmi Osmanlı

yazılarında Azərbaycan" adlı məqaləsində Azərbaycan tarixçilərini pantürkist adlandıraraq tarixi xəritələrdə dərc olunan Azərbaycan adını gizlətməyə və İranla Ermənistan adlarını qabartmağa səy göstərir. K.Xanlərinin "Qarabağın tarixi coğrafiyasına dair" adlı digər məqaləsi İran ermənilərinin "Peyman" jurnalında nəşr edilmişdir [29]. Erməni müəllifi öz əsərlərinin ərəbdilli mənbələr və Osmanlı qaynaqları əsasında yazıldığını iddia edir. Müəllif məqaləsində Qarabağı "Ermənistan"ın tərkibində təqdim etməyə səylər göstərmişdir. O, qeyd edir ki, "keçmiş SSRİ dövləti Atatürkün etimadını qazanmaq məqsədi ilə Qarabağı və Naxçıvanı muxtar vilayət və muxtar respublika adları ilə Azərbaycan Respublikasına birləşdirdi". Müəllif iddialarını sübut etdirmək üçün Əlyəqubinin "Əttarix", İbn Xordadbehin "Əlməsalik vəl məmalik", Həmd İbn Rəstənin "Ələlaq ül nəfisə", İbn Fəqih Həmədaninin "Moxtəsər ketab ül büldan", Yaqut Həməvinin "Möcəm ül büldan" və Evliya Çələbinin əsərlərinə, Qarabağa aid olmayan və Qarabağın adı çəkilməyən hissələrə istinad edərək, əsassız nəticələr çıxarmağa səylər göstərmişdir.

K.Xanləri Şəmsəddin Saminin "Qamus ol aləm" və Əbdürrəhman Şərəfbəyin "Ümumi coğrafiya" əsərlərinə istinad edərək Qarabağı Şirvanın yox, İrəvan quberniyasının tərkibində verildiyini əsas fakt kimi nəzərdə tutur. Lakin müəllif Çar Rusiyasının tətbiq etdiyi müvəqqəti inzibati ərazi bölgüsü sistemini, İrəvanla ermənin in əlaqəsinin olmadığını, Ermənistanın yeni yarandığını, Ərminiyyə adlı ərazi ilə hayların heç bir əlaqəsinin olmadığını və tarixi Azərbaycanın müxtəlif vilayətlərinin coğrafi anlamını düzgün müəyyən edə bilmədiyinə görə əsassız nəticələr çıxarmışdır. Bütün bu məsələlərin izahatı öz təfərrüatı ilə tarixçi Y.Mahmudovun nəşr etdirdiyi "Real tarix və "böyük Ermənistan" uydurması" əsərində verilmişdir [4].

K.Xanlari "İslam mənbələrində Qarabağın Ermənistana aid olduğuna dair" adlı məqaləsində iddia edir ki, "Qarabağ uğrunda gedən müharibə əslində SSRİ-nin yanlış siyasətinin ucbatından yaranmışdır. O, səbəbdəndir ki, Azərbaycan Respublikası Qarabağın Azərbaycana aid olduğunu iddia edir". Müəllif internet resurslarına istinad edərək Qarabağın Ermənistana aid olduğunu əsaslandırmağa səy göstərmişdir. O, əsassız olaraq ərəb dilində yazılmış coğrafi əsərlərdə qeyd olunan Ərmən yaxud Ərminiyyə adlı inzibati ərazi bölgüsünü Ermənistan dövləti kimi və Qarabağ ərazilərini isə onun tabeliyində olan vilayət kimi təqdim edir [35, s.185-220].

Erməni müəllifi Anuşik Məlikinin yazdığı "Arsax (Qarabağ) tarixi haqqında xülasələr" adlı məqaləsində qeyd edir: "Arsax vilayəti eradan öncə I minillikdə böyük Haykın 15 əyalətindən biri olmuş və Ardaxuni və Ordexe adları ilə də tanınırdı. Eradan qabaq I minillikdən başlayaraq "Araratıyan" və "Yervanduni" dövlətlərinin hakimiyyəti dövründə böyük Ermənistanın bir parçası olmuşdur. Strabonun yazılarına əsasən, inkişaf etmiş iqtisadiyyata malik olan Arsaxın güclü süvari hərbçiləri Ermənistanla düşmənləri arasında baş

vermiş müharibələrdə iştirak edərmişlər [35, s.169] A.Məliki qeyd edir ki, Arsax vilayəti erməni xalqının siyasi və mədəni yüksəlişində böyük rol oynamışdır. IV əsrin əvvəllərində Arsax erməniləri xristianlığı qəbul etmişlər və Qriqorun vasitəsi ilə Amaras bölgəsində ilk kilsə tikilmişdir. Müəllif Qarabağ xanlığının tərkibində olan xristian icmalarını erməni məlikləri kimi təqdim etməklə yanaşı, məliklərin əhatə etdiyi əraziləri bütün Qarabağ ərazilərinə tətbiq etməyə cəhd göstərir.

Müəllif yazır ki, 428-ci ildə Ermənistanın Arşaquni yaxud Əşkani dövləti köçdükdən sonra Sasani dövləti Arsaxı, Udiki və Ağvanı birləşdirərək Zod şəhərinin mərkəzçiliyi ilə bir sərhəd qoruyucu dövlət yaratdı. Arsax ordusu sasanilərlə ermənilər arasında baş vermiş "Vartanq" adlı müharibələrdə iştirak etmişdir. V əsrdə sasanilərin daxili problemlərindən istifadə edən Aranşahik və Arsax hakimləri müstəqillik əldə edərək krallıq qurduqlarını elan etmişlər. Arsax əhalisi VII əsrdə ərəblərə qarşı qiyamlar qaldırmışlar. XI-XII əsrlər Arsax Səlcuq türklərinin işğalına məruz qaldı. XII əsrin ortalarından isə Xaçın hökmranlığı, nəhayət ki, səlcuqların əsarıtindən azad oldu və zakayanların əlinə keçdi. Arsax XIII əsrdə moğolların və tatarların hücumlarına məruz qaldı. Lakin Xaçın hakimi Həsən Cəlalüddövlənin tədbirləri nəticəsində uzun muddət təhlükədən qorundu. Arsax XV və XVI əsrlərdə Ağqoyunlu və Qaraqoyunlu türklərinin hücumlarına məruz qaldı. Bu tayfaların yürüşləri və talanları Arsax əhalisini çətin vəziyyətə salmışdır. Bütün bunlara baxmayaraq, Xaçın hakimi erməni hökmdarlığını mühafizə edərək sonralar yaranmış 5 məlikliyin əsasını qoymuşdur. XVIII əsrin ortalarında köçəri tayfaların başçılarından biri Pənahəli Xan məlik Şahnəzərin xəyanəti və yardımı nəticəsində Varandanın mərkəzi olan məşhur Şuşa qalasını işğal etdi. Pənahəli Xan İran şahının yardımı ilə əhaliyə qarşı qırğın apardı və Arsaxı ələ keçirdi. Nəhayət, illər boyu Osmanlıların qırğınlarından sonra Gülüstan müqaviləsinə əsasən Pənahəli Xan bölgəni ruslara təhvil verdi. Müəllif yazır ki, Dağlıq Qarabağ, Naxçuvan və Zəngəzur ərazilərinin ən qədim zamanlardan Ermənistan əraziləri olduğuna baxmayaraq 27 aprel 1920-ci il SSRİ qoşunları tərəfindən işğal olundu və 2 dekabr 1920-ci il tarixdə Azərbaycan dövləti bu ərazilər haqqında iddia qaldırdı. Üç ay yarımdan sonra xarici dövlətlərin, o cümlədən Türkiyə və Rusiyanın məkirli siyasətləri nəticəsində Naxçuvan bölgəsini də Ermənistandan ayırıb Azərbaycana bağışladılar [35, s.169-184].

Erməni müəllifi R.Qaliçiyanın fars dilinə tərcümə edilən iki kitabında xəritələr əsasında Dağlıq Qarabağın tarixi coğrafiyası şərh edilir. R.Qaliçiyan "Cənubi Qafqazda tarixlərin toqquşması" [33] və "Tarixin saxtalaşdırılması" [34] adlı kitablarında çox əsassız iddialarla çıxış edir. O, "Tarixin saxtalaşdırılması" kitabının sonuna Cerald Libaridiyanın 1988-ci il Qarabağ tarixi haqqında Torontoda nəşr etdirdiyi məqaləsini də əlavə etmişdir. Müəllif orada yazır ki, "Ermənilərin Xristian dinini qəbul etdikdən sonra V əsrdə

aranlılarla sıx əlaqələri olmuşdur. Belə ki, aranlıları da erməni dininə cəlb edərək birinci erməni kilsəsi müqəddəs Girigorun vasitəsi ilə indiki Qarabağ adlanan Martonidə tikilmişdir. Beləliklə, aranlılar ermənilərlə qaynayıb-qarışdılar və aranlıların kimliyi əriyib yox oldu. Ərəblərin və türklərin yürüşləri nəticəsində Qarabağın aran ərazilərində böyük xəsarətlər yaransa da, Qarabağın dağlıq hissəsində yerləşən Siyonik feodallıq hakimiyyəti özünü və Ermənistanı qorumağa nail olmuşdur [34, s.134-135].

R.Qaliçiyan Qarabağın müasir tarixinə dair qeyd edir ki, "XVII və XVIII əsrlərdə Qarabağ vilayəti ermənilərin milli azadlıq hərəkatının ocağı olmuşdur. Onlar Ermənistan yaylasını azad etmək məqsədilə Rusiyanı və digər Avropa dövlətlərini yeni xaç yürüşləri aparmağa cəlb etmək üçün səylər göstərmişlər" [34, s.135]. Müəllif yazır: "Ermənilərin qədim tarixini təsdiq edən mənbələrdə yazılan faktlar şübhəsiz ki, Azərbaycan tarixçilərini, o cümlədən Z.Bünyadovu, F.Məmmədovanı və R.Göyüşovu çətinliyə salıb və onlar öz iddialarını sübut etdirmək üçün bu mənbələrə müraciət edib və həqiqətdən uzaq əsərlər yazmağa məcbur olmuşlar [34, s.19].

Mövzu ilə əlaqədar nəşr olunan digər əsər Edik Bağdasariyanın "Arran, Azərbaycan, cinayət və ərazi iddiası" [23] adlı kitabıdır. Kitab təhriflər və yalanlarla doludur. Müəllif Azərbaycan Respublikasının adının, ərazisinin, xəritələrinin və tarixinin saxta olduğunu iddia edir [23, s.105]. E.Bağdasariyan qeyd edir ki, "Tarixə düşən yanlış mövzulardan biri də Alban ilə Masaget ərazilərinin eyni olduğu məsələdir. Digər yanlış mövzu isə Utik və Arsax vilayətlərinin Alban ərazilərinin tərkibində verilməsidir. Halbuki bu vilayətlər böyük Ermənistanın 15 vilayətindən və Alban sərhəddində yerləşən vilayətlərdən biri olmuşdur" [23, s. 25-26].

Bütün bunlara baxmayaraq, əksər tarixi mənbələrdə dərc olunan Təbriz, Urmiyə, Şuşa, Şəki, Quba və Marağa kimi Azərbaycan şəhərləri ilə bərabər Qarabağ vilayətinin də adı qeyd olunur. Misal üçün, Elxanilər vəziri Fəzlullah Rəşidəddinin topladığı "Mükatibate Rəşidi" əsərinin 36 sayılı sənədində Araz Çayının cənubunda yerləşən ərazilərlə yanaşı, çayın şimalında yerləşən Naxçıvan, Qarabağ, Muğan, Arran və Şəki bölgələrini Azərbaycanın vilayətləri və naiblikləri adlandırır. Mənbədə Ərminiyyə adlı inzibati ərazi bölgüsü isə Azərbaycanın tərkib hissəsi kimidir [16, s.269-270]. Osmanlı səyyahı Övliya Çələbi XVII əsrdə yazdığı məşhur "Səyahətnamə" əsərində Naxçıvanın, İrəvanın və Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq edir [18, s.110-117]. Mirzə Səmian Səfəvi dövlətinin quruluşu, mənsəbləri, peşələri, maliyyə məsələləri, vilayətləri və hakimlərinə dair yazdığı "Təzkirətül-müluk" adlı əsərində Azərbaycan ölkəsinin Təbrizdən, Çuxursəddən, Qarabağdan və Şirvandan ibarət olan dörd bəylərbəyliyi öz detalları ilə göstərir [19, s.39; 65, s.72-79]. Mənbəyi V.Minorski və M.Rəcəbniya ingilis və fars dillərinə tərcümə etmişlər.

Qarabağın Azərbaycana aid olmasına dair digər sənəd 1764-cü ilin aprel ayında Kərim xan Zənd tərəfindən xristianlar haqqında verilmiş fərmanında öz əksini tapır. Fərmanda Azərbaycan vilayətləri sırasında Şirvanın, Qarabağın, Təbrizin, Gəncənin, Naxçıvanın adı çəkilir [31, s.365-366]. Rus polkovniki Stepan Burnaşevin 1786-cı ildə Azərbaycan vilayətləri və xanlıqlarına dair yazdığı kitabında Bakı, Quba, Nuxa, Şirvan , Gəncə, Şuşa (Qarabağ), Naxçıvan, Təbriz, Marağa, Urmiya, Xoy, Ərdəbil, Meşkin və s. xanlıqların əraziləri Azərbaycan vilayətləri kimi təqdim olunmuşdur [12; 19, s.120-121].

**Nəticə**

Son olaraq qeyd etmək lazımdır ki, İranda ermənilər və şovinist-fars cərəyanlar tərəfindən Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın tarixi coğrafiyasına dair nəşr olunmuş qərəzli və yanlış məlumatlar tamamilə tarixi həqiqətlərə ziddir. Çar Rusiyası dövrünə aid sənədlər və müasir tədqiqatçıların əsərləri ermənilərin Azərbaycan ərazilərinə köçürüldüyünü təsdiq edir. Ermənilərin 1828-1830-cu illər və sonrakı illərdə Qacar və Osmanlı ərazilərindən kütləvi şəkildə Qarabağa və İrəvana köçürüldüyü davam etmişdir [15, s.340], [14, s.75], [17, s.59-61], [13, s.76-77]. Tarix şahiddir ki, Qarabağ ərazisi daima Azərbaycan dövlətinin və Azərbaycan coğrafiyasının tərkibində olmuş və heç bir zaman erməni ərazisi sayılmamışdır. Lakin Azərbaycana qarşı nifrət yayan müəlliflər problemlər içərisində batan Rusiya və İran kimi dövlətlərə arxalanaraq açıq-aşkar Ermənistanı dəstəkləyirlər. Onlar Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistana və erməni separatçılarına haqq qazandırmaq üçün hər bir vasitədən istifadə etməyə can atırlar. İnanırıq ki, separatçıları və cinayətkarları mübarizlər kimi səciyyələndirmək, Qarabağı erməni ərazisi kimi təqdim etmək, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazi bütövlüyünü şübhə altına salmaq və azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasəti aparmaq kimi çirkin əməlləri dəstəkləyən müəlliflərin əsərləri ancaq ermənilərə bəraət qazandırmaqdan başqa digər məna daşımır.

Təbiidir ki, bir məqalədə İran tarixşünaslığında yayılmış əsərlərin nöqsanlı tərəflərinin tənqidi təhlili imkansızdır. O, səbəbdən təqdim olunan bu məqalədə bir neçə kitabın yalnız bəzi qüsurlu, qərəzli və qeyri-elmi cəhətlərinin tənqidi öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

1. *Hacıyev İ.M.* Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi NPB, 2012, 191 s.
2. *Hacıyev Q.Ə.* Qarabağ tarixi. Bakı: Təknur, 2014, 228 s.
3. *Köçərli T.* Qarabağ: yalan və həqiqət. Bakı: İrşad, 1998, 243 s.
4. *Mahmudov Y.* Real tarix və “Böyük Ermənistan” uydurması. Bakı: Turxan NPB, 2014, 144 s.

5. *Mahmudov Y., Mustafayev C.* Şuşa Pənahabad. Bakı: Təhsil, 2012, 152 s.
6. *Mahmudov Y., Şükürov K.* Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 143 s.
7. *Mehdiyev R., Abdullazadə F.* Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix. Bakı, 2000, 68 s.
8. *Məmmədov N.* Akademik Yaqub Mahmudov elmi yaradıcılığında Qarabağ mövzusu. Bakı: Avropa, 2018, 244 s.
9. *Məmmədov N.* Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: Avropa, 2016, 960 s.
10. *Piriyev V.Z.* Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
11. *Şükürov K.K.* Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı, 2004, 974 s.
12. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, 27 с.
13. *Алиев И.Г.* Нагорный Карабах: история, факты, события. Баку, 1989, 104 с.
14. *Величко В.Л.* Кавказ: русское дело и междуплеменные вопросы. Санкт-Петербург, 1904, 222 с.
15. *Грибоедов А.С.* Записка о переселении армян из Персии в наши области. Сочинения в 2-х томах, Т. 2, Москва: Правда, 1971, 341 с.
16. *Рашид ад-Дин.* Переписка (перевод, введение и комментарий А.И.Фалиной). Москва: Наука, 1971, 498 с.
17. *Шавров Н.Н.* Новая угроза русскому делу в Закавказье. Санкт-Петербург, 1911, 448 с.
18. *Эвлия Челеби.* Книга путешествия. Вып. 3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. Москва: Наука, 1983, 376 с.
19. *Minorsky V.F.* “Tadhkirat al-muluk”: A Manual of Safavid Administration circa 1137 / 1725. London, 1943, 348 p.
20. آراکلیانس رافی. آرتساخ کجاست؟ قره باغ چیست؟ نگاهی گذرا به سه هزار سال تاریخ، فصلنامه فرهنگی پیمان، شماره 76، سال بیستم، تابستان 1395.
21. امیر احمدی بهرام. قره باغَ: پیشینۀ تاریخی و ریشه های درگیری سرزمینهای آنسوی ارس، اطلاعات سیاسی اقتصادی، شمارۀ 72-71، 1372، ص 83-78.
22. امیراحمدیان بهرام. روابط ایران و جمهوری آذربایجان ( نگاه آذریها به ایران), تهران, دفتر مطالعات سیاسی و بین المللی, 1384, 499 ص.
23. باغداساریان ادیک. آرّان، آذربایجان، جنایت و توسعه طلبی، تورنتو،2014، 157 ص. ISBN: 987-1-927860-07-6
24. بررسی کتب درسی جمهوری آذربایجان. به کوشش حسین احمدی، تهران، موسسه مطالعات تاریخ معاصر ایران، 1396، 210 ص.
25. بیات کاوه. ایران و مسئلۀ قره باغ، فصلنامۀ گفتگو، شمارۀ 30، 1379، ص 198-189.
26. بیات کاوه. بحران قره باغ, تهران, انتشارات پروین, 1372, 155 ص.
27. بیگلریان آرمن. مطبوات ارمنی زبان در ایران، فصلنامه فرهنگی پیمان، شماه 5 و 6، سال دوم، بهار و تابستان 1376.
28. جمهوری آذربایجان،23 سال تکاپو برای دولت و ملت سازی. به کوشش حسین احمدی، تهران، مؤسسۀ مطالعات تاریخ معاصر، 1393، 373 ص.

29. خانلری کارن. منابع اسلامی در باب تعلق قراباغ به ارمنستان، فصلنامه فرهنگی پیمان، شماره 75، سال بیستم، بهار 1395.
30. رضا عنایت الله. آذربایجان و اران چگونه نام آذربایجان بر اران نهاده شد؟، اطلاعات سیاسی و اقتصادی، شماره 182-181، مهر و آبان 1381.
31. فرمان کریم خان زند در بارهٔ مسیحیان. مجلهٔ بررسی های تاریخی، شمارهٔ 9-10، 1346، ص 366-365.
32. کوزه گر کالجی ولی. مجموعهٔ امنیتی قفقاز جنوبی، تهران، پژوهشکدهٔ مطالعات راهبردی، 1396، 280 ص.
33. گالیچیان روبن. برخورد برخورد تواریخ در جنوب قفقاز، تهران، نشر ثالث، 1394، 272 ص.
34. گالیچیان روبن. جعل تاریخ آذربایجان، ارمنستان و جدال بر سر اوهام، ترجمه بابک واحدی، تهران، نشر کتاب، 1392، 138 ص.
35. مسألهٔ آرتساخ (قراباغ) مجموعهٔ مقالات ، به کوشش ایساک یونانسیان, تهران, نشر هَزار کرمان, 1396, 399 ص.
36. ملکی آنوشیک. آرتساخ- قراباغ در گذر تاریخ، فصلنامه فرهنگی پیمان، شماره 56، سال پانزدهم، تابستان 1390.
37. ملیک هاکوپیان هاکوپ. ملوک خمسه، ترجمهٔ آرا در استپانیان، تهران، نشر شیرازه، 1395، 208 ص.


Redaksiyaya daxil olub 24.09.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 95-103
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 95-103

*UOT 338*

***V.S.İsmayılov***
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*b.isgandarov@atmu.edu.az*

# AZƏRBAYCANDA İQTİSADİ MODERNLƏŞMƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *iqtisadi islahatlar, modernləşmə, innovativ inkişaf*

Məqalədə Azərbaycanın iqtisadi modernləşməsinin əsas istiqamətləri araşdırılır. Bu mövzuda müasir elmi ədəbiyyatda mövcud olan fikirlərə tənqidi bir baxış verilir. İqtisadi modernləşmənin milli iqtisadiyyatın bütün sektorlarının yenidən qurulmasını, kadr hazırlığı sisteminin təkmilləşdirilməsini, innovativ texnologiyaların tətbiqini, ən perspektivli sektorlarına investisiya cəlb etməklə iqtisadiyyatın strukturunun optimallaşdırılmasını nəzərdə tutduğu göstərilir. Məqalədə dövlətin milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin modernləşdirilməsi siyasətinin təhlili, respublika bölgələrinin inkişafını stimullaşdırmağa yönəlmiş dövlət proqramlarının icrası da verilmişdir. İqtisadi modernləşmənin Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən başladılan və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən modernləşdirmə siyasətinin tərkib hissəsi olduğu vurğulanır.

***В.С.Исмаилов***

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКОЙ МОДЕРНИЗАЦИИ В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *экономические реформы, модернизация, инновационное развитие*

В статье рассматриваются основные направления экономической модернизации Азербайджана. Дается критический обзор имеющихся в современной научной литературе точек зрения по данному вопросу. Указывается, что экономическая модернизация предполагает глубокую перестройку всех секторов национальной экономики, совершенствование системы подготовки кадров, внедрение инновационных технологий, оптимизацию самой структуры экономики за счет привлечения инвестиций в наиболее перспективные ее отрасли. В статье дается также анализ проводимой государством политики модернизации отдельных отраслей национальной экономики, реализации государственных программ, направленных на стимулирование развития регионов республики. Подчеркивается, что экономическая модернизация является составной частью политики модернизации, инициированной общенациональным лидером Азербайджана Гейдаром Алиевым, которая в наши дни успешно осуществляется Президентом Азербайджанской Республики Ильхамом Алиевым.

***V.S.İsmayilov***

# MAIN DIRECTIONS OF ECONOMIC MODERNIZATION IN AZERBAIJAN

***Keywords:** economic reforms, modernization, innovation development*

The article discusses the main directions of economic modernization of Azerbaijan. A critical overview of the current scientific literature views on this issue is given. It is indicated that economic modernization involves a deep restructuring of all sectors of the national economy, improving the training system, introducing innovative technologies, optimizing the structure of the economy itself by attracting investments in its most promising sectors. The article also provides an analysis of the State's policy of modernizing certain sectors of the national economy and implementing State programmes aimed at stimulating the development of the regions of the Republic. It is emphasized that economic modernization is an integral part of the modernization policy initiated by the national leader of Azerbaijan Heydar Aliyev and which today is successfully implemented by the President of Azerbaijan Ilham Aliyev.

Ədəbiyyatda iqtisadi modernləşməyə dair konkret və xüsusi təriflər verilmişdir. V.S.Belıx yazır ki, iqtisadi modernləşmə adı altında Rusiyanın iqtisadi cəhətdən inkişaf etmiş bir sıra Qərb ölkələrindən geri qalmasının aradan qaldırılması istiqamətində müasir dövrün tələblərinə cavab verən iqtisadiyyatın təkmilləşdirilməsi yolu ilə kompleks tədbirlər başa düşülür [8, s.8].

«İqtisadi modernləşmə» anlayışı inkişaf səviyyəsinə görə qabaqcıl ölkələrlə müqayisədə geriliyin aradan qaldırılması, yenilənmə yolu ilə müasir inkişaf etmiş ölkələr sırasına çıxmağı ifadə edir. Bu öz ifadəsini:

- birincisi, Azərbaycan müəssisələrinin məhsullarının dünya bazarında özünə layiqli yer tutmasında;
- ikincisi, istehsalatda mövcud olan köhnə maşın və avadanlıqların müasir elmi texnologiyalara əsaslanan daha məhsuldarları ilə əvəz edilməsində;
- üçüncüsü, ən yeni dünya innovasiya proseslərinə üzvi şəkildə daxil olmaqda, dünya iqtisadiyyatına tam inteqrasiyada, o cümlədən təşkilat və idarəetmə sahəsində ən yeni nailiyyətlərin əldə edilməsində;
- dördüncüsü, kadrların yenidən hazırlanmasında, ixtisaslarının artırılmasında və yenidən öyrədilməsində;
- beşincisi, iqtisadiyyatın struktur irəliləyişlərinin həyata keçirilməsində, sənaye ölkələrinin inkişaf meyarlarına cavab verən istehsal strukturlarının formalaşdırılmasında.

Azərbaycanın dövlət idarəçiliyində iqtisadi modernləşmə radikal aqrar islahatların aparılması ilə başladı. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında aparılan aqrar islahatların MDB məkanında aparılan aqrar islahatlardan fərqli özünəməxsus xüsusiyyətləri vardır. İ.Həsənov Azərbaycan Respublikasında aparılan aqrar islahatların aşağıdakı üç fərqli xüsusiyyətini

göstərmişdir:

“Dövlət başçısının təşəbbüsü ilə Azərbaycan Respublikasında torpaq vətəndaşlara pulsuz verilmişdir. Bunun nəticəsində 3 milyon 300 min adam torpaq mülkiyyətçisinə çevrilmişdir. Bu isə güclü mülkiyyətçilər sinfinin yaranmasına və yeni əkinçilik münasibətlərinin formalaşmasına gətirib çıxarmış, torpaqdan rasional və məhsuldar istifadə edilməsini şərtləndirmiş, torpağa qayğıkeş münasibəti zəruri etmişdir” [4].

Ən yararlı və keyfiyyətli torpaqlar özəlləşdirilmişdir. Başqa MDB ölkələrindən fərqli olaraq vətəndaşlara az yararlı və yararsız torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verilmişdir. Eyni zamanda torpaq sahiblərinə onların mülkiyyətində olan torpaq sahələrinə müstəsna hüquqlar (alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vəsiyyət etmə, girov qoyma və s.) verilmişdir ki, bu da Azərbaycan Respublikasında torpaq islahatlarının SSRİ-nin başqa respublikalarında olduğu kimi formal şəkildə deyil, əsaslı fundamental şəkildə aparıldığını sübut edir.

“Yaşayış yerindən və şəxsiyyətindən asılı olmayaraq ölkə ərazisində yaşayan bütün vətəndaşlara torpaqdan istifadə və torpağı icarəyə götürmək hüququ verilir, Azərbaycan Respublikasının istənilən vətəndaşı torpağın alqı-satqı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və bağlaşmalarda iştirak edə bilər. Başqa sözlə, torpaq mülkiyyətçisinə çevrilmiş 3 milyon 300 min subyektlə yanaşı, əhalinin qalan hissəsi də torpaq-vətəndaşlıq münasibətlərindən kənarlaşdırılmır” [5, s.284-285].

Torpaq islahatlarının uğurla həyata keçirilməsi üçün dəqiq və elmi cəhətdən əsaslandırılmış hüquqi bazanın yaradılması olduqca zəruri idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatları ilə bağlı məsələlər Milli Məclisin müzakirəsinə verildi. Aparılan müzakirələr nəticəsində 1996-cı il iyulun 16-da «Torpaq islahatı haqqında» qanun qəbul edildi. «Torpaq islahatı haqqında» qanunun qəbul edilməsi ölkədə aparılan torpaq islahatlarının başlanğıcı oldu. Bundan sonra torpaq islahatları ilə bağlı bir çox qanun qəbul edildi. «Torpaq icarəsi haqqında», «Torpaq bazarı haqqında», «Torpaq vergisi haqqında», «Torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında» və digər qanunların qəbul edilməsi aqrar modernləşmənin həyata keçirilməsi üçün möhkəm hüquqi baza oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü il oktyabrın 15-də prezident seçildikdən sonra Ümummilli lider Heydər Əliyevin aqrar modernləşmə siyasətini uğurla davam etdirdi.

Beləliklə, vətəndaşların torpaq mülkiyyət hüququ barədə dövlət aktları ilə təmin edilməsi və özəlləşdirilən torpaqların qanuni sahiblərinə verilməsi ilə torpaq islahatlarının birinci mərhələsi başa çatdırıldı. Bundan sonra torpaq islahatlarının ikinci mərhələsi başlandı. Aqrar islahatların ikinci mərhələsi başlıca olaraq bələdiyyə torpaqlarının bələdiyyələrə verilməsindən ibarət idi.

Respublikada aparılan torpaq islahatları digər Müstəqil Dövlətlər Birliyi ölkələrində böyük maraqla qarşılanmışdır. Moldova, Ukrayna, Tacikistan və s. ölkələrin nümayəndə heyətləri respublikamıza gəlmiş, Azərbaycanın təcrübəsini öyrənmişdilər. Müstəqil Azərbaycan Respublikası tarixinə «Heydər Əliyevin aqrar islahatları kimi daxil olmuş torpaq islahatlarının həyata keçirilməsi prosesi və metodları digər Müstəqil Dövlətlər Birliyi ölkələri üçün də optimal model kimi qəbul edilmişdir. Torpaq islahatlarının birinci mərhələsinin başa çatması ilə kolxoz və sovxozların 1391716 hektar torpaq fondu özəlləşdirilərək vətəndaşların xüsusi mülkiyyətinə verilmişdlir" [1, s.288].

V.Qasımlı Azərbaycanda aqrar sahənin modernləşdirilməsinin aşağıdakı xüsusiyyətlərini göstərmişdir:

1. "Modernləşmə nəticəsində aqrar sferada kapitalın məhsuldarlığı artır;

2. Modernləşmə daha yüksəkixtisaslı əmək qüvvəsinə tələbat yaradır;

3. Modernləşmə aqrar istehsalın rəqabət qabiliyyətini yüksəldir;

4. Modernləşmə aqrar sferada yeni təşkilati və idarəetmə mexanizminin yaradılmasına təkan verir;

5. Modernləşmə Azərbaycanda elmin müəyyən sahələrinə praktik tələbat yaradır və elmin kommersiyalaşdırılmasına töhvə verir;

6. Modernləşmə təhsil sahəsində daha praktik əhəmiyyətli ixtisaslar üzrə kadrların yetişdirilməsi üçün əsaslar yaradır və təhsil-biznes əlaqələrinin kompleks xarakter almasına stimul verir;

7. Modernləşmə zəncirvari reaksiya şəklində aqrar sahəyə xidmət edəcək iqtisadiyyatın sektorlarının inkişafını təmin eldir;

8. Modernləşmə aqrar sahənin ixrac imkanlarını genişləndirir;

9. Aqrar sahənin modernləşməsi regionların sosial-iqtisadi inkişafını sürətləndirir;

10. Modernləşmə xarici investisiyaların aqrar sahəyə axını üçün zəmin yaradır;

11. Modernləşmə aqrar sahədə işçi qüvvəsinə olan tələbatı azaldır və beləliklə, urbanizasiya üçün şərait yaradır" [3, s.119].

V.Qasımlı həmçinin aqrar iqtisadiyyatın inkişafı üçün elmi-tədqiqat işlərinin aparılmasının aşağıdakı mühüm istiqamətlərini də vermişdir:

- "kənd təsərrüfatı sahəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi;
- istehsal amillərinin məhsuldarlığının artırılması üçün yolların araşdırılması;
- kənddə sosial rifah halının yaxşılaşdırılması və urbanizasiya prosesinin ölkənin ümumi sosial-iqtisadi inkişaf maraqlarına uyğunlaşdırılması və s.

Bitkiçilikdə elmi tədqiqatların aşağıdakı istiqamətləri mühüm əhəmiyyət daşıyır:

- gen və hüceyrə mühəndisliyi və biotexnologiyaya əsaslanmaqla məhsuldar sortların hazırlanması;

- ekoloji tarazlığı qorumaqla torpağın məhsuldarlığının artırılması üçün üsulların inkişaf etdirilməsi;
- kənd təsərrüfatı məhsullarının minimum maddi, enerji və əmək şərfi ilə becərilməsi texnologiyasının hazırlanması;
- seleksiya materialı kimi bitki genlərinin və mikroorqanizmlərin istifadəyə yararlı gövdələrinin bankının formalaşdırılması və s.

Heyvandarlıq və baytarlıqda elmi-tədqiqat fəaliyyəti aşağıdakı istiqamətlərə yönəldilməlidir:

- məhsuldar cinslərin (tiplərin) yaradılması;
- effektiv texnologiyaların (yemləmə, saxlama və s.) qurulması;
- yem bazasının inkişafı;
- xəstəliklərlə mübarizənin səmərəli yollarının tapılması və s.

Kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi sahəsində elmi-tədqiqatların aşağıdakı istiqamətləri vacibdir:

- kəndli təsərrüfatlarında və təsərrüfatın müxtəlif formalarında istifadəyə uyğunlaşdırılmış çoxfunksiyalı maşın-traktor aqreqatlarının hazırlanması;
- ekoloji təmiz məhsul istehsalı üçün resursa (xüsusən də elektrik enerjisinə) qənaət edən texnologiyaların tətbiqi üçün texniki vasitələrin hazırlanması və s.

Məhsulların hazırlanması və saxlanmasında elmi-tədqiqatların ehtiyac duyulduğu istiqamətlər aşağıdakılardır:

- müəssisələr üçün qaz vasitələri, aşağı temperaturlu donma, vakuum və başqa müasir metodların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının hazırlanması və saxlanılması üçün avadanlığın hazırlanması;
- fiziki-kimyəvi və bioloji proseslərin tətbiqi ilə geniş növ məhsul istehsalında tullantısız texnologiyanın yaradılması;
- müasir tələblərə cavab verən qablaşdırma üsullarının inkişaf etdirilməsi və s. [3, s.120-121].

Aqrar sahənin modernləşdirilməsinin ən mühüm istiqamətlərindən biri də istehsal olunan məhsulların daxili və xarici bazarlara çıxarılması imkanlarının olmasıdır. Azərbaycanda bu sahədə dövlət tərəfindən mühüm işlər görülür. Kənd təsərrüfatı məhsullarının satışı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli Fərmanı ilə «Elektron kənd təsərrüfatı» informasiya sistemi haqqında Əsasnamə», 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə «Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası» təsdiq edilmişdir. Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) fermerlər və digər kənd təsərrüfatı məhsulları istehsalçıları qeydiyyatdan keçərək istehsal etdikləri məhsullar haqqında məlumat yerləşdirirlər. EKTİS-də fermerlərin qeydiyyatdan keçməsi ilə bağlı maarifləndirmə işləri aparılır. Fermerlərə informasiya-məsləhət xidmətinin göstərilməsində Aqrar İnkişaf Könüllüləri və ASAN Xidmət könüllüləri fəal iştirak edirlər. ASAN Xidmət Mərkəzlərində

EKTİS-in tətbiqi ilə bağlı xüsusi xidmət pəncərələri yaradılıb. Səyyar ASAN Xidmət avtobuslarında Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilən maarifləndirmə işləri çərçivəsində fermerlərə informasiya-məsləhət xidməti göstərilir.

Beləliklə, sahibkarlar və fermerlər EKTİS-də pulsuz qeydiyyatdan keçməklə öz məhsullarının satışı barədə məlumatları şəkillərlə birlikdə yerləşdirə bilirlər. Kənd təsərrüfatı məhsulları istehlakçıları öz məhsullarını evdən çıxmadan istənilən yerdə müştərilərə satmaq imkanına malikdirlər.

Azərbaycan iqtisadiyyatında sənayenin modernləşdirilməsi dövlət idarəçiliyində iqtisadi modernləşmənin mühüm istiqamətlərindən biridir.

Prezident İlham Əliyev «Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: «Əlbəttə ki, ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir. Bu, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada bir nömrəli Forumdur, bundan yuxarı yoxdur. Bu həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və Forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və Dördüncü Sənaye inqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir. Biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq, müasirləşdirməliyik. Beləliklə, hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaq» [2].

Müasir dövrdə Azərbaycan Respublikasında sənayenin kimya, neft məhsulları, metallurgiya, tikinti materialları, əczaçılıq, rezin və plastmas, hazır metal məmulatları, kompüter və digər elektron avadanlıqlar, maşın və maşın avadanlıqları istehsalı, elektrik enerjisi və elektrik avadanlıqları, qaz və buxar istehsalı, su təchizatı, tullantıların təmizlənməsi və emalı, kosmik sənaye və s. sahələrinin modernləşməsi prosesi gedir.

Ə.Nuriyev Azərbaycan Respublikasında sənayenin modernləşdirilməsi prosesi ilə bağlı qeyd edir ki, «Birincisi və başlıcası, son illərdə regionların inkişafı üzrə Dövlət Proqramlarına uyğun olaraq qeyri-neft sektoru sürətlə inkişaf etmiş və nəticədə 2010-cu ildən başlayaraq Respublika iqtisadiyyatının inkişafının ağırlıq mərkəzi həm artım sürətinə, həm də investisiya qoyuluşunun miqdarına görə neft sektorundan qeyri-neft sektorunun, o cümlədən neft sənayesindən qeyri-neft sənayesinin üzərinə keçmişdir.

İkincisi, məlumdur ki, bütün dünyada keçid dövrünün mühüm

xüsusiyyətlərindən biri bu dövrdə başlıca olaraq kiçik və orta müəssisələrin tikilməsi və ölkə ərazisində səpələnməsi prosesinin baş verməsidir. Buna uyğun olaraq keçid dövründə Respublikanın demək olar ki, bütün inzibati rayon və şəhərlərində ağac emalı, ərzaq məhsulları, tikinti materialları istehsalı, maşınqayırma, energetika və digər sənaye sahələrinə aid yeni kiçik və orta müəssisələr və ya sənaye istehsal sahələri istifadəyə verilmişdir. Həm də bu sənaye müəssisələri ən çox mövcud sənaye mərkəzlərində deyil, inzibati rayon mərkəzlərində, kiçik şəhər və qəsəbələrdə yerləşdirilmiş və beləliklə də, Respublikada sənaye müəssisələrinin ərazi üzrə səpələnməsi prosesi getmişdir. Nəticədə bir çox rayon və kiçik şəhərlərin sənaye, aqrar-sənaye mərkəzlərinə çevrilməsi meyli güclənmişdir. Bu rayon və şəhərlərdə yeni müəssisələrin tikintisi üçün real şərait yaranmışdır. Bunlara misal olaraq Naxçıvan, Ağstafa, Zaqatala, Qəbələ, Şamaxı, Dəvəçi, Xaçmaz, Şəmkir, Sabirabad, Lənkəran, İmişli, Gədəbəy, Qaradağ rayon və şəhərlərini göstərmək olar. Lakin 2008-2009-cu illərdən başlayaraq bu proses başa çatır, yeni, nisbətən iri müəssisələr, həm də bir sıra hallarda sənayenin mütərəqqi sahələrinə aid böyük müəssisələr tikilməyə başlanmışdır ki, bunlar da məlum olduğu kimi, sənaye-istehsal kompleksləri və sənaye qovşaqlarının əsasını təşkil edir.

Üçüncüsü, qeyri-neft sektoruna aid sənaye müəssisələrinin strukturunda mütərəqqi sənaye sahələrinə aid yeni müəssisələrin xüsusi çəkisi surətlə artır və mütərəqqi sənaye sahələri bütövlükdə sənayeyə nisbətən daha sürətlə inkişaf edir ki, bu da keçid dövrünə deyil, inkişaf etməkdə olan cəmiyyətə xas olan xüsusiyyətdir. Əgər 2007-ci ilə qədər rayonlarda əsasən tikinti, meşə-ağac emalı, yüngül, yeyinti sənayesinə aid kiçik və orta müəssisələr tikilirdisə, 2007-ci ildən, xüsusilə, 2008-ci ildən başlayaraq sənayenin mütərəqqi sahəsi olan energetika, maşınqayırma, metal emalı, informasiya-kommunikasiya texnologiyaları və başqa sahələrlə əlaqədar yeni müəssisələr tikilməyə, mövcud müəssisələrdə istehsal gücü artırılmağa başladı. Sənayenin digər mütərəqqi sahələrinə aid müəssisələr də tikilib istifadəyə verilmişdir. Buna misal olaraq Naxçıvan və Gəncə avtomobil zavodlarını, Sumqayıt texnoparkını, Mingəçevirdə Generator Zavodunu, Naxçıvan Əlvan metal emalı zavodunu, Gədəbəydə Qızıl-mis emalı zavodunu, Bakıda Kabel zavodunun, Cihaz istehsalat birliyinin yenidən qurulması və istifadəyə verilməsini, habelə çoxsaylı energetika müəssisələrini və i.a. göstərmək olar.

Dördüncüsü, məlumdur ki, energetika sənayenin çox mühüm sahəsidir. Müasir dövrdə bu sahə iqtisadiyyatın müasirləşməsi və inkişafının hərəkətverici qüvvəsidir. Məhz buna görə müstəqillik illərində bu sahənin inkişafına dövlət tərəfindən böyük diqqət verilmiş, Respublikamızda güclü energetika sistemi formalaşdırılmışdır [5, s.291-297].

Azərbaycanın islahatların yeni mərhələsinə qədəm qoyduğunu qeyd edən Prezident İlham Əliyev «Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü

illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: «Hesab edirəm ki, keçən il iqtisadi sahədə yaxşı nəticələr əldə edilib. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır. Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda çox ciddi struktur və kadr islahatları aparılmışdır» [6].

Yuxarıda qeyd etdik ki, iqtisadiyyatın modernləşməsinin birinci istiqaməti Azərbaycanın innovativ inkişafıdır. Ümumiyyətlə, innovasiya olmadan modernləşmə mümkün deyil. İstənilən modernləşmə innovasiya əsasında həyata keçirilir.

Ümumiyyətlə, modernləşmə və innovasiyalı inkişaf müasir cəmiyyətin uğurlu inkişafının ayrılmaz xarakteristikasını özündə ifadə edir. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında əldə etdiyi uğurların əsasında iqtisadi modernləşmə və innovasiyalar durur [7]. Müasir dünyada rəqabətin yüksək səviyyəsinin mövcud olması innovasiyaların tətbiqi yolu ilə əldə olunan effektivliyin durmadan yüksəldilməsini tələb edir. Hazırkı şəraitdə son illərdə Azərbaycanda modernləşmə yolu ilə aparılan dərin islahatlar həm ictimai həyatın bütün sahələrində – sosial, iqtisadi, siyasi, mədəni sahələrində, həm də dövlət idarəçiliyinin bütün səviyyələrində baş verən kardinal islahatların prioritetlərini əvvəlcədən müəyyən edir.

Modernləşmə və innovasiya prosesləri bir-biri ilə qarşılıqlı şəkildə sıx bağlıdır. İnnovasiyalı inkişaf özündə modernləşmənin başlıca istiqamətlərini ifadə edir. Azərbaycanda son illərdəki tendensiyalar göstərir ki, innovasiyalar hər şeyi əhatə edir. Əgər əvvəllər innovasiyalar lokal şəkildə, xüsusilə də texniki fəaliyyət sahələrinə tətbiq edilirdisə, hazırda innovasiyalar ictimai həyatın və dövlət idarəçiliyinin bütün sahələrinə tətbiq edilir. Bundan başqa innovasiya fəallığı təkcə kommersiya strukturları və elmi müəssisələr üçün xarakterik deyil, həm də dövlət idarəçiliyinin bütün sahələri üçün də xarakterikdir.

Azərbaycanda son onillikdə innovasiyalı iqtisadiyyatın yaradılması ölkənin inkişafının strateji istiqamətini təşkil edir. İnnovasiyalı iqtisadiyyat daimi inkişafda olan bir sistemdir. Buna görə də bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da innovasiyalı iqtisadiyyatda kiçik və orta biznesin inkişafına xüsusi diqqət yetirilir. Kiçik və orta biznes daha çox mütəhərrikdir, onda daima yeniləşmə baş verir.

Ə.Nuriyev yazır ki, «İqtisadiyyat sahəsində innovasiya yönümlü inkişaf başlıca olaraq müasir elmi-texniki-texnoloji yeniliklərin yaradılması və təsərrüfat fəaliyyəti sahələrinə tətbiqini, yeni mütərəqqi idarəetmə formalarının, yeni rəqabət qabiliyyətli məhsul istehsalının mənimsənilməsini, kadrların bilik, peşəkarlıq və ixtisas səviyyəsinin müasir tələblər səviyyəsində artırılmasını nəzərdə tutur» [5, s.340-341].

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının tarixi (1991-2003): 2 cilddə, c.1, Heydər Əliyev dövrü / Bakı: Azərbaycan tarixçiləri ictimai birliyi, 2016, 704 s.
2. Prezident İlham Əliyevin «Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda nitqi // Azərbaycan qəz., Bakı, 2020, 4 fevral
3. *Qasımlı V.Ə.* İqtisadi modernizasiya / V.Ə.Qasımlı. Bakı: [n.y.], 2014, 311 s.
4. *Məmmədov Q.Ş.* Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər / Q.Ş.Məmmədov. Bakı: Elm, 2002, 412 s.
5. *Nuriyev Ə.X.* Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları / Ə.X.Nuriyev. Bakı: Avropa, 2013, 422 s.
6. Prezident İlham Əliyevin «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda nitqindən / Əliyev İ.H. İnkişaf məqsədimizdir: 108 cilddə, c.100, Bakı: Azərnəşr, 2020, 392 s.
7. *Rəhimli R.Z.* Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi /Azərbaycan qəz., Bakı, 2019, 23 iyun
8. *Белых В.С.* Модернизация экономики: понятие, цели и средства // Бизнес, менеджмент и право, Екатеринбург, 2011, №1(23), с.45-49

Redaksiyaya daxil olub 23.06.2021

*UOT 1(091)*

***P.A.Kərimova***
*Xəzər Universiteti*
*pkerimova@khazar.org, ms.gulnar_babayeva@mail.ru*

# FƏLSƏFİ FİKİR TARİXİNDƏ KOMMUNİKASİYA PROBLEMİ

***Açar sözlər:*** *kommunikasiya, fəlsəfi fikir tarixi, ünsiyyət, əlaqə, insanlar*

Məqalədə fəlsəfi fikir tarixində kommunikasiya anlayışının inkişafı, məzmunu və problemi kimi məsələlərə nəzər salınır. Kommunikasiya haqqında dəyərli araşdırmalar aparmış C.Lokk, Ş.Monteskyö, D.Yum və b. filosofların öz dövrünün ictimai praktikasını araşdıraraq kommunikasiya problematikasını nəzərdən keçirməsi, sosial reallığın ümumilikdə özündə fərdlərin ünsiyyəti, qarşılıqlı əlaqəsi, qarşılıqlı təsirini əks etdirməsi haqqında ümumi fikirləri təhlil edilir.

Ümumiyyətlə, XX əsrdə kommunikasiyanın öyrənilməsinin fəlsəfi ənənəsi daha çoxcəhətlidir. Bir tərəfdən burada sonradan semiotika və hermenevtika ideyaları yayılmağa başladı, digər tərəfdən isə kommunikasiya probleminə biheviorizm, ekzistensializm, personalizm, analitik və linqvistik fəlsəfə, dialoq fəlsəfəsi, simvolik interaksionizm kimi fəlsəfi istiqamətlər çərçivəsində böyük diqqət yetirilirdi. Məqalədə müxtəlif dövrlərdə kommunikasiya anlayışına olan fərqli yanaşmalar təhlil obyektinə çevrilir.

***П.А.Керимова***

# ПРОБЛЕМА КОММУНИКАЦИИ В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ

***Ключевые слова:*** *коммуникация, история философской мысли, коммуникация, связь, люди*

В статье рассматриваются такие вопросы, как развитие, содержание и проблема концепции коммуникации в истории философской мысли. Анализируются взгляды Дж.Локка, С.Монтескье, Д.Юма и других философов, которые провели ценные исследования в области коммуникации, на проблематику коммуникации, изучая социальную практику своего времени, на отражение социальной реальности в целом при общении, взаимосвязи и взаимодействии индивидов.

В целом философская традиция изучения коммуникации в XX веке более разнообразна. С одной стороны, здесь впоследствии стали распространяться идеи семиотики и герменевтики, а с другой стороны, проблеме коммуникации уделялось большое внимание в рамках таких философских направлений, как бихевиоризм, экзистенциализм, персонализм, аналитическая и лингвистическая философия, философия диалога, символический интеракционизм. В статье объектом анализа становятся различные подходы к понятию коммуникации в разные периоды.

***P.A.Karimova***

**THE PROBLEM OF COMMUNICATION IN THE HISTORY OF PHILOSOPHICAL THOUGHT**

***Keywords:*** *communication, philosophical thought history, communication, contact, people*

The article examines issues such as the development, content and problem of the concept of communication in the history of philosophical thought. He conducted valuable research on communication. Logg, Sh.Montesgya, D.Yum and s. by examining the social practice of the philosophers of their time, they analyze the problems of communication, the general idea that social reality in general reflects the personality, interaction and interaction of individuals.

In general, the philosophical tradition of studying communication in the 20th century is more diverse. On the one hand, the ideas of semiotics and hermeneutics began to spread here later, on the other hand, the problem of communication was given great attention within the framework of philosophical directions such as bihorism, existentialism, persunalism, analytical and linqvistical Philosophy, Philosophy of dialogue, symbolic interaxionism. In the Article, different approaches to the concept of communication at different times become the object of analysis.

"Kommunikasiya" sözü latın dilində işlənən "communicatio" ifadəsindən götürülmüş, mənası əlaqə, ünsiyyət deməkdir. Bu söz həmçinin insan fəaliyyətinin vəhdətini və davamlılığını gündəlik olaraq təmin edən termin kimi də işlədilir [15, s.9].

Kommunikasiya prosesi  insan və cəmiyyətin həyatının əsaslarından biri kimi başa düşülür. Bununla yanaşı, tədqiqatçılar nitqdən kommunikasiya prosesləri, eləcə də onun nəticələri kimi bəhs edirlər [7, s.16].

İ.P.Yakovlev və digər çoxsaylı tədqiqatçılara görə, bir elm olaraq kommunikasiya deyildikdə, ünsiyyətin inkişafı, kommunikasiya proseslərinin məzmun və strukturu, kommunikasiya vasitələrindən istifadə və s. nəzərə alınmaqla, kommunikasiyanın cəmiyyətdəki rolu ilə bağlı tədqiqatların məcmusu başa düşülməlidir[15, s.8].

S.V.Borisnevə görə, kommunikasiya məlumatın şəxsiyyətlərarası və kütləvi ünsiyyət şəraitində müxtəlif kommunikasiya vasitələrinin köməyilə, eyni zamanda fərqli vasitələrlə sosial baxımdan şərtləndirilmiş ötürülməsi və qavranılması prosesidir [5, s.14].

M.S. Andrianov kommunikasiya anlayışını sosial qarşılıqlı təsirin məna aspektlərinin tədqiqatları ilə məhdudlaşdırır [2, s.10].

Niklas Lumana görə, kommunikasiya dedikdə, əlaqə və ya məlumatın ötürülməsi, yaxud "semantik" məzmunun malik olduğu psixi sistemin birindən digərinə köçürülməsi deyil, məlumat (bilik) və məlumatsızlığın

bölüşdürülməsinin baş verdiyi yalnız sosial sistemlər üçün xarakterik olan hərəktlərin məcmusu kimi "kontekstdən asılı olan və tarixi cəhətdən müəyyən konkret axara malik hadisə" başa düşülməlidir [10, s.114]. Hesab edirik ki, kommunikasiya aktının komponenti olan kontekst informasiyanın predmeti kimi qəbul olunur və buna görə də onu referent adlandırmaq olar. Kommunikativ funksiya referentə uyğun gəldiyi üçün bu referentiv funksiya da hesab olunur.

L.Bakster, A.Sillars və A.Vanqelist isə hesab edirlər ki, kommunikasiya insanların öz münasibətlərini qurmaq və dəstəkləmək üçün istifadə etdiyi bir vasitədir [3, s.90].

Fikrimizcə, dil və ya nitq vasitəsilə ötürmə zamanı informasiya hər hansı bir dildə istifadə olunan ifadə formasına keçirilir. Məsələn, bu, Azərbaycan və ya ingilis dilinə məxsus ifadə forması ola bilər. Bu halda kod ingilis və ya Azərbaycan dili olur. Məlumat, informasiya adresata çatdırılmalı xəbərdir. Kontekst bu informasiyanın daşıyıcısıdır. Kontekst sözdən, cümlədən, abzasdan, ən son halda mətndən ibarət olur. İnformasiya mübadiləsi belə bir sxem üzrə baş verir.

İnfokommunikasiya texniki vasitələrinin, xüsusilə də, 1920-ci illərdə radionun, həmçinin daha sonralar ümumilikdə texnikanın inkişafı, o cümlədən televiziya və komputerlərin meydana çıxması, bundan başqa iri korporasiyaların inkişafı və qloballaşma prosesləri ilə, kommunikasiya üzrə tədqiqatlar ictimai elmlərin müstəqil bir sahəsinə çevrilmişdir. Kommunikasiya nəzəriyyəsinin inkişafı kibernetika, informatika, semiotikanın təşəkkül tapması, riyaziyyat və mühəndislik elmlərinin mürəkkəbləşməsi ilə əlaqəlidir.

A.V. Nazarçukun qeyd etdiyi kimi, kommunikasiya problematikasının dərk edilməsi minimum üç istiqamətdə gedirdi:

1. Linqvistik təhlil və "dil təcrübəsinin aydınlaşdırılmasına" istiqamətlənmiş ingilis-amerikan istiqaməti;
2. Dil kommunikasiyası ilə məhdudlaşmayan, lakin müasir cəmiyyətin kommunikasiyasının ideologiya və hakimiyyətin dərk edilməsi, kapitalizmin tənqidi və diskursun dərk edilməsi kimi müxtəlif sosial problemlərini özündə ehtiva edən fransız istiqaməti;
3. Fəlsəfi dialoq. Bu istiqamətin nümayəndələri M.Buber, E.Levinas, M.Baxtin, F.Rozensveyq, F.Ebner, O.Rozenştok-Hyusi, M.Bibler və başqaları olmuşdur [10, s.230].

Kommunikasiya prosesini, onun nəzəri səciyyəsini öyrənən özünəməxsus xüsusiyyətlərə və ənənələrə malik olan tədqiqat məktəbi Almaniyada formalaşmışdır. Alman kommunikativistikası XX əsrin əvvəlində qəzet işinin öyrənilməsi zamanı daha da inkişaf etmişdir. 1945-ci ildən sonra *"Publizistikwissenschaft"* (kommunikasiyanın müxtəlif vasitələrinin öyrənilməsi ilə əlaqədar olan hər bir şey: kitablar, filmlər, qəzetlər, radio və s.) ifadəsi dəyişdirilərək *"Publikations und communication swiss enschaft"* adlandırıldı.

1950-ci illərə qədər tədqiqatlar predmetin tarixinin öyrənilməsinə həsr edilirdi, bundan sonra isə sosioloji nəzəri-empirik yanaşma üstünlük təşkil etməyə başladı.

Paralel olaraq 1970-ci illərdə Almaniyada siyasi kommunikasiyanı öyrənən yeni elmi istiqamət – *Medienwissenschaft* (“kommunikasiya vasitələri haqqında elm”) meydana çıxdı, “Communicationswissenschaft” və “Medienwissenschaft” tez-tez bir-birlərini qarşılıqlı əvəz edən anlayışlar kimi istifadə edilirdi. Hazırda kommunikasiyanı müxtəlif tədqiqat istiqamətlərinə görə tədqiqatların predmeti kimi başa düşülməsini nəzərdə tutan vahid “Communication swissen schaft” und Medien wissen schaft” ifadəsi qəbul edilmişdir.

F.İ.Şarkov onun tərəfindən təklif edilən kommunikasiya anlayışını ifadə etmək üçün kommunikasiya tədqiqatlarının reduksiyası vasitəsi kimi “kommunikologiya” neologizmindən istifadə edir, çünki onun üçün kommunikologiya kommunikasiya haqqında aşağıdakıları vahid bilikdə (elmdə) sintez edən yeni biliklərin əldə edilməsi üzrə formalaşmış bilik və fəaliyyətlər sistemidir:

1) kommunikasiya nəzəriyyəsi;

2) müxtəlif müəlliflər tərəfindən işlənib hazırlanmış kommunikasiyalar nəzəriyyəsi (məsələn, kütləvi kommunikasiya nəzəriyyəsi, mədəniyyətlərarası kommunikasiya nəzəriyyəsi, bir çox sosiolinqvistik kommunikasiya nəzəriyyələri, elitar kommunikasiya nəzəriyyəsi və s.);

3) müxtəlif kommunikasiyaları öyrənən elm və elmi istiqamətlər (kommunikasiya sosiologiyası, kommunikasiya psixologiyası və s.);

4) cəmiyyətin müxtəlif sferalarında fərqli vasitələrlə subyektlərlə kommunikasiya fəaliyyətinin nəzəriyyə və praktikası.

Kommunikasiya nəzəriyyəsi digər elmlər çərçivəsində inkişaf edir. Belə ki, etnoqrafiya etnik areallarda ünsiyyət kimi kommunikasiyanın məişət və kulturoloji xüsusiyyətlərini öyrənir. Psixologiya və psixolinqvistika məlumatın ötürülməsi və qavranılmasına imkan verən faktorları, şəxsiyyətlərarası və kütləvi kommunikasiya prosesini, həmçinin kommunikasiya subyektlərinin – kommunikantların müxtəlif aspektlərini nəzərdən keçirir. Linqvistika verbal kommunikasiya problemləri – şifahi və yazılı, dialoq və monoloq kimi nitq tiplərində söz və söz birləşmələrinin normativ və qeyri-normativ işlədilməsi ilə məşğul olur. Paralinqvistika qeyri-verbal kommunikasiya üsullarını nəzərdən keçirir: jestlər, mimika və digər sözsüz kommunikasiya vasitələrini öyrənir. Sosiolinqvistika dilin sosial təbiətini və onun müxtəlif cəmiyyətlərdə fəaliyyətinin xüsusiyyətlərini, müxtəlif qrupların nümayəndələri arasında əlaqələri şərtləndirən sosial və dil amillərinin qarşılıqlı təsir mexanizmlərini nəzərdən keçirir.

Kommunikasiya sosiologiyası sosial kommunikasiyanı, xüsusən də,

qarşılıqlı əlaqələr prosesində və münasibətlərində hazırkı cəmiyyətin və bütövlükdə sosiumun sosial dəyərlərinin təsiri nəticəsində müxtəlif sosial qrupların nümayəndələrinin ünsiyyətinin funksional xüsusiyyətlərini öyrənir.

1) Verbal kommunikasiya;
2) qeyri-verbal kommunikasiya və ya paralinqvistik diskursda həyata keçirilən kommunikasiya. Bura daxildir:
   - işarələrin köməyilə kommunikasiya;
   - jestlərin köməyilə kommunikasiya;
   - simvolların köməyilə kommunikasiya”

-digər paralinqvistik vasitələrin köməyilə kommunikasiya (məsələn, mimika, poza və s.)

*Kommunikasiya subyeklərinə və onlar arasındakı münasibətlərin tipinə görə* kommunikasiyanın aşağıdakı növlərinin ayrılması qəbul edilmişdir:

• şəxsiyyətlərarası kommunikasiya – öz aralarında müəyyən münasibətlərə daxil olmuş iki və ya daha çox fərd arasında məlumat mübadiləsi və bu məlumatların interpretasiyası ilə əlaqədar şəxsiyyətə istiqamətlənmiş ünsiyyət növü;

• şəxsiyyətlərarası qarşılıqlı təsir və ya münasibətlər situasiyasında kommunikasiya növü;

Qruplararası kommunikasiya – insanların müxtəlif sosial qruplara və əhali kateqoriyalarına mənsub olmaları ilə müəyyən edilən, şəxsiyyətlərarası əlaqələri və fərdi üstünlük verdikləri seçimlərindən asılı olmayan qarşılıqlı əlaqə növüdür.

• İctimai kommunikasiya – ictimaiyyət ilə əlaqəyə istiqamətlənmiş ünsiyyət növü. Bu cür kommunikasiyada əlaqə ictimai maraqlara toxunur və ictimai xarakter daşıyır.

• Kütləvi kommunikasiya – daha lokal xarakter daşıyan məlumatın sistematik yayılması prosesi, həmçinin xüsusi hazırlanmış məlumatların müxtəlif texniki vasitələrdən istifadə edərək sayca çox, anonim, hissə-hissə ayrılmış auditoriyaya çatdırılması. İctimai şüurun dinamik proseslərinin tənzimləyicisi, kütləvi əhval-ruhiyyənin inteqratoru, həmçinin fərdiyyətə və qruplara güclü təsir vasitəsidir.

Bəşəriyyətin kommunikativ fəaliyyətdən kənarda mövcudluğunu təsəvvür etmək mümkün deyildir. Cins, yaş, təhsil, sosial mövqe, ərazi, milli mənsubiyyət və insan şəxsiyyətini xarakterizə edən bir çox digər amillərdən asılı olmayaraq biz daim məlumat istəyir, ötürür və saxlayırıq, yəni fəal surətdə kommunikativ fəaliyyət ilə məşğul oluruq.

Kommunikasiyanın fəlsəfi nəzəriyyəsi kommunikasiya prosesi ilə əlaqədar proseslərin, funksiyaların, vəzifələrin mənasını izah edir. Kommunikasiyanın mexanizmləri, predmeti, subyektləri, mahiyyəti müxtəlif fəlsəfi doktrinalarda olduqca variativ şəkildə izah edilir.

Kommunikasiyanın fəlsəfi izahı, demək olar ki, heç vaxt yalnız fərdlər

arasında məlumat mübadiləsi və nitq ünsiyyəti səviyyəsində dar çərçivəyə salınmır. Kommunikasiya özündə iqtisadi mübadilələri (J. Bodriyar), miflərin translyasiyasını (K.Levi-Stros, R.Bart), küçə səhnəsində göz kontaktı (E.Giddens), iki nəfər arasında dialoq (M.Buber), ölü abidələr və mədəniyyət mətnlərini (Y.Lotman) ehtiva edə bilər.

Fəlsəfə kommunikasiyada dünyanın maddi vəhdəti və nəticə etibarilə, gerçəkliyin hadisə və proseslərinin qarşılıqlı asılılığı ilə şərtlənən materiyanın atributiv xüsusiyyətlərindən birini görür. Buna görə də fəlsəfə kommunikasiya anlayışını və məzmununu kifayət qədər geniş şərh edir.

Antik fəlsəfədə cəmiyyətdə kommunikasiyanın rolu insanların bir-biri ilə dialoqu kimi təqdim edilirdi. Fəlsəfənin inkişafının başlanğıc mərhələsində, natural fəlsəfə dövründə insanların qarşılıqlı münasibətləri problemi ayrıca mövzu kimi araşdırılmırdı. İnsan təbiət ilə ayrılmaz əlaqəyə malik olan varlıq qismində nəzərdən keçirilirdi. Eramızdan əvvəl V əsrdə sofistlərin fəlsəfəsində insanın yeganə maddi və mənəvi xüsusiyyətlərə malik varlıq kimi nəzərdən keçirildiyi zaman situasiya dəyişdi. Onlar iddia edirdilər ki, insandan kənarda mövcudluq yoxdur, insan həqiqəti yalnız özündə tapa bilər. Sofist Protaqor öz fikrini bu cür ifadə etmişdir: "İnsan bütün mövcud olan şeylərin mövcudluğunun və mövcud olmayanların mövcud olmadığının ölçüsüdür" [13, s.374].

Sokrat kommunikasiyada fərdin güclü özünüdərki vasitəsini görürdü. Onun diqqət mərkəzində insan və onun mahiyyəti problemi dururdu. Sokrata görə, insan sadəcə olaraq mənəvi varlıqdır. Onu mənəvi varlıq edənin nə olduğu sualına mütəfəkkir belə cavab verir: "İnsanların hamısı üçün ümumi olan, insanın ləyaqətli və cəmiyyətdə yaşamaq qabiliyyətinə malik olmasını təmin edən mənəvi keyfiyyətlər mövcuddur. Dünyada öz səmtini tapmaq üçün insan özünü həm ictimai, həm də əxlaqi varlıq kimi dərk etməlidir" [11, s.126-127]. Onun metodunun mahiyyəti ondan ibarətdir ki, dialoqda, sual və cavabların formasında həqiqətə nail olmaq üçün müzakirə edilən mövzu üzrə müxtəlif nöqteyi-nəzərlərin qarşılaşması vasitəsilə mühasibin baxışlarındakı ziddiyyətin meydana çıxarılması lazımdır. Beləliklə, Sokratın dialektikası dialoq ilə ("dia"-"loqos") üst-üstə düşür.

Platonda Sokratın ideyaları dəyişərək intrakommunikasiya haqqında təsəvvürə çevrilmişdir – insan ruhu daim özü-özünü sorğu-sual edir, cavab verir, iddia edir, inkar edir. Platonun "Dövlət" əsərində təcrid olunmuş tək insanın qeyri-mümkün olduğu vurğulanır: "Bizlərdən hər birimiz özümüz üçün kifayət deyilik və digərlərinə ehtiyacımız vardır" [12, s.32].

Platon nitq və yazı kimi məlumatın ötürülməsi üsullarını müəyyən edir. Ünsiyyət prosesində fərdlər arasında meydana çıxan münasibətlər "qarşılıqlı istifadə edilən şüurlu münasibətlər" kimi təsvir edilir [12, s.200].

Aristotel kommunikasiya anlayışını ilk dəfə "ünsiyyət" sözü ilə əvəz etmiş və bununla da bu sahəyə öz xüsusi töhfəsini vermişdir. O, "Nikomax

etikası” əsərində ünsiyyəti insanların birgə həyatı üçün zəruri olan, zövq və ya əzab vasitəsi kimi nəzərdən keçirir. Aristotel ilk dəfə insan ünsiyyətinin özünə xas dəyərini əsaslandırmağa və onda “qızıl ortanı” tapmağa çalışır: “Orta psixi vəziyyətə nəzakətlilik (epidexiotes) xasdır, nəzakətli (epidexios) olmağı bacarana isə [yalnız] xeyirxah və sərbəst doğulmuş insana uyğun fikir söyləmək və dinləmək xasdır” [3, s.142] . Aristotel kommunikasiya prosesinin üç komponentini ayırmış və ilk ünsiyyət sxemini yaratmışdır: “Natiq – Nitq – Auditoriya”. “Nitq üç elementdən təşkil olunur: natiqin özü, onun haqqında bəhs etdiyi mövzu, onun müraciət etdiyi şəxs; məhv o hamısının yekun məqsədidir (mən dinləyicini nəzərdə tuturam)” [4, s.84].

Beləliklə, hələ eramızdan əvvəl kommunikasiya iki ən qədim elmi fənnin öyrənilməsinin predmeti oldu: məntiq və linqvistika. Qədim yunan alimləri və filosoflarının sayəsində natiqlik sənəti kommunikativ nəzəriyyə və praktikanın təşəkkülü və inkişafına böyük töhfə verdi. Aşağıdakı elementləri özündə ehtiva edən nitqin strukturu dəqiqliklə işlənib hazırlandı: giriş, ad və adın interpretasiyası, nəql etmə, təsvir, sübut, təkzib, duyğulara müraciət, nəticə.

Antik dövrün natiqləri tərəfindən mətnlərin tərtibi, redaktə qaydaları müəyyən edildi; ifadəlilik vasitələri, məntiqi əsaslandırmanın təsirli vasitələri, stilistik üsullar işlənib hazırlandı, dilin təkmilləşməsi baş verdi.

Orta əsrlərdə kommunikasiyanın nəzərdən keçirilməsi nəticəsində Allah və müqəddəs mətnlərdə qeyd olunmuş “Allah” sözünün mənasını dərk etmək olur. Bibliyanın təfsiri ilə hermenevtika məşğul olur. Hermenevtika hələ qədim yunan fəlsəfəsində və filologiyasında meydana çıxmış, mətnlərin təfsiri və başa düşülməsinin nəzəriyyə və praktikasını öyrənir [8, s.65].

Xristianlığın meydana çıxması və yayılması ilə şəxsiyyət və insan münasibətləri problemi antik dövrdən fərqli olaraq bütün İnsanların Allah qarşısında bərabərliyinin qəbul edilməsi vasitəsilə işıqlandırılırdı. Monastır və kilsələrin əsas elm və mədəniyyət mərkəzlərinə çevrildiyi dövrdə keşişlər əsas bilik daşıyıcıları və onların ötürülməsi mənbəyi idilər. Orta əsrlərdə əsas qarşıda duran məsələ din xadimləri və sadə xalq arasında intellektual kommunikasiyanın yaradılması idi.

Orta əsrlər ritorikasında üstünlük təşkil edən janr doqmatizm və sxolastikaya əsaslanan kilsə natiqliyi idi. Ağadan tutmuş ən yoxsul şəxsə qədər hamıya ünvanlanan moizə əsas kommunikasiya vasitəsi idi. Janrın çiçəklənməsi orta əsrlərə təsadüf edir. Qərb mədəniyyət ənənəsində görkəmli moizəçilər Avqustin Avreliy, Fransisk Assizski, Bertold Reqenburqski idi.

Orta əsrlərdə din dialoqun məzmununu, əsas istiqamətlərini və formalarını müəyyən edirdi. Müqəddəs kitablar orta əsrlər insanının dünyagörüşünün əsasını təşkil edirdi. Bibliya ictimai şüurun, tərbiyənin, kommunikasiya və informasiya proseslərinin ideoloji əsasları kimi çıxış edirdi. Nəzəriyyəçilərin (İsidor Sevilski, Yuliy Rufiniy, Georgiy Xerovosk və s.) əsərləri

əsasən artıq mövcud olan biliklərin sistemləşdirilməsi, ritorika terminologiyasının nizama salınması və mətnin təşkili ilə bağlı idi. Buna baxmayaraq, natiqlik sənətinin nüfuzu yüksək idi: əsasən mülki və məhkəmə natiqliyini əhatə edən qədim ritorikanı kilsənin sarsılmaz nüfuzu ilə dəstəklənən homiletika – moziə söyləmək sənəti əvəz edir [6, s.168].

İntibah dövründə baş verən mürəkkəb proseslərin fonunda kommunikasiyanın yeni formaları fəal şəkildə inkişaf etməyə başlayır. Yeni dünyagörüşünün mərkəzində ümidlərini özünə bağlayan insan dayanırdı. İntibah dövründə kommunikasiyanın məntiqi aspektinin tədqiqatları yenidən aktuallaşdı. Dil kommunikasiyasında "diskurs" termini istifadə edilməyə başladı. Diskurs sözü ingilis dilində "discourse", almanca "diskurs", fransızca "discourse" kimi işlənir və latın dilində "müzakirə", "danışıqlar", hətta "söyüş" mənalarını ifadə edən "discurrere" sözündən yaranıb.

İntibah dövründə yazı zamanı əlyazmadan, daha sonralar isə çap üsulundan istifadə olunmağa başlandı. M.Montenin əsərlərində yalnız çap olunmuş sözü qəbul edən və yalnız haqqında oxuya bildikləri şəxslərə ehtiram bəsləyən insanlar haqqında tənqidi fikirlərə rast gəlmək olar. Onun fikirlərini mədəniyyət tarixində yazılı və çap kommunikasiyasının qəbul edilməməsinin yeni "dalğasının" sübutu hesab etmək olar. M.Montenin düşüncələrində İntibah dövründə təşəkkül tapmış, kitab çapının aparıcı rol oynadığı kommunikasiya vasitələrinin iyerarxiyası öz əksini tapır.

İntibah dövrü elmi ədəbiyyatında dialoq aparıcı janr olmuşdu ki, bu da, ilk növbədə, antik obrazların təqlidi ilə izah edilirdi, ikincisi isə, məhz intibah dövründə ictimai elmi diskussiyalar geniş yayılmağa başlayırdı. Həmin dövrün elmi əsərləri üçün ictimai mühazirə və dialoq janrları xarakterikdir. İntibah dövründə meydana çıxan yeni janr elmi yazıdır. Elmi yazının meydana çıxması elmi məruzə və elmi məqalə kimi janrların yaranmasının başlanğıcı hesab edilə bilər. Elmi yazılar, məqalələr, məruzələr xüsusi olaraq yaradılmış qəzet və jurnallarda dərc olunurdu.

Kommunikasiyanın müxtəlif növləri, ilk növbədə, yeni biliklərin və yaradıcılığın ötürülməsi üçün istifadə edilir.

Frensis Bekon, Rene Dekart və b. Yeni dövrdə kommunikasiyanın məntiqi ideyalarının inkişafına yardım etdilər, daha sonra isə Q.Leybnits riyazi və ya simvolik layihə əsasında bütövlükdə elm üçün kommunikasiya dilinin layihəsini təklif etdi.

Yeni dövrdə texniki tərəqqi kommunikasiya növlərini əsaslı dərəcədə dəyişdi, onlara gücünü və təsir dərəcəsini bir neçə dəfə artırmaq imkanını təmin etdi: üçüncü informasiya inqilabı – "Quttenberq qalaktikası"nın, yəni məlumatın ötürülməsinin çap üsulunun ortaya çıxması dünyanın kommunikativ mənzərəsini dəyişdi, insanlara məkan və zaman ilə yeni qarşılıqlı əlaqələri öyrətdi. Qarşıdan gələn yüzilliklər ərzində ictimaiyyət ilə əsas əlaqə vasitəsi olan jurnalistika

institutu yarandı [1, s.59].

C.Lokk, Ş.Monteskyö, D.Yum kimi filosoflar öz dövrünün ictimai praktikasını araşdıraraq, kommunikasiya problematikasını nəzərdən keçirərək, sosial reallığın ümumilikdə özündə fərdlərin ünsiyyəti, qarşılıqlı əlaqəsi, qarşılıqlı təsirini əks etdirməsi haqqında ümumi tezisdən çıxış edirdilər. Bu müəlliflər öz əsərlərində sosial fəaliyyətdə rəsmi və qeyri-rəsmi başlanğıcın əlaqəsinə mühüm yer ayırırdılar.

XVIII və XIX əsrlərin kəsişməsində alman fəlsəfəsində "subyekt" və "obyekt" anlayışları işlənib hazırlanırdı, burada subyekt dedikdə ətraf obyektiv aləmə – "obyektə" aktiv-idraki münasibətdə olan insan başa düşülürdü [5, s.18]. Şəxsiyyətlərarası kommunikasiyanın dialoqluğu prinsipinin əvəzinə onun monoloqluğu prinsipi üstünlük qazandı [9, s.112].

Kommunikasiyanın biristiqamətli proses kimi nəzərdən keçirilməsi subyekt-subyekt münasibəti ("mən" – "digər mən") kimi adekvat şəxsiyyətlərarası kommunikasiya nəzəriyyəsinin yaradılması yolunu bağlayır və digər tərəfin dərk edən subyektin passiv təsir obyektinə çevrildiyi subyekt-obyekt münasibətləri kimi başa düşülmə səviyyəsində dayanırdı [6, s. 270].

F.Şleyermaxer ünsiyyət problemini ardıcıl surətdə nəzərdən keçirirdi. Onun üçün insanlar arasında ünsiyyət, ilk növbədə, fərdlər, bərabər tərəflər arasında ünsiyyətdir (yəni, subyekt-subyekt münasibəti). Bu faktın qəbul edilməsi onun üçün sonradan həqiqi insan qarşılıqlı münasibətlərinin başa düşülməsi nəzəriyyəsinin işlənib hazırlanması üçün zəmin və fundamental əsas oldu. Məhz F.Şleyermaxer başqa birinin fərdiliyinin, digər birinin dərk edilməsi sənəti kimi qiymətləndirdiyi hermenevtikanın (təfsir elmi) əsasını qoydu. F.Şleyermaxer üçün başadüşmənin universallığı yeganə bir qanunla bitir: "bütöv hissələrdən, hissə isə yalnız bütöv ilə əlaqədə başa düşülür" [14, s.129]. F.Şleyermaxer bunu hermenevtik çevrə vasitəsilə etməyi təklif edirdi.

Ümumi hermenevtika qanunu iki kanon formasında mövcuddur. Birinci kanona əsasən, biz nitqi müəllifə və ilkin oxucuya yaxın bir dil sahəsi fonunda başa düşməliyik. Burada bütöv qismində dil sahəsi, hissə qismində isə müəllifin nitqi (mətn) çıxış edir. Bu, mətnə münasibətdə xarici hermenevtik çevrə, eqoparadiqmatikadır. İkinci kanonda deyilir ki, hər bir sözün kontekstdə mənası onun digər sözlərlə əlaqəsi ilə müəyyən edilir. Bu çevrə artıq mətnin özünün daxilində mövcuddur: bütöv kontekstdir, hissə isə mətnin daxilində okkazional mənasını reallaşdıran ayrıca sözdür. Bu kanon mətnin qurulmasının sintaqmatik aspektini vurğulayır.

XIX əsrdə kommunikasiyanın yeni tədqiqat istiqaməti olan semiotika meydana çıxır. Semiotikada əsas diqqət kommunikasiyanın işarəvi təbiətinə yönəldilirdi, müəyyən məna ilə müqayisə edilən işarələrin və işarə sistemlərinin xüsusiyyətləri tədqiq edilirdi.

Bununla yanaşı, XIX əsrdə tənqid istiqaməti insan həyatının

kommunikativ aspektlərinin öyrənildiyi ümumi xətdən ayrılan nəzəriyyələr meydana çıxırdı. F.Nitsşe XIX əsrdə kommunikasiyanın ən parlaq tənqidçilərindən biri olmuşdur. O, əmin idi ki, düşüncə dildən ayrılmazdır, lakin dil bir zərurət olaraq gerçəkliyi təhrif edir, "öz təbii halına malik həyatı" onu varlığın atributlarından – təbiilikdən, ehtiraslardan, vasitəsizlikdən, kortəbiilikdən məhrum olan süni rəsmi ilə dəyişdirir. Metafora sözlərin köməyilə insanlar təəssüratlarının xaosunu nizamlayırlar. Anlayışların deindividualizasiyası və universal tətbiq oluna bilməsi üzvlərinin "razılığa gəlmək" imkanına malik olmalı olduğu cəmiyyətin mövcudluğunun təminatıdır [12, s.138].

XX əsrdə kommunikasiyanın öyrənilməsinin fəlsəfi ənənəsi daha çoxcəhətlidir. Bir tərəfdən burada sonradan semiotika və hermenevtika ideyaları yayılmağa başladı, digər tərəfdən isə kommunikasiya probleminə biheviorizm, ekzistensializm, personalizm, analitik və linqvistik fəlsəfə, dialoq fəlsəfəsi, simvolik interaksionizm kimi fəlsəfi istiqamətlər çərçivəsində böyük diqqət yetirilirdi.

Yeni dövr şifahi sözün əhəmiyyətini azaldır. Müxtəlif ictimai institutlar daxilində yazılı kommunikativ aktlar fəal şəkildə inkişaf edirdi. Kommunikasiyanın istiqamətini dəyişərək kütləvi qarşılıqlı təsir üsuluna yönəlməsi baş verir.

Ümumiyyətlə, yeni dövr informasiya texnologiyalarının inkişafı ilə birlikdə məlumatın real vaxt rejimində qeyri-məhdud məsafələrə ötürülməsini mümkün edərək kommunikasiya nəzəriyyəsinə yeni aspekt gətirdi. Kommunikasiya yalnız insanın insanla ünsiyyəti kimi başa düşülmür, o, həm də məlumatın çatdırılmasının müxtəlif üsullarını özündə ehtiva edir. Kommunikasiya nəzəriyyəsi bir çox fənlərin öyrəndiyi obyektə çevrilir və kommunikasiya fenomeninin hərtərəfli öyrənilməsi onun fənlərarası tədqiqatının, ictimai, humanitar, təbiət, texniki elmlər kimi bir çox elmlərin potensialının cəlb edilməsinin zəruriliyini şərtləndirir.

## ƏDƏBİYYAT

1. *Алёхин Э.В.* Управление общественными отношениям / Э.В. Алехин. Пенза: ПГУ, 2012, 198 с.
2. *Андрианов М.С. Невербальная коммуникация: психология и право.* М.: Институт Общегуманитарных Исследований, 2007, 320 с.
3. *Аристотель.* Риторика / Аристотель. М.: Лабиринт, 2000, 221 с.
4. *Аристотель.* Сочинения**:** в 4 т-х. Т. 4 / пер. с древнегреч. Аристотель; общ.ред. А.И. Доватура. М.: Мысль, 1983, 830 с.
5. *Бориснёв С.В.* Социология коммуникации: Учеб. пособие для вузов. М.: ЮНИТИ-ДАНА, 2003, 414 с.
6. *Василик М.А.* Основы теории коммуникации / М.А.Василик. М.: Гардарики, 2003, 615 с.

7. *Гавра Д.П.* Основы теории коммуникации / 1-е изд. СПб.: Питер, 2011, 316 с.
8. *Казарян И.Р.* Коммуникации как основа эффективного управления персоналом: Учеб. пособие / И.Р.Казарян, С.П.Морозов. Чита: ЧитГУ, 2011, 159 с.
9. *Краснянский Д.Е.* Основы теории коммуникации / Д.Е.Краснянский. М.: МГТУ ГА, 2009, 154 с.
10. *Назарчук А.В.* Теория коммуникации в современной философии. М.: Прогресс-Традиция, 2009, 246 с.
11. *Нерсеянц В.С.* Сократ / В.С. Нерсеянц. М.: Наука, 1977, 252 с.
12. *Николаева Ж.В.* Основы теории коммуникации / Ж.В.Николаева. Улан-Удэ: ВСГТУ, 2004, 274 с.
13. Новая философская энциклопедия: в 4-х т. Т. 3. / Ин-т философии РАН, Нац. общ.-науч. фонд. М. : Мысль, 2010, 692 с.
14. *Шлейермахер Ф.* Герменевтика / Ф. Шлейермахер / пер. с нем. А.Л. Вольский, науч. ред. Н.О.Гучинская. СПб.: Европейский Дом, 2004, 242 с.
15. *Яковлев И.П.* Ключи к общению. Основы теории коммуникаций. СПб.: Авалон, Азбука-классика, 2006, 349 с.

Redaksiyaya daxil olub 06.06.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 115-122
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 115-122

*УДК 316:001.83 (100)*

***Н.Ф.Гахраманова***
*Азербайджанский государственный педагогический университет*
*ngahraman@mail.ru*

# ПРОБЛЕМА ПОЛНОТЫ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ СТРОИТЕЛЬСТВА ПРАВОВОГО ГОСУДАРСТВА

***Ключевые слова:*** *информационное обеспечение, социальное управление, теория, концепция, нравственные ценности, историческая культура*

Управление – это живой динамичный процесс со свойственными ему противоречиями. Поэтому и в дальнейшем одни принципы будут заменены другими, одни принципы управления будут сданы в архив истории, а другие – будут вписаны в структуру новых законов, новых государственных решений и т.д. С точки зрения исследуемой нами проблемы, основным смыслом и основной целью социального управления является улучшение жизни людей, совершенствование и гуманизация механизмов, теорий и концепций социального управления.

***N.F.Qəhrəmanova***

# HÜQUQİ DÖVLƏT QURULMASININ MÜASİR DÖVRÜNDƏ SOSİAL İDARƏETMƏNİN İNFORMASİYA TƏMİNATI PROBLEMİ

***Açar sözlər:*** *informasiya təminatı, sosial idarəetmə, nəzəriyyə, konsepsiya, mənəvi dəyərlər, tarixi mədəniyyət*

İdarəetmə özünəməxsus ziddiyyətləri ilə canlı dinamik bir prosesdir. Buna görə gələcəkdə bəzi prinsiplər digərləri ilə əvəz ediləcək, bəzi idarəetmə prinsipləri tarix arxivinə veriləcək, digərləri yeni qanunlar, yeni hökumət qərarları və s. tərkibinə daxil ediləcəkdir. Araşdırdığımız problem baxımından sosial idarəetmənin əsas mənası və əsas məqsədi insanların həyatını yaxşılaşdırmaq, sosial idarəetmə mexanizmlərini, nəzəriyyələrini və konsepsiyalarını təkmilləşdirmək və humanistləşdirməkdir.

***N.F.Gahramanova***

# THE PROBLEM OF THE COMPLETENESS OF INFORMATION SUPPORT OF SOCIAL MANAGEMENT AT THE PRESENT STAGE OF THE CONSTRUCTION OF LAW STATE

***Keywords:*** *information support, social management, theory, concept, moral values, historical culture*

Management is a lively dynamic process with its inherent contradictions. Therefore, in the future, some principles will be replaced by others, some management

principles will be handed over to the history archive, and others will be included in the structure of new laws, new government decisions, etc. From the point of view of the problem which we research, the main meaning and main goal of social management is to improve people's lives, improve and humanize the mechanisms, theories and concepts of social management.

При изучении этой темы мы встретились с целым рядом серьезных проблем и трудностей. Они, с одной стороны, заключаются в том, что некоторые авторы, говоря о полноте информационного обеспечения социального управления, акцентируют внимание на численном выражении, на математически и практически фиксируемых характеристиках информации. Здесь суть проблемы сводится к утверждению и фиксации того, много или мало информации. В некоторых случаях рассуждения сводятся к словесному подтверждению самодостаточности требуемой информации. Но при всем, при том, авторы подобных подходов не берут в счет объективность информации. За сухими числами, формулами, формальными отчетами и докладами некоторые авторы не усматривают сомнительность их объективности, что, в конечном счете, приводит к ситуации неопределенности, к той самой ситуации, когда субъект управления сомневается в правильности и объективности имеющейся в его распоряжении информации. Таким образом, наличие «многой» информации в ее количественном или численном выражении – это не свидетельство о ее достаточности и объективности.

Следовательно, эта проблема в системах социального, экономического или политического управления может быть «перенесена» в другую плоскость – плоскость изучения и проверки информации. Если не быть рабами книг, учебников, методических указаний и т.д., то будет трудно понять истину, всегда имеющую место в жизни, - управлению, в частности, социальному управлению, должен предшествовать момент строгой проверки и даже изучения информации.

В настоящее время формально-логически мы можем говорить о наступлении эры объективной информации. Но это лишь формально-логически. На деле же, все обстоит гораздо сложнее, чем нам хочется. И здесь между нашими пожеланиями и реалиями жизни пролегает большая пропасть. Информация функционирует между трудом и капиталом, пребывающими в состоянии глубочайших противоречий, порой доходящих до антагонизма, о чем неопровержимо свидетельствуют реалии даже развитых капиталистических стран. В условиях этих противоречий и антагонизмов каждый социальный слой, социальная группа, выражаясь марксистской терминологией, каждый класс нуждается в своей правде, в своей аргументации собственных планов, наконец, в обосновании правильности и объективности содержания и целей своих социальных ожиданий. И это отнюдь не риторический вопрос, так как в сферах социального и политического управления фактор социальных ожиданий людей, граждан занимает исключительное место. Ибо основной смысл и основная цель социального управления – улучшение жизни людей, совершенствование и гуманизация механизмов, теорий и концепций социального управления. К сожалению, этот вопрос даже частично не стал предметом обсуждения

политологии. Нам кажется, что в условиях решительной пропаганды мультикультурализма и толерантности всестороннее изучение этой проблемы должно стать предметом особых дискуссий и новых методологических подходов.

Как отмечает Президент Азербайджанской Республики Ильхам Алиев на Бакинском международном гуманитарном Форуме «Мы стараемся и будем стараться и дальше вносить вклад в усиление межрелигиозного, межкультурного диалога в гуманитарной сфере. Потому что наша политика заключается в этом, наша история также построена на мультикультурализме. Правда, мультикультурализм, как понятие, является новым выражением, но он всегда был в Азербайджане. Независимо от общественно-политического строя, Азербайджан всегда являлся пространством мира, сотрудничества, взаимопонимания, и мы храним эти традиции. Проводя сегодня такие мероприятия, мы, как независимое государство, вносим вклад в развитие мультикультурализма, проводимая в Азербайджане политика усиливает в повседневной жизни эти позитивные тенденции» [8].

До сих пор проблема интересов – личных, профессиональных, корпоративных, классовых, общегосударственных, общенациональных – в сфере управления и управленческих отношений не стала предметом исследования политологии. А между тем, такие вопросы, как: кому служит такая система управления? В чьих интересах вводятся (в общегосударственном или отраслевом уровнях) такие-то принципы управления? и др. ждут своего теоретико-методологического решения. И это вовсе не риторика. В обществе, в любой сфере социальной, политической или экономической деятельности, на любом уровне социальной иерархии есть люди, заинтересованные в защите и сохранении «статус кво», прежних порядков и принципов, но есть работники и более широких взглядов, по существу государственной ориентации, устремленные в будущее.

Первые – это консерваторы, сторонники неприкосновенности идей, обслуживающих их личные и корпоративные интересы. Вторые – это категория работников, в том числе и в сфере управления, которые ориентированы на день завтрашний, устремлены к социально-экономическому и научно-техническому прогрессу. Эти полярности рельефно проявлялись на начальном этапе переходного этапа, но не прекратились их проявления и на современном этапе демократизации общества. Притом, позиция первых, выражающаяся в защите практики и принципов, приносящих личную, корпоративную выгоду, основывается на личном или корпоративном интересе, на том, чтобы систему управления или ее отдельные сферы использовать в целях личного, корпоративного или кланового обогащения.

В Азербайджане, например, один из главнейших принципов и путей выхода из описанной выше ситуации найден – это организация по инициативе Президента Ильхама Алиева совершенно новой в современном мире структуры «Асан хидмет». Как отмечается в подписанном Ильхамом Алиевым распоряжении от 5 апреля 2019 года о проектировании и строительстве двух новых центров «ASAN xidmət» в городе Баку: «Благодаря оказанию гражданам в центрах «ASAN xidmət» отвечающих современным требованиям услуг на основе

принципов оперативности, прозрачности, вежливости, ответственности и удобства достигнута высокая гражданская удовлетворенность. В целях дальнейшего расширения оказания населению страны государственных и частных услуг в едином пространстве и охвата сетью услуг всей территории республики до сегодняшнего дня в столице, а также других городах и районах созданы пятнадцать центров «ASAN xidmət», до конца 2019 года планируется открыть еще пять центров» [9].

Создание этой структуры явилось новым, революционным шагом в сфере социального управления, в вопросах цивилизованности отношений государство - гражданин, гражданин – государство. Появление в городах и в большинстве районах Азербайджана службы «Асан хидмет» ознаменовало конец бюрократизма, бумажной волокиты и чиновничьего беспредела во многих сферах жизнедеятельности общества. Но самое главное – сделало государственное управление некоторыми сферами жизни более эффективным, более цивилизованным, а прежней деятельности нечистоплотных чиновников положило конец.

Радует и то, что Президент страны решил идти дальше – создать структуру «Дост». Согласно указу Президента Азербайджана Ильхама Алиева о дополнительных мерах по усовершенствованию управления в сферах занятости населения, труда, социальной защиты и обеспечения, при министерстве труда и социальной защиты населения создается юридическое лицо публичного права "Агентство устойчивого и оперативного социального обеспечения" (Агентство DOST). Агентство будет управлять центрами "DOST", осуществлять контроль и оценку их деятельностью. Центры "DOST" будут обеспечивать осуществление услуг в сфере занятости населения, труда, социальной защиты и обеспечения, а также в других сферах в соответствии с направлениями деятельности министерства труда и социальной защиты населения» [1].

А теперь вернемся к вопросам практической и управленческой деятельности прогрессистов, людей государственно мыслящих, ориентированных на самое передовое и прогрессивное. Те достижения и новшества, о которых речь шла выше, целиком и полностью соответствуют их идеям и ожиданиям. Но этим, конечно, вопрос не исчерпывается. Они заинтересованы насытить социальную жизнь, социальные системы и систему социального управления новыми идеями, новыми, заимствованными у развитых стран, образцами и стандартами. И здесь, в основном через государственные структуры, социальные и политические институты делаются определенные продуктивные шаги. Однако эта группа государственно мыслящих работников также не свободна от порожденных самой жизнью проблем, в том числе и в области управления, оптимизации его подсистемных компонентов.

На наш взгляд, здесь в первом приближении следует обратить внимание на две проблемы: а) на вопросы эффективности или неэффективности использования чужого опыта, которые, в свою очередь, порождают необходимость теоретического анализа и практической проверки того, насколько мы правильно пользуемся заимствованными принципами; б)насколько наши собственные системы социального управления, вся отечественная социальная

система, право, правовые нормы и правовые механизмы позволяют внедрять новое, прогрессивное и оптимизировать систему управления.

Здесь уже при первой попытке проанализировать общие контуры проблемы, мы сталкиваемся с серьезными проблемами.

Одна из этих проблем состоит в том, что наше общество – новое, почти юное. Но это новое, как мы хорошо знаем, уже успело пройти несколько этапов. На первом этапе перехода от социализма к капитализму мы, наши социальные институты и политические движения в основном были заняты заимствованием чужих, главным образом, не социалистических, моделей. Когда в парламенте страны обсуждался тот или иной вопрос, связанный с созданием новой политической или экономической системы, то один предлагал взять турецкую модель, другой призывал заимствовать швейцарскую модель, третий пытался идеализировать какие-то американские модели и т.д. Но в целом эти обсуждения заканчивались тем, какие модели и принципы организации государственных структур и построения новой системы социального управления предлагали ОБСЕ и другие европейские организации. А европейские структуры предлагали то, что их устраивало. В предложениях и советах европейских организаций абсолютно не учитывались национальные интересы азербайджанского народа и национальная специфика. Для европейских структур, беспардонно взявших на себя функции домашнего учителя целых народов, история и историческая культура этих народов, их национальные традиции и обычаи, этническая психология и особенности национального сознания и самосознания – все это не имело существенного значения. Все это явилось значительным препятствием для полной и эффективной реализации идей и планов прогрессистов, тех, кто на начальном этапе переходного периода проявлял энтузиазм, ориентировался на инновации.

И вот тут вырисовывается странная картина. Консерваторы не могли достичь серьезных успехов, так как они были консерваторами и плохо видели будущее. Прогрессисты, люди, ориентированные на будущее, также испытывали затруднения, не могли самореализоваться полностью, так как вновь созданная социальная система, а также система социального управления были далеко не оптимальными, малоэффективными. Поэтому уже в середине переходного периода встала теоретическая и практическая задача совершенствования социальной системы, оптимизации системы социального управления на разных ступенях социальной иерархии.

Одной из самых главных задач создания современной, наукоемкой, цивилизованной системы социального управления является наполнение ее духовным и нравственным содержанием, когда бы не человек служил системе, а система служила человеку. Речь идет о создании такой системы социального управления, которая всячески способствовала бы утверждению поистине гуманных, высоконравственных, подлинно человеческих отношений между субъектом и объектом управления, между начальниками и подчиненными, между работодателем и наемным работником. Задача, конечно, чрезвычайно сложная и трудная. Задача науки состоит в том, чтобы перейти к практической созидательной деятельности.

В первом приближении здесь необходимо акцентировать внимание общества и государства на следующих вопросах: а) на всеобщей и универсальной деятельности по усилению нравственного потенциала нации общества. Ибо мощь и сила нравственного потенциала нации и общества – это определяющий фактор гуманизации межличностных отношений, построении цивилизованных и высоконравственных отношений между субъектами и объектами социального управления, между работодателем и работником.

Мы, в данном случае, рассматриваем нравственный потенциал общества и нации не только как некий двигатель прогресса, но и как реальную среду для реализации ничем не ограниченной, предметно-развернутой деятельности человека. Однако эту неограниченность ни в коей мере нельзя интерпретировать как вседозволенность, как бесцельное стихийное движение к неопределенности, к тому, где что-то можно брать, присвоить, при этом забыв об общенациональных и общечеловеческих интересах. Стало быть, центральным нервом, своеобразным идейным фундаментом создания мощного нравственного потенциала нации является общенациональный и общегосударственный интерес. Только при таком раскладе идей и принципов возможно добиться строительства духовно и нравственно обогащенной современной цивилизованной системы социального управления, такой системы, где субъект системы социального управления в возможностях выйти за пределы закона и всяческих инструкций и «руководств» был бы строго ограничен санкциями духовности, нравственности и морали, санкциями Кантовского категорического императива.

Одной из составляющих этой идеи является религия и религиозные ценности. Но в светском государстве с его светскими, цивилизованными системами социального, политического, экономического управления надобность в религиозной морали отпадает. Она в лучшем случае может быть использована в целях воздействия на психику и умонастроения людей, плохо ориентирующихся в науке, политических и социальных процессах, в вопросах субъект-объектных отношений.

В цивилизованном обществе и светском государстве имеется широкий простор выхода, как субъекта, так и объектов социального управления на духовные, идейные, нравственные, культурные ценности, необходимые для обогащения системы управления и управленческой деятельности. Здесь мы имеем в виду в первую очередь мировой опыт, опыт и достижения развитых стран в сферах социального и политического управления и управленческой деятельности, а также в вопросах управленческих отношений. В этом отношении человеческий опыт богат, имеет многотысячную историю – Шумер, Аккад, Египет, Китай и т.д. Понятно, что в XXI веке мы не можем идти по пути механического заимствования и использования управленческих принципов тех далеких столетий. Но, как ни парадоксально, некоторые принципы, проходя через сито столетий и тысячелетий, сохранили свой главный, мы бы сказали, общечеловеческий смысл, общечеловеческое назначение. Особенно это относится к сферам духовности и нравственности, к тем ценностям, которые помогают защищать, лелеять и сохранить в человеке человеческое, безотносительно к тому, он хозяин или подчиненный, богатый или бедный.

В этой связи хотелось бы особо акцентировать внимание на одном, очень тонком вопросе. Вся мировая классика, особенно литературные памятники древности, свидетельствуют о том, что во всех цивилизованных обществах, когда речь заходила об управлении и управленческих отношениях, подчеркнуто обращалось внимание на вопросе об особой ответственности правителей за жизнь и воспитание управляемых.

И своим личным примером в проявлении к подчиненным человечности, в общении с людьми низшего ранга хозяин, господин обязан был отличаться хорошими, наполненными высокой моралью и гуманизмом человеческими качествами. Нам представляется, что наука в этом направлении может и должна проделать серьезную работу. В данном случае нам представляется важность и актуализированность разработки и общенародного принятия кодекса руководящего работника государства, или кодекса управителей. Ведь у нас нет ни единого документа, определяющего ответственность должностного лица перед нацией и обществом, перед сослуживцами и подчиненными. Да, есть законы государства, определяющую служебную ответственность лица, работника перед государством. Это есть. Но этого явно недостаточно. Речь идет о принципах, обязывающих работника трудиться честно и с отдачей, трудиться во благо нации и Отечества.

Другим, не менее важным, направлением обогащения системы социального управления и поднятия эффективности управления является усиление интеллектуального потенциала управляющих, постоянное внимание к вопросам информационного обеспечения всей системы управления – и субъектов, и объектов социального управления. Информация – это социальный, профессиональный и интеллектуальный кислород управления. Наступление информационного голода – это смерть продуктивной управленческой деятельности.

Одним из важнейших направлений совершенствования всей системы социального управления и устранения ошибок и недостатков должен стать творческо-критический анализ пути, пройденного нами за годы постсоветской жизни. Здесь в данном случае я имею в виду практику заимствования нами, равно как и всеми постсоветскими государствами, чужого опыта, в частности опыта западных стран. На наш взгляд, здесь следовало бы акцентировать внимание на двух обстоятельствах. Первый – насколько был правилен сам выбор. Была ли теоретически обоснована необходимость выбора именно тех принципов и идей, которые впоследствии заняли определенное место в нашей системе социального управления? И, если совсем непригодны или малопригодны, то почему сама система социального управления не отторгает их? Надо полагать, что такое положение дел следует объяснять неразвитостью самой системы социального управления.

Второй – при заимствовании и использовании чужого опыта, чужих идей, концепций и принципов учитывалась ли наша национальная специфика? Ведь Запад и Восток сильно различаются своей культурой, историей, ценностными ориентациями и т.д. Поэтому механическая пересадка западных принципов, идей и концепций на тело восточной цивилизации должно было неизбежно привести к

их отторжению самой же нашей, пусть даже не очень развитой, системой социального управления, а в более широком смысле – всей нашей социально-экономической и политической системой. К сожалению, этот важнейший аспект этой фундаментальной проблемы пока еще не стал предметом специальных исследований.

Для выработки полного представления о существовании содержания и структуре социального управления, необходимо исследовать первые шаги человечества, сделанные в этом направлении. По мере развития общества и становления цивилизации, принципы управления людьми, обществом, экономикой и другими процессами, усложнялись, становились более содержательными, более наукоемкими.

Как известно, управление в период дикости и варварства существенно отличается от управления на более высоких уровнях и ступенях рабовладельческого общества. По сравнению с рабовладельческим обществом в феодальном обществе система политического и социального управления становилась информационно насыщенной, охватывающей все новые и новые сферы человеческой деятельности. Этот логический принцип можно продолжать дальше вплоть до наших дней. Важно то, что мы установили, что управленческая деятельность людей, как и само общество, развивались по восходящей линии, в направлении цивилизованности, а также использования последних достижений науки, техники и культуры.

Таким образом, подводя итог, надо отметить, что только при наличии достоверной информации, полученной и проверенной соответствующими методами, мы можем говорить об эффективности социального управления в правовом государстве.

## ЛИТЕРАТУРА

1. Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / "Xalq" qəz., Bakı, 2018, 9 avqust
2. *Гречихин В.Г.* Проблемы социального управления. Москва, 1999, 254 с.
3. *Кикоть В.Я., Грядовой Д.И.* Социальное управление: теория, методология, практика. Москва, 2013, 312 с.
4. *Пищулин Н.П., Пищулин С.Н., Бетуганов А.А.* Социальное управление: теория и практика: в 2-х т. Т. I. Москва: Академкнига, 2003, 550 с.
5. *Франчук В.И.* Современные основы социального управления. Москва, 1997, 265 с.
6. *Щекин Г.В.* Как эффективно управлять людьми: психология кадрового менеджмента. Киев, 1999, 315 с.
7. *Щекин Г.В.* Основы кадрового менеджмента. Киев, 2002, 280 с.
8. Речь Президента Азербайджана Ильхама Алиева на Бакинском международном гуманитарном форуме / https://ru.president.az/articles
9. https://1news.az/news

Redaksiyaya daxil olub 04.03.2021

*UOT 314*

***F.S.Qurbanzadə***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*fexri.qurbanzade@gmail.com*

# MİQRANT VƏ QAÇQIN ANLAYIŞLARININ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *miqrasiya, miqrant, qaçqın, sığınacaq axtaran şəxs, məcburi köçkün, vətəndaşlığı olmayan şəxs*

Müasir dövrdə miqrasiya prosesləri və ondan irəli gələn məsələlər olduqca aktualdır. Son dövrlərdə daxili münaqişələrin artması nəticəsində bu proses daha da sürətlənmiş və böyük bir miqrant kütləsi meydana gəlmişdir. Bu isə öz növbəsində dövlətlərarası münasibətlərə təsir göstərir. Miqrasiyanın başvermə səbəbləri və formalarının müxtəlif olması bu prosesdə iştirak edən insanlar üçün də fərqli ad və hüquqlar yaradır. Ona görə də miqrasiya prosesi ilə yanaşı, miqrant, qaçqın, sığınacaq axtaran şəxslər və məcburi köçkün anlayışları nəzərdən keçirilməli və onların fərqli xüsusiyyətləri göstərilməlidir. Məqalədə yuxarıda sadalanan anlayışların hər birinin tərifi verilmiş, bir-birindən fərqləndirilmiş və bunu vacibliyi göstərilmişdir. Məqalədə həmçinin miqrasiya prosesi ilə əlaqədar son dövrün statistik göstəriciləri verilmişdir.

***Ф.С.Гурбанзаде***

# ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ПОНЯТИЙ МИГРАНТОВ И БЕЖЕНЦЕВ

***Ключевые слова:*** *миграция, мигрант, беженец, соискатель убежища, вынужденный переселенец, лицо без гражданства*

В настоящее время очень актуальны миграционные процессы и связанные с ними проблемы. В последние годы в результате увеличения внутренних конфликтов этот процесс ускорился и образовалась большая масса мигрантов. Это, в свою очередь, сказывается на межгосударственных отношениях. Различия в причинах и формах миграции создают разные имена и права для людей, вовлеченных в этот процесс. Таким образом, наряду с миграционным процессом, следует учитывать понятия мигрантов, беженцев, лиц, ищущих убежища, вынужденных переселенцев и указывать их отличительные особенности. В статье дано определение каждого из перечисленных выше понятий, их отличие друг от друга и указана их важность. В статье также представлены последние статистические данные о процессе миграции.

***F.S.Gurbanzadeh***

# DISTINCTIVE FEATURES OF THE CONCEPTS OF MIGRANTS AND REFUGEES

***Keywords:*** *migration, migrant, refugee, asylum seeker, forced migrant, stateless person*

Currently, migration processes and related problems are very relevant. In recent years, as a result of increasing internal conflicts, this process has accelerated and a large number of migrants has emerged. This, in turn, affects interstate relations. The differences of causes and forms of migration create different names and rights for the people who involved in this process. Therefore, along with the migration process, the concepts of migrants, refugees, asylum seekers, and IDPs should be take into consideration and their distinctive features should be indicated. The article defines each of the above concepts, distinguishes them from each other and shows their importance. The article also provides recent statistics related to the migration process.

## Giriş.

Müasir dövrdə baş verən miqrasiya prosesləri dünyada əsas problemlərdən biri olaraq qalmaqdadır. Xüsusilə keçən onillikdə Yaxın Şərqdə baş verən "Ərəb baharı" nəticəsində Avropa regionu yeni bir miqrant böhranı ilə üzləşdi. Bəşər tarixinin bütün dövrlərində mövcud olan miqrasiya prosesi əhalinin bir yerdən digərinə hərəkəti kimi başa düşülür. Miqrasiya (latın dilində migratio - köçmək) insanların siyasi, sosial və iqtisadi səbəblərə görə fərdi və ya kütləvi şəkildə yerdəyişdirməsidir. Miqrasiya dünyanın bütün ölkələrində baş verən bir prosesdir və tarixin bütün zamanlarında müəyyən miqyasda baş verib. Bu proses bəzi ölkələrdə sürətli şəkildə, bəzi ölkələrdə isə olduqca yavaş baş verir.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına əsasən hal-hazırda dünyada 270 milyondan artıq miqrant mövcuddur. Yəni dünya əhalisinin 3.5%-i öz daimi yaşayış yerindən kənardadır [6, s.21]. Bu yalnız beynəlxalq miqrantların (ölkələrarası) sayıdır. Daxili miqrasiyanı da nəzərə alsaq, bu rəqəm 1 milyarda yaxındır. Yəni dünyada hər 7 nəfərdən biri bu və ya digər şəkildə, müəyyən səbəblərdən daim yaşayış yerini dəyişməkdədir. Bu yerdəyişmənin səbəbləri və başvermə forması olduqca müxtəlifdir. Miqrasiya edən şəxsin hansı səbəbdən və hansı formada miqrasiya etməsi fərqli hüquqi nəticələr doğurur. Buna görə də bu prosesi tənzimləmək, miqrantların hüquqlarını təmin etmək üçün miqrant, qaçqın, məcburi köçkün, sığınacaq axtaran şəxslər və vətəndaşlığı olmayan şəxslər kimi anlayışlar nəzərdən keçirilməli və miqrasiya edən şəxsin hansı qrupa aid olması müəyyən edilməlidir.

**Miqrant** yaşadığı ölkədən başqa bir ölkəyə mədəni, dini, sosial, ideoloji, iqtisadi və siyasi səbəblərdən ötrü qanuni və ya qanunsuz yollarla

miqrasiya edən insandır. Əgər miqrasiya anlayışı insanların hərəkəti prosesini nəzərdə tutursa, miqrant anlayışı həmin prosesdə iştirak edən insanı nəzərdə tutur. Yəni miqrasiya prosesində iştirak edən hər bir şəxs miqrant adlanır. Bir insanın miqrasiya etməsi üçün səbəblər müxtəlifdir. Belə ki, miqrant daha yaxşı həyat yaşamaq, iş tapmaq, təhsil almaq, yoxsulluq, təbii fəlakət, aclıq, müharibə, siyasi təqib və s. problemlər səbəbindən miqrasiya edir. Yəni əgər miqrasiya prosesi baş verirsə, onun əsasında hər hansı bir problem dayanır. Bu problem əsasən iqtisadi əsaslı olur, lakin son dövrlərdə siyasi səbəblərdən miqrasiya edən insanların sayı getdikcə artmaqdadır.

Miqrantlar əsasən inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə doğru miqrasiya edirlər [1, s.13]. Birləşmiş Millətlər Təşkilatının məlumatına əsasən dünyada ən çox miqrantın olduğu ilk beş ölkə ABŞ, Almaniya, Səudiyyə Ərəbistanı, Rusiya və Böyük Britaniyadır [6, s.26]. Miqrantların mənşə ölkəsinə görə ilk beş ölkə isə belədir: Hindistan, Meksika, Çin, Rusiya, Səudiyyə Ərəbistanı.

**Qaçqın** irqi, dini, milliyyət, müəyyən bir sosial qrupun üzvlüyü və ya siyasi fikirlər səbəbindən təqib olunma qorxusu olduğuna görə öz ölkəsinə qayıtmaq iqtidarında olmayan şəxsdir. Şəxsin qaçqın olaraq tanınması üçün o, qaçqın olmağın xüsusiyyətlərini daşımalıdır [2]. Qaçqınlar, onların statusu və onlara aid digər məsələlər "Qaçqınların statusuna dair 1951-ci il Cenevrə Konvensiyası" və ona əlavə 1967-ci il Protokolu ilə tənzimlənir. Cenevrə Konvensiyasına əsasən **qaçqın** "irqi, dini, milliyyət, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət və ya siyasi əqidə üzündən təqib qurbanı olmaq barədə tam əsaslı ehtiyatlara görə vətəndaşı olduğu ölkədən kənarda olan və həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya bu cür ehtiyatlar üzündən istifadə etmək istəməyən və ya müəyyən vətəndaşlığı olmadan və həmin hadisələr nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalaraq bu cür ehtiyatlar üzündən oraya qayıda bilməyən şəxsdir". Bu Konvensiya yalnız 1951-ci ilin yanvarın 1-dək qaçqın düşmüş şəxslərə şamil olunurdu. Lakin 1950-60-cı illərdə xüsusilə Afrika və Asiyada yeni qaçqın qrupları meydana gəldi. Buna görə 1951-ci il Konvensiyasına əsasən coğrafi və tarixi olaraq qaçqın kimi tanınmayan insanların beynəlxalq yurisdiksiyadan yararlana bilmələri üçün 1967-ci ildə yeni bir protokol imzalandı və bu protokol 1951-ci ildən sonra qaçqın düşmüş şəxslərə də şamil olundu [3, s.7-9]. Daha sonrakı dövrlərdə regionlarda qaçqınlarla bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə Avropa Şurası, Afrika Birliyi Təşkilatı və Latın Amerikası ölkələri tərəfindən bir sıra sənəd, Konvensiya və bəyannamələr qəbul edilmişdir.

Hal-hazırda dünyada 26 milyondan çox qaçqın var. Onların yarıdan çoxu uşaqlardır. Dünya üzrə qaçqınların 85%-i isə inkişaf etməkdə olan dövlətlərdə məskunlaşıb [12]. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən ən çox qaçqının yaşadığı ilk beş ölkə Türkiyə (3.6 mil.),

Kolumbiya (1.8 mil.), Pakistan (1.4 mil.), Uqanda (1.4 mil) və Almaniyadır (1.1 mil). Dünya üzrə qaçqınların 67%-i isə cəmi beş ölkədən olan qaçqınlardır: Suriya (6.6 mil.), Venesuela (3.7 mil.), Əfqanıstan (2.7 mil.), Cənubi Sudan (2.3 mil.) və Myanma (1 mil.) [11]. Siyahıya başçılıq edən Suriyadan olan qaçqınlar dünyanın 126 ölkəsində məskunlaşıblar. Əhalinin hər 1000 nəfərinə düşən qaçqın sayı ən yüksək olan dövlətlər isə Aruba (156), Livan (134), Kürasao (99), İordaniya (69) və Türkiyədir (43) [8].

**Sığınacaq axtaran şəxslər** beynəlxalq qoruma istəyən və rəsmi qaçqın statusuna dair iddiaları hələ təyin olunmayan şəxslərdir. Daha açıq şəkildə desək, getdiyi ölkədən ilk olaraq sığınacaq istəyən və ya ölkəsini tərk edərək qaçqın olduğu iddiası ilə başqa bir ölkəyə sığınan, ancaq hələ qaçqın olub-olmadığı haqqında yerli orqanlar və ya BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən qərar verilməmiş olan insanlardır [6]. Əgər sığınacaq istəyən şəxsin müraciəti təmin edilərsə, həmin şəxs müdafiə ilə təmin olunur və "qaçqın" statusu verilir. Müraciəti təmin edilmədikdə isə həmin şəxs deportasiya edilir.

**Məcburi köçkünlər** isə silahlı münaqişənin, ümumiləşdirilmiş şiddət vəziyyətinin, insan hüquqları pozuntularının, təbii və ya insan tərəfindən törədilmiş fəlakətlərin qarşısını almaq üçün və ya onların nəticələri ilə əlaqədar öz evlərindən və ya yaşayış yerlərindən qaçmaq və ya tərk etmək məcburiyyətində qalmış, lakin beynəlxalq səviyyədə tanınmış sərhədləri keçməmiş insanlardır. Qaçqın və məcburi köçkünləri fərqləndirən əsas xüsusiyyət də məcburi köçkünlərin yalnız ölkə daxilində yerdəyişməsidir. Onlar beynəlxalq sərhədləri keçmədiklərinə görə beynəlxalq hüquqda onlar üçün xüsusi status müəyyən edilməmişdir. Buna görə də məcburi köçkün anlayışı təsviri xarakter daşıyır. Bundan əlavə məcburi köçkünün yaşayış yerini tərk etməsinin səbəbi təbii fəlakətlər də ola bilər. Lakin şəxs təbii fəlakət səbəbindən ölkə sərhədini keçib başqa ölkəyə sığınsa da qaçqın hesab olunmur.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən dünya üzrə 50.8 milyon məcburi köçkün mövcuddur. Məcburi köçkünlərin sayına görə ilk beş ölkə Suriya (6.1 mil), Kolumbiya (5.8 mil), Konqo Demokratik Respublikası (3.1 mil), Somali (2.6 mil) və Əfqanıstandır (2.6 mil) [6]. Həmçinin Azərbaycan Respublikası dünya üzrə ən çox məcburi köçkünün yaşadığı ölkələrdən biridir. Ermənistanın Azərbaycanın 20% ərazisini işğal etməsi və etnik təmizləmə siyasəti nəticəsində Ermənistandan Azərbaycana sığınan 250 mindən artıq qaçqın və ölkə daxilində 750 mindən artıq məcburi köçkün kütləsi meydana gəlmişdir.

Qaçqınlar da bir yerdən digərinə hərəkət edərək miqrasiya prosesində iştirak etdiklərinə görə miqrant hesab olunurlar. Lakin onları fərqləndirən bir sıra xüsusiyyətlər mövcuddur. Belə ki, miqrantlardan fərqli olaraq qaçqınlara xüsusi status və beynəlxalq qoruma verilir. Qaçqın və miqrant arasındakı digər

fərq isə seçimdir. Əgər miqrantlar öz həyat səviyyələrini yaxşılaşdırmaq, təhsil, iş tapmaq və digər səbəblərə görə öz arzuları ilə miqrasiya edirlərsə, qaçqınlar siyasi səbəblərdən ötrü, həyatları üçün təhlükə olduğuna görə miqrasiya etmək məcburiyyətində qalırlar. Beynəlxalq aləmdə qaçqın və miqrantı fərqləndirmək üçün şəxsin miqrasiya etməsinin səbəbi müəyyənləşdirilir. Əgər miqrasiya prosesi iqtisadi-sosial səbəblərə görə baş verirsə, həmin şəxs miqrant, siyasi səbəblərə görə baş verirsə həmin şəxs qaçqın hesab olunur.

Həmçinin qaçqınlar özlərinə aid heç bir əşya götürə bilmədən, əvvəlcədən planlaşdırılmadan yaşadıqları yeri tərk etmək məcburiyyətində qalırlar. Miqrantlar isə uzun müddətli hazırlıq görərək gedəcəkləri ölkələri özləri seçirlər. Bundan əlavə qaçqınlar beynəlxalq qoruma altında olduğundan onlar mənşə ölkəsinə geri göndərilə bilməzlər. Miqrantlar isə getdikləri ölkənin miqrasiya qanunlarına riayət etməlidirlər, əks halda gəldikləri ölkəyə deportasiya edilə bilərlər [10].

Həmçinin digər bir fərq təyinat ölkəsi ilə bağlıdır. Belə ki, qaçqınlar adətən qonşu olan ölkələrə sığınırlar. Məsələn, dünya üzrə 2,7 milyon əfqan qaçqın əsasən Pakistan və İranda yaşayır. Həmçinin fələstinli qaçqınların əksəriyyəti Suriya və İordaniya kimi qonşu ölkələrdə yaşayırlar. Lakin Avropa ölkələrində vəziyyət bir qədər daha fərqlidir. Çünki inkişaf etmiş Qərb ölkələrindəki qaçqınlar daha uzaq ölkələrdən gələnlərdir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə Avropa ölkələri içərisində ən çox qaçqın yerləşən ölkə Almaniya və İngiltərədir. Onların ardınca isə İsveçrə, Fransa və İsveç gəlir.

Bundan əlavə bəzi miqrantlar təbii hadisələrin səbəb olduğu – daşqın, zəlzələ, quraqlıq, sürüşmə və s. səbəblərdən yaşayış yerlərini tərk etmək məcburiyyətində qalsalar da, onlar qaçqın hesab olunmurlar. Belə ki, ancaq 1951-ci il Cenevrə Konvensiyasında göstərilən hallar baş verdiyi təqdirdə şəxs qaçqın hesab olunur. Həmçinin iqlimlə əlaqədar yaşayış yerini tərk edən insanlar əsasən ölkə daxilində hərəkət edirlər [7]. Ölkə sərhədlərini keçmədiklərinə görə onlar məcburi köçkün hesab olunurlar.

Vətəndaşlığı olmayan şəxslər, adından göründüyü kimi, heç bir dövlətin vətəndaşı deyillər. Vətəndaşsızlığın yaranma səbəbləri müxtəlifdir. Ən başlıca səbəb qanunlardakı boşluqlardır. Hər bir dövlətin vətəndaşlığa qəbul etmə və vətəndaşlıqdan çıxarılmanı tənzimləyən qanunları var. Bu qanunlar bir-birindən fərqləndiyinə və bir-birini tamamlamadığına görə vətəndaşlığı olmayan şəxslərin meydana çıxmasına səbəb olur [11]. Digər səbəblər sərhədlərin dəyişdirilməsi, yeni dövlətlərin yaranması, insanların miqrasiya etməsi, hər hansı etnik qrupa mənsubluq və s.-dir.

Vətəndaşlığı olmayan şəxslər təhsil, iş, səhiyyə kimi xidmətlərdən istifadə zamanı müxtəlif maneələrlə qarşılaşırlar. Vətəndaşlığı olmayan şəxslər miqrant hesab olunmasalar da, olduqları ölkədə qarşılaşdıqları problemlər onları

digər ölkələrə miqrasiya etməyə məcbur edir. Sərhəd keçidində, səyahət zamanı problemlərlə qarşılaşdıqlarına görə çox zaman qanunsuz yollardan istifadə edirlər.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən hal-hazırda dünyada 3.9 milyon vətəndaşlığı olmayan şəxs mövcuddur. Ən çox vətəndaşlığı olmayan şəxs isə Banqladeş (906 min), Kotdivuar (692 min), Myanma (620 min), Tailand (490 min) və Latviyadır (225 min). Əhalinin ümumi sayına nisbətinə görə birinci yerdə Latviyadır. Belə ki, Latviyada ümumi əhalinin 11%-i vətəndaşlığı olmayan şəxslərdir. İkinci yerdə isə 6%-lə Estoniyadır [6].

Qaçqın və miqrant anlayışları ilə yanaşı, illegal miqrant, miqrant qaçaqçılığı, insan alveri kimi anlayışlar da nəzərdən keçirilməlidir.

Əgər bir insan başqa bir ölkəyə qaçqın və sığınacaq axtaran şəxs qismində miqrasiya edə bilmirsə, qanunsuz yollarla o ölkəyə daxil olmağa çalışır, bu vəziyyət illeqal miqrantların artmasına və insan alveri, miqrant qaçaqçılığı kimi halların ortaya çıxmasına səbəb olur.

İlleqal miqrant başqa bir ölkəyə qanunsuz yollardan daxil olan və ya qanuni yollarla daxil olduqdan sonra həmin ölkədə qanuni yaşama icazəsi olmadan uzun müddət yaşayan və işləyən miqrantdır. Məsələn, sığınacaq axtaran şəxslərin müraciətləri qəbul edilmədiyi təqdirdə, onlar ölkədə qanunsuz miqranta çevrilirlər və deportasiya edilirlər.

İlleqal miqrant və qaçqın arasında da müəyyən fərqlər mövcuddur. Belə ki, illeqal miqrantlar adətən miqrant qaçaqçılarının köməyi ilə iqtisadi-sosial səbəblərə görə ölkələrini tərk edirlər. Qaçqınların miqrasiya səbəbi isə iqtisadi əsaslı olmayıb, ölkəsindəki bəzi səbəblərdən dolayı zülmə məruz qalmaqdan qorxan şəxslərdir. Həmçinin illeqal miqrantların istifadə etdiyi yollar və üsullar da qeyri-qanunidir, qaçqınlar isə başqa bir ölkəyə həm qanuni, həm də qanunsuz yolla daxil ola bilərlər [4, s.90]. İlleqal miqrant qanunsuz olaraq sərhəddən keçdiyi üçün cinayət məsuliyyətinə cəlb olunur. Qaçqın isə sərhədi qanunsuz keçdikdən sonra səlahiyyətli orqanlara müraciət edərək, tutarlı səbəb göstərərək heç bir məsuliyyətə cəlb olunmur. İlleqal miqrantın ölkəyə qanunsuz daxil olması və müvafiq icazəsi olmadan həmin ölkədə qalmağa davam etməsinə görə deportasiya edilə bilər. Qaçqın isə bəzi hallar istisna olmaqla deportasiya edilə bilməz, həyatını və azadlığı təhlükə altında olacaq ölkələrə göndərilə bilməz.

İnsan alveri zor tətbiq edərək və zorla təhdid edərək qaçırma, hiylə, aldatma, şəxsin çarəsizliyindən sui-istifadə, istismar etmək yolu ilə onun bir yerdən başqa yerə aparılması, saxlanılması və təhvil alınması anlamına gəlir.

Miqrant qaçaqçılığı isə sosial, siyasi, iqtisadi və ya hər hansı bir səbəbdən ötrü ölkəni tərk etmək istəyən şəxsin vətəndaşı olduğu ölkədən qanunsuz yollarla çıxmasına və ya başqa bir ölkəyə daxil olmasına və ya

yaşamaq icazəsi olmadan başqa bir ölkədə qalmasına şərait yaradılmasıdır. Bir başqa deyimlə, birbaşa və ya dolayı yolla maddi mənfəət əldə etmək məqsədi ilə qanunsuz yollardan bir ölkəyə əcnəbi şəxsin gətirilməsi və ölkədə qalmasına yardım edilməsi və ya həmin ölkə vətəndaşlarının xaricə çıxmalarına imkan yaradılmasıdır [4, s.90].

Əgər miqrant qaçaqçılığında ən vacib amil fərdin ölkə sərhədlərindən qanunsuz olaraq keçirilməsidirsə, insan alverində isə fərdlərin qanunsuz olaraq sərhəddən keçirilməsi ilə yanaşı, bu fərdlərin əməyindən də istifadə edilməsidir. Həmçinin insan alveri bir ölkə daxilində də ola bilər [9]. Həmçinin burada insanın iradəsi məsələsi də fərqləndirici amildir. Belə ki, insan alveri zamanı insan buna məcbur edilərkən miqrant qaçaqçılığı miqrantın razılığı ilə baş verir [5, s.12]. İnsan alveri ilə miqrant qaçaqçılığını ayıran digər bir amil budur ki, miqrant qaçaqçılığı dövlət əleyhinə işlənən cinayətdir, insan alveri isə insana qarşı işlənən cinayət, insanın hüquqlarının pozulmasıdır.

**Nəticə**

Göründüyü kimi, bu anlayışlar bir-birinə bənzəsə də, onlar arasında müəyyən fərqlər mövcuddur. Son olaraq ümumiləşdirsək, miqrant anlayışı qaçqın, sığınacaq axtaran şəxslər, məcburi köçkünləri də özündə ehtiva edir. Qısaca olaraq, miqrant, ümumiyyətlə, miqrasiya prosesində iştirak edən şəxsdir. Qaçqın isə yalnız siyasi səbəblərdən dolayı ölkə sərhədlərini keçən və "qaçqın" xüsusi statusu verilən miqrantdır. Əgər bu status verilməyibsə, həmin şəxs sığınacaq axtaran şəxs, ölkə sərhədini keçmədiyi təqdirdə isə məcburi köçkün hesab olunur.

Həmçinin bu anlayışların fərqləndirilməsi ona görə vacibdir ki, qaçqınlara beynəlxalq qoruma verilir və siyasi səbəblərdən dolayı ölkəsini tərk etmək məcburiyyətində qalan hər bir kəsin istənilən ölkəyə sığınacaq üçün müraciət etmək hüququ vardır. Miqrantlara isə heç bir xüsusi hüquq verilmir. Bundan əlavə beynəlxalq hüquq hər bir dövlətin üzərinə qaçqınların geri göndərilməməsi öhdəliyini qoyur. Yəni onlar həyatları üçün hər hansı bir təhlükə yaradacaq ölkəyə geri göndərilə bilməzlər. Həmçinin qeyd edilməlidir ki, dövlətlərin sığınacaq vermək və sığınacaq verilmiş qaçqınları daimi ölkəsində saxlamaq kimi bir öhdəliyi yoxdur.

**ƏDƏBİYYAT**


1. *Nəsibov E.* Miqrasiyanın əsasları, I kitab, Bakı: Elm və təhsil, 2014, 242 s.
2. İnam Plüralizm mərkəzi. İnsan hüquqları və qaçqınlar. Bakı, 1999, 37 s.
3. Altınışık Ç, Yıldırım M.Ş. Mülteci Haklarının Korunması. Ankara: Ankara Barosu Yayınlari, 2002, 393 s.
4. *Şen Y.F.* Yeni dönemde eski tartışmalar: Göç, Etnisite, Milliyetçilik, Kürtçülük, Laiklik. Ankara: Yargı yayınları, 2006, 460 s.

5. *Mark J. Miller, Stephen Castles.* Göçler Çağı: Modern Dünyada Uluslararası Göç Hareketleri / Çevirmen: Bülent Uğur Bal, İbrahim Akbulut, İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları, 2008, 500 s.
6. International Organisation for Migration. World Migration Report 2020, Switzerland, 2020, 498 p.
7. Climate Refugees definition: can we define a climate refugee? / https://climatemigration.org.uk/climate-refugees-definition/
8. Ranking der zehn Länder, aus denen die meisten Flüchtlinge stamen / https://de.statista.com/statistik/daten/studie/186108/umfrage/herkunftslaender-von-fluechtlingen/
9. Smuggling of migrants / https://migrationdataportal.org/themes/smuggling-migrants
10. What's the Difference Between a Migrant and a Refugee? / https://www.britannica.com/story/whats-the-difference-between-a migrant-and-a-refugee
11. UNHCR's Refugee Population Statistics Database / https://www.unhcr.org/refugee-statistics/
12. The World's Refugees in Numbers / https://www.amnesty.org/en/what-we-do/refugees-asylum-seekers-and-migrants/global-refugee-crisis statistics-and-facts/

Redaksiyaya daxil olub 17.04.2021

*UOT 94(479.24)*

***A.Q.Seyidov, A.M.Məmmədova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*abbas.seyidov@gmail.com, aygun_kons@mail.ru*

# XVII ƏSRİN SONU - XVIII ƏSRDƏ AZƏRBAYCANDA PUL TƏSƏRRÜFATI: QAZANÇI DƏFİNƏSİ

***Açar sözlər:*** *Qazançı, dəfinə, gümüş pul, Nadir şah Əfşar, pul dövriyyəsi*

Məqalədə Qazançı kəndi ərazisindən 1960-cı ildə aşkar olunan dəfinədən söhbət açılır. Qazançı kəndi Naxçıvan Muxtar Respublikası Culfa rayonunun ərazisində yerləşir. Bu yerlər tarixi-arxeoloji və memarlıq abidələri ilə zəngindir.

Dəfinədən aşkar edilən numizmatik materiallar Səfəvi hökmdarı I Süleymanın (1666-1694) və Nadir şah Əfşarın (1736-1747) adına kəsilmiş gümüş sikkələrdir.

Bu sikkələr Hoveyza, İsfahan, Təbriz və Qəndəhar şəhərlərində hazırlanıb. Sikkələrin təyinatı üzrə araşdırılması XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Azərbaycanda pul dövriyyəsi və iqtisadi əlaqələrin öyrənilməsi baxımından böyük elmi əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, Nadir şah Əfşar 1736-cı ildə Səfəvilərin son hökmdarı 5 yaşlı III Şah Abbasın qəfil ölümündən sonra rəsmi olaraq özünü İranın şahı elan etsə də, 1729-30-cu illərdən başlayaraq hərbi və diplomatik sahədə söz sahibi kimi fəaliyyət göstərmiş və hətta pul da kəsdirmişdir.

***А.Г.Сеидов, А.М.Маммадова***

# МОНЕТНОЕ ДЕЛО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XVII – НАЧАЛЕ XVIII ВВ: КЛАД ГАЗАНЧЫ

***Ключевые слова:*** *Газанчы, клад, серебряная монета, Надир шах Афшар, монетное обращение*

Статья посвящена исследованию монетного клада, найденного в 1960-м году в селе Газанчы. Село Газанчы находится на территории района Джулфа Нахичеванской Автономной Республики. Данная территория прославлена историко-археологическими и архитектурными памятниками.

Нумизматическими находками монетного клада являются серебряные монеты, чеканенные от имени Сефевидского правителя Сулеймана I (1666-1694) и Надир шаха Афшара (1736-1747).

Данные монеты являются продукцией городов Ховейза, Исфахан, Тебриз и Гандахар. Важной научной значимостью клада является определение монет, благодаря которым проявляется монетное обращение и экономические связи Азербайджана конца XVII – начала XVIII веков.

Несмотря на то, что Надир Шах Афшар официально провозгласил себя шахом Ирана только в 1736 г. после внезапной смерти 5-летнего шаха Аббаса III – последнего правителя Сефевидов, с 1729-1730 г. он чеканил монеты и служил представителем в военной и дипломатической сферах.

***A.G.Seyidov, A.M.Mammadova***

**MONEY ECONOMY IN AZERBAIJAN AT THE END OF THE XVII CENTURY - IN THE XVIII CENTURY: GAZANCHI TREASURE**

***Keywords:*** *Gazanchi, treasure, silvermoney, Nadir Shah Afshar, money circulation*

The article talks about the treasure founded 1960 year, in the village of Gazanchi. Gazanchi village is located in Julfa district of Nakhchivan Autonomous Republic. These places are rich in historical-archeological and architectural monuments.

The numismatic materials founded in the treasure are silver coins minted in the name of the Safavid ruler Suleiman I (1666-1694) and Nadir Shah Afshar (1736-1747).

These coins were minted in Hoveyza, Isfahan, Tabriz and Kandahar. The study of coins by purposeis of great scientific importance in terms of studying the circulation of money and economic relations in Azerbaijan in the late seventeenth and early eighteenth centuries.

Although Nadir Shah Afshar officially proclaimed himself the Shah of Iran only in 1736, after the sudden death of the 5-year-old Shah Abbas III, the last ruler of the Safavids, since 1729-1730, he minted coins and served as the representative in the military and diplomatic spheres.

## Giriş

Azərbaycan tarixinin öyrənilməsi, tədqiqi və təbliğində numizmatik materiallar önəmli əhəmiyyət kəsb edir. Pulun meydana çıxması ilə cəmiyyətin iqtisadi həyatında mühüm dəyişikliklər baş vermişdir. Qədim sikkələrin nominal dəyəri, tərkibi, üzərində məxsus olduğu dövlətin, hökmdarın adının yazılması, zərb yeri və zərb tarixi hər hansı ölkənin tarixini, coğrafiyasını, məkanını öyrənmək baxımından çox qiymətli mənbələrdir.

Məlum olduğu kimi, pul sinifli cəmiyyətin məhsuludur. İbtidai icma dövründə yalnız əmtəə mübadiləsi olmuşdur. Pul isə tədavül vasitəsi kimi sinifli cəmiyyət yarandıqdan sonra meydana çıxmışdır. Araşdırmalar göstərir ki, ibtidai icma cəmiyyətində insanlar pul vasitəsi kimi silah, mal-qara, balıq, xəz, ərzaq məhsulları, bəzək əşyaları, metal külçələr, əmək və ov alətlərindən istifadə etmişlər. Neolit dövründən başlayaraq Dəclə, Fərat, Nil, Amudərya, Sırdərya, Hind, Qanq, Xuanxe, Yantszı, Kür və Araz çayları, həmçinin Urmiya gölü hövzəsində məskunlaşmış tayfalar arasında ticarətdə mübadilə vasitəsi kimi xam və emal edilmiş daş alətlərdən (obsidian və çaxmaqdaşı), kauri

(qarnıyarıq), mineral daşlardan hazırlanmış muncuqlardan, Tunc dövründən başlayaraq isə tunc qolbaqlardan, ox ucluqlarından, toksinlərdən (saxsı jetonlar) istifadə edilmişdir [1, s.20]. Zaman keçdikcə əmtəə mübadiləsi metal pullarla əvəz olunmuşdur. E.ə. VII əsrin əvvəllərində Egey dənizi hövzəsində – Lidiya dövləti (cənub-qərbi Türkiyə) və Yunanıstanda [2, s.13-26], eyni zamanda Hindistan və Çində ilk metal pullar meydana çıxır [3, s.6-9]. Bəzi tədqiqatçılar pulun Şumerlərin ixtirası olduğunu da iddia edirlər.

Metal pulların dəyərini anlayan insanlar əllərində tələbatdan artıq olan sikkələri müəyyən yerlərdə gizlətmişlər. Lakin bəzi hallarda təbii fəlakətlər, müharibələr, köçürmələr ucbatından onların bir qismi sahiblərinə qismət olmamış və dəfinələr halında sonrakı nəsillər tərəfindən tapılmışdır. Belə faktlardan biri də 1960-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Qazançı kəndi ərazisindən aşkarlanan dəfinədir.

Qazançı kəndinin tarixinə nəzər salsaq, görərik ki, burada qədim insanlar hələ e.ə. III minillikdən məskunlaşıblar. Ərazidə qədim yaşayış yeri, Qazançı qalası, Qazançı körpüsü kimi minilliklərdən zamanımıza qədər çatan abidələr vardır. Müasir Qazançı kəndinin ərazisini əhatə edən və IX-XVIII əsrlərə aid olan qədim yaşayış yerinin əksər hissəsi müasir tikintilərin altında qalıb. Abidə şimal-şərqdə Qazançı qalası, şərqdə Əlincə çayla məhdudlaşır. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən heyvan fiqurları və gil çıraqlar əldə edilib. Kəndin şimalında, Əlincə çayının hər iki sahilində e.ə. III-I minilliyə aid Qazançı qalası yerləşir. Qalanın sağ sahil və sol sahil hissəsi sıldırım qayalardan ibarət dərin dərə ilə bir-birindən ayrılır. Sahəsi 5,6 hektar olan qalada aparılmış arxeoloji tədqiqatlardan görünür ki, vaxtilə təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmlənmiş qala divarları olub. Qazançı gölü tikilərkən qalanın bu hissəsi partladılıb. Hazırda abidənin cənub və şimal-qərb hissəsində iri daşlardan tikilmiş divarlar qalır. Abidənin sol sahil hissəsində, qalanın şərq tərəfində yarımdairəvi formada tikilmiş bürclərin qalıqları vardır. 1-2 metr hündürlükdə salamat qalan divarların eni 2,6-3 metrə çatır. Yerüstü materiallar dən daşları, çəhrayı və boz rəngdə bişirilmiş gil qab qırıqları və boyalı qablardan ibarətdir. Kəndin cənub tərəfində, Əlincə çayı üzərində Qazançı körpüsü yerləşir (Şəkil 1). Ona xalq arasında "Qozbel körpü" də deyilir. Körpü XVII əsrdə Şərq memarlığı üslubunda tikilib. Azca yonulmuş çapma daşlardan tikilən bir aşırımlı bu körpü zamanında “Böyük İpək Yolu”na xidmət edib. Onun eni 3,55, uzunluğu 10,85, hündürlüyü 8,8 metrdir [4, s.35-153]. Bu abidələrin yerləşdiyi ərazilərdən hər zaman tariximizə yeni səhifələr yazacaq arxeoloji materiallar tapmaq mümkündür. Elə Qazançı dəfinəsi də bunlardan biridir.

Qazançı dəfinəsi azərbaycanlı numizmat alim, professor Əli Rəcəbli tərəfindən təyinatı verilərək qeydiyyata alınmışdır. Hazırda AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan 13 ədəd gümüş

sikkə bu dəfinənin bir hissəsidir (gümüş sikkələr bu nömrələr altında saxlanılır: NF 8792–8801; 8833-8835). Dəfinədə yer alan və numizmatik təyinatlar üçün münasib olan 7 ədəd sikkəni təqdim edirik:

1. NF 8799. Səfəvi hökmdarı I Süleymanın (hicri 1077–1105 = miladi 1666-1694) hakimiyyəti dövrünə aid Hoveyza şəhərinin zərbxanasında istehsal edilən və 3,5 qram ağırlığında olan mahmudi (*Hoveyza şəhəri müasir İran islam Respublikasının Huzistan düzəngahından şimali-qərbdə yerləşir*).

Pulun üst tərəfində: حویزه

Arxa tərəfdə yazılar silinib (Şəkil 2).

2. NF 8792. Nadir şah Əfşarın şahlığı dövründə (h.1149–1160 = 1736-1747) İsfahanda zərb edilən 6 şahılıq gümüş sikkə. Üzərində "zərb İsfahan, [h.] 1151" yazılıb = miladi 1738-ci il. Çəkisi 7 qramdır.

3. NF 8794. Nadir şah Əfşarın şahlığı dövründə (h. 1149–1160 = 1736-1747) İsfahan şəhərində zərb edilmiş 6 şahılıq gümüş sikkə (Şəkil 3).

Pulun üzərində 3 sətirdə: "خلد الله ملکه ضرب تبریز ۱۱۵۱" = "Allah hakimiyyətini davamlı etsin! İsfahanda zərb edilib, [h.] 1151" (miladi 1738) yazılıb.

Arxa tərəfdə 3 sətirdə: = السلطان نادرəs-Sultan Nadir" yazılıb. Çəkisi 7 qramdır.

4. NF 8793. Nadir şah Əfşarın şahlığı dövründə (h.1149–1160 = 1736-1747) Təbriz şəhərində zərb edilən 6 şahılıq gümüş sikkə. Çəkisi 6,9 qramdır.

5. NF 8795. Nadir şah Əfşarın şahlığı dövründə (h.1149–1160 = 1736-1747) Təbriz şəhərində zərb edilən 6 şahılıq gümüş sikkə (Şəkil 4). Pulun üzərində 3 sətirdə: "خلد الله ملکه ضرب تبریز ۱۱۵۱" = "Allah hakimiyyətini davamlı etsin! Təbrizdə zərb edilib, [h.] 1151" (miladi 1738) yazılıb.

Arxa tərəfdə 3 sətirdə:"= السلطان نادرəs-Sultan Nadir" yazılıb. Çəkisi 6,9 qramdır.

6. NF 8833. Nadir şah Əfşarın şahlığı dövründə (h. 1149–1160 = 1736-1747) Təbriz şəhərində zərb edilən 6 şahılıq gümüş sikkə. Üzərində "zərb Təbriz, [h.] 1151" yazılıb = miladi 1738-ci il. Çəkisi 6,9 qramdır.

7. NF 8798. Nadir şah Əfşarın şahlığı dövründə (h. 1149–1160 = 1736-1747) Qəndəhar şəhərində zərb edilən 6 şahılıq sikkə. (*Qəndəhar Əfqanıstanın cənubunda yerləşir və ölkənin ikinci ən böyük şəhəridir*). Pulun üzərində 3 sətirdə: "خلد الله ملکه ضرب تبریز.۱۱۵" = "Allah hakimiyyətini davamlı etsin! Qəndəharda zərb edilib,[h.] 115*" (miladi 173*).

Arxa tərəfdə 3 sətirdə:"= السلطان نادرəs-Sultan Nadir" yazılıb. Çəkisi 6,85 qramdır (Şəkil 5).

Dəfinədəki digər 6 ədəd gümüş sikkənin üzərindəki yazıların silinməsinə baxmayaraq numizmatik göstəricilərə əsasən (çəki, tip) onların da təyinatlarını vermək mümkün olmuşdur.

Dəfinədə Səfəvi şahlarının son dövrlərinə aid 3,5 qram çəkiyə malik gümüş sikkə – "mahmudi" (həm də "muhəmmədi"), qeyd etdiyimiz kimi, Hoveyzə zərbxanasında istehsal edilib. Respublikamızın digər məkanlarında aşkarlanmış bu dövrə aid sikkə dəfinələrində Hoveyzə şəhərinin gümüş mahmudiləri üstünlük təşkil edir. Məhz bu nominal Səfəvilərin son dövründə intensivliklə zərb edilmiş və XVII əsrin sonunda gümüş suyuna tutulmuş mis sikkəyə çevrilmişdi. II İsmayılın qardaşı və varisi Muhəmməd Xudabəndənin hakimiyyəti (1578-1587) dövründə təsis edilmiş mahmudi adlı sikkə nominallarının ilkin çəkisi 4,68 qram olmuşdur. Bu sikkələrin üzərinə şiə formulu ("Əliyyən vəliyullah" – "Əli Allahın yaxınıdır" sözləri) həkk edilirdi [2, s.225-235].

Sikkə zərbi ilə bağlı olan numizmatik materialların tədqiqindən görünür ki, I Şah Abbasın varisləri olan I Şah Səfi (hicri 1038–1052 = 1629-1642), II Şah Abbas (hicri 1052–1077 = 1642-1666) və I Süleyman şahın (hicri 1079–1105 = 1668-1693) hakimiyyəti dövründə tədavüldə 5 şahı, 5 abbası, abbası, mahmudi, şahı, bisti və lari kimi gümüş nominallar işlədilmişdir [5, s.159-165].

Dəfinədə olan digər gümüş sikkələr – "şahı" Səfəvi pul-sikkə sisteminin əsas vahidi olmuşdur. Özünü böyük imperiyaların varisi sayan və şahənşah elan edən I İsmayıl (907–930 = 1501-1524) yalnız dünyəvi dövlət başçısı deyildi, o, həm də dini icmanın başçısı olaraq imam adını da daşıyırdı. Məhz bu hökmdarın dövründə yeni sikkə nominalı – şahı təsis edilmişdir [2, s.214].

I İsmayılın dövrümüzə gəlib çatan iri gümüş sikkələri (9,36 qram) 1501-ci ildə Təbrizdə zərb olunmuşdu. Bu dövrdə ölkənin 60-dan artıq zərbxanasında yalnız 1 şahılıq nominallar deyil, həm də 1/2 şahı (4,68 qram), 1/4 şahı (2,34 qram), 1/8 şahı (1,17 qram), 2 şahı (18,72 qram), 4 şahı (37,44 qram), 5 şahı (46,8 qram), 10 şahı (93,6 qram) nominalında sikkələr zərb edilmişdir [6].

Bütün Səfəvi hökmdarları dövründə zərb edilən şahıların çəki standartı dəfələrlə dəyişmiş və nəhayət, XVI əsrin sonunda – I Şah Abbas (1587-1629) zamanında sabitləşmişdir.

Müəyyən fasilələrlə Səfəvilər dövründə qızıl (əşrəfi–3,55 qram) və mis (iki dinarlıq 8-9 qram) sikkələr zərb də edilmişdi.

Qazançı dəfinəsindəki 6 şahı adlanan gümüş sikkələri də digər nominallar kimi (dördbucaqlı pəncşahı, mahmudivə şahı) müvafiq dövrün pul təsərrüfatında nizam yaratmaq cəhdlərindən biri hesab etmək olar. Yazılı mənbələrə görə, sonuncu Səfəvi sikkə emissiyaları üçün xəzinədə olan qiymətli metallardan, o cümlədən şahın əcdadlarının qəbirlərindən çıxarılan qızıl, gümüş əşyalardan istifadə edilirdi [2, s.237].

Səfəvi hakimiyyətinin zəifləməsindən istifadə edən və türk əfşar nəslindən olan Nadirqulu xan 1736-cı ildə özünü şah elan etdi (Nadir şah). Müasir numizmatik tədqiqatlara əsasən Sultan Nadir dövrünün sikkələri 2 mərhələ üzrə tədqiq edilir:

1) 1729-1736-cı illərin gümüş (abbası – 5,34 qram, şahı – 1,34 qram və iki şahı – 2,68 qram) və qızıl sikkələri (əşrəfi – 3,46 qram);

2) 1736-1747-ci illərin gümüş (bir rupilər – 11,52 qram, 1/2 rupilər – 5,76 qram,1/4 rupilər – 2,88 qram,1/8 rupilər – 1,44 qram, 1/16 rupilər – 0,72 qram, 6 şahılar – 6,9-7 qram, abbasılar – 4,61-5,37 qram, ikili şahılar – 2,3-2,68 qram, şahılar – 1,15-1,34 qram, ½ şahılar – 0,57 qram, ½ misqal – 2,31 qram, ¼ misqal – 1,15 qram), müxtəlif çəkili qızıl (möhür və əşrəfi, 1-11 qram) və mis felsləri (9-18 qram).

**Nəticə**

Göründüyü kimi, Qazançı dəfinəsində daha çox Sultan Nadirin (1149-1160 = 1736-1747) şahlığı dövründə Təbriz, İsfahan, Qəndəharda zərb edilmiş şahıların üzərinə hicri təqvimi ilə zərb tarixi, "Sultan Nadir" və "Allah hakimiyyətinin davamlı etsin" sözləri həkk edilib.

Qeyd edək ki, Nadirqulu xan (sonralar Nadir şah Əfşar) 1736-cı ildə Səfəvilərin son hökmdarı 5 yaşlı III Şah Abbasın qəfil ölümündən sonra rəsmi olaraq özünü İranın şahı elan etsə də, 1729-30-cu illərdən başlayaraq 1736-cı ilədək hərbi və diplomatik sahədə söz sahibi kimi fəaliyyət göstərmişdir. 1732-ci ildə Xorasandan qayıdaraq Səfəvi hökmdarı II Təhmasibi taxtdan salan Nadirqulu xan mütləq söz sahibi kimi İran dövlətini özü idarə etməyə başlamışdı [7, s.535-536]. Qazançı dəfinəsindən tapılmasa da, müxtəlif kolleksiyalardan onun hicri-qəməri təqvimi ilə 1143-cü ildə (1729/1730-cu il) Mazandaranda gümüş abbası, 1148-ci ildə (1735-ci il) Məşhəddə qızıl əşrəfi zərb etdirməsi məlumdur [6] (şəkil 6).

Beləliklə, Qazançı dəfinəsindəki gümüş sikkələrin təyinatı üzrə araşdırılması XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Azərbaycanda pul təsərrüfatının və iqtisadi əlaqələrin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.



A)




B)

Şəkil 1. *Qazançı körpüsü XVII əsr. A–bərpadan əvvəl; B-bərpadan sonra.*



Şəkil 2. *NF 8799. Səfəvilər. I Süleymanın (1079 – 1105 = 1668 - 1694) hakimiyyəti dövrü - ?, Hoveyzə, mahmudi, 3,5 qram.*

*Üst tərəfdə :* حويزه

*Arxa tərəfdə yazılar silinib.*



Şəkil 3. *NF 8794. Əfşarlar (1142 – 1218 = 1729 - 1803). Nadir (1142 – 1148 = 1729 - 1735; 1148 – 1160 = 1735 - 1747). İsfəhan, 1151 = 1738, 6 şahi, 7 q.*

*Üst tərəfdə 3 sətirdə:* خلد الله ملكه ضرب اصفهان١١٥١ *= Allah hakimiyyətini davamlı etsin! İsfəhanda zərb edilib, 1151.*

*Arxa tərəfdə 3 sətirdə: -*السلطان نادر*əs-sultan Nadir yazılıb.*



Şəkil 4. *NF 8795. Əfşarlar (1142 – 1218 = 1729 - 1803). Nadir (1142 – 1148 = 1729 - 1735; 1148 – 1160 = 1735 - 1747). Təbriz, 1151 = 1738, 6 şahi, 6,9 qram.*

*Üst tərəfdə 3 sətirdə:* خلد الله ملكه ضرب تبريز ١١٥١ *= Allah hakimiyyətini davamlı etsin! Təbrizdə zərb edilib, 1151.*

*Arxa tərəfdə 3 sətirdə: =* السلطان نادر*əs-sultan Nadir.*



Şəkil 5. *NF 8798. Əfşarlar (1142–1218 = 1729-1803). Nadir (1142–1148 = 1729-1735; 1148–1160 = 1735-1747). Qəndəhar, 115* = 173*, 6 şahı, 6,85 qram.*

*Üst tərəfdə 3 sətirdə:* خلد الله ملکه ضرب قندهار ۱۱۵ *= Allah hakimiyyətini davamlı etsin! Qəndəharda zərb edilib, 115*.*

*Arxa tərəfdə 3 sətirdə: =* السلطان نادر *əs-sultan Nadir.*



Şəkil 6. Mazandaran, h.q.1143=1729/1730. Məşhəd, h.q.1148=1735

## ƏDƏBİYYAT


1. *Seyidov A.Q., Quliyev A.A., Rzayev R.Ş.* Azərbaycan tarixi (numizmatik materiallar əsasında). Bakı: Xəzər Universiteti, 2017, 248 s.
2. *Rəcəbli Ə.M.* Azərbaycan sikkələri. Bakı: Xalqbank, 2012, 358 s.
3. *Кошевар Д.В.* Деньги мира. Монеты и банкноты. Москва: АСТ, 2015, 256 с.
4. *Baxşəliyev V.B., Seyidov A.Q.* Qədim Culfa. Naxçıvan: “Əcəmi” NPB, 2020, 176 s.
5. *Раджабли А.М.* Монетное дело Азербайданского Государства Сефевидов. Баку: Зия, 2014, 231 с.
6. https://www.zeno.ru
7. Azərbaycan tarixi / red. M.Bünyadov və Y.B.Yusifov. Bakı: Çıraq, 2007, 720 s.


Redaksiyaya daxil olub 06.04.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 139-146
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 139-146

*UOT 94*

***V.U.Umudlu***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*v.umudlu@yahoo.co.uk*

# TÜRKMƏNÇAY MÜQAVİLƏSİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

***Açar sözlər:*** *Türkmənçay müqaviləsi, Türkiyə tarixçiləri, Şimali Azərbaycan, çar Rusiyası, Paskeviç, Abbas Mirzə*

Məqalədə Azərbaycan torpaqlarının rəsmi olaraq ikiyə bölünməsini təsdiq edən və çar Rusiyası ilə Qacarlar İranı arasında imzalanan Türkmənçay müqaviləsindən bəhs olunmaqdadır. Məlumdur ki, Rusiya qoşunlarının Cənubi Azərbaycanın bir sıra ərazilərini işğal edərək Tehrana doğru irəliləməsi Fətəli şahı bu müqaviləni imzalamağa məcbur etdi. Türkmənçay müqaviləsi 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsini təsdiq etməklə yanaşı, İrəvan və Naxçıvan xanlıqlarının da Rusiya imperiyasına birləşdirildiyini elan etdi.

Rusiya və Qacar dövlətləri arasında XIX əsrin əvvəllərində başlayan müharibənin yekunu olan Türkmənçay müqaviləsi Türkiyə tarixçiləri tərəfindən geniş tədqiq olunmuş, əldə olunan nəticələr türk elmi ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Məqalədə Türkiyə tarixşünaslığının nümayəndələri olan Kamal Beydilli, Azer Candan, Okan Yeşilot və digərlərinin Türkmənçay müqaviləsi ilə bağlı araşdırmalarından istifadə olunmuşdur.

***В.У.Умудлу***

# ТУРКМЕНЧАЙСКОЕ СОГЛАШЕНИЕ В ИСТОРИОГРАФИИ ТУРЦИИ

***Ключевые слова:*** *Туркменчайский договор, Турецкие историки, Северный Азербайджан, царская Россия, Паскевич, Аббас Мирза*

В статье рассматривается Туркменчайский договор, подписанный между царской Россией и Каджарским Ираном, который официально подтвердил раздел азербайджанских земель. Известно, что продвижение российских войск к Тегерану, оккупирующему ряд территорий Южного Азербайджана, вынудило Фатали-шаха подписать это соглашение. Туркменчайский мирный договор ратифицировал Гюлистанский мирный договор, подписанный в 1813 году, и также объявил о присоединении Ireванского и Нахчыванского ханств к Российской Империи.

Туркменчайский договор, положивший конец войне между Россией и государствами Гаджар в начале XIX века, был тщательно изучен турецкими историками, и результаты были доведены до сведения турецкого научного сообщества. В статье использованы исследования по Туркменчайскому договору представителей турецкой историографии Камала Бейдилли, Чандана Азера, Окана Ешилота и других.

***V.U.Umudlu***

# TURKMENCHAY AGREEMENT IN THE HISTORIOGRAPHY OF TURKEY

***Keywords:*** *Treaty of Turkmenchay, Turkish historians, Northern Azerbaijan, tsarist Russia, Paskevich, Abbas Mirza*

The article examines the Turkmenchay agreement signed between Tsarist Russia and Qajar Iran, which officially confirmed the division of Azerbaijani lands. It is known that the advance of Russian troops to Tehran, which occupies a number of territories of southern Azerbaijan, forced Fatali Shah to sign this agreement. The Turkmenchay peace treaty ratified the Gulistan peace treaty, signed in 1813, and also announced the annexation of the Iravan and Nakhchivan khanates to the Russian Empire.

The Turkmenchay treaty, which ended the war between Russia and the Gajar states in the early 19th century, was carefully studied by Turkish historians, and the results were brought to the attention of the Turkish scientific community. The article uses the research of representatives of Turkish historiography Kamal Beidilli, Azer Chandan, Okan Eshilot and others under the Turkmenchay treaty.

## Giriş

Türkmənçay müqaviləsi Türkiyə tarixşünaslığında da kifayət qədər tədqiq olunan mövzulardandır. Məlumdur ki, bu müqavilə xalqımızın tarixində ən ağrılı və qara səhifələrdən birini təşkil edir. XIX əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqazda işğalçılıq siyasətinə başlaması 1828-ci ilin fevralında Türkmənçay müqaviləsinin imzalanması ilə başa çatdı. Bu müqavilə Azərbaycanın ikiyə bölünməsini rəsmiləşdirərək Cənubi Azərbaycan və Şimali Azərbaycan məfhumlarının ortaya çıxmasına səbəb oldu. Digər tərəfdən bu müqavilə Şimali Azərbaycanı Rusiya imperiyasının tərkib hissəsinə çevirdi. Araz çayını Qacarlar İranı və Çar Rusiyası arasında sərhədə çevirən bu müqavilənin bütün maddələri ölkəmizin mənafeyinə uyğun olmayıb onun gələcək inkişafında ciddi maneəyə çevrildi.

Türkiyəli tarixçilər Türkmənçay müqaviləsini xalqımızın tarixinə vurulmuş ağır zərbə kimi qiymətləndirmiş, problemin ortaya çıxmasında Rusiyanın həlledici rolunu xüsusi olaraq qeyd etmişlər. Müqavilə Rusiya hegemonluğunun geniş ərazilərə yayıldığını bir daha təsdiq etmiş oldu. İki qonşu dövlət tərəfindən ərazilərimizin qəsb olunmasını nəzərdə tutan bu müqavilənin səbəb olduğu fəsadlar isə ölkəmizin inkişafı yolunda ciddi buxova çevrildi. Digər tərəfdən bu müqavilənin şərtlərinə əsasən ermənilərin Şimali Azərbaycan torpaqlarına kütləvi köçü həyata keçirildi ki, bu da demoqrafik vəziyyətin xeyli dəyişməsinə səbəb oldu.

Türkmənçay müqaviləsinin imzalanması ilə Qacarlar İranı ilə müharibəni başa çatdıran Rusiya cənub sərhədlərindəki əsas qüvvələrini

Osmanlı dövlətinə qarşı çevirə bildi. Ciddi müqavimət göstərə bilməyərək məğlub olan Osmanlı dövləti 1829-cu ildə imzaladığı Ədirnə müqaviləsi ilə Türkmənçay müqaviləsinin bütün şərtlərini qəbul etməyə məcbur oldu. Türkmənçay müqaviləsi Qafqazda yeni siyasi vəziyyətin ortaya çıxmasına gətirib çıxarmış oldu.

**Türkmənçay müqaviləsinə aparan yollar Türkiyə tarixçilərinin əsərlərində**

XIX əsrin əvvəllərindən etibarən Rusiya Qafqaza tam olaraq yerləşməyə başladı. Rusiya qoşunlarına ciddi müqavimət göstərilsə də, işğalın qarşısını almaq mümkün olmadı və Rusiya cənuba doğru irəliləməkdə davam etdi. Tarixçi K.Beydilli yazır ki, Azərbaycan və Dağıstan xanlıqları, rus istilasına qarşı güclü bir şəkildə müqavimət göstərsələr də, son nəticədə güclü rus qoşunlarına boyun əymək məcburiyyətində qaldılar. Bunun nəticəsi olaraq ruslar Bakı, Naxçıvan və İrəvanı işğal etdilər. Çar I Aleksandrın zamanında, rusların Qafqazda nüfuzu xeyli gücləndi [5, s.66]. Əlbəttə, Azərbaycan xanlıqlarının ayrı-ayrılıqda Rusiya kimi nəhəng dövlətin hücumlarının qarşısını alması elə də asan deyildi. Digər tərəfdən Qacarlar və Osmanlılar arasındakı ixtilaflar, onların birləşə bilməməsi vəziyyəti daha da ağırlaşdırmışdır.

1827-ci ildə İrəvan xanlığının alınması ilə Rusiya qoşunlarının müxtəlif istiqamətlərdən cənuba doğru yürüşü başladı. Tezliklə Cənubi Azərbaycan şəhərlərini zəbt edən rus qoşunlarının Tehrana yolu açılmış və bu vəziyyət şahı sülh danışıqlarına başlamağa sövq etmişdi. Osmanlı dövlətinin şərq səraskəri Galib paşanın məlumatına görə, Rusiya qoşunlarının Bakıdan keçməklə Tehrana hərəkət etdikləri, Təbrizdəki İngiltərə müşavirlərinin təklifi ilə Araz çayı sərhəd olmaqla sülh bağlanması halında Sərdarabad, İrəvan, Naxçıvan və Abbasabad qalalarının ruslarda, Təbriz ilə Xoyun isə İranda qalacağı müəyyən edilmişdi [3, HAT/34805]. Bu hadisələrdən bəhs edən K.Beydilli yazır ki, Rusiya-İran müharibəsi gedişində Eçmiadzin (Üçmüəzzin - V.U.) və Naxçıvan qısa müddətdə rusların əlinə keçmiş, sonra Abbasabad, Sərdarabad və Rəvan (İrəvan - V.U.) süqut etmişdir. Araz çayını keçən rus qoşunları Mərənd, Təbriz, Marağa, Xoy, Urmiya və Ərdəbili işğal etmişdir [4, s.365-445].

1827-ci ilin dekabrına aid olan Osmanlı arxiv sənədlərində Azərbaycanın Rusiya tərəfindən zəbtindən sonra Təbriz və Xoyun İrana, İrəvan ilə ətrafının Rusiyaya verilməsi, müharibə xərclərinin İran tərəfindən ödənilməsi şərtləri ilə bağlı razılıq əldə olunduğu, şahzadə Abbas Mirzə ilə rus generalı Paskeviç arasında görüş haqqında məlumatlar yer almaqdadır [3, HAT/34786]. Bu haqda “Osmanlı Belgelerinde Azerbaycan” adlı sənədlər toplusunda belə deyilir: “1827-ci ildə İrəvan və Naxçıvanın ruslar tərəfindən ələ keçirilməsindən sonra İran qoşunlarının baş komandanı, şahzadə Abbas Mirzə qışın yaxınlaşmasını nəzərə alıb müqavilə imzalanması üçün general İvan

Paskeviçə müraciət etdi. Vəziyyətdən istifadə edən rus ordusu Mərənd və Təbrizi ələ keçirdi. Sülh danışıqları noyabr ayında Dehqağanda başlansa da, təzminat məsələsi ilə bağlı yarımçıq kəsildi" [8, s.32-33].

Azərbaycan tarixçisi K.Şükürov da qeyd edir ki, 1827-ci ilin noyabrın 6-da hələ Urmiya və Ərdəbilin işğalından əvvəl Paskeviç və İran şahzadəsi Abbas Mirzə Dehqarğanda sülh danışıqlarına başlamışdılar. A.Bakıxanovun da tərcüməçi kimi iştirak etdiyi bu danışıqlar iki ay davam etmiş, Paskeviçin "müharibə, ya pul" şərtindən sonra uğursuz nəticələnmişdi [12, s.50-52]. K.Beydilli yazır ki, danışıqlarda rusların tələbləri yerinə yetirilmədiyindən hərbi əməliyyatlar yenidən davam etmişdir. Urmiya və Ərdəbili də işğal edən rus qoşunları Tehranı da təhlükə altına ala bilmişlər. Hadisələrin bu şəkildə inkişafı İranı Rusiyanın bütün tələblərinin yerinə yetirəcəyinə vadar etmişdir [4, s.365-445].

C.Azer kifayət qədər əraziyə malik olan Rusiya heyəti sülh danışıqlarında artıq ərazi istəmədiklərini, bunu İranla yenidən müharibə etmək məcburiyyətində qalmamaları üçün etdiklərini qeyd edir. Bununla müharibəyə qapını tamamilə bağlamaq məqsədi daşıyan Rusiya Arazın iki ölkə arasında sərhəd xətti olmasını istədiklərini bəyan etmişdir. Bu bəyanat İran nümayəndə heyətində Araz çayından cənubdakı torpaqları özlərində saxlamağa ümidlərini artırmışdır. Lakin həmin bölgələri tərk etmək istəməyən ruslar danışıqları belə tərk edəcəklərini də istisna etməmişdilər. Müəllif bildirir ki, bu əraziləri əldə saxlamaqla Rusiya İranın ən məhsuldar torpaqlarından olan Gilanı da daim təhlükə altında saxlamağa nail olmuşdur [2, s.89-90].

Beləliklə, 1828-ci il yanvarın 15-də Urmiya, sonlarında isə Ərdəbil və Miyanə tutuldu. Sülh danışıqları bərpa olundu [12, s.52].

**Türkmənçay müqaviləsinin imzalanması**

Qacarlar dövləti tərəfindən Türkmənçay müqaviləsinin imzalanmasına xüsusi hazırlıq işləri görülmüş, müqavilənin günü və saatının müəyyən edilməsinə münəccimlər dəvət olunmuşdur. Əsas məqsəd Rusiya ilə bir daha müharibəyə yol verməmək olmuşdur.

1828-ci il fevralın 6-da Miyanənin üç verstliyində, Təbriz yolu üzərində yerləşən Türkmənçay kəndində başlayan danışıqlar fevralın 9-dan 10-na keçən gecə Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda sülh müqaviləsinin imzalanması ilə nəticələndi [12, s.55-56]. K.Beydilli yazır ki, nəhayət, İrana sülh Türkmənçay kəndində diktə edilmişdir. Buna görə İran Rusiyaya 20 milyon gümüş rubl həcmində müharibə təzminatı ödəyəcək, Araz çayının sol sahilindəki İrəvan şəhəri daxil olmaqla bütün ərazilər Rusiyaya təslim ediləcək, Qafqaza olan bütün haqq və iddialarından imtina etməli idi. Bu müqavilə ermənilərin Rusiya torpaqlarına köç etdirilmələri ilə bağlı plan və layihələrin həyata keçirilməsinə yol açmış olurdu. Belə ki, müqavilənin 15-ci

maddəsi Azərbaycanda (Cənubi Azərbaycan - V.U.) ermənilərin bir il ərzində köçüşünü nəzərdə tuturdu [4, s.365-445]. Türkmənçay müqaviləsi preambula və 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin ayrı-ayrı maddələrinin məzmunu Türkmənçay müqaviləsində əks olunmuş, onun IX və X maddələrində nəzərdə tutulmuş məsələlərə aid xüsusi ticarət aktı imzalanmışdı [12, s.62].

Türkmənçay müqaviləsi iki ölkə arasındakı müharibəyə son qoymaqla yanaşı, Rusiyaya Balkan və Qafqazda Osmanlı dövləti ilə yenidən müharibə etmək imkanı qazandırdı. Bəzi Türkiyəli müəlliflər qeyd edirlər ki, Osmanlı dövləti ilə gözlənilən müharibədə Qaçar xanədanını neytral saxlamaq üçün Rusiya danışıqlar zamanı İranlı nümayəndələrinin könlünü almağa çalışmış, hətta müqaviləyə bir neçə maddə əlavə etməkdən də çəkinməmişdilər. Bu maddələrdən birincisi Qaçar taxtının rəsmi varisi olan Abbas Mirzənın İran şahı olmasını, digəri isə qarşılıqlı diplomatik heyətlərin təşkilini nəzərdə tuturdu [10, s.569-586]. Bu müqavilə ilə İranlılar Ümumqafqaz siyasətində rol oynayan bir dövlət xüsusiyyətini itirdilər. Digər tərəfdən Dağıstanın xarici aləmlə münasibətləri kəsildi, ruslar ələ keçirdikləri boğazlar sayəsində Anadoludan Aralıq dənizinə, İran vasitəsi ilə Hind okeanına və Xəzər dənizi vasitəsi ilə Asiyaya gedə biləcəkləri bir meydan əldə etdilər [13].

C.Azerin qeyd etdiyi kimi, Türkmənçay müqaviləsi Azərbaycanın Rusiya ilə İran arasında bölünməsinə və eyni zamanda bu iki ölkənin Osmanlı imperatorluğu ilə Azərbaycan arasına girmələrinə yol açdı. Müqavilə imzalandığı tarixdən günümüzə qədər ağır fəsadlara səbəb olan həyati əhəmiyyətli bir sənədə çevrildi [2, s.89]. "Osmanlı Belgelerinde Azerbaycan" adlı sənədlər toplusunda deyilir: "Müqavilədə Azərbaycan türklərinə söz haqqı verilmədi. Azərbaycan türkləri və onların vətənləri ikiyə parçalandı. Ermənistan dövlətinin təməli qoyuldu. Bu müqavilə ilə Rusiya əvvəl işğal etdiyi torpaqlara Naxçıvan və İrəvan xanlıqlarını da birləşdirdi [8, s.33]. Tarixçi O.Yeşilot yazır ki, bölgədəki hakimiyyətini itirməmək üçün Rusiya ilə müharibələr aparan İran məğlub olunca Gülüstan, ardından da Türkmənçay müqaviləsini imzalamışdır. Türkmənçay müqaviləsi ilə İran İrəvan və Naxçıvanın da Rusiyanın hökmranlığı altına keçdiyini qəbul etmiş və bu faktiki vəziyyət Osmanlı İmperiyası tərəfindən Ədirnə müqaviləsi ilə təsdiq edilmişdir [15, s.187-199]. Əlbəttə, müharibədə məğlub olan Osmanlı dövlətindən başqa nə isə gözləmək də mümkünsüz bir iş idi.

Güney Qafqazda İran maneəsini aradan qaldıran Rusiya bundan sonra bütün gücünü Anadolunu ələ keçirmək üçün yönəltmişdir [1, s.96]. N.Kurat yazır ki, rus çarı I Nikolay digər rus çarları kimi türk düşməniydi və Osmanlı İmperiyasını ləğv etmək siyasəti yeridirdi. İndi bu siyasət Rusiyanın qarşısında duran xarici siyasətin əsas prinsiplərindən biri hesab olunurdu [7, s.323]. İranın bölgədən çəkilməsindən dərhal sonra Osmanlı-Rusiya müharibəsi başlamış və

müharibənin Osmanlının məğlubiyyəti ilə qurtarması nəticəsində Rusiya Xəzər dənizi sahilinə və Dərbənd keçidi vasitəsi ilə də Qafqaza daxil olmuşdur. Ruslar İrandan Naxçıvan və İrəvan xanlıqlarını, Osmanlı İmperatorluğundan isə Ahısqa və Axalkələk bölgələri ilə yanaşı, Araz çayının cənubundakı Sürməlini ələ keçirmişdi [9, s.25]. Qara dəniz sahillərində irəliləyərək Anapa və Ahısqanı fəth edən ruslar Şərqdə də uğur qazanmışlar. Belə ki, onlar bölgədəki erməni xalqının köməyi ilə Şərqi Anadoluda Qarsı ələ keçirmiş və Ərzuruma qədər irəliləmişlərdir [11, s.60]. Ş.Yanar yazır ki, Türkmənçay müqaviləsindən sonra başlayan rus-türk müharibəsində sünni islamı təmsil edən Osmanlı dövlətinə qarşı Azərbaycan türklərindən istifadə etməklə Rusiya şiəliyi canlandırmağa çalışmış və buna müəyyən mənada nail olmuşdur [14, s.579-638]. Əlbəttə, bununla Rusiyanın hansı hədəflər güddüyünü anlamaq çətin deyil.

1829-cu il sentyabrın 14-də Osmanlı ilə Rusiya arasında Ədirnə müqaviləsi imzalandı. Bu müqavilə Qacarlarla imzalanmış Türkmənçay müqaviləsini təsdiq etdi. C.Azer yazır ki, Türkmənçay və Ədirnə müqavilələrinin nəticələrinə ümumi şəkildə baxıldığında Osmanlı İmperatorluğunun Qafqazla əlaqələrinin kəsilmiş olduğunu görürük. Azərbaycan isə İran ilə Rusiya arasında bölünməklə bu iki dövlət baxımından bir problem kimi aradan çıxarıldığı kimi, Osmanlı İmperatorluğu ilə birlikdə hərəkət edə bilməsi ehtimalı da bərtərəf olunmuşdur [2, s.95]. O.Yeşilot yazır ki, Rusiya ilə İran arasındakı razılaşma nəticəsində İran bölgədəki üstünlüyünü, siyasi və ticari təsirini itirdi. Osmanlı İmperiyası Ədirnə müqaviləsini imzalamaqla Rusiyanın bölgədə üstünlüyə sahib olduğunu təsdiq etmiş oldu. Beləliklə, bölgədə təxminən 200 il davam edəcək olan Rusiya hökmranlığı dövrü başlamış oldu [15, s.187-199].

Türkmənçay müqaviləsinin nəticələrindən və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən bəhs edən tarixçi K.Gürün yazır ki, Türkmənçay müqaviləsi ilə İran 1813-cü ildə itirdiyi torpaqlarla yanaşı, İrəvan və Naxçıvan xanlıqlarını da tərk etmək məcburiyyətində qaldı. Nəticədə, İran hökmranlığı altında yaşayan ermənilər Rusiya imperiyasının sərhədlərinə daxil oldu və Üçmüəzzin Katalikosluğu Rusiya sərhədləri daxilində qaldı. Müqavilədə Rusiya tərəfindən ilhaq edilən torpaqlara köç haqqı nəzərdə tutulduğundan on minlərlə erməni Rəvan (İrəvan - V.U.), Qarabağ və Naxçıvana köç etdi [6, s.57]. O.Yeşilot da Türkmənçay müqaviləsinin nəticələrinin və ağır təsirinin günümüzə qədər davam etdiyini göstərir. İki yerə parçalanmadan başqa ən vacib problemlərdən biri də erməni problemidir. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsaslanaraq Rusiya sistemli şəkildə İran, Osmanlı İmperiyası və Rusiyadakı ermənilərin Cənubi Qafqaza köç etmələri üçün münbit zəmin hazırladı və bu məsələdə erməniləri təşviq etdi. Bu bölgədə etibar oluna biləcək xristian müttəfiq axtaran Rusiya bunu ermənilərin simasında tapmış oldu. Bu müttəfiqlik o zamandan bəri davam etməkdədir [15, s.187-199].

**Nəticə**

Göründüyü kimi, Türkmənçay müqaviləsi və müqavilədə yer alan maddələr Türkiyə tarixçiləri tərəfindən ətraflı tədqiq edilərək elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır. 1828-ilin fevralında Rusiya ilə Qacarlar İranı arasında imzalanan bu müqavilə tamamilə xalqımızın mənafeyinə zidd olub ölkəmizin inkişafında buxova çevrilmişdir. Türkiyə tarixçilərindən K.Beydilli, C.Azer, K.Gürün, Ş.Yanar, O.Yeşilot və digərlərinin qənaətincə, Türkmənçay müqaviləsi xalqımızı və dövlətimizi iki hissəyə bölmüş, onun fəsadlarının aradan qaldırılması isə müşkül bir işə çevrilmişdir.

Türkiyəli tarixçilər müqavilə imzalanarkən Azərbaycan xalqının rəyinin nəzərə alınmadığını, müqavilənin Rusiyanın işğalçılıq siyasətinin nəticəsi olduğunu bəyan etmişlər. Müqavilənin maddələri çar Rusiyası, Qacarlar İranını təmsil edən nümayəndə heyətləri tərəfindən hazırlanmış və hər iki dövlət tərəfindən razılaşdırılaraq təsdiq olunmuşdur. Azərbaycan xanlıqlarının işğalını nəzərdə tutan maddələr Türkmənçay müqaviləsində öz əksini tapmışdır. Müqavilə Şimali Azərbaycanın bir əsr yarımdan çox davam edən işğal prosesinin əsasını qoymuşdur.

Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Türkmənçay müqaviləsi nəticəsində Şimali Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçü başlamışdır. Bu hadisə Şimali Azərbaycanda demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişməsinə səbəb olmuşdur. Müqavilə nəticəsində Şimali və Cənubi Azərbaycan müxtəlif inkişaf yoluna qədəm qoymuş, xalq biri-birindən təcrid olunmuşdur. Türkiyə tarixçilərinin səyi nəticəsində türk xalqı Türkmənçay müqaviləsinin əsl mahiyyəti ilə tanış ola bilmişlər.

## ƏDƏBİYYAT


1. *Aygün N.* Kafkasyada Rus-Osmanlı Mücadelesi ve Kars dolaylarında Sınır İhaleleri, 1826 / Ankara: Cumhuriyet Tarihi Araştırmaları Dergisi (CTAD), 2007, yıl 3, sayı 6, s.98-116
2. *Azer C.* Babadan Oğula Güney Kafkasya. İstanbul: Truva Yayınları, 2011, 647 s.
3. Başbakanlıq Osmanlı Arşivleri (BOA), Hatti-Hümayun Fonu (HAT)
4. *Beydilli, K.* 1828-1829 Osmanlı Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler // Belgeler, XIII c., sayı 17 Ankara: Türk Tarih Kurumu Basımevi, 1988, s.365-445
5. *Demir A.F.* Türk Dış Politikası Perspektifinden Transkafkasya. İstanbul: BağlamYayıncılık, Birinci Basım, 2003, 358 s.
6. *Gürün K.* Ermeni Dosyası. Ankara: Bilgi Yayınevi, 2012, 473 s.
7. Kurat A.N. Türkiye Ve Rusya. Ankara: Kültür Bakanlığı, 1990, 735 s.
8. Osmanlı Belgelerinde Azerbaycan. İstanbul: Türk Dünyası Bələdiyələr Birligi (TDBB) Yayınları, 2015, 626 s.

9. *Sapmaz A.* Rusya'nın Transkafkasya Politikası ve Türkiye'ye Etkileri. Ankara: Ötüken Neşriyat, 2008, 368 s.
10. *Soofizadeh A., Türker Ö.* Rusya-İran (Kaçar) ilişkileri adina dehşet verici bir hadise: Rusya'nin Tahran başkonsolosluğu baskini ve büyükelçi Aleksandr Griboyedov ve maiyetinin katledilmesi (11 şubat 1829) // Belleten, LXXXII c., sayı 294, 2018, Ağustos, s.569-586
11. *Shaw K., Shaw J.* Osmanlı İmparatorluğu ve Modern Türkiye. C. 2, Çevirmen: Mehmet Harmancı, İstanbul: E-Yayınları, 2016, 575 s.
12. *Şükürov K.* Türkmənçay – 1828: Tarixi xronika (İxtisarla). Bakı, 2006, 188 s.
13. *Yanar S*. Türk-Rus İlişkilerinde Gizli Güç Kafkasya. İstanbul: IQ Kültür Sanat ve Yayıncılık, 2002, 256 s.
14. *Yanar Ş*. "Azerbaycan'da Ebülfez Elçibey Döneminde Türk Kimlik Oluşumu", Avrupa'dan Asya'ya Sorunlu Türk Bölgeleri // Derleyen: Bekir Günay, İstanbul: IG Kültür Sanat Yayıncılık, 2005, s.579-638
15. *Yeşilot O.* Türkmençay Antlaşmasi Ve Sonuçları // A.Ü.Türkiyat Araştırmaları Enstitüsü Dergisi, Sayı 36, Erzurum, 2008, s.187-199

Redaksiyaya daxil olub 30.06.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 147-155
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 147-155

*UOT 327*

***N.N.Yaqublu***
*Bakı Dövlət Universiteti*
*nihad.yaqublu@gmail.com*

# QƏRBDƏKİ POPULİST SİYASİ HƏRƏKATLARIN BEYNƏLXALQ İNSTİTUTLARA VƏ DÖVLƏTLƏRARASI TƏRƏFDAŞLIĞA TƏSİRİ

***Açar sözlər:*** *beynəlxalq institutlar, dövlətlərarası dialoq, populizm, çoxtərəflilik, nativizm, qlobal əməkdaşlıq*

Məqalədə Qərbdə artan populist və nativist siyasi tendensiyaların beynəlxalq qurumlara və əməkdaşlığa təsiri öyrənilir. Çoxtərəflilik prinsipinə əsaslan dövlətlərarası dialoq dünyada sülhün bərqərar olmasına və beynəlxalq əməkdaşlığın güclənməsinə töhfə vermişdir. Son zamanlarda indiki dünya nizamı müəyyən təhlükələrə məruz qalıb. Populist və anti-establişment siyasi hərəkatlar ciddi ictimai dəstək qazanaraq mövcud hökumətlərarası və üstmilli institutların mexanizmlərinin dəyişilməsini, yaxud ləğv olunmasını tələb edib. Bu cür inkişaf davamlı beynəlxalq tərəfdaşlıq üçün zərərli olsa da, mövcud institusional və funksional strukturlarda qüsurların, çatışmazlıqların olduğundan xəbər verir. Ona görə də dövlətlər həmin populist hərəkatların niyə cərəyan etdiyini anlamağa və çatışmazlıqları aradan qaldırmağa səy göstərməlidirlər. Artıq zəifləmiş hökumətlərarası institutların təsir imkanlarını optimallaşdırmaq, onları daha zirək qurumlara çevirmək üçün effektiv islahatlar aparılmalıdır. Çünki təcridçilik və aşırı nativizm kimi birtərəfli yanaşmalar qlobal sülh üçün zərərli nəticələrə gətirib çıxara bilər.

***Н.Н.Ягублу***

# ВОЗДЕЙСТВИЕ ПОПУЛИСТСКИХ ПОЛИТИЧЕСКИХ ДВИЖЕНИЙ НА ЗАПАДЕ НА МЕЖДУНАРОДНЫЕ УЧРЕЖДЕНИЯ И МЕЖПРАВИТЕЛЬСТВЕННОЕ ПАРТНЕРСТВО

***Ключевые слова****: международные учреждения, межправительственный диалог, популизм, многосторонность, нативизм, глобальное сотрудничество*

В статье исследуется воздействие растущих популистских и нативистских политических тенденций на Западе на международные учреждения и сотрудничество. Межгосударственный диалог, основанный на принципе многосторонности, способствовал установлению мира и укреплению международного сотрудничества. В последнее время современный мировой порядок столкнулся с определенными угрозами. Популистские и антиправительственные политические движения получили сильную общественную поддержку и потребовали изменения или отмены механизмов, существующих межправительственных и наднациональных учреждений. Хотя такое развитие событий наносит ущерб устойчивому международному

сотрудничеству, оно указывает на недостатки нынешних структур. Поэтому государства должны приложить усилия, чтобы понять, почему возникают эти популистские движения, и устранить существующие недостатки. Следовательно, необходимы реформы, чтобы повысить эффективность и без того ослабленных межправительственных организаций и сделать их более гибкими. Односторонние подходы, такие как изоляционизм и крайний нативизм, могут иметь пагубные последствия для глобального мира в долгосрочной перспективе.

***N.N.Yagublu***

## THE IMPACT OF POPULIST POLITICAL MOVEMENTS IN THE WEST ON INTERNATIONAL INSTITUTIONS AND INTERGOVERNMENTAL PARTNERSHIP

***Keywords:*** *international institutions, intergovernmental dialogue, populism, multilateralism, nativism, global cooperation*

The article examines the impact of growing populist and nativist political tendencies in the West on international institutions and cooperation. Interstate dialogue based on the principle of multilateralism has contributed to the establishment of peace in the world and the strengthening of international cooperation. Recently, the modern world order has faced certain threats. Populist and anti-establishment political movements have gained strong public support and demanded that the mechanisms of existing intergovernmental and supranational institutions be changed or abolished. Although such development is detrimental for sustainable international cooperation, it indicates that there are shortcomings in the existing institutions. Therefore, countries should try to understand the reasons of these populist movements and address their grievances. Effective reforms are needed to increase the influence of already weakened intergovernmental institutions and make them more agile. One-sided approaches such as isolationism and extreme nativism can have detrimental consequences in the long term.

### Giriş

Dünya heç vaxt indiki kimi bir-birilə sıx qarşılıqlı əlaqədə olmayıb. Gediş-gəlişin və ümumi olaraq kommunikasiyaların asanlaşması sayəsində insanların bir-birilə münasibət saxlaması üçün daha geniş imkanlar var. Qarşılıqlı münasibətlərin artması və insanların hərəkəti üçün maneələrin azalması müsbət yöndə bir inkişaf hesab olunsa da, müxtəlif etnik qruplardan və mədəniyyətlərdən olan xalqların sülh şəraitində birgəyaşayışı onlar arasında qarşılıqlı anlaşma və etimad olmadan uğurlu davam edə bilməz. Dövlətlərarası dialoq da özünün bütün formalarında bu prosesi sürətləndirir. Status-kvo əleyhinə yönəlmiş yeni siyasi hərəkatların və qrupların Qərb dünyasında geniş vüsət alması beynəlxalq əməkdaşlığın effektiv şəkildə aparılmasını təhlükə altına qoyur [1, s.161-167].

Tarix etnik və dini tolerantsızlığa əsaslanan münaqişələr, müharibələr və qətliamlarla doludur. Son onilliklər ərzində güclənən mədəniyyətlərarası əlaqələr ksenofobiya* və irqçilik kimi halların səviyyəsini azaltmış, bu cür xoşagəlməz halların baş verməsinin qarşısını önəmli dərəcədə almışdır. Keçmişdə baş vermiş belə mənfi hadisələri nəzərə aldıqda neo-milliyyətçi və identitarian hərəkatların cərəyan etməsinə qarşı narazılıqlar əsassız görünmür.

Populizmin, milliyyətçi-identitarian hərəkatların yeni formalarının artması və məşhurlaşması qlobal bir hala çevrilmişdir. İkinci Dünya müharibəsindən sonrakı dövrdə bir çox beynəlxalq təşkilatların və digər müxtəlif strukturların bünövrəsinə çevrilmiş çoxtərəflilik siyasəti zəifləmiş, öz dəstəyini itirmişdir [2, s.395-422]. Buna səbəb hazırkı beynəlxalq siyasi-iqtisadi strukturlarda mövcud problemlərin və nöqsanların daha çox göz önünə çıxması, insanların bununla əlaqədar olaraq yeni həll yolları axtarmasıdır.

Şübhəsiz ki, mövcud problemlərin həlli və onların aradan qaldırılması üçün göstərilən səylər təqdirəlayiqdir: bu, liberal demokratiyalarda söz azadlığının bir hissəsidir və siyasətdə fəal iştirakçılığı stimullaşdırır. Açıq cəmiyyətlərdə müxtəlif cür ideyalar irəli sürülür, ən mübahisəliləri çaxnaşma və hiddət yaradır, çox zaman da keçmişin travmalarını oyadaraq müxalif tərəflərin kəskin narazıçılığına səbəb olur. Bu şəraitdə müsbət və mənfi, radikal və qeyri-radikal ideyalar cəmiyyət arasında sərbəst şəkildə yayılaraq geniş müzakirələrə səbəb olur; bu zaman təbii dialektik proses və bir-birini tarazlaşdıran tərəflər sayəsində şüurlu və qənaətbəxş cavablar əldə olunur. Lakin uzunmüddətli sistemlərin bünövrəsi üçün təhlükə yaradan irimiqyaslı böhran halları baş verdikdə isə vəziyyət daha da mürəkkəbləşir və xaotik olur. O zaman xalq heç vaxt qəbul etməyəcəyini düşündüyü qərarları verə bilər.

ABŞ-da və Avropa İttifaqında baş verənlər heç də adi bir krizis deyil. Qərb siyasi, iqtisadi və sosial sahələrdə müxtəlif çətinliklərlə üzləşməkdədir. Amma məsələ bu böhranın çoxölçülülüyü deyil, mövcud səlahiyyətli qurumların təməlini təşkil edən idealların və mexanizmlərin effektivliyinin zəifləməsidr. İkinci Dünya müharibəsində milliyyətçilik, irqçilik və bu kimi birtərəfli yanaşmaların səbəb olduğu faciəvi nəticələrdən sonra ən ağlabatan çıxış yolu hökumətlərarası və üstmilli təşkilatların* yaradılması və onlara müxtəlif səlahiyyətlərin ötürülməsi idi. Çoxtərəflilik regionun gələcəyini qoruyar, mümkün müharibələrin qarşısını alar, sabitliyi və inkişafı təmin edə bilərdi. Həmin yeni yaradılmış sistemlər texnokratiya və səriştəlilik ideyaları

* ksenofobiya - bilinməyən, başqa və yad olan şəxslərə (əsasən hər hansısa etnik, dini və ya irqi qrupa) qarşı duyulan qorxu və ya nifrət hissi.

* üstmilli təşkilatlar - tərkibindəki üzv dövlətlərin bəzi daxili məsələlərin qərarlaşdırılmasında özlərinin müəyyən suveren səlahiyyətlərinin həyata keçirilməsini həvalə etdiyi, qərarları bütün üzvlər üçün məcburi xarakter daşıyan çoxmillətli təşkilatlar

üzərində qurulmuşdu. Bu cür elitist struktur ekspertlərə, bilikli və bacarıqlı insanlara siyasətin işlənib hazırlanmasında daha çox hüquqlar verdiyindən ziyanlı və sabitliyi pozan hər hansı milliyyətçi qüvvənin qarşısını almış olardı [3, s.1-5].

Bu mexanizm Qərbdə həddindən artıq uğurlu oldu: Qərb yer kürəsində tərəqqinin, tolerantlığın, sabitliyin və rifahın vüsət aldığı bir məkana çevrildi. Regionun cazibədarlığı heç vaxt səngimədi, burada bərqərar olan düşüncə tərzi və dəyərlər dünyanın digər yerlərinə də yayılmağa, başqa xalqlar tərəfindən də tətbiq edilməyə başladı. Fəqət zaman keçdikcə dünya da ciddi şəkildə dəyişmişdir: yeni texnologiyalar kəşf olunaraq ictimai-siyasi və iqtisadi həyatın ümumi dinamikasını təzələmiş, qloballaşma dünyanı olduqca kiçiltmiş, yeni ölkələr yarandıqca regional və qlobal geosiyasi dinamika təkmilləşmiş, müxtəlif münaqişələr nəticəsində humanitar böhranlar baş vermiş və digər sahələrdə dəyişikliklər meydana gəlmişdir. Dünya təkmilləşdikcə mövcud struktur və institutlar da yeni yaranan reallıqların öhdəsindən gəlmək üçün təkmilləşməlidir. Uyğunlaşa və özünü reform edə bilməmək baş verən dəyişikliklərin təsirinə məruz qalan insanlar üçün maneələr doğurur və onlar yaranan çatışmazlıqların qurbanına çevrilirlər. Qərbdə baş verən kəskin irticaçı hərəkatların səbəbi də bu cür sistematik çatışmazlıqlardır.

Müəyyən bir qrupun uzun müddət dominantlıq etməsi onun təkəbbürlü olmasına, digərlərinə laqeyd yanaşmasına sövq edir – bu insan təbiətinin bir xüsusiyyətidir. Elə bu şəraitin doğurduğu şərtlər səbəbindən Avropa İttifaqında "suverenliyin yenidən qazanılması" şüarları və yeni içyönümlü, nativist* hərəkatlar güclənib. Texnokrat elita ilə adi insanlar arasında ünsiyyət çatışmazlığı mövcuddur. Bu, subyektiv reallıqların toqquşmasıdır.

**I. Müasir dövrdə Qərbdəki siyasi meyillər**

Beləliklə, Qərbdəki müasir siyasi cərəyanlar mahiyyət etibarilə populistdir və elitaya qarşı yönəlib. Mövcud immiqrasiya sistemlərindəki problemli məqamların, dini ekstremizmin nəticələrinin və bununla əlaqədar olan terrorçuluq aktlarının geniş vüsət alması bu meyillərin radikal elementlərini daha da gücləndirib. Son qaçqın böhranı və onların cəmiyyətə inteqrasiyası ilə əlaqədar problemlər səbəbindən yaranan narahatlıq əhalinin müəyyən qisminin bu qrupları açıq-aşkar dəstəkləməsinə gətirib çıxarıb [4, s.152-186]. Buna görə də bir çox seçkilərdə həmin siyasi qüvvələr əhəmiyyətli dərəcədə ictimai dəstəyə nail ola biliblər və bir çox hallarda müxtəlif vəzifələrə rəsmən seçiliblər.

* nativizm - immiqrantlar və gəlmələrlə münasibətdə yerli xalqın daha üstün hüquqlara və imtiyazlı statusa malik olmasını tərənnüm edən siyasi düşüncə.

Böhran zamanı xaos və qeyri-sabitlik yaranır, mövcud institutlara etimad azalır. Nəticədə, funksionallıq zəifləyir, səmərəlilik və güvən səngiyir. Bu cür vəziyyətdən yeganə çıxış yolu yeni institusional mexanizmlərin yaradılması və islahatların aparılmasıdır.

Qərbdə istər solçu, istərsə də sağçı nativist və populist hərəkatlar ciddi ictimai dəstəyə nail olublar. Onlar, adətən, prinsipcə xarici siyasi xətdə başqa ölkələrin daxili işlərinə qarışmamağı və iqtisadi olaraq proteksionizmi seçirlər. Sağçı hərəkatların daxilində müxtəlif populist tendensiyalar mövcuddur: iqtisadi millətçiliyi, məhdud immiqrasiyanı və yavaş demoqrafik dəyişiklikləri dəstəkləyənlərdən tutmuş etnik milliyyətçiliyi, ksenofobiyanı və irqçiliyi tərənnüm edənlərə qədər fərqli siyasi qüvvələr var.

Solçu siyasi qruplar daxilində də müxtəliflik mövcuddur. ABŞ-da müasir Proqressiv hərəkat sosial demokratik sistemi, ətraf mühitin müdafiəsini, eləcə də kasıb təbəqənin həyatını yaxşılaşdıracaq bir çox digər islahatların aparılmasını dəstəkləyir. Əlbəttə, az sayda da olsa, özlərini sosialist və ya kommunist adlandırıb azad bazar iqtisadiyyatının ləğvini istəyənlər də var. Ancaq Qərbi Avropada hər hansısa güclü solçu cərəyanı görmək çətindir; yeni siyasi hərəkatların əksəriyyəti, əsasən, sağ siyasətə meyillidir və öndə gedən müvafiq solçu qruplar öz siyasi dünyagörüşünə sağçı elementləri birləşdiriblər. Buna görə də onlar sadəcə müxtəlif siyasi mövqelərə sahib populistlərdir. Bu cür siyasi harmoniyanın ən bariz nümunələrindən biri İtaliyadakı Beş Ulduz Hərəkatıdır (M5S). Onlar avroskeptik, ətraf mühitin qorunmasına prioritet verən, sərbəst immiqrasiyanı pisləyən, anti-qlobalist siyasi qüvvələrdir [5].

Amerika siyasəti və Avropa siyasəti arasında böyük fərq var. ABŞ-da siyasət iki böyük partiya tərəfindən formalaşır və onlar mövqe baxımından daha sabit, ənənəvi xarakter daşıyırlar. Respublikaçılar Partiyasını dəstəkləyən Amerikan mühafizəkarları və sağ yönümlü əhali sosial liberalizmi bəyənmir, adətən kiçik hökumətin mövcudiyyətini, deregulyasiyanı və vergilərin azaldılmasını dəstəkləyirlər. Demokratlar isə, adətən, sol yönümlü olub prinsip cəhətdən hökumət müdaxilələrinə qarşı deyillər. Müqayisə üçün, Fransada Marin Le Pennin rəhbərlik etdiyi sağçı Milli Cəbhə Partiyası avroskeptik, anti-immiqrant, anti-qlobalist mövqe sərgiləməsinə rəğmən, iqtisadi siyasəti sosial yönümlüdür. M.L.Penn daim deregulyasiyaya, özəl koorporasiyalara və onların iş etikasına qarşı olduğunu nümayiş etdirib. Məsələn, o, verdiyi müsahibələrindən birində özəl koorporasiyalar və onların fəaliyyəti haqqında danışarkən azad bazar iqtisadiyyatını “cəngəllik qanunlarına” bənzətmişdi [6].

Qərbdə siyasətin hazırkı vəziyyəti bəzi mötədil siyasi partiyaları uyğunlaşmağa və öz platformasında dəyişikliklər etməyə sövq edir. Sağçı qrupların hər vəchlə irəli sürdüyü mövqelərdən bəzilərini qəbul etməklə onlar həmin qrupların cəmiyyətdən aldığı dəstəyi zəiflədə bilmiş və əhalinin radikallaşmasının qarşısını almışdır. Nümunə olaraq, Almaniyada iqtidarı təşkil

edən siyasi qruplar bəzi məsələrdə məhdudlaşdırıcı siyasi qərarlar vermişdir. Danimarkada hakimiyyət immiqrasiya ilə bağlı daha sərt mövqe sərgiləyərək ekstremist qrupların populyarlığını azaltmağa müvəffəq olmuşdur [7].

## II. Müasir populist hərəkatların beynəlxalq tərəfdaşlığa təsiri

Hal-hazırda böhranın ilkin mərhələsidir. Qeyri-müəyyənlik, çaşqınlıq və qütbləşmə geniş vüsət alaraq davamlı dialoqun aparılmasını çətinləşdirib. Yuxarıda qeyd olunan bütün sistematik problemlər, nativizmin baş qaldırması və davamlı qeyri-müəyyənlik mədəniyyətlərarası və sivilizasiyalarası münasibətlərə mənfi təsir göstərir. Liberal dünya nizamı və çoxtərəflilik müxtəlif etnik qruplardan, irqlərdən olan insanlara qarşılıqlı anlayış şəraitində bir-birilə ünsiyyət saxlamaqda və səmərəli münasibətlər qurmaqda kömək etmişdi. Beynəlxalq və üstmilli təşkilatlar da institusional imkanlar baxımından bu məqsədlərin reallaşmasında önəmli fürsətlər yaratmışdı. Lakin Qərbdə mövcud hökumətlərarası institutlara etimadsızlıq artdıqca mədəniyyətlərarası dialoq zəifləyir.

İçyönümlü, populist, nativist siyasi xətt başqa xalqlara və onların adət-ənənələrinə qarşı qeyri-tolerantlıq aşılayır. Təcridçilik* və mədəniyyətlərarası bağların zəifləməsi başqa irqi və dini mənsubiyyətdən olan xalqların yadlaşdırılmasına, ötəkiləşdirilməsinə səbəb olur. Məlumatsızlıq və izolyasiya qərəzliliyin, mənfi stereotiplərin hökm sürməsinə zəmin yaradır, bu da öz növbəsində ksenofobiyanın və irqçiliyin dərəcəsini artırır.

Şübhəsiz ki, Qərbdə baş verən siyasi tendensiyaların bu cür gedişatı mədəniyyətlərarası münasibətlərə mənfi təsir göstərəcək. İnkişaf etmiş Qərb ölkələrinin dünya nizamının liberallaşmasında aparıcı qüvvə olduğunu, onların institusional güc və təsir mexanizmləri baxımından daha açıq və tolerant bir dünya yaratmaqda əsas rol oynadığını nəzərə alsaq, Qərbin uzunmüddətli qeyri-aktivliyi mühüm suallar yaradır: "Yeni aparıcı siyasi aktorlar kim olacaq?", "Təkanverici qüvvə nədən ibarət olacaq?", "Daha effektiv dialoqa nail olmaq üçün hansı yeni strategiyanı icra etmək lazımdır?". Güc və səlahiyyət vakuumları dövlətlərarası əməkdaşlığı zədələyir, onun gələcək perspektivləri üçün əlverişsiz mühit yaradır.

Müasir populist meyillərin yaratdığı təhlükələrdən biri də onların tez bir zamanda avtoritarlaşa bilməsi ilə bağlıdır. Bunu Macarıstan, Venesuela kimi bir çox ölkələrdə görmək mümkündür [8 s. 296-313]. Populizm demokratiyanın və liberal hüquqların qorunmasına prioritet vermədiyindən, qeyzli və emosional ritorikaya əsaslandığından son nəticədə Qərbin liberal demokratik sistemi ziyan çəkə bilər. Ona görə də baş verən krizisi mövcud institutların mümkün

* təcridçilik - xarici siyasətdə digər dövlətlərin, xalqların və quruluşların işlərinə qarışmamaq fikrinə əsaslanan istiqamət

problemli məqamlarının aşkara çıxarılması üçün bir imkan kimi görmək, yaranmış çətinliyi bu cür interpretasiya etmək bizə düzgün yolu göstərib kömək edə bilər.

Kənardan ümumi mənzərəni nəzərdən keçirdikdə görəcəyik ki, sadə xalqın üzləşdiyi iqtisadi çətinliklər səbəbindən yaranan narazıçılıqları anti-elitist abu-havanı tətikləyən ən önəmli faktorlardır. Acınacaqlı iqtisadi vəziyyətin nəticələri, əməkhaqqının azlığı və sürətli demoqrafik dəyişikliklər ən çox aşağı təbəqə tərəfindən hiss edilir. Belə şəraitdə cəmiyyətin imkanlı və imkansız kimi kateqoriyalara bölünməsinə aşağı təbəqə bəraət qazandırır. Və nəticədə cəmiyyət artıq qütbləşir. Laqeydlik və ya mövcud çatışmazlıqları görməyib əvvəlki kimi hərəkət etmək yaranmış bu arzuolunmaz vəziyyəti daha da ağırlaşdırır.

Qərbdə müasir populizmin artması azlıqların hüquqlarına, ictimai etimada və qanunun aliliyinə mənfi təsir göstərir. Bu konsepsiyaların real həyatda uyğulanması üçün böyük vaxt və enerji sərf olunsa da, indi onların müvvəffəqiyyətlə davam etdirilməsinə ciddi problemlər yarana bilər. İctimai diskursun səmərəsiz istiqamətdə dəyişməsi və sosial hüquqların təhlükəyə məruz qalması o dərəcədə baş verə bilər ki, meydana gələcək zərərin aradan qaldırılması üçün keşməkeşli, uzun bir zaman tələb oluna bilər.

**Nəticə**

Şübhəsiz ki, beynəlxalq əməkdaşlığın səviyyəsi əvvəlki illərdə daha yaxşı olsa da, mükəmməl deyildi. Lakin heç də hər böhran katastrofik olmur; o əksər hallarda müəyyən problemlərin mövcudiyyətindən və onların düzəldilməyə ehtiyacı olduğundan xəbər verir. Hər siyasi aktor nöqsanlı məqamlara reaksiya verərək yaranan çatışmazlıqların nədən ibarət olduğunu, hansı islahatların vaciblyini və gələcək perspektivdə hansı addımların atılmalı olduğunu müəyyənləşdirməyə çalışmalıdır.

Cərəyan edən gərginliklər, eləcə də mövcud sosial-siyasi sistemlərə qarşı ictimai narazılıqlar hər bir mədəniyyətin özünü sorğulamasına və daxildə mümkün çatışmazlıqları axtarmağa sövq etməlidir. Öz bönövrəsindən və əsas dəyərlərdən sapmadan inkişaf edib təkmilləşmək hər zaman mümkündür.

Yuxarıda qeyd olunanları da nəzərə alsaq, görərik ki, dünyada baş verən hadisələrdən tamamilə izolyasiya olunmaq mümkün deyil. Heç bir millət digərləri ilə əlaqə saxlamadan, ticarət aparmadan, mübadilə etmədən yüksək tərəqqiyə çata bilməz. Bu həm də inkişaf etmiş ölkələrə aiddir, çünki onlar demoqrafik artım səviyyəsinin aşağı olmasından daha çox əziyyət çəkirlər. Doğum göstəricilərinin aşağı, yaşlı insanlarının sayının isə çox olması mühacirlərə ehtiyac yaradır. Sənayeləşmiş müasir dünyada isə bu ölkələrin təbii yolla öz lazımı dərəcədə demoqrafik artıma nail olması inandırıcı görsənmir. Əlavə olaraq, bu, qarşılıqlı asılılıq və ya daxili tələbat məsələsi də deyil:

qloballaşma və müasir texnologiyaların ixtirası nəticəsində dünya əvvəllər heç olmadığı qədər kiçilib. Bu o deməkdir ki, dünyanın hər hansı bir regionunda yaranan vəziyyət oradan uzaqda yaşayan millətlərə də təsir göstərə bilir. Yeni koronavirus pandemiyası bunun ən bariz nümunəsidir: lokal xəstəlik tez bir zamanda dünyanın digər hissələrinə də yayılaraq yüzminlərlə insanın ölümünə səbəb oldu. Deməli, dünyada baş verən hadisələrdən tamamilə təcrid olunmaq qeyri-mümkündür. Qloballaşmanı tənzimləmək və hökumətlərarası tərəfdaşlıq üçün daha yaxşı zəmin yaratmaq məqsədi ilə islahatlar aparılmalıdır. Müvafiq sahələrdə icra olunan fəaliyyətə nəzarət edəcək yeni beynəlxalq və üstmilli institutların yaradılması, eləcə də pandemiya, qaçqın böhranı və iqlim dəyişikliyi kimi böyük miqyaslı dağıdıcı hadisələrin qarşısını almaq üçün daha zirək və əlverişli mexanizmlərin işlənib hazırlanması uzun müddətdə çox səmərəli olacaq.

Hansı problemli məqamların varlığını və irəliləyişlərə nail olmaq üçün nə kimi tədbirlərin görülməsini müəyyən etmək məqsədilə konstruktiv dialoqların aparılması üçün imkanlar yaradılmalıdır. Mövcud maneələrin tam olaraq öhdəsindən gəlmək və qlobal əməkdaşlığı genişlətmək üçün hər bir sivilizasiya öz daxilinə nəzər salmalı, dərindən kök salmış əsas çatışmazlıqları aşkara çıxarmalıdır. Bu cür təhlillər aparılmazsa, mövcud populist hərəkatlar daha geniş vüsət almış olacaq, beynəlxalq tərəfdaşlıq zəifləyəcək, gələcəkdə konfliktlərin yaranmasının və narazılıqların kəskinləşməsinin qarşısını almaq daha da çətinləşəcək.

## ƏDƏBİYYAT


1. *Bremmer I.* Us vs. Them: The Failure of Globalism. New York: Penguin, 2018, 208 s.
2. *Newman E., Thakur R. and Tirman J.* Multilateralism Under Challenge?: Power, International Order, and Structural Change. Tokyo: United Nations University Press, 2006, 592 s.
3. *Costa Pinto A., Cotta M. and Tavares de Almeida P.* Technocratic Ministers and Political Leadership in European Democracies. Cham: Palgrave Macmillan, 2018, 309 s.
4. Eatwell R. and Goodwin M. National Populism: The Revolt Against Liberal Democracy. London: Penguin Books, 2018, 336 s.
5. DW. *Italy's M5S: From League allies to Democratic partners*. [online] Available at: <https://www.dw.com/en/italys-m5s-from-league-allies-to-democratic-partners/a-50212524> [Accessed 2 March 2021]
6. *Chrisafis A.* Marine Le Pen emerges from father's shadow. [online] The Guardian. Available at: <https://www.theguardian.com/world/2011/mar/21/marine-lepen-defends-republic> [Accessed 7 February 2021]

7. *Hagelund A.* After the refugee crisis: public discourse and policy change in Denmark, Norway and Sweden. CMS 8, 13, 2020 / https://doi.org/10.1186/s40878-019-0169-8
8. *Halmai G.* Populism, authoritarianism and constitutionalism. German Law Journal, 2019, 20(3)

Redaksiyaya daxil olub 11.05.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 156-162
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 156-162

# Pedaqoji-psixoloji elmlər

*UOT 376*

***S.A.Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*s-asadzade@mail.ru*

## SEREBRAL İFLİCİN HEMİPARETİK FORMASI OLAN UŞAQLARDA İNTELLEKTUAL FUNKSİYALARIN TƏDQİQİ

***Açar sözlər:*** *hemiparetik forma, əzələ tonusu, Babkin refleksi, verbal blok, perseptiv blok, psixi fuksiyalar, psixomotor inkişaf*

Hemiparetik forma serebral iflicin geniş yayılmış formalarından biridir. Bu forma bir tərəfli hərəki pozulmalarla, daha çox əlin zədələnməsi ilə xarakterizə olunur. Uşaq serebral iflicinin hemiparetik forması psixi funksiyaların formalaşma xüsusiyyətlərinə – yarımkürələr arası birgəfəaliyyət, dominant yarımkürə, o cümlədən intellektual funksiyaların inkişafına görə yaxşı modeldir. Beynin funksional asimmetriyası probleminə böyük marağın olmasına baxmayaraq uşaq serebral iflicinin hemiparetik forması zamanı uşaqlarda psixi funksiyaların tədqiqinə yönəldilmiş xüsusi tədqiqatlar azdır. Bir sıra tədqiqat işlərində, xüsusən də xarici mütəxəssislərin tədqiqatlarında bu məsələ ilə əlaqədar ayrı-ayrı məlumatlara rast gəlinir. Müəlliflər sol tərəfli hemiparezləri olan (sağ yarımkürənin qüsuru) uşaqlarda görmə-məkani funksiyaların, sağ tərəfli hemiparezləri (sol yarımkürənin qüsuru) olan uşaqlarda isə verbal funksiyaların pozulduğunu qeyd edirlər.

***С.А.Абасова***

## ИЗУЧЕНИЕ ИНТЕЛЛЕКТУАЛЬНЫХ ФУНКЦИЙ У ДЕТЕЙ С ГЕМИПАРЕТИЧЕСКОЙ ФОРМОЙ ЦЕРЕБРАЛЬНОГО ПАРАЛИЧА

***Ключевые слова:*** *гемипаретическая форма, мышечный тонус, рефлекс Бабкина, вербальный блок, персептивный блок, психические функции, психомоторное развитие*

Гемипаретическая форма – одна из самых распространенных форм церебрального паралича. Для этой формы характерны односторонние двигательные нарушения, чаще всего травмы рук. Гемипаретическая форма детского церебрального паралича зависит от особенностей формирования психических функций – режима деятельности между полушариями, доминирующего полушария, а также модели интеллектуальных функций. Несмотря на большой интерес к проблеме функциональной асимметрии головного мозга, исследование было сосредоточено на изучении психических функций у детей при гемипаретической форме детского церебрального паралича. Некоторая

информация по этому поводу содержится в ряде исследовательских работ, особенно в исследованиях зарубежных специалистов. Авторы отмечают, что у детей с левым гемипарезом (дефект правого полушария) нарушена зрительно-пространственная функция, а у детей с правосторонним гемипарезом (дефект левого полушария) – вербальная функция.

***S.A.Abasova***

## STUDY OF INTELLECTUAL FUNCTIONS IN CHILDREN WITH HEMIPARETHIC FORM OF CEREBRAL PARALYSIS

***Keywords:*** *hemiparetic form, muscle tone, Babkin reflex, verbal block, perceptual block, mental functions, psychomotor development*

The hemiparetic form is one of the most common forms of cerebral palsy. This form is characterized by unilateral movement disorders, most often hand injuries. The hemiparetic form of infantile cerebral palsy depends on the characteristics of the formation of mental functions - the mode of activity between the hemispheres, the dominant hemisphere, as well as the model of intellectual functions. Despite the great interest in the problem of functional asymmetry of the brain, the study was focused on the study of mental functions in children with hemiparetic form of infantile cerebral palsy. Some information on this matter is contained in a number of research works, especially in the studies of foreign experts. The authors note that children with left hemiparesis (defect of the right hemisphere) have impaired visual-spatial function, and children with right-sided hemiparesis (defect of the left hemisphere) have impaired verbal function.

Hemiparetik forma serebral iflicin geniş yayılmış formalarından biridir. Bu forma birtərəfli hərəki pozulmalarla, daha çox əlin zədələnməsi ilə xarakterizə olunur. USİ-nin hemiparetik forması psixi funksiyaların formalaşma xüsusiyyətlərinə – yarımkürələrarası birgəfəaliyyət, dominant yarımkürə, o cümlədən intellektual funksiyaların inkişafına görə yaxşı modeldir. Beynin funksional asimmetriyası probleminə böyük marağın olmasına baxmayaraq USİ-nin hemiparetik forması zamanı uşaqlarda psixi funksiyaların tədqiqinə yönəldilmiş xüsusi tədqiqatlar azdır. Bir sıra tədqiqat işlərində, xüsusən də xarici mütəxəssislərin tədqiqatlarında bu məsələ ilə əlaqədar ayrı-ayrı məlumatlara rast gəlinir. Müəlliflər sol tərəfli hemiparezləri olan (sağ yarımkürənin qüsuru) uşaqlarda görmə-məkani funksiyaların, sağ tərəfli hemiparezləri (sol yarımkürənin qüsuru) olan uşaqlarda isə verbal funksiyaların pozulduğunu qeyd edirlər.

Rus tədqiqatçısı L.M.Şipitsina tərəfindən Uşaq serebral iflicinin hemiparetik forması (38 nəfər sağ tərəfli və 30 nəfər sol tərəfli) olan 68 uşaq tədqiq olunmuşdur. Kontrol qrup eyniyaşlı sağlam uşaqlardan ibarət idi.

Serebral iflicli uşaqlarda intellektin səviyyələr üzrə qiymətləndirilmə sağlam uşaqlarda olduğundan xeyli aşağı olmuşdur (cədvəl 1).

*Cədvəl 1*

USİ-nin hemiparetik forması olan uşaqlarda və sağlam uşaqlarda intellektin səviyyələr üzrə qiymətləndirilməsinin orta göstəriciləri

| Müayinə olunan qrup | Verbal göstəricilər | Qeyri-verbal göstəricilər | İntellektin ümumi göstəriciləri |
|---|---|---|---|
| Sağlam uşaqlar | 118,0 | 117,0 | 116,0 |
| Sağ tərəfli hemiparezli xəstə uşaqlar | 83,7 | 97,5 | 94,7 |
| Sol tərəfli hemiparezli xəstə uşaqlar | 92,4 | 85,4 | 95,5 |

Xəstə uşaqlar qrupunda intellektin səviyyəli xarakteristikalarının müqayisəsi göstərdi ki, sol tərəfli hemiparezli xəstə uşaqlarda verbal intellektin səviyyəsi sağ tərəfli hemiparezli uşaqlarla müqayisədə yüksəkdir [1, s.19].

Bloklar üzrə müqayisəli təhlil aşağıdakıları göstərdi:

1-ci (verbal anlama) blok üzrə sol tərəfli hemiparezi (sağ yarımkürənin qüsuru) olan uşaqlarda bu blok üzrə tapşırıqların yerinə yetirilmə effektivliyi daha yüksəkdir. Bu da fikri proseslərin yüksək inkişafından xəbər verir.

2-ci blok (perseptiv təşkil) üzrə sağ tərəfli hemiparezli (sol tərəfin qüsuru) uşaqlarda subtestlərin qeyri-verbal tapşırıqlarının yerinə yetirilməsində daha yüksək nəticələr əldə olunmuşdur. Keyfiyyət təhlili göstərdi ki, sol tərəfli hemiparezli uşaqlar bu subtestlərin tapşırıqlarını yerinə yetirərkən nümunə şəkillərdə elementlərin vəziyyətini və detalların yerləşdirilməsində düzgün istiqaməti tapa bilmirdilər. Sol tərəfli hemiparezi olan uşaqların ümumi xüsusiyyəti məkan münasibətlərinin təhlilində çətinliklər, eləcə də mürəkkəb məkani təsəvvürlərə söykənən sintetik fəaliyyətin inkişafsızlığıdır. Sağ tərəfli hemiparezi olan uşaqlarda da 2-ci blokun tapşırıqlarını yerinə yetirməkdə çətinliklər yaranmışdı. Səhvlərin keyfiyyət təhlili tapşırıqlarda ləng tempi və tapşırıqda ilkin istiqamətlənmənin çətinliyini üzə çıxarmışdı. Sol tərəfli hemiparezli xəstələr qrupunda görmə-məkani analiz və sintezin kobud pozulmaları müşahidə olunmurdu. Sol tərəfli hemiparezi olan xəstələr qrupunda sağ tərəfli hemiparezi olan xəstələrə nisbətən 3-cü blok (hafizə və diqqət) üzrə göstəricilər daha zəifdir. Bu, baş beynin sağ yarımkürəsində qüsur olan uşaqlarda psixi proseslərin tənzimlənməsinin inkişafsızlığından xəbər verir. Əldə olunan məlumatlar baş beynin sağ yarımkürəsinin görmə-məkani funksiyalarının və tənzimləmə proseslərinin ontogenezində yüksək mahiyyətini qeyd edir. Sağ yarımkürənin erkən ontogenezdə zədələnməsi zamanı ali psixi funksiyaların pozulma strukturu ontogenezin sonrakı mərhələlərində zədələnmələrə nisbətən daha mürəkkəb və müxtəlifdir. Erkən yaşda bu zədələnmələr daha pis

kompensasiya edilir [1, s.42].

Beləliklə, uşaq və yeniyetmələrdə serebral iflicin müxtəlif formaları nəinki intellektual pozulmaların tezliyi ilə, həm də baş beynin zədələnməsinin dərəcə və ağırlığından asılı olaraq psixi funksiyaların struktur formalaşmasının özünəməxsus keyfiyyəti ilə fərqlənir.

Uşağın həyatının ilk aylarında serebral iflicin mövcudluğunu təyin etmək çətindir. Ancaq normadan bir qədər kənara çıxmaları təsvir etmək mümkündür ki, bu kənara çıxmalar da USİ-nin ağır formaları zamanı nitq fəaliyyətinin inkişafında qeyd olunur. Həyatının birinci ayında uşaq azhərəkətli olur, çox yatır. Bu dövrdə onun ağlamağı monoton, davamsız və zəif intonasiyalı olur, görmə və eşitmə qıcıqlarına qarşı reaksiyaları ləng, ümumi hərəkətlərlə xarakterizə olunur.

Serebral iflic zamanı artıq uşağın ilk günlərində dilin əsməsi və gərginliyi müşahidə olunur. Dil əmmə və udma prosesində demək olar ki, iştirak etmir. Adətən əmmə refleksləri zəif təzahür edir, ya da ümumiyyətlə olmur. Belə uşaqlarda əmmə funksiyası oral əzələlərin və zəifliyi ilə və zond vasitəsilə qidalanma ilə əlaqədar çətinləşir. Sonradan ləngiyərək yaranmış oral reflekslər uzun müddət azalmır və təhrif olunmuş formada artikulyasiyada və qidalanmanın hərəki sxemlərində saxlanılır.

Psixomotor inkişafın bu dövründə (0-1 ay) pozotonik reflekslər artikulyasiyanın formalaşma prosesinə bilavasitə təsir edir. Əgər sağlam uşaq başını yaxşı saxlaya bilirsə, serebral iflicli uşaqda oral avtomatlaşma refleksləri həddən artıq güclənmiş, ümum hərəki reaksiyalar (əsasən başı saxlamaq və çevirmək) ləngimiş, reflektor-səs reaksiyaları kommunikativ mahiyyət daşımır, psevdobulbar simptomatika əmmənin, udmanın, tənəffüsün və qışqırığın pozulması ilə, xüsusilə də ovuc-ağız Babkin refleksinin pozulması ilə aydın ifadə olunur. Serebral iflicli uşaqlarda artikulyator və üz motorikasının imkanları reallaşmır.

2-3 aylıq dövrdə fraqmentar olaraq "canlanma kompleksi" təzahür edə bilər. Böyüklərlə ünsiyyətdə təbəssüm nadir halda müşahidə olunur. Oral-artikulyator əzələlərin patologiyası aydın ifadə olunur.

Artikulyasiya prosesində əzələ tonusu paretik, spastik, distonik, hiperkinez və dilin tremoru şəklində təzahür edir. Qışqırma zamanı bu simptomatika dəqiq müəyyən olunur, qışqırıq sakit, davamsız və monoton olur. Mimika qeyri-simmetrik olaraq az ifadəlidir. Bununla əlaqədar səs aktivliyi zəif, kasad olur, qığıldama gecikir, autoexolaliya mexanizminin formalaşması pozulma səviyyəsindən asılı olaraq bir neçə aydan bir neçə ilədək ləngiyə bilər.

2-3 ay dövrünə uyğun psixomotor inkişafda hərəki komponent təzahür edir və ümumi reflektor reaksiyalar dominantlıq edir. Düzəldici labirint refleks dəqiq ayırd edilir ki, bu da uşağa qarnı üstə uzanarkən başını qaldırmağa kömək edir. Ağız boşluğunda, xüsusilə də dodaq və dilin yüksək dərəcədə həssaslığı müşahidə olunur. Serebral iflicli uşaqlarda əsasən əmmə və udma pozulararaq

patoloji simptomatika güclü ifadə olunur.

3-6 ay dövründə "canlanma kompleksi" ya diferensiasiya olunmur, ya da ümumiyyətlə olmur, qışqırıq zəif ifadə olunur. Uşaq səs qıcıqlandırıcılarına zəif reaksiya verir. Qığıldama və təbəssüm mövcud deyil. Qığıldama rudiment səviyyədədir, çox ləng təzahür edir, böyüklərlə ünsiyyət zamanı spontan yaranan diferensiasiya olunmamış "a", "e", "ı" kimi sait səslərlə xarakterizə olunur.

Serebral iflicli uşaqlar melodikliyi, modulyasiyası, ritmi olmayan səslər çıxarırlar ki, bu da həmin mərhələdə qığıldamanın zəif ifadə olunmasından (buna səbəb qırtlaq səslərinin olmamasıdır ) irəli gəlir. Qığıldamanın daha yaxşı olması USİ-nin nisbətən zəif formasından xəbər verir [2, s.99].

Psevdobulbar simptomatika zamanı səsyaranma prosesinin və qışqırığın pozulması olur. Artikulyator əzələlərin spastikliyi zamanı dil və dodaqların yüksək tonusu yaranır. Dilin gərginliyi, dil ucu və dodaqların ifadə olunmaması artikulyasiya zamanı iradi hərəkətləri məhdudlaşdırır.

Hipotoniya zamanı artikulyator, mimik və çeynəmə əzələlərinin süstlüyü qeydə alınır. Uşaqlarda artikulyator əzələlər az hərəkətli olduğundan ağız daim yarıaçıq vəziyyətdə olur. Distoniya halında artikulyasiya əzələləri daim yığılır, bu vəziyyət hiperkinetik komponentlərlə müşayiət olunur.

Serebral iflicli uşaqlarda əzələ hipertoniyası asimmetrik boyun-tonik refleksinin patoloji simptomatikasında əks olunur. Dil və dodaq əzələlərinin tonusunun patoloji yüksəlməsi, kəskin hipertoniya və ya hipotoniya, artikulyasiya orqanlarının iradi hərəkətlərinin olmaması, postural aktivlik, birgə hərəkətlər, iradi əl motorikası hərəki aktivliyin formalaşmasında, eləcə də zəncirvari düzləşdirici reflekslərin yaranmasında ləngimənin göstəriciləridir.

6-9 aylıq yaş dövründə serebral iflicli uşaq anasını digər adamlardan çətinliklə fərqləndirir, tez-tez yeni simaya mənfi emosional reaksiya verir, ünsiyyətdə az aktivdir, oyun zamanı böyüklə zəif kontakta girir. Ünsiyyət zamanı jestlərdən istifadə etmir, mimika az ifadəlidir. Qığıldamanın spesifik xüsusiyyətləri var və bir neçə il ərzində uzana bilər.

Bu periodda (6-9 ay) sensor və inteqrativ əlaqələrin mövcudluğu çox vacibdir. Zəncirvari hərəki refleks bir sıra hərəkətlərin inkişafında və hərəki aktın təşkilində aparıcı olur. O, nəinki görmə-motor manipulyativ davranışın fəallaşdırılmasına cavabdehdir, həm də uşağın spontan səs reaksiyalarına təsir edir.

Serebral iflicli uşaqlarda oral avtomatizmin aydın ifadə olunan şərtsiz refleksləri müşahidə olunur. Dişləmə və çeynəmə zəif olur, bir çox hallarda çeynəmə olmaya da bilər. Dil və dodaqların reaksiyaları hədsiz dərəcədə ləngimiş olur. Tez-tez dodaqların və dilin əzələ tonusunun dəyişməsi, dilin hiperkinezi müşahidə olunur ki, bu da iradi artikulyator hərəkətlərin təzahürünə və hərəkətliliyinə maneçilik yaradır.

Qida qəbulu zamanı müdafiə xarakterli reflektor reaksiyalar, oral

sinkineziyalar və yüksək salivasiya şəklində psevdobulbar simptomatika müşahidə olunur.

9-12 aylıq serebral iflicli uşaqda emosional reaksiyalar zəif ifadə olunur. Belə uşaq jestlərlə ünsiyyətə üstünlük verir. Daha ağır hallarda uşağın ətraf aləmə marağı zəif olur. Qığıldama zəif olur (1-2 kəlmədən artıq olmayaraq).

Əgər sağlam uşağın danışığı yerinə və yaranma üsuluna görə diferensiallaşmış olursa, serebral iflic riski olan uşaqlarda ekspressiv nitqə keçid daha gec, 2 yaşına yaxın dövrdə baş verir. Körpənin danışığı az ifadəli, zəif diferensiasiya olunmuş, intonasiya cəhətdən kasaddır. Çox nadir halda 2-3 hecaya təsadüf olunur.

Psixomotor inkişafın bu dövrü (9-12) sensor funksiyaların diferensiallığı ilə xarakterizə olunur ki, bu da hərəkətlərə nəzarətdə özünü göstərir. Qıdanın yemək zamanı ağızdan hələ də axdığına baxmayaraq, oral hərəkətlər daha diferensiallaşmış, nəzarət olunan və koordinasiyalaşmış olur.

Serebral iflicli uşaqlarda 18-36 ay müddətindən başlayaraq həm nitq səviyyəsində, həm də jest səviyyəsində anlamanın pozulması müşahidə olunur: "hə" sözünün mənasını anlamır, nitq kasaddır, fraqmentardır, qırıq-qırıqdır, perseverativ exolaliyalarla artikulyasiya qüsurları mövcuddur.

Nitq inkişafının pozulması onların aktiv və passiv lüğət ehtiyatlarının kasadlığında, sözlərin diferensiallığını bilməməkdə ifadə olunur. Uşaqlar tez-tez əşyaları bildirən sözləri çaşdırırlar.

Nitq ünsiyyət vasitəsi olub, sosial kontaktlarla inkişaf edir və onun əsas bazası hələ uşağın həyatının ilk ilində qoyulur [2, s.121].

Uşaq serebral iflicin sensomotor sferasının pozulmasından əziyyət çəkirsə, əsasən artikulyasiya, səs tələffüzü, üz əzələləri və jestləri idarə etmə, kinestetik qavrayış tənəffüs və hərəkətlərə nəzarət prosesləri dəyişir, uşaqların özlərini ətraf mühitdə müstəqil olaraq reallaşdırmaq imkanları itir. Bütün bunlar bilavasitə nitq fəaliyyətinin məhdudlaşmasına, ümumiyyətlə bütünlükdə psixi inkişafa təsir edir.

Serebral iflicdən əziyyət çəkən uşaqlarda nitqin fonematik sisteminin pozulması qeyd olunur, bu da səslənməsinə görə yaxın olan (kvaziomonimlər) sözləri eşitmə ilə fərqləndirmə bacarığının olmamasına gətirib çıxarır.

Eşitmə zəifliyi olduqda çox zaman eşitmə yaddaşının və eşitmə qavrayışının çatışmazlığı da yer alır. Bu pozulmaların USİ zamanı artikulyasiyanın formalaşmasında pozulmalar və ləngimələrlə bilavasitə əlaqəsi var. Nitq səslərinin qavranılmasında və eyni zamanda nitq əzələlərinin hərəkətliliyində məhdudiyyəti olan uşaq artikulyasiya prosesində çətinliklərlə üzləşir. Bu problem həmin patologiya üçün xüsusilə xarakterikdir.

Normal inkişaf zamanı 2 yaşına yaxın dövrdə 1 yaş üçün xarakterik olan reflekslər reduksiya olunur. Serebral iflicli uşaqlar bu zaman hələ də həmin reflekslərin təsiri altında olurlar. Ağır formalar zamanı daha erkən və primitiv

olan asimmetrik boyun-tonik refleksi dominantlıq edir. Bu refleks boyun-düzləşdirici refleksin yaranmasına və inkişafına mane olur.

Spastik simptomatika zamanı əzələ tonusunun güclənməsi üstünlük təşkil edir. Normal hərəkət sxemləri reflektor, qatlayan (fleksion) və açan (ekstensor) sinergiya ilə əvəz olunur. Spastiklik yüksək olduqca fəaliyyətin postural-tonik və dinamik növləri daha da primitiv olur.

USİ-nin atetoz forması zamanı spastik formada olduğu kimi, kürək üzərində uzanmış halda ekstensor reflektor fəaliyyət dominant model olduğu halda, qarın üzərində uzanmış halda fleksion refleks dominantlıq edir. Qeyd olunmuş fəaliyyət qeyri-iradi hərəkətlərin güclənməsi zamanı daha çox pozulmuş olur. Bundan başqa ekstremal hipotoniyadan ekstremal hipertoniyaya keçən əzələ tonusunun dəyişilməsi xarakterikdir. Lakin spastik uşağın rigidliyindən fərqli olaraq atetoz formalı uşaqda bu vəziyyət qısa müddətli olur.

Korreksiya işinin keçirilməsində əsas olan normal inkişaflı südəmər körpə və balaca uşağın reflekslərinin serebral iflicli uşaqların reflekslərinin müqayisəsini bilməkdir. Bu da digər vacib reflekslərin normal inkişafına nail olmaq üçün patoloji refleksləri tormozlamaq məqsədilə kompleks yanaşmaya imkan verir [3, s.22].

Mütləq qeyd edilməlidir ki, artikulyasiyanın formalaşma prosesi ilə bilavasitə əlaqəsi olan müxtəlif reflekslərin olması və ya olmamasının, çatışmazlığının tədqiqi nəinki reabilitasiya üçün müvafiq metodikaların işlənməsində mahiyyət daşıyır, həmçinin uşaq serebral iflicinin erkən diaqnozlaşdırılıması yoludur.

Beləliklə, ümumi motorikanın inkişafı bütünlükdə oral sferanın inkişafı və qismən də artikulyasiyanın formalaşması ilə bilavasitə əlaqədardır. Serebral iflicli uşağın inkişafının nitqdən əvvəlki dövründə hərəki-kinestetik sferanın bərpası və stimulyasiyası əsas vəzifələrdən biridir.

## ƏDƏBİYYAT


1. Детский церебральный паралич: диагностика и коррекция когнитивных нарушений: Учебно-методическое пособие. РНИМ Университет им. Н.И.Пирогова. Москва, 2012, 58 с.
2. *Козявкин В.И., Шестопалова Л.Ф., Подкорытов В.С.* Детские церебральные параличи. Медико-психологические проблемы. Львов, 1999, 144 с.
3. *Никитина М.Н.* Детский церебральный паралич. Москва: Медицина, 1979, 121 с.


Redaksiyaya daxil olub 17.04.2021

*UOT 37*

***AA.Altınay***
*Bakı Dövlət Universiteti*
*aysealtinay@hotmail.com*

# İBTİDAİ TƏLİMDƏ SƏRİŞTƏLİ MÜƏLLİM KADRLARININ HAZIRLIĞINDA İNTERAKTİVLİK

***Açar sözlər:*** *ibtidai təlim, səriştəli müəllim, interaktiv metodlar*

Müasir təhsilin vəzifəsi necə öyrənməyi öyrətməkdir. Buna görə də son illərdə texnologiya və texnologiya dövründə, informasiya əsrində interaktiv tədris metodlarından ali təhsil müəllimləri getdikcə daha çox istifadə edirlər. Eyni zamanda interaktiv forma və metodlar, şagirdlərin müstəqil işi təlim prosesinin səmərəliliyini təmin edir. Müəllimin vəzifəsi bu işi yüksək keyfiyyətli və təsirli olması üçün təşkil etmək və istiqamətləndirməkdir. İnteraktiv təhsil formalarının tətbiqi müasir ali məktəbdə tələbə hazırlığının yaxşılaşdırılması üçün ən vacib istiqamətlərdən biridir. Bu gün əsas metodoloji yeniliklər dəqiq interaktiv tədris metodlarının istifadəsi ilə bağlıdır.

***А.А.Алтынай***

# ИНТЕРАКТИВНОСТЬ В ПОДГОТОВКЕ КВАЛИФИЦИРОВАННЫХ УЧИТЕЛЕЙ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *начальное образование, компетентный педагог, интерактивные методы*

Задача современного образования – научить учиться. Поэтому в последнее время в периоде техники и технологии, в веке информации все чаще используются педагогами высшей школы интерактивные методы обучения. При этом интерактивные формы и методы, самостоятельная работа студентов обеспечивают эффективность процесса обучения. Задача педагога – организовать и направить эту работу, чтобы она была качественной и результативной. Внедрение интерактивных форм обучения – одно из важнейших направлений совершенствования подготовки студентов в современном вузе. Основные методические инновации связаны сегодня с применением именно интерактивных методов обучения.

***A.A.Altynai***

# INTERACTIVITY IN TRAINING QUALIFIED PRIMARY EDUCATION TEACHERS

***Keywords:*** *primary education, competent teacher, interactive methods*

The task of modern education is to teach how to learn. Therefore, in recent years, in the period of technology and technology, in the age of information, interactive

teaching methods are increasingly used by teachers of higher education. At the same time, interactive forms and methods, independent work of students ensure the effectiveness of the learning process. The task of the teacher is to organize and direct this work so that it is of high quality and effective. The introduction of interactive forms of education is one of the most important directions for improving the training of students in a modern university. The main methodological innovations today are associated with the use of precisely interactive teaching methods.

Dünyamızı bürüyən Covid-19 pandemiyası insanları bu gün daha çox elmə, texnika  və texnologiyalara cəlb etmiş, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də yeni pedaqoji texnologiyalardan, müxtəlif kompüter texnikasından, proqramlardan, internet resurslarından yararlanaraq distant təhsildən, onlayn dərslərdən, interaktiv metodlardan geniş istifadə edilməyə  fəal surətdə başlandı. Müəllimlərimiz və təhsil alanlarımız qısa  bir müddət ərzində kompüter texnika və texnologiyasına virtual təhsilə, interaktiv ünsiyyətə mükəmməl  yiyəlnədilər, evdə qalsalar da, təhsildən, təlimdən geri qalmadılar, ali məktəblərimizdə, digər təhsil müəssisələrimzidə fədakarcasına çalışaraq öz yetişdirmələrini tələb olunan biliklərlə silahlandırdılar. Onların hazırlığının təşkilində yeni pedaqoji texnologiyalar, yeni təlim metodları xüsusi yer  tutur.

Dahi şəxsiyyət, böyük siyasi xadim  Heydər Əliyev hələ 1980-ci illərdə Ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində yeni bir pedaqoji anlayış kimi səriştəli müəllim problemini irəli sürür və yeni müəllim kadrlarının yetişdirilməsini, təhsil alanların təfəkkürünün inkişaf etdirilməsini bir vəzifə olaraq təhsil işçilərinin qarşına qoyurdu. O, müəllimin peşəkarlıq səviyyəsinə, səriştəliliyinə yüksək qiymət verərək səriştəli müəllim obrazının səciyyəsini belə göstərirdi: "...hər bir ali məktəb müəllimi gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, pedaqoji qabiliyyət və yaxşı vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək  ali məktəb müəllimi elmi biliklərdən əlavə yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin" (1, s.7). Dahi rəhbər həmçinin müəllimlərin dərin elmi-pedaqoji biliklərə yiyələnməsini və onları tələbələrə çatdıra bilməyi vacib amillərdən sayırdı. O, müəllimlərin mənəvi tərbiyəsinə, onların ilk növbədə yüksək əxlaqi keyfiyyətlərə yiyələnməsinə xüsusi əhəmiyyət verir və bunu daha  yüksək qiymətləndirirdi. Heydər Əliyev müəllimlərin işinin ən çətin, lakin ən lazımlı və gərəkli iş olduğunu qeyd edir və onların üzərinə düşən vəzifələrin Vətən üçün, xalq və millət üçün olduğunu göstərirdi: "…hər bir müəllim bilməlidir ki,  onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır" (2) .

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə göstərmişdir ki, intellektual inkişafın, elmi dünyagörüşün təkanverici amili yeni pedaqoji texnologiyalara yiyələnməkdir. Bu, xüsusilə, pedaqoji kadr hazırlığında təhsil alanalrın fəal təhsil prosesinə qoşulması ilə bağlıdır. Onun Müəllimlərin XIII qurultayının iştirakçılarına göndərdiyi məktubunda deyilir: "Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tipli iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. "Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir. Əminəm ki, Azərbaycan müəllimləri fəaliyyətlərini bu tələblərə uyğun daha da təkmilləşdirərək müstəqil Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət edən gənc nəslin yetişdirilməsi işinə öz töhfələrini verəcəklər (3, s.5).

Müasir dövrdə aldığımız informasiyalar o qədər artmış, çoxalmış ki, əldə edilən biliklər tam məlum olmamış, dərk edilməmiş köhnəlir və bu da insanlara mövcud problemlərin həlli üçün qazandıqları biliklərlə kifayətənməyə imkan vermir. Bunun çarəsi isə yeni pedaqoji texnologiyalardan səmərəli istifadə edərək yeni biliklərə, yeni metodlara sahib olmaq, həm təhsil alanların, həm də təhsil verənlərin səmərəli fəaliyyətinin təşkil etməkdir.

Ölkədə maddi kapitalın insan kapitalına çevrilməsi, davamlı insan inkişafını təmin etmək, insan resurslarını inkişaf etdirmək və ondan səmərəli istifadə etmək, mövcud təhsil infrastrukturunun yeniləşdirilməsi, yeni təlim və tərbiyə texnologiyalarının, innovasiyaların tətbiqi, müasir idarəetmə mexanizminin təkmilləşdirilməsi, təlimin məzmununun, kurikulumların yeniləşdirilməsi və təkmilləşdirilməsi müəllimin yüksək mənəvi, əxlaqi keyfiyyətlərə sahiblənməsi, öz üzərində daim çalışması, yüksək peşə və ixtisas hazırlığına və yeni pedaqoji texnologiyalara malik olması üçün səriştəli müəllim kadrlarının hazırlığı dövrün zəruri tələbinə çevrilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Bu mühüm dövlət sənədində səriştəli müəllim kadrlarının hazırlığı, o cümlədən ibtidai sinif müəllimliyi ixtisası hazırlığı birirnci dərəcəli vəzifə kimi önə çəkilmiş və strategiyanın birinci istiqamətində göstərilmişdir: "...təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir" (4).

Göründüyü kimi, bu mühüm dövlət sənədində ölkədə ibtiadi təlimdə

səriştəli müəllim kadrlarının hazırlığına xüsusi diqqət verilmiş və bunun tədris prosesində effektivliyi göstərilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf Konsepsiyası" təhsilin inkişfında, təlim və tərbiyənin səviyyəsinin yüksəldilməsində müəllimin yeni təlim texnologiyalarından, xüsusilə informasiya-kommunikasiya texnologiyalarından, interaktiv metodlardan geniş istifadə edilməsini qarşıya qoymuşdur (5).

Bu konsepsiyada xüsusilə ali təhsilin inkişaf paradiqmaları aydın şəkildə göstərilmişdir. Bu sahədə təhsilin informasiyalaşdırılmasına, fəal və interaktiv metodlardan geniş istifadə olunması, müəllim kadrlarının hazırlığında, təlim və tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan, elektron lövhələrdən, planşet dərsliklərdən istifadəyə, xüsusilə informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsinə geniş yer verilməsi tələb olunur.

Qeyd edək ki, təlimə texnoloji yanaşma – bu, həm də interaktivlik tələb edir. "İnteraktivlik" termini "dialoqu, qarşılıqlı təsiri" bildirir. Bu təlim metodunu ifadə etmək üçün həmçinin "problem – dialoji", "problemli", "evristik təlim" anlayışlarındanda istifadə olunur.

Təlimdə interaktiv yanaşmanın mahiyyəti ondadır ki, təlim təhsil alanların yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlmişdir. Bu təhsil alanlar müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Riyaziyyat üzrə müəllim hazırlığında əlverişli mühitin yaradılması, şagirdlərin riyazi motivasiyasının inkişaf etdirilməsi, təlim prosesi ilə bağlı pozitiv emosiyanın formalaşdırılması, psixoloji gərginliyin aradan qaldırılması, onların operativ olaraq fəaliyyətə qoşulması, kollektivin birliyinə nail olmaq təhsil sahəsində günümüzün ən aktual məsələlərindəndir.

İnteraktiv təlim prosesində müəllim qarşılıqlı fəaliyyət və əməkdaşlıq prosesinin təşkilatçısı, məsləhətçisi kimi çıxış edir. Müəllim hazırlığı üçün tədris mühiti elə seçilməlidir ki, təhsil alanların əməkdaşlığı və kommunikasiyasını asanlaşdırsın, onlarda səmimi hisslər və əməkdaşlıq formalaşdırsın. Düzgün qurulmuş interaktiv dərsdə müəllim hazırlığı zəruriliyi tam mənası ilə aydın başa düşülür, onun əhəmiyyəti dərk edilir və nəhayət, səriştəli müəllim hazırlığının yeni modelinin hazırlanması imkanları əldə edilir.

Müasir pedaqoji texnologiyalar, xüsusilə fəal və interaktiv metodlar müəllimin daha çox fasilitator rolunda çıxış etməsini, yəni daha çox yol göstərən, istiqamət və məsləhətlər verən rolunda olmasını tələb edir.

Müəllimin bu funksiyası ondan daha çox bilik, bacarıq, dünyagörüşü və

xüsusilə dərin pedaqoji, psixoloji biliklər, təşkilatçılıq, texnika və texnologiyalardan səmərəli istifadə etmək və şagirdlərdə stimul yaratamaq bacarıqlarını tələb edir.

Pedaqoji təmayüllü ali məktəblərdə ibtidai təlimdə riyaziyyat müəllimliyi ixtisası üzrə apardığımız ilkin empirik müşahidələr zamanı aydın olmuşdur ki, tələbələrin idrak fəallığını yüksəltmək, xüsusən də onun ”riyazi təfəkkür müstəqilliyini” hərəkətə gətirmək üçün mühüm amillərdən biri informasiyanın, tədris materialının ”hansı formada” və ”necə”, hansı metodlarla çatdırılması mühüm əhəmiyyət kəsb edir. Deməli, başqa pedaqoji, psixoloji cəhətlərlə yanaşı, materialın necə təqdim edilməsi tələbələrdə riyazi təfəkkür müstəqilliyinin aydın təzahürü üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan aparığımız təcrübələrdən də məlum olmuşdur ki, ali məktəbdə müəllimin materialı yeni pedaqoji texnologiyaların tərkib hissəsi olan fəal və interaktiv metodlarla təqdim edilməsi, dərsi monoloqlarla deyil dialoqlarla, sual-cavablarla, tələbələri dərsə fəallıqla cəlb etməklə yüksək nəticələr əldə etmək olur. Bütün bunlar isə səriştəli müəllim kadrlarının hazırlığında mühüm əhəmiyyət kəsb etməkdədir.

İbtidai sinif müəllimliyi ixtisasında riyaziyyat kursunun bir tədris fənni kimi həyatın tələblərinə, praktik reallığa uyğunlaşdırılaraq tədrisi, həmçinin hazırkı zamanda elm və texnikada riyazi metodların modelləşdirilməsi mühüm əhəmiyyət kəsb etdiyi bir vaxtda səriştəli müəllim kadrlarının hazırlığına xüsusi əhəmiyyət verilməlidir.

## ƏDƏBİYYAT

1. Əliyev Heydər. Ali məktəb işçilərinin respublika müşavirəsində nitq / Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: ali məktəb işçilərinin respublika müşavirəsində nitq, 28 may 1980-ci il / Heydər Əliyev: Burax. məs. Ə.Ağayev. Bakı: Azərnəşr, 1980, 46 s.
2. Əliyev Heydər. Azərbaycan Müəllimlərinin I qurultayındakı nitqi. 26 sentyabr, 1998-ci il. Bakı, “Azərbaycan” qəz., 1998, 27 sentyabr
3. Əliyev İlham Heydər oğlu. Müəllimlərin XIII qurultayının iştirakçılarına göndərdiyi məktub. 22 sentyabr 2008-ci il / Azərbaycan müəllimlərinin XIII qurultayı, 22 sentyabr 2008-ci il. Bakı: Çaşıoğlu, 2009, 302 s.
4. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı / “Xalq” qəz., Bakı, 2013, 25 oktyabr
5. “Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası”. 29 dekabr, 2012-ci il Azərbaycan Respublikası Prezidentinin Fərmanı / “Xalq” qəz., Bakı, 2012, 30 dekabr

Redaksiyaya daxil olub 27.04.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 168-173
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 168-178

*UOT 37*

***G.X.Arıxova***
*Gəncə Dövlət Universiteti*
*asinka80@gmail.com*

# MƏKTƏBDƏ UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLANMASI İŞİNİN MƏZMUNU VƏ METODLARI

***Açar sözlər:*** *məktəbəqədər təhsil, məktəbə hazırlıq, məşğələlər, pedaqoji-psixoloji hazırlıq*

Məqalədə göstərilir ki, məktəbəqədər təhsil dövlət siyasətinin mühüm bir sahəsidir. Gələcək nəslin təməl bilk və bacarıqları təhsilin bu pilləsində qoyulur. Bu cəhətdən məktəbəqədər təhsilin bütün pillələrində, xüsusilə məktəbə hazırlıq qruplarında təhsilin məzmunun yeniləşdirilməsi, təkmilləşdirilməsi və yeni kurikulumların hazırlanması prioritet məsələ kimi təhsil işçilərinin, pedaqoqların qarşısına bir vəzifə olaraq qoyulmuşdur.

Ümumtəhsil məktəblərində təşkil olunan hazırlıq qruplarında təlim və tərbiyə işlərinin təşkili, məşğələlərin keçirilməsi ibtidai sinif müəllimlərinin xüsusi səriştəlilik və peşəkarlığını tələb edir. Burada aparılan pedaqoji proses ibtidai təhsilin ilk səviyyəsi hesab edilir və aparılan təlim və tərbiyə işləri metodoloji əsaslar üzərində qurulmalıdır.

***Г.Х.Арыхова***

# СОДЕРЖАНИЕ И МЕТОДЫ РАБОТЫ ПОДГОТОВКИ ДЕТЕЙ К ОБУЧЕНИЮ В ШКОЛЕ

***Ключевые слова:*** *дошкольное образование, подготовка к школе, занятия, педагогическая и психологическая подготовка*

В статье показано, что дошкольное образование является важным направлением государственной политики. На этом этапе обучения закладываются базовые знания и навыки следующего поколения. В связи с этим обновление, улучшение содержания образования и разработка новых учебных программ на всех уровнях дошкольного образования, особенно в подготовка к школе является приоритетом для педагогов и учителей. Организация учебно-воспитательной работы в подготовительных группах, организованных в общеобразовательных школах, проведение занятий требует особых навыков и профессионализма учителей начальных классов. Проводимый здесь педагогический процесс считается первым уровнем начального образования, и проводимая учебно-воспитательная работа должна базироваться на методологических основах.

**G.Kh.Arykhova**

## CONTENT AND WORKING METHODS OF PREPARING CHILDREN FOR LEARNING AT SCHOOL

***Keywords:*** *preschool education, preparation for school, classes, pedagogical and psychological preparation*

The article shows that preschool education is an important area of public policy. At this stage of learning, the basic knowledge and skills of the next generation are laid. In this regard, updating, improving the content of education and developing new curricula at all levels of preschool education, especially in preparation for school, is a priority for teachers and teachers. The organization of teaching and educational work in preparatory groups organized in general education schools, conducting classes requires special skills and professionalism of primary school teachers. The pedagogical process carried out here is considered the first level of primary education, and the educational work carried out should be based on methodological foundations.

Dövlətimizin ən böyük və qiymətli sərvəti gələcəyimiz olan uşaqlardır. Onları sağlam, cəmiyyətə faydalı vətəndaşlar kimi böyütmək həm çətin, həm şərəfli, həm də qürurverici bir işdir. Gənc nəslin vətənpərvərlik, tariximizə, milli köklərə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik, əxlaqi saflıq duyğuları ilə tərbiyə olunması, onların bir şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması dövlətin daim diqqət mərkəzində aparıcı strateji siyasəti olaraq ailənin, məktəbəqədər müəssisələrin, ümumtəhsil məktəblərinin və digər sosial institutların öhdəsinə düşən böyük və məsuliyyətli vəzifələrdir. Buna görə də Azərbaycanda uşaq məsələlərinə, gənc nəslin təlim və tərbiyəsinə dövlət tərəfindən həmişə diqqət və qayğı göstərilir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət uşaq siyasəti milli strategiyaya çevrilmişdir. Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri böyüməkdə olan nəslin keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə yaşaması üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Azərbaycanda uşaqların sağlam və gümrah, eyni zamanda savadlı və vətənpərvər böyümələri üçün hər cür əlverişli şərait yaradılıb. Dövlətimiz üçün uşaq hüquqlarının müdafiəsi hər zaman prioritet məsələ olmuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri "Uşaq Hüquqları haqqında Konvensiya"dır. Ölkənin bu beynəlxalq müqaviləyə qoşulması uşaq hüquqlarının müdafiəsi sahəsində milli qanunvericilikdə təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin

formalaşdırılmasına təkan vermişdir. Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqamətinin müəyyənləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli lider hələ ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi zamanı uşaqlara xüsusi diqqət yetirmiş, həmin vaxt səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: *"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılıdır".*

Heydər Əliyev Fondunun xalqımızın fiziki və mənəvi sağlamlığının təmin olunması və milli genefondunun qorunmasında gördüyü misilsiz fəaliyyəti bir reallıq və həqiqətdir. Uşaqların inkişafı, təhsili, onların hərtərərfli inkişafı Heydər Əliyev Fondunun fəaliyyətinin əsas aparıcı xəttini təşkil edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı", məktəbəqədər təhsil müəssisələrinin inşası və onların inkişafı və xüsusilə, məktəbə hazırlıq qruplarının təşkili bu gün xüsusi aktuallığa malikdir.

Qeyd edək ki, birinci sinif ibtidai təhsilin əsası və ən mürəkkəb, ən çətin sahəsidir. Gələcək təhsil uğurları və ya uğursuzluqların mənbəyi buradan başlayır. Düzgün davranış, həyatda fəal mövqe qazanmaq, əxlaq, mənəvi mədəniyyət, vətənsevərlik, əməksevərlik və digər keyfiyyətlər məhz buradan təşəkkül tapır, formalaşır və inkişaf edir. Birinci sinfə qəbul edilmiş uşaqlar çox müxtəlif səviyyəli, müxtəlif dünyagörüşlü, müxtəlif sağlamlığa, istedad və qabiliyyətə, sosial təcrübəyə, psixoloji və intellektual hazırlığa malik uşaqlardır.

İbtidai sinif müəllimi ilk növbədə bu müxtəlifliyi bir psixoloq məharəti ilə dərindən öyrənməli, ona uyğun işini qurmalı, hər bir uşaq üçün düzgün diaqnostika aparmalı və nəhayət, bu məlumatları xüsusi qovluqda – Portfolioda ardıcıl və sistemli olaraq qeyd etməlidir. Bütün bunlar ibtidai sinif müəlliminin uğur əldə etməsinin ilkin, başlıca təminatçısı olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafında, o cümlədən məktəbəqədər təhsilin inkişafı üçün geniş perspektivlər açmış, təhsilin bu ilk pilləsinin yeniləşdirilməsi və modernləşdirilməsi və məktəbə hazırlıq qruplarında əlverişli imkan və şəraitin yaradılması xüsusi olaraq göstərilmişdir. Bu mühüm dövlət sənədində deyilir: *"Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur" [1].*

Göründüyü kimi, məktəbəqədər təhsil dövlət siyasətinin mühüm bir sahəsidir. Gələcək nəslin təməl bilik və bacarıqları təhsilin bu pilləsində qoyulur. Bu cəhətdən məktəbəqədər təhsilin bütün pillələrində, xüsusilə məktəbə hazırlıq qruplarında təhsilin məzmunun yeniləşdirilməsi, təkmilləşdirilməsi və yeni kurikulumların hazırlanması prioritet məsələ kimi təhsil işçilərinin, pedaqoqların, tədqiqatçıların qarşısına bir vəzifə olaraq qoyulmuşdur.

Təsadüfi deyildir ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda məktəbəqədər təhsilin qarşısında ciddi vəzifələr qoyulmuş və orada deyilir: *"Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir... Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir" [2,25].*

Bu cəhətdən məktəbəqədər təhsilə diqqət ardıcıl olaraq artırılır və burada tərbiyə və təlim işinin düşünülmüş pedaqoji sistemi yaradılmalı və nöqsanlara yol verilməməlidir. Bu sahədə məktəbəqədər təhsil üzrə kurikulum rəhbər sənəd kimi əsas istiqamətverici mənbədir. Bu mühüm dövlət sənədində "Məktəbə hazırlıq qrupları" üçün ümumi başlıqlar altında məzmun standartları verilmişdir ki, tərbiyəçi və müəllimlər bu standartlara uyğun olaraq fəaliyyət göstərməlidirlər.

Məktəbə hazırlıq qruplarına qəbulda bəzi problemlər də mövcuddur. Bu problemlər I sinfə qəbul zamanı özünü göstərir. Belə ki, uşaqların birinci sinfə qəbulu müxtəlif hazırlıqlarla həyata keçirilir. Uşaqların bir qismi xüsusi pedaqoji, psixoloji hazırlıq görmədən ailədən gəlir, bir qismi məktəbəqədər təhsildən gəlir, bir qismi də ümumtəhsil məktəbində təşkil edilmiş məktəbə hazırlıq qruplarından gəlirlər. Bu zaman müəllim müxtəlif səviyyəli, müxtəlif sosial hazırlıqlı uşaqlarla işləməli olur ki, bu da müəllimdən böyük yaradıcılıq, səriştəlilik və peşəkarlıq tələb edir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli sərəncamına əsasən 2016-2017-ci tədris ilindən ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların dövlət hesabına məktəbə hazırlıq təhsilinə başlanmışdır *[4]*.

Bu qruplarda məşğələ aparmaq, təlim-tərbiyə işlərinin təşkili üçün təcrübəli ibtidai sinif müəllimləri cəlb edilmişdir. Hazırda məktəbə hazırlıq qruplarında aşağıdakı məşğələlər keçirilir və hər məşğələ üçün dolğun, məzmunlu və nəfis şəkildə tərtib edilmiş məşğələ vəsaitləri, kitablar və proqramlar vardır:

1) Təsviri fəaliyyət;

2) Bədii təfəkkürün inkişafı;
3) Ətraf aləmlə tanışlıq;
4) Məntiqi və riyazi təfəkkürün inkişafı;
5) Savad təliminə hazırlıq və nitq inkişafı;
6) Bədən tərbiyəsi və idman;
7) Musiqi.

Məşğələlər həftədə 4 dəfə keçirilir və həftəlik saatların miqdarı 12 saat müəyyənləşdirilmişdr ki, hər məşğələ 30 dəqiqə aparılır və məşğələlər arası 10 dəqiqəlik tənəffüslər verilir. Gərginlik tələb edən məşğələlərdə uşaqlar 3-4 dəqiqəlik idman hərəkətləri edirlər. Uşaqların təlim fəaliyyəti şifahi formada həyata keçirilir, davamiyyət isə xüsusi sinif jurnalında qeyd edilir.

Müəllim uşaqların təlim fəaliyyətinə görə müxtəlif rəğbətləndirmə növlərindən istifadə edir, onları stimullaşdırır, daha çox müsbət fəaliyyətə motivasiya edir.

Məktəbə hazırlıq qruplarında məşğələ aparan müəllimlər yüksək sınaq imtahanları vermiş, diaqnostik imtahanlardan yüksək bal toplamış IV sinif müəllimlərinə həvalə olunur ki, onlar sonradan həmin uşaqlarla I sinifdə məşğul olacaqlar. Bu qruplarda məşğələ aparan müəllimlər müxtəlif hazırlıq seminar və kurslarına cəlb olunurlar.

Bu qruplara cəlb olunan uşaqların sayı kənd və qəsəbələrdə 10 -20 uşaq, şəhər məktəblərində isə 15-30 uşaq olması pedaqoji cəhətdən məqbul hesab edilir.

Məktəbə hazırlıq qruplarında uşaqların bu istiqamətlərdə təlim fəaliyyəti onların hərtərəfli intellektual hazırlığına yönəldilmişdir.

Ümumtəhsil məktəblərində məktəbə hazırlıq qruplarının məşğələləri 1 oktyabrda başlayır və 31 mayda bitir.

Müəllim uşaqların məktəbə hazırlıq qruplarına qəbulunu onların hazırlıq səviyyəsini diaqnostik yoxlayıb qiymətləndirməli və uşaqlar üçün yaratdığı xüsusi Portfolioda məlumatları qeyd etməlidir.

Diaqnostik qiymətləndirmədə uşaqların fiziki inkişafı, intellektual səviyyəsi, mədəni davranışı, psixoloji-pedaqoji hazırlığı, estetik mədəniyyəti və digər keyfiyyətləri öyrənilib dəyərləndirilməlidir.

Ölkəmizdə ailələrin sosial, intellektual hazırlıqları da müxtəlif olduğundan bu sahədə valideynlər arasında maarifləndirmə, pedaqoji təbliğat işləri aparılmalıdır ki, valideynlər uşaqlarını məktəb təliminə pedaqoji-psixoloji cəhətdən düzgün hazırlaya bilsinlər. *"Məktəb valideynləri maarifləndirdiyi kimi, həm də məktəb valideynlərin təklif və rəylərini də nəzərə almalı, onlardan bəhrələnməyi bacarmalı, onlarla birgə fəaliyyət göstərməlidir" [5, 329].*

Göründüyü kimi, məktəbə hazırlıq qruplarında pedaqoji, metodiki işin təşkili mürəkkəb və çoxyönlü sahələrdən biridir. Bu qruplarda işin təşkili daim pedaqoq, psixoloq və metodistlərin diqqət mərkəzində olmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəz., Bakı, 2013, 25 oktyabr
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009, 80 s.
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). (3-6 yaş) Bakı: ARTPİ, 2015, 96 s.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların məktəbə hazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli sərəncamı / "Xalq" qəz., Bakı, 2016, 13 iyul
5. *Hüseynzadə R.L.* Ailə pedaqogikası: Dərslik. Bakı: ADPU, 2016, 340 s.


Redaksiyaya daxil olub 23.06.2021

*УДК 37:39*

***Г.Ч.Асланова***
*Азербайджанский государственный педагогический университет*
*aslanovagulara@mail.ru*

# НЕКОТОРЫЕ АСПЕКТЫ ВОСПИТАТЕЛЬНЫХ ФУНКЦИЙ ЖЕНСКОГО ОБРАЗА В КОНТЕКСТЕ ЭТНОКУЛЬТУРЫ

***Ключевые слова:*** *этнокультура, обряд, образ, воспитание, творчество*

Данная статья посвящена рассмотрению некоторых аспектов воспитательных функций женского образа в контексте этнокультуры.

В статье педалируется мысль о том, что в результате традиционной обрядовой деятельности постепенно в сознании членов этноколлектива, начиная с детского возраста формируется определенное представление о женском образе в своем ментальном пространстве.

Женский образ приобретает определенную воспитательную функцию.

***G.Ç.Aslanova***

## ETNOMƏDƏNİYYƏT KONTEKSTİNDƏ QADIN OBRAZLARININ TƏRBİYƏVİ FUNKSİYALARININ BƏZİ CƏHƏTLƏRİ

***Açar sözlər**: etnomədəniyyət, ayin, obraz, tərbiyə, yaradıcılıq*

Məqalə etnomədəniyyət kontekstində qadın obrazının tərbiyəvi funksiyalarının bəzi cəhətlərinin nəzərdən keçirilməsinə həsr edilmişdir.

Məqalədə ənənəvi ayin fəaliyyəti nəticəsində etnokollektiv üzvlərinin şüurlarındakı zehni məkanda uşaqlıqdan başlayaraq qadın obrazı ilə bağlı müəyyən fikir formalaşdığı fikri irəli sürülür.

Qadın obrazı müəyyən tərbiyəvi funksiya əldə edir.

***G.Ch.Aslanova***

## SOME ASPECTS OF THE EDUCATIONAL FUNCTIONS OF THE FEMALE CHARACTER IN THE CONTEXT OF ETHNIC CULTURE

***Keywords**: ethnic culture, rite, character, upbringing, creativity*

This article is devoted to the review of some aspects of the educational functions of the female character in the context of ethnic culture.

The article pedals the idea that, as a result of traditional ceremonial activity, gradually in the mental space of the minds of ethno-collective members, starting from childhood, a certain idea of a female character is formed.

The female character acquires a certain educational function.

Устное народное музыкально-поэтическое творчество является важнейшим слагаемым художественной культуры азербайджанского народа и уходит своими корнями в глубокое прошлое истории Азербайджана. В этом аспекте подчеркнем, что наличие в обрядовой этнокультуре традиционных, из года в год повторяющихся моделей определенного поведения, содержательных мотивов, типичных ситуаций, принятых в контексте данной культуры складывает коммуникативную ситуацию, имеющую воспитательное значение для этноколлектива.

Огромное значение в решении данной проблемы имеет вопрос о формировании музыкальных навыков восприятия в детском возрасте, которое позволяет конкретизировать важные позиции нашей темы.

Так, по мнению Назайкинского, «…овладение навыками музыкального восприятия осуществляется в процессе целого ряда многообразных видов деятельности ребенка… На самых ранних стадиях развития дети гораздо более чутко реагируют на различие ситуаций, в которых им приходится слышать музыку, нежели на характер самой музыки. Для них различные виды деятельности, включающие в себе те или иные музыкальные компоненты, отличаются друг от друга прежде всего по особенностям коммуникации. Это совершенно естественно, так как для ребенка гораздо легче узнавать именно ситуации общения. Они отличаются друг от друга и по пространственным особенностям расположения участников общения, и по количеству людей, и по их взаимоотношениям. Дифференцированию помогает множественность ярких отличительных признаков» [1, с.341]. Транслируя данное положение можем сказать, что участие в обрядовых действах и играх имеет воспитательное значение и играет важную роль в формировании личности.

Безусловно, что в результате традиционной обрядовой деятельности постепенно в сознании членов этноколлектива, начиная с детского возраста формируется определенное представление о женском образе в контексте своей культуры. Формируется устойчивая связь обрядового миропредставления, в котором женскому началу придается одна из основных функций жизнедеятельности народа, с общими сферами жизни.

Между стабильно повторяющимися обрядами, ритуалами, образами, драматургией этих обрядов постепенно возникает устойчивая связь с восприятием и определенной трактовкой этих образов. В течении определенного времени, например, детского, юношеского возраста формируется четкая психологическая установка и женский образ приобретает определенную воспитательную функцию. Именно коммуникативная связь действа и личности формирует личность в традиционном, векторном ракурсе.

Ориентация в контексте обрядовой этнокультуры позволяет

дифференцировать образную систему того или иного обряда, выделяя при этом женский образ, который приобретает в качестве самостоятельного слагаемого обряда воспитательную функцию. Таким образом, женский образ становится характерным и важным для такой коммуникативной сферы как обряд.

Воспитательная функция женского образа в устном народном музыкально-поэтическом творчестве, в частности, в обрядах имеет несколько дефиниций:

1. Содержательность обряда, основная тема, которой посвящена обрядовому действу;
2. Драматургия обряда, то есть ряд действий, характерных для того или иного обряда;
3. Внешние параметры обряда – одежда, контекстуальная среда, предметы материальной культуры, например, приданое невесты;
4. Слова и действа участников обряда – песни, танцевальные мелодии, игры.
5. Коммуникативная ситуация, формирующаяся вокруг женского образа.

Так, например, обратим внимание на тот факт, что большое количество песен свадебного цикла так или иначе посвящено невесте. Это песни, исполняемые либо матерью, либо близкими родственниками невесты, поздравления – восхваления невесты. Характеристики получает невеста и при различных ритуалах свадебной обрядовости. Например, при «хынайахды», повязывании красного пояса и других.

В характеристике женского образа огромное значение в устном народном музыкально-поэтическом творчестве в свадебных обрядах приобретает лирическая характеристика невесты. У.Талыбзаде пишет: «Огромное место в свадебных обрядах занимает тема любви, потому что основу свадебного обряда составляет любовь двух молодых людей, их чувства. А с другой стороны, в этих песнях отражается любовь родителей невесты и дочери, покидающей отчий дом, а также любовь дочери к ее родителям» [2, с. 105].

Таким образом, обряд как ситуационный комплекс функционирования художественной, материальной, нравственной культуры определяет формирование личности на уровне его этногенетических познаний. То есть на уровне типологической характерности.

Складывание женского образа в сознании сочетается с яркими внемузыкальными впечатлениями – это и общая праздничная настроенность, полная величия и сдержанности, красота национального костюма, ковровое убранство помещения и т.д. Так складывается и ассоциативная связь между образами в обрядах и их художественным оформлением, в частности,

музыкой, словесным текстом. Пространственное расположение участников обряда, приоритетное значение невесты, большое количество людей – гостей, почитающих и приветствующих невесту также имеет огромное воспитательное значение.

В свадебных обрядах множество ярких, запоминающих, а также входящих в традиции свадебного обряда ситуаций свидетельствуют об отличительности и особом положении женщины.

Обрядовая музыка является наиболее близкой для членов этноколлектива. Именно обрядовая музыка как вид устного народного музыкально-поэтического творчества имеет воспитательное значение. Обрядовая музыка как синкретическая форма бытового музицирования адекватно усваивается и формирует личностные параметры.

Процесс формирования воспитательного значения мира звуков идет следующим путем. Прежде всего рождается и совершенствуется в течении длительного исторического времени интонационно-ритмическая семантика, определяемая прикладными функциями. Кристаллизация семантического значения параллельна процессу суггестивного воздействия. Архетипические прикладные модели синтезируются с выразительностью музыкального и поэтического языка. Таким образом получают свое конкретное информационное значение образы, запечатленные в устном народном творчестве и, в том числе, женские образы.

Женские образы в азербайджанской лирической народной песне в общественном сознании ассоциированы с рядом типологических выразительных средств музыки и поэзии.

А.Шахбазовым был сформулирован ряд интонационных моделей, имеющих особое суггестивное значение, а в нашем исследовании, репрезентирующих воспитательный эффект:

«1. Интонационные модели обращения, адекватные разного рода мотивам призыва. Основная функция такого рода обращений – овладение вниманием слушателя;

2. Модели воспевания, например, тотемических образов параллельны воспеванию отдельных людей так, как это бывает в контексте свадебного обряда. Имею в виду величание жениха и невесты;

3. Модели мольбы, просьбы, заклинания, которые отличались характерными мелоритмическими формами» [3, с. 67].

Интонационно-ритмическая формульность имеет, безусловно, значение воспитательное, ибо формируют определенные представления в сознании людей. «Архетипы интонирования формируются как способы символизации базовых переживаний человека, наделяясь на подсознательном уровне определенной семантической нагрузкой. Они помогают организовать и зафиксировать жизненные ритмы, человека в едином пульсирующем ритме,

направить сознание всех участников трудовых и обрядовых процессов в заданное русло благодаря использованию средств эмоционально-психологического воздействия на людей» [3, с. 107].

Соподчиненность воспитательного процесса и музыкального создает определенные параметры идентификации кинетических свойств. Трансляция музыкально-поэтической среды на воспитательный процесс взаимокоррелируется на уровне народной культуры. Положительные стимулы, формирующие личность в контексте национально специфического искусства регулируют воспитательный процесс, придают ему импульсы активного реагирования. Отметим также такой важный аспект как роль физиологических свойств человеческого организма, определенным образом реагирующих на искусство.

Теоретический анализ выявляет те черты устного народного музыкально-поэтического творчества, которые имеют наибольшую степень суггестивного влияния, направленного на формирование личности. В этом смысле формульность как наиболее яркое по своему коммуникативному значению слагаемое устного народного музыкально-поэтического творчества занимает особое место в системе. Формульность более всего имеет суггетивное воздействие. В синтезе с контекстными назначениями приобретает воспитательный смысл.

Приведу следующий пример. Исследователь связей музыки и врачевания в этнокультуре А.Шахбазов пишет следующее: «Важное значение формульности выражается в рефлекторном эффекте. Применяемые в лечении музыкальные формулы способны быть в центре связей рефлекса и психофизической реакции. Иными словами, та или иная типологическая модель, используемая в лечении музыкой, вызывает определенный рефлекс эмоционально-психологического уровня, рефлекс влечет за собой определенную психофизическую реакцию, которая и является одним из методов лечебного воздействия» [3, с. 66].

Аналогичен процесс, транслируемый на процесс воспитания.

Формульность в музыкально-поэтическом искусстве играет огромную роль. Точно также как существуют формулы воспитания, поведения, обучения, и формулы в искусстве имеют роль дидактического внушения. Достаточно сказать, что формульность – это опыт истории, насчитывающей тысячелетия существования.

Именно вследствие данного положения, формульность музыкально-поэтическая, имеющая свою семантику узнаваема в любом контексте и имеет свои четко выраженные функции.

Выразительность формульности рождается вследствие воздействия прикладных функций тех или иных образцов устного народного творчества. Семантика целесообразно синтезировалась и воспитательным процессом.

Это известный и очевидный факт устного творчества. Вместе с тем, изначальная «программа» опиралась на образное начало, в том числе, выразительность женских образцов.

**ЛИТЕРАТУРА**

1. *Назайкинский Е. О* психологии музыкального восприятия. М.: Музыка, 1972, 380 с.
2. История музыки Азербайджана. Баку: Элм, 2014, 598 с.
3. *Шахбазов А.Ф.* Аспекты изучения связей музыки и медицины на основе азербайджанского музыкального фольклора: Дис. …докт. филос. по искусствоз. Баку, 2016,182 с.
4. *Сеидова С.А.* Музыка в древних обрядах Азербайджана: Автореф. дис. … канд. искусствовед. Тбилиси, 1981, 21 с.
5. *Сабурова Л.М.* Об изучении народных обрядов // Фольклор и этнография. Обрядовый фольклор. Л.: Наука, 1974, с.4-11
6. *Медведева Е.А., Левченко И.Ю., Комиссарова Л.Н., Добровольская Т.А.* Артпедагогика и арттерапия в специальном образовании. М.: Академия, 2001, 248 с.
7. *Керимова Т.М.* Опыт исследования древних пластов азербайджанского фольклора // Ученые записки АГК, серия XII, №1, Б., 1979, с.3-15

Redaksiyaya daxil olub 26.04.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 180-187
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 180-187

*UOT 376*

***S.R.Aslanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*sabina-aslanova@bk.ru*

# DİZARTRİYA ZAMANI UŞAQ VƏ YENİYETMƏLƏRİN PSİXOLOJİ DİAQNOSTİKASI, KOMPLEKS KORREKSİYA VƏ REABİLİTASİYA İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *nitq motorikası, ünsiyyət, perseptiv tərəf, interaktiv tərəf, kommunikativ tərəf, etiopatogenetik prinsip, erkən müdaxilə*

Dizartriyalı uşaqlarda nitq motorikası, fonasiya və tənəffüsün pozulmasının xüsusiyyətləri ümumi hərəki imkanlara əsasən qiymətləndirilir: başın şaquli şəkildə saxlanması, başı ətrafa çevirə bilmə imkanları, oturma, durma, oyuncaqları ovcunun içində sıxma, barmaqları sıxa bilmə bacarığı, əl barmaqlarının motorikası. Psixi funksiyaların müayinəsi sensor funksiyaların inkişafını, fiziki eşitmə və görmənin xarakterini, intellektual inkişafı, ətraf aləm haqqında bilikləri, emosional təzahürləri, davranışın xüsusiyyətlərini və s. özündə birləşdirir. Loqopedik müayinə fiziki eşitmənin təhlilini, fonematik qavramanın, nitqi eşitmə, öz nitqini idarəetmə, motivasiya, nitq ünsiyyəti, dilin leksik və qrammatik vasitələrini anlama və istifadə edə bilmək xüsusiyyətlərini özündə birləşdirir. Uşaq nə qədər kiçikdirsə, onun psixomotor və nitq inkişafının ümumi səviyyəsi bir o qədər aşağıdır və qeyri-nitq və motor pozulmalarının analizinin diaqnostikasının böyük əhəmiyyəti vardır. Artikulyator və skelet əzələsinin tonusunun, müxtəlif hərəkətləri yerinə yetirmək imkanları, səs tələffüzünün xüsusiyyətlərinin, nitqin ritmik-melodik keyfiyyətinin səviyyəsinin müayinəsi olduqca vacibdir.

***С.Р.Асланова***

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ КОМПЛЕКСНОЙ КОРРЕКЦИОННОЙ И РЕАБИЛИТАЦИОННОЙ РАБОТЫ И ПСИХОЛОГИЧЕСКАЯ ДИАГНОСТИКА ДЕТЕЙ И ПОДРОСТКОВ ПРИ ДИЗАРТРИИ

***Ключевые слова:*** *речевая моторика, общение, персептивная сторона, интерактивная сторона, коммуникативная сторона, этиопатогенетический принцип, раннее вмешательство*

Речевая моторика, фонация и нарушение дыхания у детей с дизартрией оценивается на основе состояния общих двигательных навыков: удержание головы в вертикальном положении, повороты головы, умение сидеть, стоять, сжимать игрушки в ладони, умение сжимать пальцы, рук, общая моторика пальцев. Обследование психических функций направлено на изучение состояния развития сенсорных функций, состояния физического слуха и зрения, интеллектуального развития, познание окружающего мира, состояние

эмоционального и поведенческих сфер. Логопедическое обследование сочетает в себе анализ состояния физического слуха, фонематического восприятия, слуховое восприятие речи, самоконтроль над речью, состояние речевой мотивации, речевого общения, понимание и активное использование лексических и грамматических средств языка. Чем младше ребенок, тем ниже общий уровень его психомоторного и речевого развития, поэтому диагностика невербальных и двигательных расстройств имеет большое значение. Очень важно значение состояния тонуса артикуляционной мускулатуры и состояние их иннервации, при этом большое значение имеет особенности произношения и просодической стороны речи.

***S.R.Aslanova***

## MAIN DIRECTIONS OF COMPREHENSIVE CORRECTIVE AND REHABILITATION WORK AND PSYCHOLOGICAL DIAGNOSTICS OF CHILDREN AND ADOLESCENTS IN DYSARTRIA

***Keywords:*** *speech motor skills, communication, perceptive side, interactive side, communicative side, etiopathogenetic principle, early intervention*

Speech motor skills, phonation and breathing disorders in children with dysarthria are assessed based on the state of general motor skills: the ability to keep the head in an upright position, head turns, the ability to sit, stand, squeeze toys in the palm, the ability to squeeze fingers, hands, general motor skills of the fingers. The examination of mental functions is aimed at studying the state of development of sensory functions, the state of physical hearing and vision, intellectual development, cognition of the surrounding world, the state of the emotional and behavioral spheres. Lopopedic examination combines the analysis of the state of physical hearing, phonemic perception, auditory perception of speech, self-control over speech, the state of speech motivation, speech communication, understanding and active use of the lexical and grammatical means of the language. The younger the child, the lower the overall level of his psychomotor and speech development, therefore the diagnosis of non-verbal and movement disorders is of great importance. The importance of the state of tone of the articulatory muscles and the state of their innervation is very important, while the peculiarities of pronunciation and the prosodic aspect of speech are of great importance.

Dizartriyalı uşaqlarda nitq motorikası, fonasiya və tənəffüsün pozulmasının xüsusiyyətləri ümumi hərəki imkanlara əsasən qiymətləndirilir: başın şaquli şəkildə saxlanması, başı ətrafa çevirə bilmə imkanları, oturma, durma, oyuncaqları ovcunun içində sıxma, barmaqları sıxa bilmə bacarığı, əl barmaqlarının motorikası.

Psixi funksiyaların müayinəsi sensor funksiyaların inkişafını, fiziki eşitmə və görmənin xarakterini, intellektual inkişafı, ətraf aləm haqqında bilikləri, emosional təzahürləri, davranışın xüsusiyyətlərini və s. özündə

birləşdirir.

Loqopedik müayinə fiziki eşitmənin təhlilini, fonematik qavramanı, nitqi eşitmə, öz nitqini idarə etmə, motivasiya, nitq ünsiyyəti, dilin leksik və qrammatik vasitələrini anlama və istifadə edə bilmək xüsusiyyətlərini özündə birləşdirir.

Uşaq nə qədər kiçikdirsə, onun psixomotor və nitq inkişafının ümumi səviyyəsi bir o qədər aşağıdır və qeyri-nitq və motor pozulmalarının analizinin diaqnostikasının böyük əhəmiyyəti vardır. Artikulyator və skelet əzələsinin tonusunun, müxtəlif hərəkətləri yerinə yetirmək imkanlarının, səs tələffüzünün xüsusiyyətlərinin, nitqin ritmik-melodik keyfiyyətinin səviyyəsinin müayinəsi olduqca vacibdir [1, s.22] .

Loqopediyada böyüklərin və yeniyetmə yaşlı uşaqların psixofiziki vəziyyətinə aid tədqiqat metodları işlənilmişdir (Q.V.Çirkina, T.B.Filiçeva, L.V.Lopatina, O.Q.Prixodko, E.F.Arxipova, R.İ.Lalayeva və b.).

Məktəbəqədər yaşlı və məktəbyaşlı uşaqların psixoloji diaqnostikası məqsədilə psixoloji və patopsixoloji metodlardan istifadə edilir: temperamenti təyin etmək üçün sorğu A.Tomas və S.Çess (1996), həyəcanlılığı təyin etmək üçün test M.S.Merlina (1986), teppinq-test O.Çernikova, Ayzenqin temperamentin diaqnostikası metodikası, L.İ.Umanskovanın individual-tipoloji xüsusiyyətlərin öyrənilməsi üzrə anamnestik məlumatlar və müşahidələrin analizi proqramının təhlili.

Ünsiyyətin perseptiv, interaktiv və kommunikativ tərəflərinin öyrənilməsi üçün bu metodlardan istifadə olunur: sosiometriya, proyektiv rəsm metodikaları, "mənim valideynlərim", "mənim tərbiyəçilərim", "mənim müəllimim".

Yeniyetmələrin psixoloji diaqnostikası üçün sosioqramma, özünüqiymətləndirməni öyrənməyə kömək edən Dembo-Rubinşteynin metodikasından, Ç.Spilberqin həyəcanlılığı tədqiq edən metodikasından, Rozensveyqanın proyektiv testindən, emosional münasibətlərin şkalalaşdırılması metodikasından istifadə edilir.

Serebral iflicli şəxslərin psixoloji diaqnostikası üçün Kentellanın (16 Pf, HSPQ, CPQ) faktorlu şəxsiyyət sorğusundan, depressiyanın səviyyəsinin təyin olunması şkalasından, Leonardonun metodikasından, A.E.Liçkonun patoxarakterioloji diaqnostik sorğusundan, M.Lyüşeranın rəngli diaqnostika testindən, E.A.Klimovanın "Diferensional diaqnostik sorğusundan" istifadə edilir [1, s.18].

Dizartriyalı uşaqlar serebral iflic diaqnozu qoyulandan etibarən dövlət səhiyyə orqanlarının müşahidəsi altında olurlar.

Bu cür uşaqlara erkən diaqnozun qoyulması, erkən sistematik tibbi müdaxilə, psixoloji, pedaqoji, loqopedik və sosial işin görülməsi qarşıda duran əsas məqsədlərdəndir. Bu proses hələ doğun evindən başlayaraq həyata

keçirilir. Müalicə xəstəxananın nevroloji şöbəsində davam etdirilir, burada müdaxilə kompleks xarakter daşımaqla pedaqoji işi də özündə cəmləşdirir. Uşaqlarla yanaşı olaraq valideynə də psixoloji dəstək və serebral iflicli uşağın tərbiyə edilməsi ilə bağlı təlim verilir.

Bəzi hallarda uşaqlar evə buraxılır, oradan da müəyyən internat tipli yerlərdə sosial yardım göstərilir.

Dizartriyalı uşaqlara yardım sisteminə xüsusi uşaq bağçalarında daha sonra ehtiyac olduqda ağır nitq pozulmaları olan uşaqlar üçün xüsusi məktəblərdə təlim daxil edilir.

Təhsil sistemində nitq pozulmaları olan uşaqlar üçün məktəbəqədər müəssisələrdə və qruplar haqqında tipik vəziyyət tətbiq edilir. Xüsusi məktəbəqədər təhsil müəssisələrinə uşaqları 3 yaşından qəbul edirlər. Nitq inkişafı və dizartriya pozulmalarının korreksiyasına loqoped həyata keçirir, müalicəvi bədən tərbiyəsi kompleksinin metodisti fiziki tərbiyə və motor funksiyalarının inkişafı üzrə xüsusi məşğələlər aparır. Səsin inkişafı, musiqi duyumu və ritm hissi kimi proseslər musiqi məşğələlərində həyata keçirilir. Eyni zamanda bu mütəxəssis loqoritmik məşğələlər də aparır.

Xüsusi uşaq bağçalarında və ya loqopedik qruplarda reabilitasiya olunmuş dizartriyalı uşaqların böyük əksəriyyəti sonradan ümumi təhsil məktəblərində təhsillərini davam etdirirlər. Bir qayda olaraq, onların ya loqopedik yardıma, ya da ibtidai siniflərdə loqopedik müşayiətə ehtiyacları olur. Ümumi tədris mərkəzlərində loqopedik punktlar vardır. Bu punktlarda nitq pozulması və təlimdə çətinlikləri olan uşaqlara köməklik göstərilir. Dizartriyalı uşaqlar təhsillərini ağır nitq pozulması olan uşaqlar üçün xüsusi tipli məktəblərdə davam etdirə bilərlər. Ağır nitq pozulmaları olan uşaqlar üçün ixtisaslaşdırılmış xüsusi məktəblər 2 şöbədən ibarətdir. Birinci şöbəyə adi məktəblərdə oxumasına mane olan (dizartriya, rinolaliya, alaliya) nitq pozulması olan uşaqlar qəbul edilir. İkinci şöbəyə ağır kəkələməsi olan uşaqlar qəbul edilir.

Dizartriyalı uşaqların əlamətləri məktəb yaşında artıq bilinmədiyinə görə uşaqların təhsildəki çətinliklərini müəllimlər çox vaxt tərbiyə ilə, valideynin uşaq üzərində kontrolunun azlığı ilə və sosial baxımsızlıq ilə əlaqələndirirlər. Yazı və oxu zamanı çətinliklər zamanı uşağı loqopedə yönləndirmək lazımdır. Pedaqoqlar bilməlidirlər ki, təlimdə çətinlikləri olan uşaqlar üçün bir qədər asanlaşdırılmış təlim rejimi təyin olunmalıdır. Belə uşaqların müəllim tərəfindən xüsusi psixoloji dəstəyə ehtiyacları vardır. Bu həvəsləndirmə, yüngül tonda acıqlanma, kiçik uğurlara görə tərifləməklə həyata keçirilir.

Dizartriyalı uşaqlarla psixoloji-pedaqoji işin müvəffəqiyyəti loqopediyanın nəzəri və praktik hesabatının, reabilitasiyanın ümumi prinsiplərinin işlənilməsindən asılıdır. Reabilitasiyanın ümumi prinsipləri:

1. Etiopotogenetik prinsip beynin bu və ya digər struktur pozulmalarından asılıdır. Bura nitq və psixofizioloji funksiyaların vəziyyətini, beynin strukturunu, bununla bağlı əzələ tonusu, motor, sensor və nitq funksiyalarının pozulmalarını təyin etmək üçün diaqnostika daxildir.

2. Erkən müdaxilə prinsipi. Dizartriya təhlükəsi olan uşağa erkən müdaxilə beynin kompensator imkanlarının tam inkişafına gətirib çıxarır. Bu da korreksiya işinin nəticəsini yüksəldir.

3. Sistemli müdaxilə yönəlməlidir:

- Motor inkişafa;
- Psixoloji inkişafa;
- Sensor inkişafa;
- Nitq inkişafına;
- Uşağın şəxsiyyətinə.

Korreksion təsir sistemi öz növbəsində konkret aspektləri nəzərə almalıdır:

- Qanunauyğunluq uçotu və motor, sensor, psixi və nitq funksiyalarının ardıcıl inkişafı.
- Nitq pozulması strukturunun uçotu: nitq fəaliyyətində aparıcı pozulmanı ayırd etmək, ikincili pozulmanın uçotu.
- Uşağın yaş və individual xüsusiyyətlərinin uçotu.
- Uşaq-valideyn münasibətlərinin uçotu.

Xüsusi pedaqoji işdə dizartriyalı uşağın şəxsiyyətinin tərbiyə edilməsinin böyük əhəmiyyəti vardır.

Uşaq və onun ailəsinin psixoloji yardıma böyük ehtiyacları vardır. Belə uşaqlar sosial bacarıqları və təhsildə çətinlikləri olmasına görə şəxsiyyət pozulmasından əziyyət çəkirlər. Uşağın orqanizmində ümumi funksional pozulmalar görmə və eşitməsində defisitlər, nitq və koqnitiv pozulmalar müşahidə oluna bilər. Bu uşaqlar impulsivliyi, riqidliyi ilə fərqlənirlər. Məktəb yaşı dövründə sosial bacarıqlarının defisitliyini, akademik səviyyələrinin aşağı olmasını başa düşürlər, bu da mütəxəssislərin köməyinə ehtiyaca gətirib çıxarır.

Korreksion işin strateji vəzifələrinə verbal vasitələrin inkişafı, ünsiyyət və kommunikasiya fəaliyyəti daxildir [3, s.19].

Taktiki vəzifələrə aiddir: tonusun normallaşması, artikulyasiya aparatının ixtiyari hərəkətliliyinin inkişafı, fonematik qavramanın inkişafı, nitqin səs və leksik-qrammatik tərəfinin inkişafı, sensor və psixi funksiyaların inkişafı.

Birinci istiqamət.

Əzələ tonusunun normallaşdırılması və artikulyasiya aparatı orqanlarının hərəkətininin inkişafı, əl barmaqlarının motorikası. Məsələnin həlli üçün bu etapda artikulyasiya aparatı, bilək əzələlərinin masajı, həmçinin bu orqanların passiv və aktiv gimnastikası yerinə yetirilir. Ehtiyac olduqda

hiperkinezin tormozlanması və ixtiyari tüpürcək udulmasının formalaşdırlması ilə loqopedik işə başlanılır.

İkinci istiqamət.

Tənəffüs funksiyalarının, həmçinin səsin gücü, modulyasiyası və ifadəliliyin inkişafı. Bu etapda müxtəlif kompleks tənəffüs gimnastikaları yerinə yetirilir. Alınan nəfəsin həcminin çoxalmasına kömək edən səs və fonopedik məşğələlər həyata keçirilir.

Üçüncü istiqamət.

Nitqin fonetik tərəfinin korreksiyası. Fonematik qavrama və müxtəlif priyomlarla səsin qoyuluşu və avtomatlaşdırılması üçün məşğələlər yerinə yetirilir.

Dördüncü istiqamət.

Nitqin əsası kimi sensor və ali psixi funksiyaların inkişafı.

Beşinci istiqamət.

Lüğət ehtiyatının və nitqin qrammatik quruluşunun inkişafı. Şıfahi nitqin inkişafı, nitq tənəffüsü, prosodik tərəfin formalaşması.

Bu istiqamətdə görülən əsas korreksion iş nitq strukturunun pozulmasına təsirdən ibarətdir. Bu mərhələdə həm ümumi, həm də loqopedik masajın mühüm əhəmiyyəti vardır.

Loqopedik təcrübə zamanı masajın bir neçə tipindən istifadə etmək olar. Klassik masaj üsulu əsasında diferensiallaşdırılmış (möhkəmləndirici və rahatlaşdırıcı) masajın əhəmiyyətini də vurğulamaq lazımdır.

Bundan əlavə loqopedik təcrübədə bioloji fəal nöqtələrin masajı, müxtəlif vasitələrdən istifadə etməklə (loqopedik zond, şpatel, vibromasajor və s.), masajlar tətbiq edilə bilər.

Bu istiqamətdə korrekisya işi zamanı ixtiyari şəkildə tüpürcəyin udulmasına diqqət yetirmək lazımdır.

Böyüklərdə bu bacarığı verbal instruksiya və yadasalma yolu ilə bərpa etmək mümkündürsə, uşaqlarda bu ixtiyari hərəkətlər anadangəlmə udma hərəkətlərinin bazasının əsasında formalaşdırılır.

Əzələ tonusunun normallaşdırılması ilə yanaşı, masajın köməyi ilə hərəkətin inkişafı (korreksiyası) yerinə yetirilir. Bu proses əl barmaqlarının, artikulyasiya orqanlarının, bədən üzvlərinin passiv və aktiv gimnastikasının köməyi ilə həyata keçirilir.

İkinci istiqamət üzrə görülən iş nəfəs funksiyasının inkişafı ilə bağlıdır. Əzələ zəifliyi, nəfəs hərəkətlərinin aritmiyası uşağın sinə-qarın tipli nəfəs funksiyalarının inkişafına mane olur. Sinə-qarın tipli nəfəsin qoyuluşu uzanıqlı vəziyyətdə diafraqmanın optimal yığılması ilə həyata keçirilir. Məktəbəqədər yaşlı uşaqlarda nəfəs məşğələləri oyun vasitəsilə aparılır. Bunun səbəbi uşağın ixtiyari dərin nəfəs alıb-verə bilməsi ilə bağlıdır. Nəfəsvermə zamanı nitqdə sait və samit səslərin fonasiyası yoxlanılır. Loqoped uşağın nəfəs verməsinin

uzunluğunu və fasiləsizliyini kontrol edə bilir, daha sonra uşaqda bioloji əks-əlaqəni formalaşdırır.

Fonasiyalı nəfəsvermənin formalaşdırılması koordinator qarşılıqlı əlaqənin inkişafı ilə nəfəs, səs, artikulyasiyanın əsasını təşkil edir. Fonasiyalı nəfəsvermə məşqi uzun sait səslərin səsləndirilməsi ilə başlanılır. Yeni bacarıqların mənimsədilməsi zamanı loqopedin izahı ilə yanaşı, vizual olaraq nümayiş və göstərişin də olması vacibdir (səsli, vizual, kinestetik).

Fonasiyalı səsvermənin məşqi sistemli və uzun sürən bir proses olmalıdır. Sinə-qarın tipli nəfəs və fonasiyalı nəfəsvermə əsasında nitq nəfəsi formalaşdırılır (П.И.Белякова, 2005).

Korreksiya işinin istiqamətləndirilməsi əzələ tonusunun normallaşdırılması ilə yanaşı, eyni zamanda artikulyasiya motorikasının inkişafını da özündə əks etdirir. Bu da artikulyasiya orqanlarının passiv və aktiv gimnastikasının köməyi ilə həyata keçirilir. Bədən üzvləri və artikulyasiya orqanlarının hərəkətləri loqopedin köməkliyi ilə passiv olaraq uşaq tərəfindən (yeniyetmələr və böyüklər) sonlandırıldığına görə məşqlər passiv adlandırılır. Xəstə sərbəst olaraq hərəkətləri yerinə yetirə bilmədiyi halda məşqlər passiv şəkildə keçirilir. İstənilən motorikanın və artikulyasiyanın inkişafı üçün bir mərhələdən digərinə keçid tədricən baş verməlidir. Bir mərhələdə hər hansı bir hərəkətin inkişafı növbəti mərhələyə keçid üçün zəmin yaradır. Erkən yaşlı dizartriyalı uşaqlarda nitq motorikasının inkişafının dayanması sonrakı mərhələlərdə tələffüz pozulmalarını da qaçılmaz edəcəkdir. Ona görə də dizartriyalı uşaqların korreksiyasında hərəkətin inkişafı mərhələlərinin mühüm əhəmiyyəti vardır [5, s.31].

Üçüncü istiqamət daha mürəkkəb nitqin fonetik tərəfinin korreksiyası ilə əlaqədar olan nitq vəzifələrini özündə əks etdirir. O, fonematik qavramanın inkişafından və səs tələffüzünün korreksiyasından ibarətdir. Bununla yanaşı, səsin, hecanın, sözün kinestetik obrazının yaradılmasının da mühüm əhəmiyyəti vardır. Bu da artikulyasiya motorikasının normallaşdlrılması ilə bağlıdır. Dizartriyalı uşaqlarda bu proseslərin korreksiyası, xüsusilə, avtomatlaşdırma mərhələsində uzun müddət tələb edir. Ardıcıllığın pozulması səsin söz, ifadə şəklinə gətirilməsi, nitqdə kontekstdə artikulyator bacarıqların avtomatlaşdırılması prosesini məhv edir, bəzi hallarda isə qıcolma hallarına da rast gəlinir.

Dördüncü istiqamətə lüğət ehtiyatının inkişafı, nitqin qrammatik quruluşu daxildir. Bu istiqamət üzrə müxtəlif alimlər tədqiqat işi aparmışdır. (Т.Б.Филичева, Г.В.Чиркина, 2003; Л.В.Лопатина, 2004; О.Г.Приходько, 2001 və b.).

Bütün ali psixi funksiyalar şərtsiz reflektor fəaliyyətlə, anadangəlmə mərkəzi sinir sisteminin xüsusiyyətləri və görmə, eşitmə, taktil, dadbilmə, iybilmə analizatorlarının fəaliyyəti əsasında bazalaşdırılır. Həmin bu hisslərin

bazasında funksiyalar inkişaf edir.

L.S.Vıqotski uşağın psixi inkişafını iki xətt üzrə ayırır – natural və mədəni inkişaf. İndividin natural psixi funksiyaları vasitəsiz və ixtiyarsız olur. Natural psixi funksiyalar mədəni inkişaf prosesində yeni ali psixi funksiyalara çevrilir. Bu da ontogenezin müxtəlif mərhələlərində keyfiyyət dəyişikliyi əldə edir. Bu cür orqanik inkişaf, beynin funksionallaşması uşağın mədəni, sosial inkişafı altında baş verir.

Sensor və ali psixi funksiyaların inkişafının korreksiyası uşaq və böyüklərin birgə fəaliyyətləri prosesində həyata keçirilir. Ona görə də dizartriyalı uşaqların həyatı pedaqoq və psixoloqların, valideynlərin diqqət və nəzərindən uzaqda qalmamalıdır. Belə uşaqlarla təlim, tərbiyə və korreksiya işi aparılmalı, valideynləri daim maarifləndirilməlidir.

## ƏDƏBİYYAT


1. *Карелина И.Б.* Дифференциальная диагностика стертых форм дизартрии и сложной дислалии // Дефектология. 1996, № 5, с.25
2. *Карелина И.Б.* Логопедическая работа с детьми с минимальными дизартрическими расстройствами: Автореф. дис. канд. пед. наук. М., 2000, 48 с.
3. *Кочеткова И.Н.* Парадоксальная гимнастика Стрельниковой. М., 1989, 32 с.
4. *Лопатина Л.В.* Изучение и коррекция нарушений психомоторики у детей с минимальными дизартрическими расстройствами // Дефектология, 2003, №4, с.28
5. *Лопатина Л.В.* Нарушения мимической мускулатуры и артикуляционной моторики у детей со стертой формой дизартрии // Речевые и нервно-психические нарушения у детей и взрослых. Л., 1987, 54 с.


Redaksiyaya daxil olub 17.04.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 188-196
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 188-196

*UOT 159.9*

***Y.B.Əskərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*y.askerova @inbox.ru*

# ERKƏN GƏNCLİK DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN İNKİŞAFINA VİRTUAL ÜNSİYYƏTİN TƏSİRİ

***Açar sözlər:*** *erkən gənclik, virtual ünsiyyət, ailədaxili münasibətlər, insan həyatı, psixoloji xüsusiyyətlər, informasiya vasitələri, sosiallaşma*

Qloballaşma şəraitində diqqəti cəlb edən məsələ odur ki, insanın bütün fəaliyyəti və həyat tərzi, onun insanlarla münasibətinin intensivliyi ciddi sürətdə dəyişdiyi üçün paralel olaraq psixi fəaliyyətinin sürəti, ritmi bunlara müvafiq olaraq dəyişir. Məqalədə erkən gənclik dövründə birbaşa ünsiyyət saxlanmasını məhdudlaşdıran, ətrafdakı yaxınlar, qohumlar, dostlar və s. arasındakı əlaqələri zəiflədən səbəblərdən bəhs edilir. Göstərilir ki, insanın ətraf aləmdən sanki təcrid olunaraq öz problemləri ilə başbaşa qalması ünsiyyət çatışmazlığına səbəb olan psixoloji problemlərin yaranmasına yol açır.

***У.Б.Аскерова***

# ВЛИЯНИЕ ВИРТУАЛЬНОГО ОБЩЕНИЯ НА РАЗВИТИЕ ЛИЧНОСТИ В ПЕРИОД РАННЕЙ ЮНОСТИ

***Ключевые слова:*** *ранняя юность, виртуальное общение, семейные отношения, жизнь человека, психологические особенности, медиа, социализация*

Проблема глобализации заключается в том, что параллельно скорость и ритм умственной деятельности соответственно изменяются, так как все виды деятельности и образ жизни человека, а также интенсивность его отношений с людьми быстро меняются. В статье рассказыватся о причинах, ослабливающих отношения между близкими, родственниками, друзьями и другими, которые ограничивают прямое общение в период ранней юности. Обсуждаются причины ослабления связи между ними. Показывается, что изоляция человека от окружающего мира и собственных проблем приводит к психологическим проблемам, которые приводят к отсутствию общения.

***Y.B.Askerova***

# INFLUENCE OF VIRTUAL COMMUNICATION ON PERSONALITY DEVELOPMENT IN THE PERIOD OF EARLY YOUTH

***Keywords:*** *early youth, virtual communication, family relationships, human life, psychological features, media, socialization*

The problem of globalization is that, in parallel, the speed and rhythm of mental activity change accordingly, since all types of human activity and lifestyle, as well as the intensity of his relationships with people, are rapidly changing. The article tells about the reasons that weaken the relationship between loved ones, relatives, friends and others, which limit direct communication during early adolescence. The reasons for the weakening of the connection between them are discussed. It is shown that the isolation of a person from the world around him and his own problems leads to psychological problems that lead to a lack of communication.

Virtual reallıq kompüter qrafikasının və texniki vasitələrin köməyi ilə insanın duyğu üzvlərinə təsir göstərməklə monitorda yaradılan süni dünyadır. Virtual reallıq ideyası və onun həyata keçirilməsi, nəzəri və tətbiqi problem kimi əsasən XX əsrin 60-cı illərində ABŞ-da M.Kryuqer, M.Heyliq, A.Sazerlend tərəfindən tədqiq olunub. Virtual reallığın yaradılması ideyası bir tərəfdən insanların həyat və fəaliyyəti zamanı qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq, insan həyatını daha da rahat etmək məqsədinə, digər tərəfdən isə insanların kiber məkanda fikir, hiss və hərəkətlərinə nəzarət etmək, onu məqsədyönlü şəkildə idarə olunmasına xidmət edir. İnsanların şüuraltı səviyyədə düşüncəsini istiqamətləndirmək, hiss və hərəkətləri ilə manipulyasiya etmək, virtual dünya layihəsinin qabarıq şəkildə nəzərə çarpmayan gizli məqsədidir. Virtual gerçəkliyin yaradılması heç də birmənalı şəkildə qiymətləndirilmir. Bu layihənin tərəfdarları olduğu kimi əleyhdarları da az deyildir. Virtual reallıq texnologiyasının həm pozitiv, həm də neqativ tərəfləri var. Əsas məsələ insanların virtual gerçəklik imkanlarından necə və hansı məqsədlə istifadə etməsidir. Müasir dövrdə virtual reallığın istifadəçiləri arasında gənclər böyük üstünlük təşkil edir. Virtual reallıq və ondan asılılığın törədə biləcəyi fəsadlardan biri insanlarda hərəki aktivliyin aşağı düşməsidir. Uşaqlıq dövründə psixi və fiziki inkişafı təmin edən ən əsas tələbatlardan biri hərəki aktivlikdir. Hərəki aktivliyin zəifləməsi, uşaqlarda həm koqnitiv, həm affektiv-iradi sahədə problemlərin yaranmasına səbəb olur. Rus psixoloqu E.P.İlinə görə, lokomotsiyanın (lokomotsiya – bədənin məkanda yerdəyişməsinə istiqamətlənən hərəkətlərə deyilir) ən yüksək həddi kiçik məktəbli dövrünə düşür (1, s.165). M.V.Osorina yazır ki, əgər uşağın böyüdüyü mühit onun hərəkət etmək, oynamaq, ətraf məkanı tədqiq etməyə, özünü aktiv surətdə göstərmək, həmyaşıdlarla ünsiyyətə tələbatını təmin etmirsə, onda o, acıqlı, kinli, aqressiv olacaq, emosional və fiziki baxımdan inkişafdan qalacaq, yaşadığı mühitdə intim-şəxsi münasibətə girə bilməyəcəkdir (2, s.66). Bu aspektdən virtual həyat uşaqların inkişafı üçün zəruri olan hərəki aktivliyə olan tələbatını ödəmək imkanına malik deyil. Deməli, məktəblinin virtual aləmdə çox olması onun psixi inkişafının geri qalmasına və qeyd etdiyimiz kimi acıqlı, kinli, aqressivlik kimi neqativ hiss və emosiyaların formalaşmasına şərait

yaradır. Tədqiqatlar göstərir ki, virtual həyata aludəçilik, uşaqlar arasında “robot sindromu”nun çoxalmasına səbəb olmuşdur. “Robot sindromu” deyəndə, sistematik olaraq kompüter texnologiyasına aludəçilik və ondan istifadə nəticəsində canlı aləmdən uzaq olmaq, canlı olana qarşı senzitivliyin zəifləməsi ilə əlaqədar olaraq yaranan emosional vəziyyət başa düşülür. Bu sindrom uşaqların fikir, hiss və hərəkətlərinə təsir göstərir və özünəməxsus psixoloji xüsusiyyətlər yaradır. “Robot sindromlu” uşaqlar canlı olana qarşı çox zəif həssaslıq nümayiş etdirir və virtual məkanda olmağa daha çox can atırlar. Onlar üçün virtual olan canlı, təbii olandan daha cəlbedicidir. Hiss və emosiyalardakı soyuqluq, kobudluq, qəddarlıq onların davranışında daha çox müşahidə olunan xüsusiyyətlərdəndir. “Robot sindromlu” insanlar sosial şəbəkələrdə saatlarla ünsiyyət saxladıqları, oyun oynadıqları halda real həyatda canlı dialoqdan qaçır, kommunikasiya qura bilmir, birlikdə vaxt keçirə bilmir, birgə fəaliyyətə, dialoji ünsiyyətə maraq göstərmirlər. Virtual aləmə bağlı olan uşaqlar öz həmyaşıdları ilə yaşadıqları məhəllədə, real məkanda yox, virtual aləmdə internet vasitəsilə monitorda oynamağı daha üstün tuturlar. Gənc yaşlarında virtual reallığa aludəçilik insanı tədricən real həyatdan virtual aləmə sıxışdırır. Virtual aləmin törətdiyi fəsadlarından biri uşaq qorxularının sayının çoxalmasıdır. Tədqiqatlar (uşaq rəsmləri) göstərir ki, uşaq qorxuları real həyat personajları ilə deyil, irrasional personajlarla bağlıdır. Belə ki, virtual aləmdə,kompüter qrafikasının köməyi ilə yaradılan personajlar olan bədheybət məxluqlar, robotlar elə texniki gücə malik olurlar ki, onların qarşısına çıxan istənilən maneəni dəf edə bilirlər. Onlardan müdafiə olunmaq, xilas olmaq, qaçmaq, gizlənmək qeyri-mümkündür. Əgər uşaq “müdafiə hissinə” malik ola bilmirsə, onda onun ətraf aləmə olan inamı itir.

Uşaqda təhlükəli ətraf aləm obrazı formalaşırsa, onda bu cür qorxulu aləmdən özünü qorumağın ən yaxşı yolu aqressiv olmaqdır. Belə bir zehniyyət işə düşür ki, qorxu səni üstələyənə qədər sən onu üstələ, məhv et. Bu yolla da aqressivlik inkişaf etməyə və formalaşmağa başlayır. Virtual həyat real həyata nə qədər yaxın olsa da, onu əvəz edə bilmir və yetişən gənc nəslə ətraf aləm haqqında heç də real təsəvvür verə bilmir. Virtual reallıq virtual intellektin inkişafına kömək edir. Virtual aləmin yaradıcılarının ən əsas problemi gerçək dünyanı real ölçülərlə əks etdirə bilməsi məsələsidir. Buna nail ola bilmədikləri üçün yaratdıqları virtual aləm həmişə real dünyadan uzaq olur. 1991-ci ildə Morton Heyliq gələcəyin virtual sinfini belə təsvir etmişdir: “İdeal sinif otağı elektron və sferik olacaq: əsas lazım olan hava, titrəyiş və temperaturdur. Orada istənilən fənn üzrə 5.000 film olacaq. Sənə Roma və ya Yunanıstan lazımdır, dərhal sən orada olacaqsan” (3). Bu aspektdən yanaşdıqda, əlbəttə ki, virtual reallığın faydalı tərəfləri çox böyükdür. Gənc nəsildə təfəkkürün tənqidilik keyfiyyətini və daxili ləyaqət hissini inkişaf etdirməklə onları virtual gerçəklik məkanında olmağa hazırlaya bilərik. Yəni qadağalar yolu ilə yox, insanların

özünü bu virtual gerçəkliyə, kompüter mədəniyyətinə yiyələnməklə onları bu prosesə hazır etmək olar. Görəsən virtual aləmi sosial mühit hesab etmək olar? Əgər belədirsə, onda virtual aləm sosializasiya institutudur. Deməli, onda virtual məkan özünəməxsus şəxsiyyət tipini, "Virtual-Mən obrazını" yaradacaqdır. Bununla da şəxsiyyətin "Mən konsepsiyasında" yeni bir qat virtual "Mən" qatı əmələ gəlir. Bu "Mən" qatı şəxsiyyətin strukturunu təşkil edir və şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərinə təsir göstərməklə virtual-"Mən" obrazını yaradır. Hər bir sosial sistemin başlıca ünsürü insan və onun fəaliyyətidir. Mövcud cəmiyyətin sosial əhəmiyyətli cəhətlərinin fərdi daşıyıcısı kimi çıxış edən hər bir insan məhz, "şəxsiyyət" anlayışına daxildir. İnsan ictimai gerçəkliyə uyğun gələn təsəvvürlərin daşıyıcısı, cəmiyyəti təşkil edən sosial subyektlər isə hərəkətverici qüvvə kimi çıxış edirlər. Ailə fərd və cəmiyyət arasında körpü rolu oynadığı üçün həm fərd, həm də cəmiyyət tərəfindən əhəmiyyətli sosial qrup və təsisat kimi qəbul edilir. Hər bir fərd gözünü ailədə açır və ilk sosiallaşdığı yer də onun öz ailəsidir. Fərdin fizioloji ehtiyaclarını təmin etməklə yanaşı, onun psixo-sosioloji ehtiyaclarına da cavab vermək və nəticədə cəmiyyətə sağlam fərdlər qazandırmaq hər bir ailənin müqəddəs vəzifəsidir (4, s.130). Ailə tərəfindən qarşılanmayan psixo-sosioloji ehtiyaclar fərddə müəyyən boşluqların yaranmasına gətirib çıxarır ki, nəticə etibarilə fərd bu cür ehtiyaclarını təmin etmə yollarını özü axtarmalı olur. Ötən əsrin əsas kəşfi sayılan internet bu əsrdə də insanların həyatında öz əhəmiyyətini daha da artırmaqda davam edir. Əvvəllər qarşılıqlı münasibətlərini üz-üzə quran insanlar artıq virtual ünsiyyət yollarına üstünlük verirlər. Uzaqdakı insanlarla virtual olaraq çox vaxt keçirən insanlar təəssüf ki, öz yanındakıları hətta bir ailənin üzvləri olsalar belə, yaddan çıxarırlar. Bu isə ailədaxili münasibətlərə ciddi zərbə vurur, xüsusilə ailədə uşaqların düzgün tərbiyə edilməsində və cəmiyyətə faydalı fərdlərin qazandırılmasında nöqsanlara gətirib çıxarır. İnsan bioloji canlı olaraq dünyaya gəlsə də, sadəcə bioloji ehtiyaclarının təmin edilməsi onun üçün kifayət deyildir. Bioloji ehtiyacları ilə yanaşı, onun psixoloji, sosioloji və bənzəri ehtiyacları da mövcuddur. Hər bir insanın sosioloji ehtiyacları var, çünki o, eyni zamanda sosial bir varlıqdır və içində yaşadığı sosial həyatın bir hissəsini təşkil edir. İnsanın bu ehtiyacı isə onun sosiallaşması ilə təmin olunur. Sosiallaşmanın təbii nəticəsidir ki, fərd öz yerini şəxsiyyətə devr edir. Sosiallaşma prosesinin təməli isə ailədə atılır (5, s.87). Hər bir insan cəmiyyət içərisində doğulur, böyüyür və inkişaf edir. İnsanın içində yaşadığı cəmiyyətə məxsus ola bilməsi üçün isə onun cəmiyyətə aid norma və dəyərləri, adət-ənənələri mənimsəməsi lazımdır. Bu prosesin həyata keçməsi üçün isə müvafiq cəmiyyətdəki insanlarla, qruplarla qarşılıqlı münasibətdə olur və beləcə fərd sosiallaşaraq şəxsiyyətə çevrilir (6, s.57). Sosiallaşma insanın dünyaya gəlməsi ilə başlayan və insanın bütün həyatı boyu davam edən prosesdir. Sosiallaşan hər bir fərd yaşadığı

müddətdə fərqli mərhələlərdən keçir, bioloji, fizioloji fərqliliklər qazanmaqla bərabər, eyni zamanda psixoloji və sosioloji yöndən də inkişaf edir. Sosiallaşma prosesində qazanılan əsas xüsuslardan biri də ictimai rollardır. Fərd qarşılaşdığı fərqli insanlara xas olan fərqli rolları mənimsəyərək öz rolunu da dərk edir. İctimai rolların mənimsənilməsi isə fərdin şəxsiyyətinin inkişafından xəbər verir (7, s.98). Təbii ki, məsələ sadəcə rolların mənimsənilməsi ilə bitmir, eyni zamanda fərd bu prosesdə o cəmiyyətə xas mədəniyyəti də öyrənir. Çünki fərd dünyaya gələrkən doğulduğu cəmiyyətə xas olan adət-ənənələri, norma və dəyərləri, eləcə də mədəniyyəti bilmir. Cəmiyyətdən bütün bunları öyrənən fərd eyni zamanda cəmiyyətə də öz təsirini göstərir. Beləcə insan və cəmiyyət arasında qarşılıqlı əks-təsir prosesi başlayır (8, s.64). Qeyd etdiyimiz kimi, sosiallaşma prosesi uşaqlıq dövründə başa çatmır, müəyyən mərhələlərlə bir ömür boyu davam edir. Uşaq vaxtı baş verən sosiallaşma prosesi fərdə cəmiyyət üçün lazım olan müəyyən məlumatları və bacarıqları qazandırır. Lakin təbii ki, bu qazanılanlar həyatın tamamı üçün kifayət deyildir. Sosial və mədəni dəyişmə həyatın hər mərhələsində yeni məlumatların fərd tərəfindən mənimsənilməsini lüzumlu edir. İnnovasiyalar qarşısında isə fərd qaçılmaz bir sosiallaşma prosesi ilə üz-üzə qalır. Bu isə o deməkdir ki, uşaqlar qədər gənclərin də, eyni zamanda digər yaş dövründə olan hər bir fərdin də sosiallaşmağa ehtiyacı vardır (9, s.54). Yetkinlik yaşına çatmış birinin sosiallaşması uşağın sosiallaşması ilə müqayisədə müəyyən fərqliliklərə sahibdir. Çünki onda artıq oturmuş bir xarakter mövcuddur. Ancaq proses eynidir, qarşılaşılan yeniliklər, mənimsənilən yeni modellər və fərdi iştirak (10, s.48). Bu zaman fərd yeni bir mühitə daxil olur, yeni rollar qazanır və qazandığı bu rolları öz statusuna uyğunlaşdırmağa çalışır. Cəmiyyət sürətlə dəyişir, sənayedə baş verən dəyişikliklər, siyasi həyatda, iqtisadi arenada, iş mühitində ortaya çıxan yeniliklər. Bütün bu dəyişikliklərə ayaq uydurmağa çalışan fərdlərin vərdişlərində və davranışlarında baş verən bu dəyişikliklər fərdlərin təkrar sosiallaşması adlanır (11, s.62). Ümumiyyətlə, sosiallaşma fərdin sosial olaraq yenidən doğulmasıdır, bu prosesin təməli isə ailədə atılır. Fərdin sosial həyatının mərkəzi ailədir, fərd ailədən cəmiyyətə açılır. Fərd ilk statusunu və rolunu ailədə qazanır, fərdin üzvü olduğu ilk qrup da ailə qrupudur. Hər bir fərdin şəxsiyyət qazanmasında ailə müəyyənedici rola malikdir. Cəmiyyət üç başlıca ünsürdən ibarət olan makrostrukturdur. Sosial birliklər deyə biləcəyimiz ilk ünsür fərdlər çoxluğunun qarşılıqlı əlaqəsindən mütəşəkkildir. Burada fərd-fərd, fərd-sosial qrup, fərd-cəmiyyət münasibətləri mövcuddur. İnsanlararası ünsiyyətin azalması ictimai əlaqələrin yoxa çıxması deməkdir. Fərdin başqaları ilə olan ictimai münasibəti ona özünü tanımağa kömək edir. Yəni insanın ətrafındakı insanlar onun "güzgüsüdür". Hər bir fərd ətrafındakı insanlarla davamlı ünsiyyətdə olmalıdır. Çünki o, ətrafındakıları tanıdıqca əslində özünü tanımaqdadır. Bunun çatışmazlığıdır ki, hal-hazırda fərdlər kifayət qədər

sosiallaşa bilmirlər (12, s.72). Ailə ata, ana və uşaqlardan ibarət olan ən kiçik sosial qrupdur. Hər şeydən əvvəl o, bir sistemdir və bu sistem ailədəki fərdlərin şəxsi xüsusiyyətlərinə görə formalaşır. Beləcə hər bir ailənin spesifik strukturu, nizamı və xüsusiyyəti mövcuddur. Sahib olduğu bu spesifikliyə görə funksional və disfunksional ailələrdən söhbət gedə bilər. Funksional ailə, ən geniş mənası ilə, ailədaxili münasibətlərin möhkəm əsaslar üzərində qurulduğu ailədir. Belə ailələrdə ictimai rollar müəyyən struktura görə bölünmüşdür və ailənin hər bir üzvü öz rolunun fərqindədir. Ailədə hər hansı bir problem yaranarsa, ilk öncə bu problemin adı qoyulur, həlli yolu tapılır və ona uyğun olaraq da məqsədyönümlü qərarlar verilir. Eyni zamanda belə bir ailədə sağlam təməllərə dayanan kontrol mexanizmi fəaliyyətdədir. Bu cür xüsusiyyətləri daşıyan ailələr münasibətlərin güclü olduğu və üzvlərin bir-birinə bağlı olduğu ailələrdir (13, s.8). Texnoloji inkişaf bu gün hər birimizə kifayət qədər asudə vaxt qazandırmışdır. Ancaq təəssüflər olsun ki, qazandığımız bu asudə vaxtı insanlarla birlikdə keçirməkdənsə təkrar texnoloji vasitələrə üz tuturuq. Kütləvi informasiya vasitələrinin sürətlə inkişaf etməsi və insanların gündəlik həyatına daha çox daxil olması şəxsiyyətin formalaşması prosesinə də təsirsiz ötüşmür. Belə ki, şəxsiyyəti formalaşdıran ailə, məktəb kimi ənənəvi sosiallaşdırma vasitələrinin bu prosesdəki rolu kütləvi informasiya vasitələrinin təsiri ilə getdikcə nisbi olaraq azalmaqda, onların yerinə kütləvi informasiya vasitələrinin təsirlərini hiss etdirən yeni insan "tip"i formalaşmaqdadır. Yeni "tip"də diqqətçəkən ən başlıca xüsusiyyət cəmiyyəti formalaşdıran real sosial münasibətlərin virtual sosial münasibətlər ilə əvəz olunmasıdır. Real həyatdan uzaqlaşma, yalnız qalma istəyi artıq fərdi deyil, ictimai xarakter almışdır. İnsanları ictimai həyata qaytaracaq tədqiqatlar aparılaraq bu istiqamətdə məqsədyönlü addımlar atılmalıdır. Məsələnin həlli yolu tamamilə internetdən uzaqlaşmaqda deyil, ondan istifadəni nizama salmaq və planlı bir şəkildə istifadə etməkdir. Eyni zamanda hansı saytlardan istifadə, hansı metodlarla istifadə də bu istiqamətdə göstərilməli və maarifləndirici addımlar atılmalıdır. Uşaqlar ailələri tərəfindən sosial fəaliyyətlərə qatılmağa yönləndirilməli, dərsdən xaric asudə vaxtlarda isə incəsənətə və ya idman fəaliyyətlərinə yönləndirilməlidir. Virtual aləm – internet dünyası, televizor və hətta cib telefonları nə qədər faydalı olsa da, bir o qədər də ziddiyyətlərlə doludur. Uşaq bir tərəfdən öz evində, valideynlərinin gözü qarşısında, nəzarəti altındadır, digər tərəfdən isə internetdə, televiziyada, cib telefonunda tapdığı "dostlarla" əlaqədədir. Bu virtual əlaqə onun şəxsiyyət kimi formalaşmasına müəyyən təsir göstərir, hətta bəzən mövcud reallıqlardan təcrid edir. İnternetdə müasir əxlaqı və həyat normalarını inkar edən çirkin saytlar, cib telefonlarındakı mesajlaşmalar, tanışlıqlar və teleməkandakı formaca bəsit, mənəviyyat baxımından dağıdıcı mövzular, bəzən sizdən xəbərsiz uşağınızı əlinizdən "alır", onu ailə dəyərlərindən uzaqlaşdırır, qapalı və heç kimə məlum olmayan virtual

dünyaya aparır. Hərdən oxumaq, inkişaf etmək, gələcəyi düşünmək əvəzinə yeniyetmələr ətrafındakı bütün reallıqları ikinci dərəcəli, əhəmiyyətsiz sayırlar. Onların həyatı cib telefonu, internet və bəsit verilişlərə bağlanır. Saatlarla internet başında zamanını keçirən insanların ailəsi, qohumu, dost-tanışı ilə sağlam ünsiyyət qurması gözlənilməzdir. Ünsiyyət problemi olan insan tipi formalaşır. Bu qədər paylaşma içərisində olmaq bir tərəfdən gerçək həyatda ünsiyyət problemləri yaşamağa səbəb olur. Öz dünyasında lazım olduqda şəxsiyyətini gizli tutaraq istədiyi şəkildə yazan-pozan, paylaşan bir insan gerçək həyatda ünsiyyət problemləri yaşaya bilir. İnternet istifadə edən insanların get-gedə içinə qapalı, utancaq və özünü kifayət qədər ifadə edə bilməyən, bədən dilini işlədə bilməyən, özünə inamı aşağı, küskün, utancaq olduqları düşüncəsi mütəxəssislər tərəfindən də dəstəklənir. Aydındır ki, cəmiyyət həmişə informasiyanın yayılması üçün müəyyən vəsaitlərə malik olmuşdur. Ancaq bununla belə informasiyanın cəmiyyətin əsas idarəetmə vasitəsinə çevrilməsindən ötrü geniş və məqsədyönlü şəkildə otürülməsini təmin edənə kimi əsrlər lazım olmuşdur. İnformasiya kütləvi hal almış, kommunativ kanallar isə bütöv bir dəst kimi təkmilləşmişdir. Buna görə də çap, radio, televiziya və interneti bugünkü gün fərqləndirən və onlar arasındakı birinciliyə görə rəqabətin yaranmasına səbəb olan spesifik xüsusiyyətlərin nə zaman əmələ gəlməsini müəyyənləşdirmək lazımdır. Müasir dövrdə insanların həyatını iki qismə bölmək olar: 1. Real həyat; 2. Virtual həyat. Bu iki termin bir-birinə nə qədər yaxın olsa da, bir o qədər də bir-birindən uzaqdır. Real həyatda yaşamaq bir o qədər də sadə deyil. Bu məsələ ilə bağlı olaraq bir sıra fikirlər mövcuddur. Bu fikirlər insanların real həyatdan uzaqlaşaraq virtual aləmə qoşulması nəticəsində necə böyük zərərlərlə qarşılaşdığını əks etdirir. Alimlərin fikrincə, internet asılılığı olan insanlar o qədər virtual həyata daxil olurlar ki, öz real həyatlarından tədricən uzaqlaşırlar və günün çox hissəsini virtual fəzada keçirirlər. Onlar problemlərin həllini ondan qaçmaqda, ya da onun mövcudluğunu inkar etməkdə, saatlarla internetdə əylənməkdə görürlər. İ.Koldberqə görə, dəfedilməz internet həvəsinin və əsası olmadan şəbəkədə uzun müddət qalmağın əsasında insanın real həyatdan uzaqlaşmaq cəhdi durur ki, bu da alkoqolizmdə, narkomanlıqda və zərərli oyunlarda olan patoloji meyillə müqayisə edilə bilər və belə vəziyyət məişət, təhsil, sosial, iş, ailə, maliyyə və ya psixoloji mühitə olduqca böyük zərər vurur (14, s.39). Cerald Bloka görə, internet asılılığı olan insanlarda internetə qoşulmaq üçün qarşısıalınmaz və mütəmadi istək yaranır (15, s.70). Onlar daim yeni və daha mükəmməl avadanlığa sahib olmağa, daha çox "on-line" əlaqə yaratmağa can atırlar. İnternet-addiksiyaya düçar olan şəxslər zaman anlayışını itirir, fizioloji tələbatlarına etinasızlıq edir, yuxudan və qidadan imtina etməklə internetdə daha çox qalmağa çalışırlar. Bu da mübahisə etmək, yalan danışmaq, səmərəli fəaliyyətin aşağı düşməsi, sosial tədric və yorğunluq kimi pis nəticələrə gətirib

çıxara bilər. Virtual şəxsiyyət bir növ insanın daxili "Mən"inin real həyatda reallaşdıra bilmədiyi bəzi aspektlərini özündə cəmləşdirir. İnternetdə əlaqə mətn yığımı ilə baş verdiyi üçün insanlar ünsiyyət zamanı öz hisslərini həm ifadə, həm gizlədə, həm də onun yerinə tamamilə süni hisslər qələmə verə bilər. Ona görə şəbəkədə ciddi söhbətlər aparmaq asan olur, burada nədənsə, kimdənsə incimək mənasızdır, çünki səni heç kim görmür. İnternetdə insanın çirkinliyi onun ünsiyyətinə mane olmur. Bir sözlə, şəbəkədə insanın cinsi, yaşı, sosial vəziyyəti, görkəmi qarşılıqlı münasibətdə çox az rol oynayır. İnsan bəzən real dünyada əldə edə bilmədiyini, göstərə bilmədiyini komputerin ekranında həyata keçirməyə öyrəşir. Bütün bunların nəticəsi olaraq insan özü hiss etmədən şəbəkənin təsiri altına düşür və demək olar ki, internet əsirinə çevrilir. Uzun müddət virtual ünsiyyətə aludə olan şəxs canlı ünsiyyətin nə olduğunu yaddan çıxarır və belə adamlar canlı söhbətdə aqressiv, kobud və bəzi hallarda cinayət meyilli olurlar. Virtual aləm – internet dünyası, televizor və hətta cib telefonları nə qədər faydalı olsa da, bir o qədər də ziddiyyətlərlə doludur. Bir tərəfdən bu yeni ünsiyyət resursları hər bir insan üçün vacib məlumatlarla zəngindir, digər tərəfdən vahid qaydalar, vahid əxlaq qəlibində preslənərək uşaqların və yeniyetmələrin iç dünyasına, davranışına, psixologiyasına dağıdıcı təsir göstərir. Gənc nəsildə təfəkkürün tənqidilik keyfiyyətini və daxili ləyaqət hissini inkişaf etdirməklə onları virtual gerçəklik məkanında olmağa hazırlaya bilərik. Yəni qadağalar yolu ilə yox, insanları özünü bu virtual gerçəkliyə, kompüter mədəniyyətinə yiyələnməklə onları bu prosesə hazır etmək olar.

## ƏDƏBİYYAT


1. *Леонтьев А.А.* Психология общения: Учеб. пособие для студ. высш. учеб. заведений. М.: Смысл; Издательский центр: «Академия», 2005, 368 с.
2. Личность и социальная среда: Идеологические и психологические аспекты общения: Сборник обзоров. М., ИНИОН, 1987, 163 с.
3. http://www.manavgatpsikiyatri.com/bosanma_surecinde_cocuk.html
4. *Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə*. Bakı: Maarif, 1989, 276 s.
5. *Əliyev R.İ.* Psixologiya: Dərs vəsaiti. Bakı: Qamma servis, 2003
6. *Ağayev Ə.Ə.* Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, 288 s.
7. *Ağayev Ş.S.* Uşaq psixologiyası məsələlərinə dair. Bakı: APİ, 1966, 28 s.
8. *Ağayev Ş.S., Mehdizadə Z., Fərəcov İ.* Yaş və pedaqoji psixologiya. Bakı: APİ, 1977, 96 s.
9. *Əliyev R.İ., Əliyeva G.* Şəxsiyyət psixologiyası, Bakı, 2010, 176 s.
10. *Həmzəyev M.Ə., Əmiraslanova S.F.* Ünsiyyətin psixologiyası. Bakı, Nurlan, 2007, 180 s.
11. *Carneqie D.* Söz söylemek ve iş başarmak sanatı. İstanbul, 1995, 215 c.
12. *Əfəndiyeva Ü.A.* Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı: «MBM», 2007, 128 s.

13. *Əliyeva H.İ., Məsimova Ş.* Münasibətlərin göyqurşağı. Bakı, 2013, 191s.
14. *Панфилова А.П.* Теория и практика общения: Учеб. пособие для студ. сред. учеб. завед. М.: Академия, 2007, 288 с.
15. *Santor D.A., Messervey D. & Kusumakar V.* Measuring peer pressure. Popularity and conformity in adolescent boys and girls: Predicting school performance sexual attitudes and substance abuse // Journal of Youth and Adolescence, 2000

Redaksiyaya daxil olub 15.06.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 197-203
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 197-203

*UOT 37*

***Q.Ə.Əsgərzadə***
*Azərbaycan Texniki Universiteti*
*xalidxelilov86@gmail.com*

# BƏDİİ SİLSİLƏDƏN OLAN TELEVİZİYA VERİLİŞLƏRİ ŞAGİRDLƏRİN ESTETİK MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA BAŞLICA PEDAQOJİ VASİTƏ KİMİ

***Açar sözlər:*** *televiziya, estetik mədəniyyət, təfəkkür, vətənpərvərlik, intellekt*

Müasir dövrdə milli tariximizin, mədəniyyətimizin, adət və ənənələrimizin dərindən öyrənilməsi və yuxarı sinif şagirdlərində vətənpərvərlik hissinin tərbiyə edilməsinin, yüksək mənəviyyatlı şəxsiyyət yetişdirilməsinin vacibliyi xüsusi olaraq nəzərə çatdırılır. Bu sahədə pedaqoji problem olaraq mühüm, təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsində çox qüvvətli təlim-tərbiyə vasitəsinə çevrilən, XX əsrin möcüzəsi sayılan televiziyanın və xüsusilə də televiziya verilişlərinin özünəməxsus rolu, təsir imkanları vardır. Çox mürəkkəb, həm də zəngin və kompleks tərbiyə vasitəsi olan televiziyanın, o cümlədən yuxarı sinif şagirdlərinin tərbiyəsində, xüsusən onların estetik mədəniyyətinin yüksəldilməsində rolu böyükdür və müasir dövrün ən mühüm reallıqlarından biridir. Televiziya verilişləri yuxarı sinif şagirdlərinin şüuruna güclü təsir göstərir, onları mənən inkişaf etdirir, məlumatlandırır, ətraf mühitə və insanlara münasibəti formalaşdırır. Hazırda televiziya verilişlərinin yuxarı sinif şagirdlərinin estetik mədəniyyətinin yüksəldilməsinə təsir problemi çox aktualdır. Çünki söhbət demokratik cəmiyyət üçün, dövlətçiliyinmizin gələcəyi üçün yeni təfəkkürlü insan tərbiyəsindən gedir.

***Г.А.Аскерзаде***

# ТЕЛЕВИЗИОННЫЕ ПЕРЕДАЧИ ХУДОЖЕСТВЕННОГО ЦИКЛА КАК ОСНОВНОЕ ПЕДАГОГИЧЕСКОЕ СРЕДСТВО В РАЗВИТИИ ЭСТЕТИЧЕСКОЙ КУЛЬТУРЫ ШКОЛЬНИКОВ

***Ключевые слова:*** *телевидение, эстетическая культура, мышление, патриотизм, интеллект*

Подчеркивается важность углубленного изучения нашей национальной истории, культуры, обычаев и традиций в современное время, воспитания патриотизма у старшеклассников, развития высокоморальной личности. Как педагогическая проблема в этой области телевидение, ставшее чудом XX века, и особенно телепрограммы, играет особую роль и влияние в реализации важных, актуальных задач. Телевидение, которое является очень сложным, но вместе с тем богатым и сложным средством обучения, играет важную роль в образовании старшеклассников, особенно в повышении их эстетической культуры, и является одной из важнейших реалий современности. Телевизионные программы

оказывают сильное влияние на умы старшеклассников, развивают их духовно, информируют и формируют их отношение к окружающей среде и людям. В настоящее время очень актуальна проблема влияния телепрограмм на повышение эстетической культуры старшеклассников. Потому что мы говорим о воспитании новомыслящий человека для демократического общества, для будущего нашей государственности.

***G.A.Asgarzadeh***

## TELEVISION PROGRAMS OF THE ART CYCLE AS THE MAIN PEDAGOGICAL TOOL IN THE DEVELOPMENT OF THE AESTHETIC CULTURE OF SCHOOL CHILDREN

***Keywords:*** *television, aesthetic culture, thinking, patriotism, intellect*

The importance of an in-depth study of our national history, culture, customs and traditions in modern times, the education of patriotism among high school students, the development of a highly moral personality is emphasized. As a pedagogical problem in this area, television, which has become a miracle of the twentieth century, and especially television programs, plays a special role and influence in the implementation of important, urgent tasks. Television, which is a very complex, but at the same time rich and complex means of teaching, plays an important role in the education of high school students, especially in enhancing their aesthetic culture, and is one of the most important realities of our time. Television programs have a strong influence on the minds of high school students, develop them spiritually, inform and shape their relationship to the environment and people. Currently, the problem of the influence of television programs on improving the aesthetic culture of high school students is very urgent. Because we are talking about educating a new-minded person for a democratic society, for the future of our statehood.

Azərbaycan milli və özəl telekanallarında nümayiş etdirilən bədii yönümlü televerilişləri təhlil edib onları ümumiləşdirmədən müasir televiziyanın şagirdlərin estetik mədəniyyətinin inkişafına təsirindən danışmaq mümkün deyildir. Şagirdlərin estetik tərbiyəsinə televiziyanın göstərdiyi təsirin səviyyəsi hər şeydən əvvəl bu məqsədlə televiziyanın hansı sahələri və janrları əhatə edən verilişlərdən asılıdır. Belə ki, hazırda televiziya kanallarında nümayiş etdirilən "Ovqat", "Klassik musiqi", "Caz ulduzları", "Məclisi-üns", "Musiqi inciləri", "Azərbaycan yurdum mənim", "Nanəli", ayrı-ayrı konsert proqramları və teatr tamaşaları, sərgi salonlarından verilişlər və s. şagirdlərin estetik mədəniyyətinin yüksəldilməsinə bilavasitə təsir göstərir. Bu verilişlərin mövzusu, qonaqların çıxışları, musiqi ifaları şagirdlərin dünyagörüşünü formalaşdırır. "Dərs vaxtı", "Qüvvət elmdədir", "Tarixin izi ilə", "Teleoyun", "Xəmsə intellektual oyun", "Gənclik stansiyası" və s. verilişlər vasitəsilə şagirdlər həm öz bilik səviyyələrini artırır, həm də maariflənirlər. 44 günlük Vətən müharibəsinə həsr olunmuş verilişlər, xüsusilə

şəhidlər haqqında, qazilər haqqında verilişlər şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bütövlükdə bu qəbil verilişlər şagirdlərin estetik mədəniyyətinin, dünyagörüşünün formalaşmasında mühüm yer tutur. Televiziyalarla məktəblər arasında əməkdaşlıq çərçivəsində proqramlar təşkil edilərkən məktəblilərin, şagirdlərin fikirlərinin də nəzərə alınması zənnimcə, məqsədəuyğundur.

Elmi-texniki tərəqqinin vüsət aldığı indiki şəraitdə gənc nəslin, şagirdlərin estetik mədəniyyətinin yüksəldilməsi ilə bağlı pedaqoji elmin çoxsaylı məsələləri arasında televiziya daha çox mübahisəli problemlərə malikdir. Bu mübahisələrdən biri ilk növbədə şagirdlərin televiziya verilişlərinə sərf etdikləri vaxt problemidir. Belə ki, onlardan bəziləri verilişlərə daha çox vaxt sərf edir ki, bu da onların gündəlik rejimini pozur. Bununla onların kitab oxumağa, idmanla və s. işlərlə məşğul olmağa vaxtları çatmır. Bəzi valideynlər, şagirdlər üçün televiziya ailədə bir növ ev bəlasıdır. Buna son zamanlar kompüter və mobil telefonlarla internetə daxil olmaq da əlavə oluna bilər.

Mübaliğəsiz demək olar ki, televiziya emosional gərginlik – yüklənmə yaradır. Emosional yüklənməyə qarşı şagirdlərin psixikasında özünəməxsus immunitet, xüsusi psixoloji baryer yaranır [2, s.11].

Şagirdlər üçün televiziya bəzən passiv vaxt keçirmək, qayğısız gün keçirmək, əylənmək vasitəsinə çevrilir. Sözsüz ki, buna yol verməmək üçün ayrı-ayrı telekanallarda bayağı televiziya verilişlərinə – antihumanist ideyalara, həyati-mənəvi dəyərlərə uyuşmayan dəyərlərə aid verilişlərə imkan verilməməli, onların qarşısı alınmalıdır. Çünki belə verilişlər şagirdlərin estetik mədəniyyətinin inkişafına mənfi təsir göstərir. Bu isə bir növ gələcək televiziya üçün yeni pedaqoji və sosial problemlər yaradır.

Həyat insan üçün ilk zəruri maddi-mənəvi dəyərlər mənbəyidir.

Həyatı boyu şagirdlər çox zəruri problemlərlə üzləşirlər. Dünyagörüşü, şüurun inkişafı, maariflənmə, estetik və s. tərbiyə məsələləri burada başlıca rol oynayır. Maariflənmə, əldə edilən bilik şagirdlərdə fəallıq yaratmaqla onların həyat məsələlərinə düzgün yanaşmalarına imkan yaradır, yaradıcılığa ruhlandırır.

Həyat dəyərlərini üç qrupa ayırmaq olar: maddi, sosial-siyasi, mənəvi. Televiziya ilk növbədə özündə maddi dəyərləri əks etdirir. Bu da insanlar tərəfindən yaradılır, insanların mənəvi rifahına, onların şəxsi və ictimai həyatına xidmət edir. Televiziya cəmiyyətin bütün üzvlərinə milli-mənəvi dəyərləri, estetik dünyagörüşünü aşılayır.

Bu dəyərlər həm bütövlükdə cəmiyyətdə, həm də şagirdlərin inkişafı üçün faydalı olan əxlaq və incəsənətdə özünü büruzə verir.

Məlumdur ki, insan biliklə, xeyirxah və bədxah kimi doğulmur. Həyat prosesində uşaq müəyyən biliyə yiyələnir, xeyirxahlığı və bədxahlığı öyrənir. Bu sosial haldır. Xeyir və şər anlamı insanın məqsəd və tələbatları ilə əlaqədardır.

Estetik dəyərlər sosial-siyasi və mənəvi kateqoriyalarla sıx əlaqədardır.

Şagirdlərdə hisslərin, estetik zövqün tərbiyəsi fikir, ideya formalaşdırmaq kimi əsas məsələlərdən heç də az əhəmiyyət kəsb etmir. Bu hisslər inkişaf etdirilərək daha da zənginləşir, tədricən estetik ideala çevrilir. Televiziya verilişləri vasitəsilə formalaşan estetik hisslərin əhəmiyyəti onların məzmun və bədii səviyyəsi ilə müəyyən edilir. Yüksək bədii əsərlərin estetik qəbulu şagirdlərin hərtərəfli inkişafı üçün zəruri olan xüsusiyyətləri – assosiativ təxəyyül və təfəkkürü zənginləşdirir.

Dəyərlər – mürəkkəb anlamdır. Televiziya verilişləri tərəfindən aşılanan mənəvi dəyərlər xüsusilə rəngarəngdir. Bu dəyərlər televiziya verilişlərində öz konkretliyi, obrazlığı ilə fərqləndiyinə görə daha təsirlidir [4, s.407].

Bu və ya digər televerilişin düzgün dəyərləndirilməsi üçün gərək o, müəyyən xüsusiyyətlərə malik olsun. Hər televerilişi təhlil edərkən onun estetik baxımdan təsiri araşdırılmalı, teletamaşaçıda xeyirlə şərin, gözəlliklə eybəcərliyin müqayisəsi aparılmalıdır. Bu təhlil həm pedaqoji-psixoloji, həm də televiziya incəsənətinin müəyyən səviyyəsi ilə əlaqənin mürəkkəb kompleks təyinatını təşkil edir.

Nəzərə almaq lazımdır ki, siyasət, etika, estetika məsələlərini əhatə edən televiziya verilişləri şagirdləri əlbəttə ki, avtomatik olaraq ideya-siyasi, mənəvi və estetik cəhətdən şəxsiyyət kimi yetişdirmir. Hərçənd televiziya verilişləri ilə tanışlıq göstərir ki, şagirdlərin ideya-siyasi istiqaməti, əxlaqı, saflıq və estetik savad əsasında formalaşan verilişlər daha çox diqqət çəkir.

Beləliklə, sosial-siyasi, mənəvi, estetik dəyərlərlə əhatə olunmuş, şagirdlərin estetik mədəniyyətinin yüksəldilməsinə təsir göstərən elə televiziya verilişləri lazımdır ki, onlar bütövlükdə gənc nəsil üçün ideya və ya ideal reallıq kimi çıxış etsin, müasir qloballaşma şəraitində insana mənəviyyat və mədəni rifah gətirsin, ayrı-ayrı şəxslər və bütövlükdə cəmiyyət üçün faydalı və gərəkli olsun.

Bədii silsilə verilişlərində, xüsusən, konsert-mühazirələrdə, telekompozisiyalarda, musiqi və musiqiçilər haqqında, təsviri sənətə dair muzeylərdən hazırlanan televerilişlərdə və s. incəsənətə dair müxtəlif səpkili informasiya verilir. Bu informasiyalara, məsələn, rəssam və bəstəkarın, heykəltəraşın, musiqiçi və ya artistin, müğənninin tərcümeyi-halı, onların keçdiyi həyat yolu və yaradıcılığının əsas səhifələri, müasirləri, dövr ilə qarşılıqlı əlaqələri və s. daxildir. Məktəblilər bu informasiyaları mənimsədikdə daha çox məlumat əldə edir, bu və ya digər sənət adamı ilə görüşə hazır olur. Televerilişlərdən əldə olunan bədii informasiya sənətşünaslıq biliklərinə meyli genişləndirir, şagirdlərin dünyagörüşünü artırır, onları yaradıcılığa həvəsləndirir. Bu isə öz növbəsində onların estetik mədəniyyətinin yüksəldilməsi deməkdir.

Bu sahədə respublikada fəaliyyət göstərən Milli Televiziya və digər özəl telekanallar mühüm işlər görür. Belə ki, bu telekanallar şagirdləri Azərbaycan xalqının tarixi, milli mədəniyyətimizin ən məşhur xadimlərinin sənəti ilə tanış edir, onlara əsl sənəti duymaq zövqü aşılayır.

Klassik pedaqogikada göstərildiyi kimi, uşaqlarda estetik duyum və qavrama vərdişləri yaratmaq üçün bədii əsərləri sadələşdirərək onların səviyyəsini endirmək

deyil, onları yüksək incəsənəti dərk etmək səviyyəsinə qaldırmaq lazımdır. Bu, hər şeydən əvvəl hələ formalaşmamış, kövrək olan yeniyetməyə əyləncə üçün deyil, həyatı, onun mahiyyətini və sirlərini öyrənmək üçün lazımdır [3, s.6].

Televiziya sayəsində şagirdlər mütəmadi olaraq yüksək səviyyədə hazırlanan və peşəkarcasına ifa olunan sənət əsərləri ilə tanış olur. Bu verilişlər onlarda düzgün estetik münasibət, ən başlıcası isə qabiliyyət formalaşdırır.

Aparılan təhlillər onu deməyə əsas verir ki, məktəblərdə şagirdlərin incəsənətə, ədəbi-bədii verilişlərə, xüsusilə musiqiyə meyilliliyin artırılmasında əsas çətinlik, bu prosesin təşkilində sistemliliyin və şagirdlərin bu sahəyə dair lazımi bilik almasının məqsədyönlü forması olan informasiyanın qəbuluna dair pedaqoji rəhbərliyin olmaması ilə əlaqədardır.

Şagirdlərin bu və ya digər musiqili proqramlara üstünlük verməsi isə müəyyən dərəcədə televiziya kanallarının estetik informasiya mənbələrindən asılıdır.

Şagirdlərin televiziyanın mavi ekranı ilə dünyaya səyahətə çıxması bütövlükdə onların estetik zövqünün inkişafına müsbət təsir göstərir. Geniş, yaradıcı və tematik diapazona malik bədii silsilədən olan televiziya verilişləri nəinki insanları gözəllik aləminə qovuşdurur, həm də estetikanın daxili təməlini qoyur, şagirdlərin yaradıcılıq fəaliyyətini, yaradıcı fəallığını stimullaşdırır.

Məlumdur ki, televiziya özündə incəsənətin müxtəlif növ və janrlarını – teatrı, ədəbiyyatı, musiqini, kinematoqrafiyanı və təsviri sənəti birləşdirir.

Televiziya öz spesifik vasitələri ilə bədii obraz yaradılması üçün bir sıra üstün imkana malikdir. Əksər hallarda estetik qavramanın effektivliyi o zaman əldə edilir ki, obrazın emosional ifadə yükü harmonik şəkildə sözlə vizual görüntü arasında bölünür.

Estetik təsirin artırılmasında bədii informasiyanın əsas sahələrindən olan musiqi böyük rol oynayır. Bununla belə məktəblilərin estetik mədəniyyətinin yüksəldilməsində bədii-publisistik, silsilə musiqi-maarifi verilişləri daha çox əhəmiyyət kəsb edir. Həmçinin incəsənətin bütün növ və janrlarından kompleks istifadə estetik tərbiyənin əsas vəzifələrindən biridir. Burada televiziya şagird şəxsiyyətinə estetik təsir göstərməkdə unikal imkanlara malikdir.

Bədii silsilədən olan televerilişlər şagirdlər qarşısında məişətin, təbiət və ictimai həyatın gözəlliklərini açıb göstərir. Bunlara muzeylərdən və sərgilərdən hazırlanan verilişlər, klassik musiqi, əmək, idman, elm və s. sahələrdə qəhrəmanlıqlar və rəşadət göstərən, insani münasibətlər və xarakterlərin gözəlliyi haqqında televerilişlər aiddir. İncəsənət uşaqda mənəvi ucalıq hissi yaradır ki, o da insan şəxsiyyəti xarakterinin ən vacib cəhətlərindən biridir. İncəsənətə yaxınlaşma, həyat gözəlliyi obrazlılığı məktəbli gənclərin, şagirdlərin estetik həzzini, zövqünü formalaşdırır. Bədii silsilədən olan televerilişlər təkcə ətraf mühitin gözəlliyini deyil, həm də onlara kəsərli və yaradıcı münasibət formalaşdırır. Televiziyanın bu funksiyası estetik təsir cəhətdən mühüm rol oynayır.

Bədii informasiya – poeziya və musiqi, teatr və kino, rəqs, rəngkarlıq, heykəltəraşlıq, memarlıq, tətbiqi sənət kimi janrlar və bu janrdakı nümunələr məktəbliləri müxtəlif xalqların tarixi, milli mədəniyyətlərinin təcrübələri ilə tanış edir. Bu səpkili verilişlərə AzTV, ATV, SPACE, MƏDƏNİYYƏT, ARB, İCTİMAİ telekanallarından seyr etmək mümkündür. Belə ünsiyyətdə milli mədəniyyətə yiyələnmək şəxsiyyətin mənəvi potensialını artırır. Bədii silsilədən olan televerilişlər şagirdlərdə incəsənətin müxtəlif növ və janrlarına marağı stimullaşdırır, dünyanın estetik varlığının dərk edilməsini, həmçinin gənc şəxsiyyətin müstəqil estetik inkişaf bacarığını intensivləşdirir [5, s.63].

Yuxarı sinif şagirdlərinin bu və ya digər bədii proqramlara üstünlük verməsi müəyyən dərəcədə televiziya kanallarının estetik informasiya mənbələrindən asılıdır. Estetik informasiyanın gənc tamaşaçılara təsirinin effektivliyinin artırılması və həmçinin, proqramların bədii-pedaqoji təsir imkanlarının genişləndirilməsi məqsədilə telekanalların yaradıcı heyətinə aşağıdakı tövsiyələr məsləhət görülür:

1. Şagirdlər üçün incəsənətə dair verilişlərin tematikasının genişləndirilməsi;
2. Həmin verilişlərin hazırlanması zamanı orta məktəblərdə müvafiq tərbiyə işləri üzrə məsləhətlərin əsas müddəalarının və tələbatının nəzərə alınması;
3. Şagirdlər üçün televerilişlərin təşkili və planlaşdırılmasında məktəblilərin bədii maraqlarının səviyyəsinin nəzərə alınması və onlara müvafiq istiqamətin verilməsi;
4. Respublika televiziya kanallarının məktəblərlə işgüzar və yaradıcı əlaqələrini gücləndirmək;
5. Bədii-estetik silsiləyə aid olan televerilişlərin və sənədli filmlərin təbliğinin genişləndirilməsi;
6. Təhsil Nazirliyinin müvafiq qurumları və ya yerli təhsil şöbələri vasitəsilə məktəbləri telekanalların illik tematik planları, həmçinin verilişlərin aylıq annotasiya planları ilə tanış edilməsi;
7. İncəsənətin mühüm bir növü kimi televiziyanın dili, spesifikliyi və estetika üzrə xüsusi mövqeyi üzrə verilişlərin və müvafiq proqramların təşkili.

Aparılan tədqiqatlar belə bir yüksək fikir söyləməyə əsas verir ki, indiki dövrdə televerilişlər vasitəsilə yeniyetmələrin, şagirdlərin estetik mədəniyyətinin formalaşmasında və yüksəldilməsində aşağıdakı mövzulara üstünlük verilməlidir:

1. Estetikanın başlıca kateqoriyası olan gözəlliyin mahiyyəti üzrə. Gözəllik ətraf aləmdir. Təbiət gözəllik mənbəyidir. Bunları duymaq, daha da artırmaq hamının borcudur.
2. İncəsənət və həyat. Əsl incəsənəti xalq yaradır. Ana laylasından simfonik poemalaradək. İncəsənətin növ və janrları. İncəsənət ən qüdrətli estetik təsir vasitəsidir.
3. Ünsiyyət, davranış estetikası. Ailədə, qonaqlıqda, iş yerində, ictimai

yerlərdə gözəl davranış. Adamlarla ünsiyyət mədəniyyəti başlıca estetik şərtdir.

Müasir dövrdə şagirdlərin mənəvi təkamülündə və tərbiyəsində ilk növbədə ədəbiyyat və incəsənət mühüm rol oynayaraq cəmiyyət üzvlərinin mənəvi dünyasına çox güclü ideya-estetik təsir göstərməklə yanaşı, sosial-mədəni tərəqqinin mühüm göstəricilərindən birinə çevrilir. Belə ki, yeni, demokratik, humanist cəmiyyət quruculuğunda bədii mədəniyyət, incəsənət, bəzilərinin düşündüyü kimi, heç də köməkçi unitar vasitə olmayıb, insan həyatının, onun mənəvi aləminin ən qüdrətli vasitələrindən biridir. İndiki dövrdə bədii-estetik tərbiyənin əsas məqsədi hər bir insana, xüsusən gənclərə sağlam estetik zövq aşılamaqdan, onun mənəvi dünyasını daha da zənginləşdirməkdən ibarətdir. İdeya təsiri vasitələri arasında incəsənətin üstünlüyü məhz onun obrazlılığı, konkret əyaniliyi və emosionallığındadır. İncəsənətin əsas məziyyəti insanların ən sadə hisslərindən başlamış onun həyəcan, təəssürat, əhval-ruhiyyə və intim hisslərinədək bütün psixi aləminin rəngarəngliyi və zənginliyinədək ona nüfuz etməsindədir. Əsl sənətkar insanın ahəngdar inkişafına kömək edən yeni mənəvi xarakterlərin ən yaxşı tərbiyəçisidir. Böyük söz ustadı Lev Tolstoyun təbirincə desək, "İncəsənət elə bir mikroskopdur ki, sənətkar onu öz qəlbinin sirlərinə doğru tuşlayır və bununla bütün insanlar üçün ümumi olan sirləri göstərir" [1, s.12]. Çox doğru deyilmişdir.

Bu cəhətdən bədii mədəniyyət və dünyaya pəncərə olan televiziyanın obrazlılığı bir-birini tamamlayır. Odur ki, güclü estetik təsir imkanlarına malik ədəbiyyat və incəsənət xadimlərinin ən yaxşı əsərlərindən nümunələrə dair televiziya verilişlərinin müntəzəm olaraq təşkil edilməsi məqsədəuyğundur. Çünki bu gün də bədii televerilişlərin şagirdlərin estetik mədəniyyətinin yüksəldilməsinə təsiri pedaqoji problem kimi aktualdır.

## ƏDƏBİYYAT


1. *Əhmədov N.* Yeniyetmələrin estetik tərbiyəsi. Bakı: Elm, 1974, 32 s.
2. *Quliyev E.H.* Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı: İşıq, 2004, 236 s.
3. *Xudiyev N.* Radio, televiziya və ədəbi dil. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2001, 649 s.
4. *Абека-Нюнде Селестине.* Роль телевидения в формировании личности молодого человека: Автореф. канд. ... фил. наук. М: 1980, 165 с.
5. *Аскерзаде Г., Таваккюльоглы А.* История Азербайджанской журналистики. Баку: «ABC poligraf», 2015, 455 с.


Redaksiyaya təkrar daxil olub 07.04.2021

*УДК 37*

***Р.А.Халилов***
*Филиал МГУ им.М.В.Ломоносова*
*puroshottama999@yandex.ru*

# ГУМАННО-ЛИЧНОСТНЫЙ ПОДХОД К ДЕТЯМ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ: ПЕДАГОГИЧЕСКАЯ СИМФОНИЯ В ИСПОЛНЕНИИ Ш.А.АМОНАШВИЛИ

***Ключевые слова:*** *гуманная педагогика, гуманизм, мораль, философия, духовность, образование, воспитание*

В статье рассматриваются актуальные проблемы гуманной педагогики, а также современное состояние образования. Обращается внимание на необходимость изучения педагогического опыта прошлых лет, его переосмысление по отношению к современному образованию. Одним из важных аспектов педагогической деятельности является владение педагогическими технологиями с целью изучения и активизации учебной и воспитательной деятельности ученика. Рассматриваются некоторые аспекты педагогической технологии "Гуманно-личностный подход к детям в образовательном процессе" Амонашвили Ш.А. Какие бы условия мы ни определяли для качественного и перспективного обновления мира образования, основа будет заключаться в смене парадигмы педагогического сознания: если сознание учителя примет категорию духовности как определяющую, то постепенно произойдет переориентация на новые ценности образования, на ценности гуманной педагогики.

***R.Ə.Xəlilov***

# TƏHSİL PROSESİNDƏ UŞAQLARA HUMANİST ŞƏXSİYYƏTYÖNÜMLÜ YANAŞMA: Ş.A.AMONAŞVİLİNİN PEDAQOJİ SİMFONİYASI

***Açar sözlər:*** *humanist pedaqogika, humanizm, əxlaq, fəlsəfə, mənəviyyat, təhsil, tərbiyə*

Məqalədə humanist pedaqogikanın təhsilin müasir vəziyyəti və humanist pedaqogikanın aktual problemləri araşdırılmışdır. Ötən illərin pedaqoji təcrübəsinin öyrənilməsi, onun müasir təhsillə əlaqədar yenidən düşünülməsinin vacibliyinə diqqət çəkilir. Pedaqoji fəaliyyətin vacib cəhətlərindən biri də müəllilmlərin şagirdlərin təlim və tərbiyə fəaliyyətini öyrənmək və inkişaf etdirmək üçün pedaqoji texnologiyalara yiyələnməsidir. Məqalədə Ş.A.Amonaşvilinin "Təhsil prosesində uşaqlara humanist-şəxsiyyətyönümlü yanaşma” pedaqoji texnologiyasının bəzi aspektlərinə nəzər yetirilir.
Hər hansı bir şəraitdən asılı olmayaraq əsas məqsəd pedaqoji şüur paradiqmasını dəyişdirmək olacaqdır: əgər müəllim mənəviyyatı əsas müəyyənləşdirici amil kimi qəbul edərsə, tədricən yeni təhsil dəyərlərinə və humanist pedaqogika dəyərlərinə yenidən istiqamətlənmə olacaqdır.

***R.A.Khalilov***

# HUMAN AND PERSONAL APPROACH TO THE CHILDREN IN THE EDUCATIONAL PROCESS: PEDAGOGICAL SYMPHONY BY Sh.A.AMONASHVILI

***Keywords:*** *humane pedagogy, humanism, morality, philosophy, spirituality, education, upbringing*

This article considers the actual problems of humane pedagogy, as well as the current state of education. Attention is drawn to the need to study the pedagogical experience of past years, its rethinking in relation to modern education. One of the important aspects of pedagogical activity is the mastery of pedagogical technologies in order to study and enhance the educational and educational activities of the student. Some aspects of the pedagogical technology "A humane and personal approach to children in the educational process" Amonashvili Sh.A. Whatever conditions we define for a high-quality and long-term renewal of the world of education, the basis will be to change the paradigm of pedagogical consciousness: if the teacher's consciousness accepts the category of spirituality as defining, then gradually there will be a reorientation towards new values of education, towards the values of humane pedagogy.

Сегодня, когда одной из главных задач является развитие личности, способной адаптироваться к быстро меняющемуся социуму сильно возрастает роль гуманного учителя, который взращивает в учениках духовность, благородство, великодушие. Именно с таким учителем произошла незабываемая встреча на 13-х Международных Педагогических Чтениях, проходивших в Тбилиси 21-23 марта сего года. Тринадцатые Международные Педагогические Чтения по Гуманной педагогике на тему «Учитель» проходили в Тбилисском государственном университете имени Иване Джавахишвили. Чтения проходили по предложению и под патронажем президента Грузии Георгия Парменовича Маргвелашвили. Они собрали более 700 участников из 18 стран: России, Грузии, Латвии, Литвы, Эстонии, Украины, Белоруссии, Азербайджана, Казахстана, Финляндии и др.

С приветственным словом к участникам Чтений выступили: президент Грузии Г.П.Маргвелашвили, министр образования и науки Грузии Тамар Саникидзе, поэтесса Марианна Озолиня, Рыцарь гуманной Педагогики (Рига, Латвия), В.Г.Александрова, доктор педагогических наук, профессор, главный научный сотрудник лаборатории гуманной педагогики Московского городского педагогического университета, Владимир Папава, докторнаук, профессор, ректор Тбилисского Государственного Университета им. Иване Джавахишвили, В.В.Рябов, президент ГОУ ВПО МГПУ, профессор, доктор исторических наук, член-корреспондент РАО, К.Т.Султанов, президент Дагестанского Республиканского центра гуманной

педагогики (Дербент, Дагестан) и другие. Очень впечатляющим было открытие педагогических Чтений председателем Шалвой Александровичем Амонашвили, Почётным президентом МЦГП, академиком Российской Академии образования, дважды лауреатом премии Правительства РФ в области образования, почётным доктором Софийского университета имени Св. Климента Охридского, заслуженным профессором Московского городского педагогического университета. Имя Шалвы Александровича Амонашвили – известного ученого, профессора, доктора психологии и педагогики знают далеко за пределами бывшего Советского Союза. В 60-70-х годах он возглавил массовый эксперимент в школах Грузии, который получил широкий отклик во всем мире как новое научное направление гуманно-личностного подхода к детям в образовательном процессе. В то время были написаны его книги "Здравствуйте, дети!", "Как живете, дети?", "Единство цели", объединенные позже в трилогию под названием "Педагогическая симфония". В настоящий момент он работает над изданием Антологии гуманной педагогики (вышло более 40 томов). В свои 90 лет много ездит, проводит семинары по собственной системе "Школа жизни" во многих городах России, странах СНГ, в прибалтийских республиках, Болгарии, Чехии и Словакии. Только в России по этой системе действует 140 лабораторий.

Международная общественная организация «Международный Центр Гуманной Педагогики» создана в результате свободного волеизъявления граждан, объединившихся на основе общих интересов, независимо от их национальности, вероисповедания и социального положения, стремящихся проводить в жизнь идеи и принципы гуманно-личностного подхода к образовательному процессу. Деятельность Центра направлена на реализацию и широкую пропаганду разработок академика Ш.Амонашвили по гуманной педагогике, авторские основы которой базируются на творческом наследстве классиков мировой педагогики Г.Сковороды, Г.Пирогова, А.Макаренко, В.Сухомлинского, Л.Толстого, К.Ушинского, Я.Коменского, Д.Узнадзе, М.Монтессори, С.Гессена, И.Песталоцци и многих других светочей человечества.

Вопросы, связанные с новой концепцией образования, стали особенно актуальными в период глубокого кризиса, переживаемого обществом в последние десятилетия во всех областях жизни, когда вопрос воспитания будущего поколения стал одним из важнейших для дальнейшего развития и существования страны. Сегодня родители не знают, как воспитывать своих детей, а учителя нередко становятся в тупик, переставая понимать, чему и как можно учить школьников, когда жизнь успешно учит их совершенно иным и далеко не лучшим ценностям. Вместе с тем, многие и многие учителя хотели бы гуманизировать образование, перейти к более демократичным

формам общения с детьми, внести человеческое измерение в педагогический процесс. Но как это сделать? Ведь доступного опыта в сфере гуманной педагогики мало? Как быть?

В связи с методологическим новаторством системы образования, хочется обратиться к гуманной педагогике, образовательная концепция которой построена на гармоничном и равноправном союзе и содружестве Учителя и Ученика, где Истина, Мудрость и Красота – есть естественное состояние души и сердца опытного наставника, и открытого для восприятия ребенка, потому что союз учителя и ученика – это присутствие духа сотворчества в познании универсальных законов бытия.

Ш.Амонашвили напоминает учителям, что процесс образования должен полностью быть пропитан возвышенными и утонченными образами, которые питают душу и сердце ребенка и ведут его к раскрытию и проявлению заключенного в нем самом собственного духовного образа. Образование не есть лепка человека с определенными качествами без участия самого человека, идущего по пути развития, взросления и свободы. Образование есть процесс питания души и сердца ребенка всеми лучшими, (высшими, возвышающими, одухотворяющими) плодами человеческой культуры».

**Что же такое «гуманная педагогика»?**

Гуманное педагогическое мышление таит в себе возможность для постоянного обновления жизни школы, для многогранной творческой деятельности учителя и учительских коллективов. Своими основными постулатами – верой в возможности ребенка, раскрытие его самобытной природы, уважение и утверждение его личности, направленность на служение добру и справедливости – гуманное педагогическое мышление зажигает искры для рождения новых педагогических систем в зависимости от конкретных исторических, социальных, национальных и экономических условий, способствует возникновению личного творческого педагогического опыта, «своих методов и форм».

Система гуманно-личностного подхода вдохновляет учителя на создание такого образовательного процесса, в котором Ребёнок в самой жизни научается менять, улучшать, совершенствовать условия этой жизни, повышать её качество, а не приспосабливаться к уже сложившимся условиям. Источником такого стремления должна стать высокая духовность.

О смысле и значении гуманной педагогики Ш.А.Амонашвили пишет: «Гуманная педагогическая мысль, испокон веков сопровождая человечество, напоминает о непреложности воспитания Души и Сердца, и через них раскрытия личности человека, его талантов, интеллекта, его неповторимости. Испокон веков призывает она к служению планетарной и космической эволюции, испокон веков ищет она свой момент истины. Для многих

величайших мыслителей человечества, для многих учителей прошлого и сегодняшнего дня гуманное педагогическое мышление стало основой их мировоззрения и творчества. Вот почему Эпоха Сердца и Духовности, Взаимности и Любви, в которую вступает человечество, требует глубокого обновления всего образовательного процесса, основой которого является гуманное педагогическое мышление.

Изначальный смысл слова Воспитание, по всей вероятности, заключен в синкретности его составных. В качестве составных выступают «ось» и «питание»: в-ос-питание; то есть «воспитание» объединяет в себе целостную идею о питании оси. О какой оси идет речь? Если исходить из того, что школа есть скалистая лестница для восхождения (опять: в-ос-хождение) души и духовности человека, то самое фундаментальное понятие педагогики – Воспитание – должно означать: питание духовной оси, питании души. То есть в школе через питание оси происходит восхождение, становление того самого главного в человеке, что и составляет всю суть его личности – души и духовности. В-ос-питание, питание духовной оси человека, находящегося на пути становления, должно опережать знания, оно как бы заготавливает ферменты очеловечивания и облагораживания знаний и тем самым просветляет ум.

Как можно осмыслить понятие Образование? Воспитание, как процесс питания духовной оси, требует своих питательных ферментов. Естественно, для питания духовной оси будут нужны не обычные, скажем, биологические вещества, а именно духовные ферменты. Такими могут стать образы любви, красоты, устремленности, доброты, преданности, творчества, мужества, мастерства, созидания, сочувствия, сорадости, сопереживания, благоразумия, нравственности; знания, озаренные сердцем и духом; стремление к благу с помощью знаний, стремление к углублению в знаниях; знания в виде высших законов природы, Вселенной, веществ, Гармонии; высшие творения разных искусств; образы человеческого общения; образы добромыслия, ясномыслия, благомыслия, ответственности за свои мысли; образы словесности и речи; образы расширенного сознания, образы целенаправленной деятельности; образы, рожденные в процессе саморазвития, самопознания, самосовершенствования; образы материального и духовного плана; образы, рожденные мировоззрением и верой, а носителем этих ценностей является опять-таки учитель; общаясь с детьми, он постоянно излучает высшие духовно-нравственные и познавательные образы. В то же время нельзя переоценивать и роль социальных факторов формирования личности. Еще Аристотель писал, что "душа – есть неисписанная книга природы, опыт наносит на ее страницы свои письмена". Д.Локк считал, что человек рождается с душой чистой, как доска, покрытая воском. Воспитание пишет на этой доске, что ему

заблагорассудится (tabula rasa). Французский философ К.А.Гельвеций учил, что все люди от рождения обладают одинаковым потенциалом для умственного и нравственного развития и различия в психических особенностях объясняются исключительно различным влиянием среды и различными воспитательными воздействиями [5].

Гуманно-личностный образовательный процесс принимает ребенка таким, какой он есть, напитывая созидательной, творческой любовью; ибо каждый предмет познается в полной мере только при любви, каждая трудность побеждается силой любви. Тем самым образовательный процесс создает лучшие условия для выявления его будущей личности, напутствуя на поиск своей миссии.

Гуманно-личностный образовательный процесс строится на целостности природной составляющей ребенка. С момента зачатия и сразу после рождения Природа в течение длительного времени продолжает свое становление в ребенке, очеловечивает и окультуривает себя в нем. Ребенок развивается по законам Природы, по ее календарному плану. Природа движется по пути обретения своей единственности и неповторимости в лице каждого данного ребенка, по пути обретения заданной ему формы и наращивания заданных ему ресурсов.

**Авторитарность нынешней педагогики**

Известный американский психолог Гарднер Мэрфи красноречиво выразил значимость изучения личности для нашей жизни: «Недостаток знания о людях – это не пустая, а главная угроза жизни». Сегодня, как говорит Ш.А.Амонашвили, в учебных заведениях, да и не только, повсюду царит авторитарная педагогика.

Примечательно, что для авторитарно направленной педагогики одна из важнейших проблем – это дисциплина. Ученик обязан учиться, он обязан слушаться – вот предварительное условие такого обучения. Поэтому педагогический процесс уподоблялся диктанту. Детям диктуется не только текст для проверки знания правил грамматики, но и вся жизнь. Им диктуются знания, нравственность, оценки действительности, убеждения. Отчетность школы с помощью отметок, то есть цифровыми показателями так называемой академической успеваемости учеников, стала главной мерой при определении качества всей работы.

Методические разработки для учителей составлялись, как правило, без учета детей, которые населяют этот процесс, без учета того, как их увлечь, как зажечь в них творческую искру, познавательную страсть.

Скудость мотивов обучения, непосильность домашних заданий, ущемление достоинства, лишение собственной мысли породили у учащихся неприязнь к учителям, отвращение к школе, к школьной жизни. Академик А.Х.Мирзаджанзаде отмечал: «Учителю необходимо при трудностях учения

показывать ученикам перспективу, а не угрожать, например, сессионными оценками. Нельзя забывать, что экзамен – это и проверка знаний, и проверка отношения к знаниям». Он также считал, что будущее науки, искусства, производства зависит от того, насколько внимательны и осторожны учителя в обращении с учениками, которые могут оказаться и талантливее своего учителя.

Говорят: «Учитель не тот, кто учит, а тот, у кого учатся». Поэтому за судьбу учеников во многом отвечают их учителя.

Кто-то скажет: «Это школа, это жизнь сделала людей такими». Выходит, школа не смогла воспитать устойчивость в своих учениках, устойчивость перед грубым насилием, соблазнами, нечестностью…Но лучше прямо сказать: школа не воспитывала личность, но внушала молодым людям чувство слепой верноподданности перед идеологической властью. Трудно сказать, насколько возрос бы творческий уровень нынешнего поколения людей, если бы каждый из них воспитывался и развивался в гуманной демократической, а не авторитарной педагогике, в условиях утверждения его личности. Как говорит ректор одного из лучших университетов в Индии Шри Сатья Саи Баба: «Глупо думать, что вы должны получить образование для того, чтобы иметь работу. В настоящее время образование ориентирует на получение работы, что даёт средства к существованию, а не на то, как надо жить. Образование должно учить человека, что такое жизнь и какова её цель. Оно должно очищать сердце и прояснять видение. Оно должно предотвращать осквернение руки, сердца и головы из-за привычки оскорбительного отношения к человеку, обществу и нации. Оно должно развивать добродетели и поднимать моральный и духовный уровень образованных людей».

Вернадский писал: «Нельзя отложить заботу о вечном и великом на то время, когда будет достигнута для всех возможность удовлетворения своих элементарных нужд. Иначе будет поздно. Мы дадим материальные блага в руки людей, идеалом которых будет – "хлеба и зрелищ". Есть, пить, ничего не делать, наслаждаться любовью. Неужели учитель может удовлетвориться, когда он будет воспитывать Скалозубов, Молчаливых, жадных до денег банкиров, развратных жуиров, обжор, эгоистов». Все проблемы в мире связаны с тем, что люди, ответственные за образование, не имеют программы обучения учащихся основам культуры. Если ученикам не будут прививать навыки нравственной и духовной жизни, давая им только специальность, они будут представлять опасность, как для себя самих, так и для других людей. Сейчас ведутся споры о том, на каком языке нужно преподавать в школах, но никто не говорит о языке сердца, использующего слова любви и идеи самопознания и самопожертвования. Великий хирург, мыслитель, профессор, педагог Н.И.Пирогов также отмечал, что все

общественные нравы того времени, даже печальный исход войны зависели, главным образом от недостатков воспитания и образования того времени. Воспитание должно указать цель жизни, наше назначение в жизни, наши стремления и искания. Надо стать прежде всего людьми, между тем господствующее в обществе направление является каким-то меркантильным, прикладным. С ранних лет ребенка готовят к какой-то карьере, к большому жалованью, к тепленькому местечку. При таком направлении общества между ним и человеком, стремящимся к высокому и святому, возникает разлад.

Человек с притязанием на ум, чувство и нравственную волю ищет разрешения роковых вопросов жизни в самопознании. Познать себя – значит осознать в себе наличность наружного и внутреннего человека, между которыми идет непрерывная борьба. Воспитание должно сделать нас людьми. «Не спешите с вашей прикладной реальностью. Дайте созреть и окрепнуть внутреннему человеку; наружный успеет еще действовать; он, выходя позже, но управляемый внутренним, будет, может быть, не так ловок, не так сговорчив и уклончив, как воспитанники реальных школ; но зато на него можно будет вернее положиться; он не за свое не возьмется. Дайте выработаться и развиться внутреннему человеку! Дайте ему время и средства подчинить себе наружное, и у вас будут и негоцианты, и солдаты, и моряки, и юристы; а главное, у вас будут люди и граждане», - писал Н.И.Пирогов.

В наше время школы и колледжи вбивают в головы учеников лишь голые факты и гипотезы. Учащихся не готовят к тому, чтобы они могли смело встречать все превратности судьбы, развивать свои лучшие качества и активно служить обществу.

**Необходимость гуманной педагогики сегодня**

Какие бы условия мы ни определяли для качественного и перспективного обновления мира образования, основа будет заключаться в смене парадигмы педагогического сознания: если сознание учителя примет категорию духовности как определяющую, то постепенно произойдет переориентация на новые ценности образования, на ценности гуманной педагогики.

Вопросы, связанные с новой концепцией образования, стали особенно актуальными в период глубокого кризиса, переживаемого обществом в последние десятилетия во всех областях жизни, когда вопрос воспитания будущего поколения стал одним из важнейших для дальнейшего развития и существования страны.

Такая смена парадигмы сегодня наблюдается в Казахстане, где активно функционирует и действует уже зарекомендовавшая себя программа «Самопознание», созданная по инициативе первой леди Казахстана Сары Назарбаевой. Эта программа официально принята на

государственном уровне. В официальных документах этот инновационный проект по возрождению нравственно-духовных ценностей, представлен как проект, направленный на формирование целостной гармоничной личности казахстанского общества и решает задачи личностно-ориентированной гуманной педагогики и учит простым истинам, как стать Человеком, как построить добрые взаимоотношения с другими людьми, с окружающим миром, как жить в гармонии с собой и быть успешным, сохраняя достоинство и человечность даже в самых сложных жизненных ситуациях. Все это ещё раз свидетельствует о том, что важным концептуальным подходом в сфере образования должна быть гуманизация. Одним из 10 принципов Образования Азербайджанской Республики является гуманизация. Сегодняшнее образование должно ратовать за развитие всесторонне развитой личности, сочетающей в себе духовно-нравственное, гражданское и физическое совершенство. Важно, что действенность программы «Самопознание» в Казахстане осуществляется не только через воспитателей и педагогов, а вовлекаются и родители. Их знакомят с методикой воспитания в детсаде и рекомендуют использовать его элементы в домашних условиях.

И все-таки главным звеном новой системы образования был и остается Учитель. Как мудро заметил известный немецкий педагог Адольф Дистервег, «ни одна книга не должна и не может заменить духа учителя» и «самым важным явлением в школе, самым поучительным предметом, самым живым примером для ученика является сам учитель». Еще Дмитрий Менделеев отмечал: «К педагогическому делу надо призывать, как к делу морскому, медицинскому или тому подобным, не тех, которые стремятся только обеспечить свою жизнь, а тех, которые чувствуют к этому делу и к науке сознательное призвание и предчувствуют в нем свое удовлетворение».

Три дня педагогических чтений прошли как один. Непрерывный хоровод событий, лиц, впечатлений. "Учитель – душа, носитель и даритель Света!" - в этой фразе вся суть происходящего. Не передать словами ощущения радости, надежды, вдохновения!

Мы глубоко убеждены в том, что если мы уже сегодня начнем сеять семена гуманной педагогики на всех уровнях образования в нашей стране, то очень скоро сможем ощутить плоды этого процесса. Леонардо да Винчи писал: "*Если запастись терпеньем и проявить старание, то посеянные семена знаний непременно дадут добрые всходы*". Когда я спросил у Ш.А.Амонашвили о возможности провести семинары по гуманной педагогике в Азербайджане, он сразу же дал положительный ответ, добавив при этом, что свои первые семинары он проводил именно в Баку еще в годы советской власти.

Дух гуманного педагогического процесса не поддается яркому

словесному описанию, его невозможно показать наглядно, но его можно прочувствовать всем сердцем, всей душой, настроившись на "педагогическую симфонию", в исполнении Ш.А.Амонашвили лейтмотивом которой неизменно остается любовь к детям, чуткое отношение к нежной душе ребенка.

В заключении хотел бы привести «Десять заповедей воспитателя» Ш.А.Амонашвили.

## ДЕСЯТЬ «ЗАПОВЕДЕЙ» ВОСПИТАТЕЛЯ

1. Воспитание должно быть только гуманным. Главный принцип такого воспитания – расположить ребенка к воспитательному процессу, сделать его нашим добровольным помощником в своем же воспитании.
2. Общение – суть жизни людей. Главный метод гуманного воспитания – доставлять ребенку радость общения с нами: радость совместного познания, совместного труда, игры, отдыха.
3. Обычная повседневная жизнь и характер взаимоотношений взрослых – это среда, в которой развивается личность человека будущего. Потому очень важно, чтобы наша жизнь, наше общение друг с другом как можно больше соответствовали тому идеалу, который мы стремимся вселить в ребенка.
4. Вера в людей, в собственную жизненную позицию – это первооснова для полнокровного общения между людьми и возвышения личности. Поэтому мы обязаны развивать и беречь в ребенке веру в нас, в своих воспитателей, веру в своих товарищей, веру в людей, веру в самого себя.
5. Уважение к личности каждого ребенка, воспитание у детей чувства заботы о товарищах, близких, людях вообще.
6. Человек может проявлять и развивать в себе все свои способности и дарования и быть счастливым только тогда, когда он чувствует себя нужным, когда его искусственно не возвышают и не унижают.
7. Ребенок – импульсивное существо, ему трудно понять нас. Это мы, воспитатели, обязаны понять ребенка и строить наши планы с учетом движения его души.
8. Воспитание – скрытый и длительный процесс, и мы должны проявлять проницательность, последовательность и терпение.
9. Нами должны руководить чуткость, отзывчивость, доброта души, любовь, нежность, непосредственность, постоянная готовность прийти на помощь, чувство сопереживания. Все это должно сочетаться с требовательностью к самому себе и к ребенку, с чувством ответственности за будущее.
10. Решительный отказ от авторитарности и императивности и таких форм их проявления как крик, брань, ущемление достоинства, насмешка,

грубость, угроза, принуждение.

**ЛИТЕРАТУРА**

1. *Амонашвили Ш.А.* Педагогическая симфония. Москва, 2011, 145 с.
2. *Вернадский В.И.* Антология гуманной педагогики. М.: Из-дат. Дом Шалвы Амонашвили: МГПУ, 2001, 223 с.
3. *Мирзаджанзаде А.Х.* Этюды гуманитаризации образования. Баку: Азернешр, 1993, 406 с.
4. *Пирогов Н.И.* Избранные педагогические сочинения. М.: Педагогика, 1985, 493 с.
5. *Сластенин В.А. и др.* Педагогика: Учеб. пособие для студ. высш. пед. учеб. заведений / В.А.Сластенин, И.Ф.Исаев, Е.Н.Шиянов; Под ред. В.А. Сластенина. М.: Издательский центр "Академия", 2002, 576 с.
6. Сатья Саи Баба / http://sai.org.ua/ru/80.html

Redaksiyaya daxil olub 01.05.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası – 2021, C.69, №2, s. 215-223
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 215-223

*UOT 37:001*

***M.İ.İlyasov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*museyibilyas@gmail.com*

# "PEDAQOJİ UNİVERSİTET-MƏKTƏB" SİSTEMİNDƏ ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN FORMALAŞDIRILMASI

***Açar sözlər**: sistem, peşəyönümü, müəllim, məktəb, maraq*

Məktəbin qarşısında duran ən mühüm məqsədlərdən biri şagirdlərin peşəyönümünün düzgün təşkili və onların peşə seçiminin elmi şəkildə həll edilməsidir. Son illər bu sahədə müəyyən irəliləyişlərin olmasına baxmayaraq şagirdlərin pedaqoji peşəyönümünün təşkilində və orta məktəb məzunlarının müəllimlik peşəsinə yönəldilməsində bəzi nöqsanlar hələ də qalmaqdadır. Məzunların peşə seçimi probleminin çox hallarda onların topladıqları balların nəticələri ilə "həll olunması" müəllim peşəsi seçən gənclərin heç də hamısının bu sahədə seçiminin maraqları və qabiliyyətləri əsasında olmadığını göstərir. Buna görə də şagirdlərin pedaqoji peşəyönümü üzrə işlərin aparılmasında ali pedaqoji təhsil müəssisələrinin köməyinin təşkili və bu prosesdə fəal iştirak etmələri olduqca əhəmiyyətlidir. Pedaqoji peşəyönümünün "Pedaqoji universitet-məktəb" sistemində təşkil edilməsi məktəbin ən yaxşı şagirdlərinin müəllim peşəsi seçmələrinə əsaslı təsir göstərə bilər. Bunun müsbət nəticəsi isə ölkənin təhsil səviyyəsinin yüksəldilməsidə özünü göstərər.

***М.И.Ильясов***

# ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОЙ ПРОФОРИЕНТАЦИИ ШКОЛЬНИКОВ В СИСТЕМЕ «ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ-ШКОЛА»

***Ключевые понятия:** система, профориентация, преподаватель, школа, интерес*

Одна из важнейших целей средней школы – правильная организация профориентации школьников и научное решение их выбора профессии. Несмотря на некоторый прогресс в этой области за последние годы, еще существуют некоторые недостатки в организации педагогической профессии учащихся и ориентации выпускников средних школ на профессию учителя. Тот факт, что проблема выбора профессии выпускником часто «решается» по результатам набранных баллов, показывает, что не все молодые люди, выбирающие профессию учителя, руководствуются своими интересами и способностями в этой сфере. Поэтому очень важно организовать содействие высших педагогических учебных заведений в профориентации школьников по педагогической профессии и принять активное участие в этом процессе.

Организация профориентации педагогической профессии в системе «Педагогический университет-школа» может существенно повлиять на выбор лучших учащихся школы педагогической профессии. Положительный результат от этого выражается в повышении уровня образования в стране.

***M.I.Ilyasov***

## FORMATION OF CAREER ORIENTATION OF STUDENTS IN THE "PEDAGOGICAL UNIVERSITY-SCHOOL" SYSTEM

***Keywords:*** *system, career orientation, teacher, school, interest*

One of the most important goals of the school is the proper organization of students' careers and the scientific solution of their career choices. Despite some progress in this area in recent years, there are still some shortcomings in the organization of the pedagogical profession of students and the orientation of high school graduates to the teaching profession. The fact that the problem of graduates' career choice is often "solved" by the results of their scores shows that not all young people who choose the teaching profession are based on their interests and abilities in this field. Therefore, it is very important to organize the assistance of higher pedagogical educational institutions in the work of students in the pedagogical profession and to take an active part in this process. The organization of the pedagogical profession in the "Pedagogical University-school" system can have a significant impact on the choice of the best students of the school for the teaching profession. The positive result of this is reflected in raising the level of education in the country.

Müasir məktəbin qarşısında duran ən mühüm vəzifələrdən və mürəkkəb problemlərdən biri "təhsilalanların istedad və qabiliyyətlərinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması" [3, s.29] probleminin şüurlu şəkildə həll edilməsidir. Bu, bütövlükdə cəmiyyətin sosial və iqtisadi həyatının və ayrı-ayrı şəxslərin gələcəyinin düzgün qurulması, həyatda hər kəsin öz yerini düzgün tapa bilməsi ilə birbaşa bağlı olduğundan ona təkcə orta məktəb kollektivinin deyil, həm də bütün insanların maraqlı olması olduqca vacibdir. Bu sahədə xüsusi həssaslıq tələb edən, cəmiyyətin tərəqqisi, inkişafı və güclü olması ilə birbaşa bağlı olan problemlərdən biri, həm də birincisi məktəbdə **pedaqoji peşəyönümünün**, şagirdlərin müəllim peşəsinə maraq və meylinin inkişaf etdirilməsidir. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın təhsilimizin qarşısında qoyduğu bir çox taleyüklü vəzifələrin [2] yerinə yetirilməsində bu problemin elmi şəkildə həll edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Fərəhli haldır ki, son bir-iki ildə orta məktəb məzunları arasında müəllim peşəsinə maraq göstərən məzunların təkcə sayında deyil, həmçinin onların buraxılış və qəbul imtahanlarında topladıqları ballarda da artım, yüksəliş müşahidə

olunmaqdadır. Son beş ilə qədərki illərdə pedaqoji təhsil müəssisələrinə qəbul olunan abituriyentlər arasında 500 və ondan bir qədər çox bal toplayanların sayı çox cüzi olduğu halda, indi bu sahədə göstəricilər çox yüksəkdir. Xüsusən Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunanlar arasında hətta 600 baldan yuxarı nəticə göstərən abituriyentlərin də sayı çoxalmışdır. Belə bir faktı xatırlamaq yerinə düşər ki, 2014-2015-ci tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olan abituriyentlər arasında qəbul imtahanlarında 500-dən yüksək bal toplayanların sayı cəmi 20 nəfər olmuşdursa, 2018-2019-cu tədris ilində bu göstərici 566 nəfər olmuşdur. 2017-ci ilə nisbətən 2018-ci ildə yüksək balla ADPU-ya qəbul olanların sayı 46 faiz çox olmuşdur. Bunlar bir tərəfdən ölkəmizdə müəllim peşəsinin nüfuzunun yüksəldilməsi istiqamətində aparılan işlərin, digər tərəfdən məzunların işlə təmin olunmaları imkanlarının genişliyi və başqa bir tərəfdən isə orta məktəblərdə pedaqoji peşəyönümü üzrə müəllimlərin apardıqları işlərin nəticəsi kimi dəyərləndirilməlidir. Lakin onu da qeyd etmək zəruridir ki, bunları heç də kifayətləndirici hesab etmək olmaz. Bu sahədə daha yüksək müvəffəqiyyətlər əldə etmək üçün daha böyük imkanlar vardır və bunların reallaşdırılması üçün istər orta məktəblərdə, istərsə də ali məktəblərdə geniş işlər görülməlidir. Məktəb ən yaxşı məzunlarının məhz müəllim peşəsinə istiqamətləndirilməsi üçün pedaqoji peşəyönümü işlərini gücləndirməli və bu istiqamətdə çox işlər görməlidir. Ən perspektivli, yaradıcı düşüncəyə malik, öyrənməyə və öyrətməyə yüksək qabiliyyəti olan şagirdləri ilə müəllimlik peşəsi üzrə peşəyönümü işlərinin aparılmasına mühüm diqqət verməlidir [5, s.248-249]. Müəllim savadlı, yüksək peşəkarlıq və səriştəliliyə malik olarsa, onda onun hazırladığı şagirdlər də harada olurlarsa olsunlar, özlərini doğruldacaq və yüksək nəticələr göstərəcəklər. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Orta məktəbdə, ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır" (4, s.546). "Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik" [4, s.310].

Bu gün cəmiyyətimizdə məktəbə "gedib-gəlməsinə görə" müəllim adlandırılan və ya müəllimlik diplomu alıb başqa sahələrdə işləyən "müəllim"lərə deyil, "peşəsinə və şagirdlərə olan məhəbbətini özündə birləşdirən", əsl **müəllim olan müəllimlərə** böyük ehtiyac vardır. Məhz bu ehtiyacı təmin etmək üçün orta məktəblərdə pedaqoji peşəyönümü üzrə işlərin gücləndirilməsinə, bu işlərin davamlı və dayanıqlı olmasına ciddi yanaşılmalıdır. Bu işdə ali pedaqoji məktəblərin orta məktəblərlə sıx əməkdaşlığına, birgə fəaliyyət göstərmələrinə böyük önəm verilməlidir.

Pedaqoji peşəyönümü – gənclərin sərbəst və şüurlu şəkildə müəllim peşəsini seçməsinə nəzəri və praktik cəhətdən hazırlanmasını təmin edən sistemdir və sistemli fəaliyyətdir. Onun məqsədi gənclərin pedaqoji sahədə peşə seçiminin

şüurlu şəkildə həll edilməsindən ibarətdir. Məktəblərimizin dərin savadlı, bilikli, öz işini sevən, ondan zövq alan, yaradıcı, novator, həyatını gənc nəslin həyata hazırlanmasına həsr etməkdən qürur duyan müəllimlərlə təmin olunması və gənc nəslin təhsilinin daha etibarlı əllərdə olması olduğundan bu problemlə həm də müəllim hazırlığı ilə bilavasitə məşğul olan ali pedaqoji təhsil müəssisələrinin də yaxından məşğul olması zəruridir. **“Pedaqoji universitet-məktəb”** sistemində bu problemin həllində əməkdaşlığın gücləndirilməsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Peşəyönümü mürəkkəb və kompleks problemdir. Bu, özündə sosial, iqtisadi, psixoloji, pedaqoji, tibbi-fizioloji aspektləri birləşdirir və bunlar həm eyni zamanda, həm də bir-biri ilə qarşılıqlı əlaqədə təsir göstərir. Şagirdlərin pedaqoji peşəyönümündə də bunların nəzərə alınması və bu prosesə kompleks yanaşılması onun müvəffəqiyyətinin təmin edilməsinin əsas amillərindən biridir. Bunlarla yanaşı, peşəyönümü işlərində məqsədyönlülüyün və sistemliliyin təmin olunması, müxtəlif forma və metodlardan istifadə edilməsi də bu təminatda xüsusi yer tutur.

Pedaqoji peşəyönümü üzrə “Pedaqoji universitet – məktəb” sisteminin dəqiq mexanizminin olması, onun texnoloji tərəflərinin işlənilib hazırlanması çox vacibdir. Belə bir mexanizm olmadan aparılan işlərin epizodik və sistemsiz şəkildə olacağı şəksizdir. Buna görə də bu prosesə universitetin fəal rəhbərlik etməsi və onu özünün fəaliyyətinin bir hissəsi kimi qəbul etməsi olduqca zəruridir.

Şagirdlərlə pedaqoji peşəyönümü işlərinin aparılması məktəbin ümumi peşəyönümü sistemində əsas yerlərdən birini tutur. Bu sistemin əsas komponentləri olan peşə maarifi, peşə məsləhəti, peşələr üzrə seçmə, ilkin peşə adaptasiyası və peşə tərbiyəsi məktəbin pedaqoji peşəyönümü işində də əsas götürülməli və işlərin bu sistemdə mərhələlər üzrə aparılması onun nəticəyönümlülüyünün əsas təminatından biridir.

Təcrübə göstərir ki, şagirdlərdə müəllimlik peşəsinə maraq ilk növbədə ailədə yaranır və məktəb illərində bu maraq ya daha da inkişaf edir, ya da öz yerini başqa peşə və ixtisaslara verir. Məktəb dövründə, tədrisin, müəllimlərin təsiri ilə yaranan maraqların da dairəsi heç də kiçik deyildir. Lakin maraq və motivlərin nəyin və kimin təsiri ilə yaranmasına deyil, başlıca diqqətin onların inkişaf etdirilməsinə yönəldilməsi bu prosesin rentabelliyində əsas yer tutur.

Orta məktəbdə şagirdlərin pedaqoji peşəyönümünün inkişaf etdirilməsinin əsas amillərindən biri bu sistemə müvafiq olaraq metodların düzgün seçilməsi və tətbiq edilməsidir. Bu baxımdan mövcud metodların belə bir sistemlə qruplaşdırılması və onların kompleks tətbiqinə nail olunmasını məqbul hesab etmək olar: 1) sorğu-məlumat və maarifləndirici metodlar; 2) psixodiaqnostik metodlar; 3) peşə seçiminə pedaqoji dəstək və mənəvi yardım metodları; 4) yekun qərarın qəbulu üçün seçilmiş metodlar.

Sorğu-məlumat və maarifləndirici metodların tətbiqində başlıca məqsəd iki bir-biri ilə bağlı olan problemin həll edilməsidir: 1) şagirdlərin peşələr, o cümlədən

müəllim peşəsi haqqında məlumatlılıq səviyyəsinin üzə çıxarılması; 2) onların məlumatlılıq səviyyəsinin yüksəldilməsi, seçiləcək peşəyə aid biliklərin dərinləşdirilməsi. Bura şifahi sorğu, test tapşırıqları, anket sorğusu, professioqramlarla tanışlıq, müşahidə, ekskursiya, videonümayişlərdən istifadə, "Mənim peşə vizionum", "Müəllim peşəsinin romantikası" və s. mövzularda esse və referatların yazdırılması mühümdür.

Psixodiaqnostik metodların tətbiqində məqsəd şagirdlərin peşə meyilləri ilə yanaşı, peşə yararlılığını, yəni maraq göstərdikləri müəllimlik peşəsinə həm psixoloji, həm də fizioloji cəhətdən yararlılıqlarının hansı səviyyədə olduğunu üzə çıxarmaqdan ibarətdir. Bunun üçün onlarla test yoxlamalarının və monitorinqlərin aparılması, esselərin yazılması, müəyyən anketlərdən istifadə etməklə sorğuların aparılması, psixofizioloji durumlarının müəyyənləşdirilməsi kimi tapşırıqların aparılması zəruridir. Psixodiaqnostik metodların tətbiqində qabaqcadan hazırlanmış xüsusi resursların olması bu prosesin daha etibarlı olmasını təmin edir.

Peşə seçiminə pedaqoji dəstək və mənəvi yardım metodlarının düzgün müəyyənləşdirilməsinin bu proses üçün əhəmiyyəti olduqca mühümdür. Burada şagirdlərin seçimini dəyərləndirmək, onlara psixoloji yardım və dəstək göstərmək şagirdlərin seçdikləri peşələrə daha dərindən bağlanmalarına səbəb olur. Bu metodların tətbiqində əsas məqsəd məhz bu seçimin təkcə şagirdin özü üçün deyil, cəmiyyətimiz üçün də nə dərəcədə faydalı olduğunu onlara dərk etdirmək, çətinliklərin aradan qaldırılmasında onlara yardımçı olmaqdan ibarətdir. Bunun üçün tibbi, psixoloji və pedaqoji peşə məsləhətlərinin aparılması, mümkün variantlardan istifadə etməklə onların pedaqoji peşə haqqında bilik və təsəvvürlərinin genişləndirilməsinə yardım edilməsi, seçəcəkləri ixtisas üzrə biliklərinin dərinləşdirilməsinə yardımçı olmaq kimi vasitələrdən istifadə edilməsi zəruridir.

Başlıca mərhələlərdən biri yekun qərarın qəbulu olduğundan bunun üçün bir sıra metodlardan istifadə edilməsidir. Burada əsas məqsəd şagirdlərin yekun qərar verməsində sərbəstliyinin təmin olunması, qərarın şagirdin özü tərəfindən düşünülmüş şəkildə verilməsi və onun reallaşdırılması istiqamətində görəcəyi işlərdə ona kömək etməkdir. Bunun üçün seçilmiş metodlar sırasında müzakirələrin, debatların, dəyirmi masaların, "Mənim peşə karyeram", "Müəllimin psixoloji portreti" və s. kimi esse və referatların yazdırılması və s. metod və vasitələrdən istifadə etmək olduqca təsirlidir.

Məzmunu və metodları əsasən bu istiqamətləri əhatə edən işlər şagirdlərin müəllim peşəsinə hazırlığının necə və hansı səviyyədə olmasını üzə çıxarmaq və peşə seçimində onlara yardımçı olmaq məqsədi daşıyır. Bu işlərə ADPU-nun və müəllim hazırlığı ilə məşğul olan digər təhsil ocaqlarının qoşulması və yardımı mühüm əhəmiyyət daşıyır. Hələ 2007-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"nda universitetlərin qəbul

imtahanlarına qədərki dövrdə ümumtəhsil məktəblərində şagirdlərin pedaqoji təhsilə cəlb edilməsi üçün müxtəlif forma və metodların tətbiq edilməsilə pedaqoji yönümlü siniflərin, liseylərin, fakültələrin, məktəblərin, hazırlıq kurslarının, hazırlıq şöbələrinin yaradılmasına cəlb edilməsi xüsusi vurğulanmışdır ”[1, s.295].

Müşahidə və tədqiqatlar göstərir ki, orta məktəb şagirdlərinin peşə yönümü işlərinə və müəllim peşəsi seçməyə hazırlanmasında ADPU və digər pedaqoji təhsil müəssisələrinin cəlb olunması özünün nüfuzu və tətbiq olunacaq metod və formaların rəngarəngliyi ilə mühüm təsir imkanlarına malikdir. Bu baxımdan universitetdə yaradıla biləcək “Gənc tədqiqatçılar dərnəyi”nin və ya aşağıda haqqında bəhs ediləcək **“Gələcək müəllimlər məktəbi”**nin mühüm rolu vardır. Ali məktəbin orta məktəblə belə bir əməkdaşlıq etməsi, şagirdlərlə pedaqoji peşəyönümü işlərində orta məktəb müəllimləri ilə birgə fəaliyyətin təşkili bu işlərin səmərəli olmasında əlverişli rol oynaya bilər.

Bir ildən çox yaşadığımız pandemiya dövrünün şagirdlərlə aparılan dərsdənkənar tərbiyəvi işləri iflic halına salması peşəyönümü işlərindən də yan keçməmişdir. Ötən tədris ilində bu problem yalnız “valideyn-övlad” müstəvisində öz həlini tapmışdır. Bu hal cari tədris ilində də belə davam edir. Başqa bir çox işlər kimi, şagirdlərin peşəyönümü işlərinin də aparılmasına məktəbin təsir imkanları yox dərəcəsindədir. Lakin postpandemiya dövründə bu işlərin ikiqat gücləndirilməsinə ehtiyac olacağı şübhəsizdir. Bununla bağlı yaxın gələcəkdə Pedaqoji Universitetin və digər pedaqoji təhsil müəssisələrinin şagirdlərlə pedaqoji peşəyönümü üzrə bir sıra sistemli və kompleks işləri aparmaları zəruri olacaqdır.

“Pedaqoji universitet-məktəb” sistemində şagirdlərin pedaqoji peşəyönümünün formalaşmasında ən əlverişli vasitələrdən biri kimi “Gələcək müəllimlər məktəbi”nin yaradılması peşə təhsilinə qədər gələcəkdə müəllim peşəsini seçmək istəyən gənclərin yol xəritələrini dəqiq müəyyənləşdirmək və pedaqoji peşəyönümlərini düşünülmüş şəkildə reallaşdırmağa müəyyən əsaslar yaratmaqda mühüm əhəmiyyət kəsb edir. Burada işlərin elmi-pedaqoji cəhətdən sistemli, məzmunlu və kompleks şəkildə aparılması həyatını müəllimlik peşəsi ilə bağlamaq istəyən gənclərin müəllimlik peşəsini seçmələrində əlverişli stimullar formalaşdırmaqla aşağıdakı üç mühüm funksiyanı daşımaqda əsaslı fəaliyyət göstərə bilər: 1) şagirdlərin pedaqoji peşə ilə daha yaxından tanış olmaları və bu peşə üzrə bilik, məlumat və təsəvvürlərin genişləndirilməsi; 2) universitetdə müəllim hazırlığının məzmunu ilə tanışlıq; 3) şagirdlərin müəllim peşəsinə maraq və meyillərinin daha da dərinləşdirilməsi və möhkəmləndirilməsi. Bu məqsədlərin reallaşdırılması və onun fəaliyyətinin aşağıdakı məzmun və istiqamətlərdə qurulmasını faydalı hesab edirik:

1. “Gələcək müəllimlər məktəbi”nin əməkdaşlarının orta məktəblərdə olması, peşəyönümü haqqında söhbətlərin aparılması, şagirdlərin düzgün peşə seçimi etmələri üçün onlara məsləhətlərin verilməsi.

2. Şagirdlərin peşə niyyətlərinin öyrənilməsi məqsədilə onlarla sorğuların

keçirilməsi və tədqiqat xarakterli müəyyən işlərin aparılması.

3. Pedaqoji peşəyə maraq göstərən şagirdlərin müəyyənləşdirilməsi, onların "Gələcək müəllimlər məktəbi"nə daxil olmaları üzrə işlərin aparılması: a) şagirdlərlə əməkdaşlıq haqqında məktəblə və valideynlərlə əlaqə saxlamaq; b) şagirdlərlə bu əməkdaşlıq haqqında müqavilə bağlamaq.

4. "Gələcək müəllimlər məktəbi"nin formalaşdırılması və burada praktik işlərin aparılması:

1) Universitetdə "Açıq qapı" günlərinin təşkili və şagirdlərin universitetlə tanışlığının həyata keçirilməsi. Bunun təkcə ekskursiya ilə məhdudlaşdırılmaması gərəkdir. Şagirdlər universitetin həyatı ilə daha yaxından tanış olmalıdırlar. Bu məqsədlə aşağıdakı bir sıra işlərin həyata keçirilməsini zəruri hesab edirik:

- şagirdlərin universitetin auditoriyaları, kabinet və laboratoriyaları ilə tanış edilməsi;
- şagirdlərin mühazirə və seminar məşğələlərində müşahidəçi kimi iştiraklarının təmin edilməsi;
- şagirdlərlə "ustad dərslərinin" aparılması, onlara universitetin təhsil və gündəlik həyatı haqqında məlumatların verilməsi;
- müəllim peşəsinin pasportu ilə şagirdlərin yaxından tanış edilməsi;
- şagirdləri maraqlandıran suallara cavab verilməsi, onlara müəllim hazırlığının məzmunu və formaları haqqında məlumatların verilməsi
- universitetdə keçirilən auditoriyadankənar (bayramlar, tarixi günlər, konfranslar, yarışlar, müsabiqələr və s.) tədbirlərdə şagirdlərin iştirakının təmin edilməsi və s.

2) Seçilmiş şagirdlərlə pedaqoji peşə üzrə peşə yararlılığı üzrə tədqiqatların aparılması. Bunun üçün onlarla müəyyən anket sorğularının, testlərin, eksperimentlərin aparılması və nəticənin hesaba alınması.

3) Universitetin yuxarı kurs tələbələrinin orta məktəblərdə olmaları və məktəblilərlə qarşılıqlı əməkdaşlıqlarının təşkil edilməsi.

4) Şagirdlərlə müəllim peşəsi üzrə müəyyən seminarların təşkili və keçirilməsi.

5) "Mən nə üçün müəllim peşəsini seçmək istəyirəm?" mövzusunda esse müsabiqəsinin və ya "Peşə müdafiəsinin" təşkili və keçirilməsi, fərqlənən şagirdlərin rəğbətləndirilməsi və s.

"Gələcək müəllimlər məktəbi"nin yaradılması və bu məktəbə pedaqoji rəhbərliyin səmərəli təşkili orta məktəblə universitet arasında körpü rolunu oynamaqla yanaşı, şagirdlərin pedaqoji peşəyönümünün elmi şəkildə həllində həm məktəbə, həm də ali məktəbə olduqca yüksək fayda verə bilər. Universitetlə məktəb arasında əməkdaşlığın gücləndirilməsi şagirdlərin müəllim peşəsinə maraq və meyillərinin gücləndirilməsinə təsir etməklə yanaşı, bu prosesdə fəallıq göstərən ali məktəb tələbələrinin də peşə adaptasiyasına əlverişli təsir göstərə bilər.

"Gələcək müəllimlər məktəbi" könüllülük əsasında yaradılır və buna

peşəyönümü sahəsində tədqiqat aparan, bu sahədə səriştəsi olan pedaqoq və psixoloqlar rəhbərlik edirlər. Gənc müəllimlərdən və magistrantlardan, həmçinin universitetin yuxarı kurs tələbələrindən ibarət əməkdaşlar bura cəlb olunurlar. Məktəb bir tədris ili ərzində fəaliyyət göstərir və işlərini növbəti illərdə də davam edir.

"Gələcək müəllimlər məktəbi" əvvəlcədən hazırlanmış, müzakirə edilərək qəbul edilmiş dəqiq proqram və plan əsasında fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, "Məktəb"in işi şagirdlərlə məhdudlaşdırılmır. Burada müəllimlərlə, sinif rəhbərləri ilə, məktəb psixoloqu ilə yaxın əməkdaşlıq etmək proqramda xüsusilə nəzərə alınmalı və bu istiqamətdə də görüləcək işlər planlaşdırılmalı, həyata keçirilməlidir. Belə ki, pedaqoji kollektivlə müxtəlif konsiliumlar aparılmalı, məktəbin dərsdənkənar tədbirlərin təşkilatçıları (ictimai və sosial təsisatlar) ilə birgə əməkdaşlıq formaları müəyyənləşdirilməli, məktəb kollektivi ilə peşəyönümü fəaliyyətinin koordinasiyası təşkil edilməli və onların da məktəbin işinə dəstək olmalarına nail olunmalıdır. Üçüncü istiqamət isə valideynlərlə aparılan işlərdən ibarət olmalıdır. Təşkilatçıların sinif iclaslarında iştirak etmələri, valideynlərlə bilavasitə söhbətlər aparmalı, onlarla fikir mübadiləsi, əməkdaşlıq etmələri aparılan işlərin nəticəyönümlülüyünə bilavasitə təsir göstərən amil olduğundan buna xüsusi həssaslıqla yanaşılmalıdır. Bunlara əsaslanmaqla "Gələcək müəllimlər məktəbi"nin şagirdlərlə aparılacaq işlər üzrə perspektiv planının aşağıdakı kimi hazırlanmasını məqbul hesab edirik:

| № | Şagirdlərlə görüləcək işlərin qısa məzmunu | İşin forması | Məsul icraçı | İcra vaxtı |
|---|---|---|---|---|
| 1 | Peşə maarifi – pedaqoji peşənin başlıca xüsusiyyətləri ilə tanışlıq | Professioqramlarla tanışlıq; ali pedaqoji təhsil müəssisəsinə ekskursiya, oradakı iş prosesləri ilə tanışlıq; ayrı-ayrı fakültələr haqqında dekanların məlumatlarının dinlənilməsi; "Müəllimlik incəsənətdir" mövzusunda viktorinanın təşkili; "Müəllimliyə gedən yol" adlı yol xəritəsi ilə tanışlıq və s. | | |
| 2 | Peşə diaqnostikası. Şagirdlərin ayrı-ayrı fənlər üzrə idrakı motivlərinin və pedaqoji peşəyə olan sosial motivlərinin müəyyənləşdirilməsi | Test sınaqları, anket sorğuları və müşahidələrin aparılması; müsahibə; şagirdlərin təlim müvəffəqiyyətinin öyrənilməsi; şagirdlərin özünüqiymətləndirmə, iddia səviyyəsi, özünüreallaşdırma, və özünütəsdiqə cəhd meylinin öyrənilməsi; müxtəlif pedaqoji situasiyalar üzrə tapşırıqların həlli; "Gələcək peşəm haqqında nəyi bilirəm", "Nə üçün müəllim olmaq istəyirəm?" mövzularında esse yazmaq və s. | | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Peşə məsləhətlərinin aparılması. Şagirdlərin peşə motivləri və diaqnostik materiallara əsaslanmaqla onlara müəyyən məsləhətlərin verilməsi. | Şagirdlərin ixtisas maraqları ilə təlim müvəffəqiyyətlərinin müqayisəli təhlili; diaqnostik materiallar əsasında məsləhətlərin verilməsi; “dəyirmi masa”, pedaqoji dəstəyin təşkili; “Yaxşı müəllim olmaq üçün nə etmək lazımdır?” mövzusunda viktorinanın təşkili; özünüinkişaf modeli ilə tanışlıq və s. | | |
| 4 | Peşə adaptasiyası üzrə kompleks işlərin aparılması | Universitetin təhsil və tərbiyəvi fəaliyyətində iştirak; müxtəlif pedaqoji tapşırıqlar üzərində işləmək; müəllim-şagird münasibətləri üzrə pedaqoji məşğələlərin təşkili və s. | | |
| 5 | Peşə tərbiyəsi işlərinin aparılması | Müəllim peşəsi haqqında söhbət, diskussiya və müsahibələrin təşkili; qabaqcıl müəllimlərin iş təcrübələrindən ibarət videoçarxların müşahidəsi; karyera imkanları haqqında məlumatların verilməsi, “Müasir müəllimin peşə və şəxsi keyfiyyətləri“ mövzusunda dəyirmi masanın təşkili və s. | | |

Müəllim peşəsi üzrə peşəyönümü işlərinin “Pedaqoji universitet-məktəb” sistemində təşkil edilməsi məzunların müəllimlik peşəsinə heç də “axını” məqsədi daşımır. Bu, bir tərəfdən imtahan balları bu ixtisaslara uyğun gəldiyinə görə müəllim peşəsini “seçənlərin” deyil, bu sahəyə daha dərindən marağı olan şagirdlərin seçilib yönəldilməsinə dəstək olmaq, digər tərəfdən də pedaqoji ali məktəblərə qəbul olunmaq istəyən abituriyentlərin pedaqoji peşə haqqında müəyyən məlumatlara malik olmaları məqsədinə xidmət edir ki, bunun da müsbət nəticəsi öz təsirini heç də çox gözlətməli olmur: pedaqoji peşəyə əsl müəllim olmaq, “ürəyini uşaqlara vermək” istəyən gənclər gəlirlər və seçdikləri peşənin sirlərinə sevə-sevə yiyələnirlər.

## ƏDƏBİYYAT


1. Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu: 2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2012, 312 s.
2. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəz., Bakı, 2013, 25 oktyabr
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010, 80 s.
4. *Əliyev H.Ə.* Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
5. *İlyasov M.* Şagirdlərin peşə seçməyə hazırlanması. Bakı: Elm və təhsil, 2009, 292 s.


Redaksiyaya daxil olub 15.05.2021

*UOT-37*

***H.T.Kılıç***
*Bakı Slavyan Universiteti*
*hilalcebaku@gmail.com*

# AİLƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAFI ÜÇÜN MÜHÜM AMİL KİMİ

***Açar sözlər**: məktəbə hazırlıq, ümumtəhsil məktəbi, ailə, məktəbəqədər təhsil*

Məqalədə uşağın məktəbə sosial hazırlığından bəhs olunur. Müasir dövrdə cəmiyyətdə gedən yeniləşmənin, ictimai-siyasi dəyişikliklərin təbii axarı ailə-nikah münasibətlərinin mahiyyətinə və məzmununa həlledici təsir göstərməklə yanaşı, ailədə uşaqların sosiallaşmasında ən mühüm amilə çevrilir.

Ailə sosial cəmiyyətin özəyi onun inkişafının əsas təməlidir. Möhkəm ailə möhkəm cəmiyyət deməkdir. Buna görə də ailə və onun problemləri, xüsusən ailə-nikah problemlərində baş verən konfliktlər, ailə münasibətləri uşaqların sosiallaşmasına, ssial tərbiyəsinə qüvvətli təsir göstərir.

***Х.Т.Кылыч***

## СЕМЬЯ КАК ВАЖНЫЙ ФАКТОР СОЦИАЛЬНОГО РАЗВИТИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова**: подготовке к школе, общеобразовательная школа, семья, дошкольное образование*

В статье говориться о социальной готовности ребенка к школе. Помимо решающего влияния на характер и содержание семейно-брачных отношений, естественный ход обновления и социально-политических изменений в современном обществе становится важнейшим фактором социализации детей в семье.

Семья является стержнем социального общества и основой его развития. Крепкая семья – крепкое общество. Поэтому семья и ее проблемы, особенно конфликты в семье и проблемы брака, семейные отношения оказывают сильное влияние на социализацию и социальное воспитание детей.

***H.T.Kylych***

# FAMILY AS AN IMPORTANT FACTOR OF SOCIAL DEVELOPMENT OF PRESCHOOL CHILDREN

***Keywords***: *preparation for school, comprehensive school, family, preschool education*

The article talks about the child's social readiness for school. In addition to decisive influence on the nature and content of family and marriage relations, the natural course of renewal and socio-political changes in modern society is becoming an important factor in the socialization of children in the family.

The family is the core of social society and the basis for its development. A strong family is a strong society. Therefore, the family and its problems, especially conflicts in the family and problems of marriage, family relations have a strong impact on the socialization and social education of children.

Pedaqoji, psixoloji tədqiqatlar və pedaqoji müşahidələr, həyat təcrübəsi onu deməyə əsas verir ki, uşaqların sosial tərbiyəsinin əsası ailədən başlayır, daha sonra məktəbəqədər təhsil, ümumtəhsil və digər tədris-tərbiyə müəssisələrində, müxtəlif kollektivlərdə daha sistemli şəkildə davam etdirilir.

Bununla əlaqədar olaraq uşağın məktəb təliminə hazırlığında onun sosial tərbiyəsi, şəxsiyyətin sosial keyfiyyətlərinin inkişaf etdirilməsi xüsusi diqqət tələb edir. Bu prosesdə uşağın tədricən məktəb həyatına uyğunlaşması, məktəbə müsbət sosial-emosional münasibət bəsləməsi, oxumaq, öyrənmək həvəsinin artırılması bütövlükdə onlarda məktəbə müsbət yanaşma mövqeyini formalaşdırır.

Azərbaycanda məktəbəqədər təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, məktəbəqədər yaşlı uşaqların intellektual fiziki və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılması, onların şəxsiyyətinin hərtərəfli formalaşdırılması və məktəbə hazırlanması işinin qabaqcıl beynəlxalq standartlara uyğun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 12 aprel 2007-ci il tarixli "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" sərəncamında irəli sürülən çox vacib və aktual məsələlər bütün respublikada məktəbəqədər tərbiyə müəssisələrinin, məktəbə hazırlıq qruplarının əsas fəaliyyət proqramına çevrilmişdir (1).

Məktəbəqədər təhsil müəssisələrində tərbiyə-təlim işlərinin tamamilə yenidən qurulması, orada ciddi struktur dəyişikliklərinin edilməsi ilə əlaqədar hökumət səviyyəsində göstərilən ciddi tələbkarlıq və nəzarət hər bir məktəbəqədər təhsil işçisini, müəllim və tərbiyəçini öz gündəlik əməli işinə

daha da məsuliyyətlə və yeni pedaqoji təfəkkürlə yanaşmağa sövq edir.

"Məktəbə hazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında deyilir: "Məktəbə hazırlığın vəzifələri uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi-sosial xüsusiyyətlərin formalaşdırılmasıdır... Uşağın məktəb təliminə hazırlığı zamanı hər şeydən əvvəl onun sosial hazırlığı nəzərdə tutulmalıdır..." (2, s.5).

Bu mühüm dövlət sənədində uşaqların sosiallaşmasının ailədən başlanması qeyd olunmaqla ilə yanaşı, uşaqlarda "yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin (vətənpərvərlik, humanistlik, digər millətlərə hörmət) inkişafı; böyüklərlə və yaşıdları ilə ünsiyyətin qurulmasında yüksək mədəni davranış qaydalarının mənimsənilməsi; öz hərəkətlərində əxlaq normalarının rəhbər tutulması və onlara riayət olunması" (2, s.5) kimi məsələlər əsas sosial tələblər kimi qarşıya qoyulmuşdur.

Uşaqların məktəb təlimində uğur qazanması, kollektivə adaptasiya olunması, ümumi sosial inkişafı üçün hər bir uşağın məktəbə hazırlıq mərhələsini keçməsi mühüm əhəmiyyət kəsb edir.

Təcrübə və müşahidələrdən də məlum olmuşdur ki, məktəbəqədər müəssisə və ya ümüumtəhsil məktəbində məktəbə hazırlıq qruplarından məktəb təliminə gələn uşaqların bilik və dünyagörüşü, sosial hazırlığı ailədən gələn uşaqlara nisbətdə çox yüksəkdir.

Uşaqların mənəvi-əxlaqi və sosial keyfiyyətlərinin təməli ailədə sosial tərbiyə prosesində qoyulur ki, bu da uşağın məktəb təlimindəki uğurlarının əsasını və gələcək inkişafını təşkil edir. Hər bir uşağın öz maraq dünyası, xarakterik keyfiyyətləri var.

Ailədə uşaqalarda düzgün ünsiyyət münasibəti formalaşdırılmalı, ata ana, bacı-qardaş, nənə-baba münasibətləri, habelə həmyaşıdları ilə ünsiyyət və münasibət qayadaları uşaqlara başa salınmalıdır. Buna görə də ailədə uşaqlar ümumi birgəyaşayış normalarına əməl etməli, düzgün davranış normalarını mənimsəməlidirlər.

Ailədə uşaqların sosial tərbiyəsi ilə bağlı, ictimai yerlərdə, nəqliyyat vasitələrində və s. yerlərdə onlara düzgün davranış qayadaları öyrədilməlidir. Uşağın yaşıdları ilə mehriban ünsiyyət və münasibətdə olması, onlarla qaynayıb-qarışması, bir yerdə oynamaları, bir-birinə kömək etməsi, yardımlaşması, valideynlərinə kömək etməsi, salamlaşması, sağollaşması, süfrə arxasında özünü düzgün aparması, oyuncaqlarını qoruması, səliqəli davranması və s. sosial tərbiyənin əsas nümunələridir.

Uşağın məktəbə gəlməsi onun həyat tərzini dəyişir, yeni sosial münasibətlər yaradır, uşaqlarda yeni kollektiv münasibətlər formalaşır və

pedaqoji, psixoloji və sosial tələblər yaranır. Bu mürəkkəb pedaqoji, psixoloji və sosial prosesdə uşağın düzgün istiqamət alması, yorulmadan, usanmadan məktəb təliminə hazırlaşması, ona müsbət yanaşması, məktəbi, müəllimləri, uşaqları sevməsi, məktəb qaydalarına həvəslə əməl etməsi onun uğurlu məktəb təliminin və sonrakı sosial fəaliyyətinin əsasını təşkil edir.

Ailədə uşaqların sosial inkişafı təhlil edilməldir. Ailələr və uşaqlar müxtəlif olduğundan hər bir uşağın sosial inkişafı da müxtəlif olaraq özünəməxsus səciyyə daşıyır. Bu, ilk növbədə ailə üzvlərinin şəxsi keyfiyyətləri, ailə üzvlərinin məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı kömək hissinin olması, sərvət meyilləri, elmi dünyagörüşü, mədəni və tərbiyə səviyyəsi və xüsusilə, uşağa münasibəti ilə şərtlənir. Uşaqlarda sosiallaşmasında ilk növbədə valideynlərin nümunəsi mühüm əhəmiyyət kəsb edir. Valideyn özü sosial olmaqla bərabər, övladının da sosiallaşması qayğısına daim qalmalı və ona nümunə olmalıdır.

Ailədə valideyn-uşaq münasibətləri ailənin strukturundan, ailədə nəsillər arasında münasibətlərin xarakterindən, övladların cins və yaş xüsusiyyətlərindən, qohumlarla münasibətlərindən və s. asılı olur ki, bu münasibətlər uşağın mənəvi mədəniyyətinin, sosial təcrübəsinin formalaşmasına təsir göstərir. Bu cəhətlər Azərbaycan ailələrində dərin etnik-psixoloji köklərə malikdir. Professor Ləzifə Qasımova bu barədə yazır ki, “Ailə əxlaqı mədəni (şəxsi) əxlaqla tamamlanmalııdr. Mədəni əxlaq sosial tərbiyənin bir tərkib hissəsidir” (3, s.15).

Ailə mühitində uşaqlarda tədricən mədəni-əxlaqi, sosial davranış formalaşır, inkişaf edir və məhz ailədə qardaş-bacıları ilə, yaşıdları ilə birgə həyat tərzi müsbət əxlaqi keyfiyyətlərin yaranması üçün əlverişli zəmin yaranır. Onlar bir-birinə mehriban və səmimi yanaşır, çətin məqamlarda köməklik və qayğı göstərirlər.

Professor Rüfət Hüseynzadə “Ailə pedaqogikası” dərsliyində yazır: “Ailə münasibətləri, hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərərək onları sosiallaşdırır. Yaş artdıqca uşaqlar sosial münasibət və təcrübəni mənimsəyir və nəticədə uşaqlarda xarakter formalaşır” (4, s.8). Beləliklə, deyə bilərik ki, uşaqların məktəbə hazırlığı ailənin, valideynlərin hazırlığından çox asılıdır.

## ƏDƏBİYYAT

1. Əliyev İ.H. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" (2007-2010-cu illər). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 aprel 2007-ci il tarixli sərəncamı / “Xalq” qəz., Bakı, 2007, 14 aprel

2. “Məktəbə hazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər kabinetinin qərarı. Bakı şəhəri, 8 yanvar, 2010-cu il / Cavadov İ., Cəfərova L.K. Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 66 s.
3. *Qasımova L.N.* Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan. 2004, 220 s.
4. *Hüseynzadə R.L.* Ailə pedaqogikası. Bakı: ADPU, 2017, 442 s.

Redaksiyaya daxil olub 03.05.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №2, s. 229-241
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №2, pp. 229-241

*UOT 37*

***Ü.C.Məmmədova, E.A.Heybətov***
*Bakı şəhəri 129 nömrəli tam orta məktəb*
*Salyan rayon Çuxanli kənd tam orta məktəb*
*ulviyyeh@yahoo.com, heybetov.e@bk.ru*

# DİSTANT TƏHSİL VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *distant təhsil, texnologiya, innovasiya, təhsil sistemi, komputer şəbəkələri*

Təhsilin distant forması müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaradır. Distant təhsil formasının müsbət cəhətləri çoxdur. Həm ölkə vətəndaşları, ailələr, gənclər üçün, həm universitetlər üçün, həm də dövlət və bütövlükdə cəmiyyət üçün distant təhsil əlverişli təhsil formasıdır. Məqalədə distant təhsilin internet texnologiyaları əsasında reallaşdırılmasının spesifik cəhəti, elektron təhsil texnologiyalarının inkişafı və xüsusiyyətləri ilə yanaşı, mənfi və müsbət cəhətləri göstərilir.

***У.Дж.Мамедова, Э.А.Хейбатов***

# ДИСТАНЦИОННОЕ ОБРАЗОВАНИЕ И ОСОБЕННОСТИ ЕГО РАЗВИТИЯ

***Ключевые слова***: *дистанционное образование, технология, инновация, система образования, компьютерные сети*

Дистанционная форма обучения создает реальные образовательные возможности для потенциальных лиц, которые по каким-то причинам не могут продолжить свое образование и не могут реализовать свое желание получить новую специальность. Дистанционное обучение дает много преимуществ. Дистанционное образование – удобная форма обучения для граждан страны, семей, молодежи, вузов, а также для государства и общества в целом. В статье показана специфика реализации дистанционного обучения на базе интернет-технологий, развитие и особенности технологий электронного обучения, а также положительные и отрицательные аспекты.

***U.J.Mammadova, E.A.Heybatov***

# DISTANCE EDUCATION AND FEATURES OF ITS DEVELOPMENT

***Keywords:*** *distance education, technology, innovation, education system, computer networks.*

The distance form of education creates real educational opportunities for

potential individuals who, for some reason, are unable to further their education and are unable to realize their desire to acquire a new specialty. There are many advantages of distance education. Distance education is a convenient form of education for the citizens of the country, families, youth, universities, as well as for the state and society as a whole. The article shows the specifics of the implementation of distance education on the basis of Internet technologies, the development and features of e-learning technologies, as well as the pros and cons.

Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi üzrə dövlət proqramı çərçivəsində elektron vəsaitlərin işlənilməsi genişlənmiş, elektron təhsil (e-learning) resursları bazasının əsası qoyulmuş, distant təhsilin inkişaf etdirilməsi üçün tədbirlər həyata keçirilmiş, vahid təhsil portalı yaradılmış və ölkədə interaktiv tədris imkanlarından daha geniş istifadə olunması dəstəklənmişdir. Müasir dövrdə ümumilikdə dünyada və həmçinin Azərbaycanda təhsil sistemində ciddi problemlər mövcuddur və onların böyük bir hissəsi obyektiv xarakter daşıyır. Dünya təhsil sistemində əyani təhsil forması geniş yayılıb. Əyani formada təhsil alan insanlar hər zaman digərlərindən peşə bacarıqları ilə seçilib. Mütəxəssislər isə hesab edirlər ki, əyani təhsil keyyfiyət baxımından yaxşı olsa da, bunun üçün böyük vəsait tələb olunur. Təhsilin əyani və qiyabi formaları ilə müqayisədə açıq distant çoxlu üstünlüklərə malikdir. Bu üstünlüklərə onun əlyetərliyi, ucuzluğu, çevikliyi və s. daxildir.

Əhalinin bütün təbəqələri üçün ən münasib və baha olmayan təhsil forması olan distant təhsilin məqsədi müasir informasiya texnologiyalarından istifadə etməklə təhsil alanın ixtisasının artırılmasıdır. Hesab olunur ki, distant təhsil formasını ilk yaratmaq cəhdi 1840-cı ildə edilib. Həmin vaxt İsaak Pitman poçt məktubları vasitəsilə Birləşmiş Krallıqda tələbələrə stenoqrafiyanı öyrətməyə başlamışdı. Distant təhsildə müxtəlif təhsil proqramları, texnologiyalar və tədris forması birləşir. Bu da onun səmərəliliyini artırır. Təhsil sahəsində çalışan ekspertlərin fikrinə görə, mühazirə zamanı tədris materialının 5-10%-i, tədrisə aid ədəbiyyatın sərbəst oxunuşu zamanı 10-20%-i mənimsənilir, materialın qrup şəkilində müzakirə olunması zamanı isə mənimsənilmə 50%-ə qədərdir. Yeni biliklərin təcrübi istifadəsi prosesində mənimsənilmə 75%-ə yaxınlaşır, ən yüksək mənimsənilmə dərəcəsinə (90%) başqalarını öyrədərkən çatmaq olur. Distant təhsil sistemi tədris prosesinin daha müasir və onlayn formasıdır. Bu gün dünyada tələbələrə distant təhsil təklif edən universitetlərin çoxu “açıq universitet” adı altında fəaliyyət göstərir. Distant təhsil zamanı keçirilən dərslər adi universitetlərdə tədris olunan dərs proqramından bir o qədər də fərqlənmir. Yeganə fərq ondan ibarətdir ki, distant təhsil zamanı tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir [1, s.110].

Azərbaycanda distant təhsilin rəsmi yaranma tarixi «Təhsil haqqında» yeni Qanunun təsdiq edildiyi 19 iyun 2009-cu il hesab olunur. 833-IIIQ nömrəli Qanunun 1.0.9., 10.5 və 13.1.3 13-cü maddəsinə əsasən əyani və qiyabi təhsil formaları ilə yanaşı, distant təhsil forması haqqında məlumat verilmişdir. Distant Təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma formasıdı [4, s.1-3]. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks-əlaqə əsasında, uzaq məsafədən həyata keçirilən təhsil formasıdır. Distant təhsilin xarakterik xüsusiyyətlərinə həmçinin çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadə və s. məsələlər aiddir. Distant təhsildə informasiyalar öyrənənlərə çap materialları, elektron materiallar, elektrondərslik, televerilişlər və s. formalarda təqdim edilir. Bu tədris informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimi daşıyıcıları vardır. Distant təhsildə tədris metodik kompleksdən, kompüter, televizor, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur [2].

Təhsilin Distant forması müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan və yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən potensial şəxslərə real təhsil imkanları yaradır. Distant təhsil ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal inkişaf etdirir. Mütəxəssislərin hesablamalarına görə distant təhsilə 10 il vaxt və 150 milyon manatdan artıq vəsait lazımdır. Vaxtı ilə Təhsil Nazirliyi tərəfindən (2005-ci ildə) ali təhsilin bəzi istiqamətləri üzrə (məsələn, ali pedaqoji təhsil istiqaməti) distant texnologiyaların tətbiqi üçün konseptual və strateji əhəmiyyətli müəyyən sənədlər hazırlanıb. "Hər hansı ixtisasın tədris planına uyğun olaraq fənlər üzrə elektron resursların hazırlanması (prosesin təşkili və maliyyələşməsi səviyyəsindən asılı olaraq) işi 2-4 il ərzində reallaşa bilər. Əgər tədris planında 40 fənn varsa, deməli, 30-35 fənn üzrə elektron dərslik və elektron tədris-metodik kompleksi yaradılmalıdır. Bu işi paralel olaraq bir neçə ixtisas üzrə eyni zamanda reallaşdırmaq mümkündür. Bir universitetdə 5-6 ixtisas üzrə distant təhsilin (DT) həyata keçirilməsi üçün hazırlıq işi təxminən 5-6 il ərzində aparıla bilər. Bu halda 150-200 fənn üzrə elektron dərsliklər, mükəmməl test sistemi və digər tədris-metodik materialların elektron versiyaları hazırlanmalıdır. Ölkə səviyyəsində ali təhsilin bütün mühüm istiqamətləri üzrə DT sistemini yaratmalı olsaq, minlərlə elektron dərslik hazırlanmalıdır. Bu işə 10 il vaxt və 150 milyon manatdan artıq vəsait lazım ola bilər. Bu məqsədlə təhsilin illik büdcəsindən hər il 1-2% vəsait ayrılarsa, problem 10 il ərzində həll edilə bilər. İnkişaf etmiş və inkişafda olan bir çox ölkələr bu işi 10-15 il əvvəl və daha çox investisiya ilə həll etmişlər.

Göründüyü kimi, DT sisteminin yaradılması çətin və böyük maliyyə tutumlu məsələdir. Belə olduğu halda görəsən Azərbaycanda DT-nin yaradılmasına başlamağına dəyərmi? Görəsən Azərbaycanda DT sistemi olsun, yoxsa olmasın?” Biz milli DT sistemini hökmən yaratmalıyıq. “Təhsil almaq istəyənlər üçün heç də hər gün müəllimlə üzbəüz oturmaq şərt deyil”. Distant təhsil alınmasında əhalinin müxtəlif təbəqələrinə də bərabər imkanlar yaradılır. İnkişaf etmiş ölkələrdə bir sıra xüsusiyyətləri ilə seçilən distant təhsil geniş şəkildə istifadə olunur. Bu baxımdan ən əlverişli təhsil üsulu açıq distant təhsildir. Bəs distant təhsil forması nədir, hansı üstünlükləri var?

## 1. Distant təhsilin növləri

Əgər texnologiyalar və təlim metodu tələbə və müəllimin məqsədləri və imkanlarına cavab verirsə, distant təhsil ənənəvi təhsil forması qədər səmərəli ola bilər. Dünyada distant təhsilin imkanları getdikcə artır. Bir çox təhsil müəssisələri və treninq mərkəzləri fəal şəkildə məktəb eksternatından başlamış ali təhsilə və MBA-ya qədər bütün növ distant təhsil kursları təşkil edirlər.

Hazırda distant təhsil vasitəsilə bir çox təhsil növləri üzrə oxumaq olar:

- ali təhsil almaq (University of Liverpool və s.);
- magistraturada oxumaq (Walden University və s.);
- ikinci ali təhsil almaq;
- xarici dil öyrənmək (http://www.study.ru/lessons/online/ və s.);
- MBA proqramı üzrə təlim kursu keçmək;
- internet-treninqlərdə iştirak etmək (http://webinar.ru/ və s.);
- ixtisas kurslarında oxumaq (http://www.online-academy.ru /index.html və s.);
- orta təhsil almaq.

## 2. Distant təhsil daha çox kimi cəlb edir?

- İşdə və ya evdə başı qarışıq olanları və dərslərə getmək və mühazirələri dinləmək imkanları olmayan şəxsləri;
- İxtisasını artırmaq, bacarıqlarını inkişaf etdirmək və karyeradan ayrılmadan yeni biliklər əldə etmək istəyənləri;
- Həyatda hər şeyə nail olmaq və peşəkar əlaqələri və dünyagörüşünü genişləndirmək imkanlarından istifadə etmək istəyənləri, çünki distant təhsil sayəsində eyni zamanda bir neçə kursda oxumaq olar.

Beynəlxalq statistikaya görə, distant təhsildə «tələbələrin» əksəriyyəti yaşı 25-i ötmüş, işləyən və işdən ayrılmadan peşəkar biliklərini genişləndirmək istəyən şəxslərdir. Bununla belə, distant təhsil forması hamı üçün münasibdir. Bu, illər ötdükcə daha çox inkişaf edəcək müasir təhsil formasıdır. Amma istənilən təhsil forması kimi distant təhsilin də həm müsbət, həm də mənfi cəhətləri var.

### 3. Müsbət cəhətləri

1. Distant təhsil proqramları ənənəvi sistem üzrə aparılan analoji təhsil kurslarından xeyli ucuzdur. Təhsil müəssisələri icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edir, çünki təhsil üçün ayrıca otaqlar və kompüterlər tələb olunmur. Bundan əlavə vaxtın çox hissəsini tələbələr müstəqil şəkildə məşğul olurlar və deməli, müəllimlər eyni zamanda daha çox tələbəni öyrədə bilərlər və bunun da sayəsində distant təhsilin qiyməti münasib olur.
2. Distant təhsil, ümumiyyətlə, hər hansı təhsil almaq imkanları olmayan şəhər və ölkələr üçün əvəzedilməzdir. Bu, təhsili hamı üçün əlçatan edir.
3. Distant təhsil insanın utancaqlıq və auditoriya qarşısında çıxış etmək fobiyası kimi kommunikasiya keyfiyyətləri ilə bağlı psixoloji maneələri dəf etməyə imkan verir.
4. Distant təhsil mobildir və deməli, tələbənin daim aktual məsələlərə çıxışı olur. Bunun üçün sadəcə internet lazımdır.
5. Hesab olunur ki, distant təhsil vaxtının çoxunu işdə, uşaqlarla və ya ailəsi ilə keçirən insanlar üçün yeni biliklər və bacarıqlar əldə etmək üçün yeganə mümkün vasitədir. Hər hansı şəxs işini itirmək qorxusu olmadan və işdən ayrılmadan ixtisasını artırmaq və ya yeni biliklər əldə etmək imkanı əldə edir.

Təhsil üzrə ekspert Rüfət Əliyevin sözlərinə görə, «Distant təhsil şübhəsiz ki, qarşısına məqsəd qoyanlar və bunun ona nə üçün lazım olduğunu anlayanlar üçün səmərəli təhsil formasıdır. Belə təhsil özünütəhsil prosesini planlaşdırmağı və ona nəzarət intizamını tərbiyə edir. İstənilən təhsil forması kimi bu da qarşılıqlı prosesdir və tələbə ilə canlı ünsiyyət olmadıqda «pedaqoq» amili çox vacib olur».

### 4. Mənfi cəhətləri

1. Tələbələrin təhsil səviyyəsində və peşəkar təcrübəsində fərdi fərqləri nəzərə almağa imkan vermir.
2. Təlim və imtahan telekonfranslarının təşkili üçün müxtəlif ölkələrin telefon xətlərinin keçiricilik qabiliyyəti kifayət etməyə bilər.
3. Tələbələr tərəfindən mənfi qarşılana biləcək daha bir cəhət – distant təhsil sistemində müəllim və tələbə arasında canlı ünsiyyətin itməsidir.
4. Təlim kursları kifayət qədər interaktiv olmur.
5. Distant təhsilin yekunlarına görə verilən diplom və ya sertifikat hələlik keyfiyyətli təhsilin göstəricisi kimi qəbul olunmur.
6. Asan əldə edildiyi üçün adətən distant təhsil səhvən müəyyən bir xarici təhsil almaq imkanı kimi başa düşülür.

Göstərilən mənfi cəhətlərinə baxmayaraq, distant təhsil inkişaf etməkdə davam edəcək və zaman keçdikcə digər təhsil formaları arasında layiqli yerini

tutacaq. Məsələ yalnız tələbələrin ondan düzgün və səmərəli istifadə etməsindədir.

Son illərdə təhsil xidmətlərinin təqdim edilməsinin yeni forması – təhsil sahəsində bir növ texnoloji inqilab sayılan distant təhsil (DT, şəbəkə təhsili) intensiv inkişaf etmişdir. Distant təhsilin tarixi əyani şəkildə göstərir ki, o, dünyanın müxtəlif ölkələrində cəmiyyətin təhsil sahəsində yeni tələblərinə adekvat, relevant təhsil formasıdır. Təhsil xidmətlərinin təqdim edilməsinin yüksək operativliyini təmin edən distant təhsil XXI əsrdə təhsilin ən səmərəli forması olacaqdır. DT mobil virtual təhsil mühiti yaradılması və hər bir müdavim üçün çəkilən xərclərin ənənəvi təhsil sistemləri ilə müqayisədə 2-3 dəfə azaldılması hesabına təhsilin yüksək keyfiyyətini saxlamaqla təhsil xidmətlərinin əlyetərli olmasını təmin etməyə imkan verir. WEB-texnologiyaların potensialı bütün dünyanın təhsil resurslarını akkumulyasiya etməyə imkan verir. Qloballaşma, təhsil məkanının inteqrasiyası, təqdim edilən təhsil xidmətlərinin mobilliyinin, açıqlığının və operativliyinin təmin edilməsi şəraitində bu resursların bir yerə cəmlənməsi xüsusi əhəmiyyət kəsb edir. Distant təhsilin açıqlığı, yəni qəbul imtahanları vermədən ali təhsil almağın mümkünlüyünə təminat verilməsi də şəbəkə təhsil xidmətlərinin potensial istifadəçiləri üçün mühüm amildir.

Hazırda dünyanın bir sıra ölkələrinin ali məktəblərində öyrədici kompüter proqramlarından səmərəli istifadə edilməsi üzrə nəzəri fənlərin öyrədilməsinin ənənəvi metodlarının dəyişdirilməsi istiqamətində iş aparılır. Bu fakt onunla izah edilir ki, nəzəri tədris kurslarının az qala hər birini elektron variantda təqdim etmək mümkündür. Bu isə bir tərəfdən mətn, qrafiklər, düsturlar və şəkillərdən ibarət ənənəvi tədris vəsaitlərinin analoqu olan müxtəlif multimedia vasitələrindən – videofilmlərdən, multiplikasiyadan, musiqidən və şifahi nitqdən istifadə etməyə, digər tərəfdən laboratoriya işlərinin və praktiki işlərin məzmununu kompüterdə modelləşdirməyə imkan verir, müasir dövrdə zəruri olan mürəkkəb qurğularla işləmək vərdişləri yaradır. Öyrədici kompüter proqramlarının əlyetərli olması onunla təmin edilir ki, distant təhsil prosesində bu proqramlar disketlərdə və lazer kompakt disklərində (CD) yerlərə çatdırıla bilər. Parametrləri minimal tələblərə uyğun olan hər bir kompüterdə bu proqramlardan istifadə etmək mümkündür. Yeni texnologiyalara əsaslanan distant təhsil sistemində qiyabi təhsil sahəsində toplanmış bütün təcrübədən istifadə edilir. DT əyani, əyani-qiyabi (axşam), qiyabi təhsil almaq, eksternat və bu formaların əlaqələndirilməsi şəklində həyata keçirilə bilər. Ali məktəb distant təhsili həm müstəqil şəkildə, həm də öz struktur bölmələri – filiallar və nümayəndəliklər şəbəkəsi vasitəsilə təşkil edə bilər. «Bəs distant təhsilin həyata keçiriləcəyi informasiya mühitinə təqdim edilən zəruri tələblər nədən ibarət olmalıdır? Bu mühit: prosesin iqtisadi effektivliyini, mövcud təhsil formaları ilə müqayisədə onun ucuz və rəqabət qabiliyyətli olmasını təmin etməli; təhsil

prosesinin bütün iştirakçılarının – şagirdin, müəllimin və təhsil müəssisəsinin şəbəkədə bərabərhüquqlu və tamdəyərli iştirakına təminat verməli; onlayn rejimində istifadə edilməsi rahat olan kompakt didaktik materialın operativ yaradılması və redaktə edilməsi imkanını təmin etməli; təhsil müəssisəsinin cəmiyyətdə tələbat olan ən müxtəlif təhsil resurslarını akkumulyasiya edən və onlardan istifadə edən dinamik və mobil struktura çevrilməsinə şərait yaratmalıdır». Distant təhsil prosesində telekommunikasiya vasitələrinin tətbiq edilməsi, pedaqoji baxımdan mütəşəkkil informasiya texnologiyaları kompleksindən istifadə edilməsi müdavimin və müəllimin olduğu yerlərdən asılı olmayaraq dolayı vasitələrlə onların qarşılıqlı təsirini tamamilə və ya qismən təmin etməyə imkan verir. Distant təhsil müdavimin fərdi kompüterdən, interaktiv öyrədici təhsil proqramlarından və tyutor ilə (müdavimin müəllimlə əlaqəsini təmin edən şəbəkə administratoru ilə) operativ əlaqə saxlamaq üçün elektron kompüter şəbəkələrindən istifadə etməsini nəzərdə tutur. Dünyanın inkişaf etmiş ölkələrində ənənəvi asinxron (qiyabi) təhsil prosesi informasiya vasitələri paketini təqdim edir, təhsil müəssisəsi tərəfindən sistematik nəzarət edilməklə biliklər qazanılması, bacarıq və vərdişlər kompleksinin formalaşması təmin edilir. Sinxron (distant) təhsil formasının mahiyyəti ondan ibarətdir ki, öyrədilən şəxs tyutor ilə, məxsusi işlənib hazırlanmış distant informasiya bazası ilə, elektron testləşdirmə vasitələri sistemi ilə sinxron qarşılıqlı əlaqədə təhsil alır. Müasir dövrdə təhsilin bu forması asinxron təhsil formasını tədricən sıxışdırır.

«Distant təhsil prosesinin təmin edilməsi üçün ənənəvi resurslarla yanaşı, distant təhsilin aşağıdakı vasitələrindən də istifadə edilir: multimedia müşahidə vasitələri ilə təchiz olunmuş ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklərin, tədris vəsaitlərinin, kompüter treninq proqramlarının daxil olduğu elektron tədris-metodik komplekslər, kompüter laboratoriya praktikumları, nəzarət-testləşdirmə dəstləri, tədris videofilmləri, audioyazılar və s. Tədris prosesində əsas informasiya resursu kimi metodik (didaktik) baxımdan işlənmiş distant təhsil informasiya bazalarından istifadə edilməsi onların tətbiq edildiyi vaxt üçün müasir tələblər səviyyəsinə uyğun olmasını, həcminə və məzmununa görə müəyyən səviyyəli əsas tədris proqramlarına təqdim edilən dövlət təhsil standartlarının tələblərinə müvafiq və ya əlavə peşəkar tədris proqramlarının məzmunu barədə tələblərə uyğun olmasını təmin edir. Distant təhsil üçün məlumat bazasına müxtəlif tipli daşıyıcılarda hazırlanmış nəşrlər şəklində əsas tədris ədəbiyyatı və tədris-metodik ədəbiyyat fondu; kadrların hazırlanması profillərinə müvafiq dövri nəşrlər, sorğu-biblioqrafik xarakterli nəşrlər, eləcə də mərkəzi və yerli kütləvi ictimai-siyasi nəşrlər fondu; hər bir təhsil proqramının profili üzrə monoqrafiyalar və dövri-elmi nəşrlərlə təmsil olunmuş elmi ədəbiyyat fondu daxildir». DT üçün tədris materialının təşkil edilməsinin ən populyar forması – «internet kitabları»dır. Bu, mühazirələrin və kitabların

elektron versiyaları olub çox əlyetərlidir, çünki onlardan istifadə edilməsi üçün proqramlaşdırma üzrə xüsusi biliklər, o cümlədən Hypertext Markup Language (HTML) və ya JAVA kimi dilləri bilmək tələb olunmur. Bu, onunla əlaqədardır ki, köməkçi proqramlar bütün zəruri materialların demək olar ki, hamısını istənilən mətn redaktorundan HTML formatına çevirməyə imkan verir.

Distant təhsil o halda tam həcmdə həyata keçirilə bilər ki, tədris planı üzrə nəzərdə tutulan saatların və tədris proqramlarının həcminin ən azı 70%-i müdavimlər tərəfindən distant təhsil texnologiyalarının köməyi ilə mənimsənilmiş olsun. Distant təhsil texnologiyalarının keys, internet və telekommunikasiya texnologiyaları kimi növləri vardır.

Keys texnologiyasından istifadə edən ali məktəbin sərəncamında internetə çıxış imkanı, müəllimlərlə tələbələr arasında tam dəyərli ikitərəfli əlaqəni təmin edən bütün zəruri tədris-metodik və təhsil-inzibati informasiyanı əks etdirən məxsusi WEB-sayt olmalıdır. WEB-saytın mövcud olması URL-in göstərilməsi, xidmət provayderi ilə müqavilə və saytın istismara buraxılmasını təsdiq edən sənədlər paketi ilə təsdiqlənir. Ali məktəbin WEB-saytının ayrıca bir bölməsində həmin ali məktəbə daxil olmaq qaydaları, sənədlərin rəsmiləşdirilməsi, təhsil haqqının ödənilməsi qaydaları, təhsil prosesinin təşkil edilməsi formaları və s. barədə tez-tez verilən suallara cavabların əks etdirildiyi informasiya olmalıdır. Tədris-metodik keysi aşağıdakı komponentlərdən ibarət olmalıdır: hər bir ixtisas üzrə tədris planı, müdavimin hər semestr üçün fərdi iş planı; dövlət təhsil standartlarının tələblərinə müvafiq olaraq həmin ixtisasın bütün nəzəri modul-kurslarının məzmununun qısa annotasiyalı siyahısı (buraya bütün fənlər üzrə tədris proqramları, mühazirələrin elektron versiyaları, iş dəftərləri, laboratoriya praktikumları üzrə vəsaitlər, tələbənin interaktiv rejimdə müstəqil işinin idarə olunmasını təmin etməyə imkan verən metodik tövsiyələr, özünənəzarət üçün testlər və çalışmalar, sxemlər, cədvəllər; müdavimin mənimsəməli olduğu terminlərin qlossarisi, yerinə yetirilməsi attestasiya üçün zəruri olan tapşırıq və çalışmalar məcmuəsi, elektron kitabxana və s. daxildir). Tədris ədəbiyyatı disketlərdə və ya CD-lərdə, hipermətn və ya hipermediya formatında, video və audio proqramlar formasında nəşr edilir. Keysə həm də aşağıdakı tədbirlərin hansı formalarda reallaşdırılması barədə tövsiyələr daxildir: 1) ali məktəbin müdiriyyəti və tyutor ilə müdavimin interaktiv kommunikasiyası; 2) tədris vaxtının planlaşdırılması; 3) ixtisas üzrə praktika keçilməsi barədə hesabat sistemi; 4) test treninqləri. Keys texnologiyası müdavimlərin ali məktəbin WEB-saytında yerləşdirilmiş internet resursları kompleksindən qeyri-məhdud istifadə etməsini, onların təxirə salınmış vaxt rejimində keçirilən internet-forumlarda iştirak etmək imkanına malik olmasını nəzərdə tutur. Bundan əlavə real vaxt rejimində virtual konfransın tətbiq edilməsi, bu prosesdə eyni vaxtda bir neçə dinləyici ilə internet-seminarlar, məsləhətlər və treninqlər keçiriməsi də sınaqdan çıxarılır; müdavimlə

müəllimin «təkbətək» real vaxt rejimində fərdi distant məsləhətlər keçirilməsi üçün İCQ resurslarından istifadə edilir.

Distant təhsilin internet texnologiyaları əsasında reallaşdırılmasının spesifik cəhəti ondan ibarətdir ki, hər bir müdavimin təhsil almaq üçün iş yeri istifadə etdiyi kompüter buraxıcılıq qabiliyyəti ən azı 30 Kbit/c olan rabitə kanalları vasitəsilə qlobal internet şəbəkəsinə qoşulmalı, bir müdavim üçün informasiya resursları isə buraxıcılıq qabiliyyəti ən azı 1 Kbit/c olan xarici və ya məxsusi kanallara malik portallarda yerləşdirilməlidir. Şəbəkə texnologiyalarından istifadə edilməklə distant təhsil halında ali məktəb müdavimlər üçün təlim-tədris fəaliyyətinin tam informasiya təminatını işləyib hazırlamalıdır. Bu halda informasiya resursları müxtəlif daşıyıcılarda yerləşməli və kompüter şəbəkələrinə, kompüter texnologiyalarına əsaslanan operativ istifadə vasitələrini əhatə etməlidir. Şəbəkə texnologiyaları həm də tədris prosesinin idarə edilməsi üçün effektiv avtomatlaşdırılmış idarəetmə sisteminin mövcud olmasını nəzərdə tutur. Bu sistem tədris prosesinin sənədləşdirilməsi barədə tam əhatəli informasiyanın, bəzi tədris materiallarına, məsələn, kontrol tapşırıqlarına müraciətin məhdudlaşdırılması şərtilə tədrislə bağlı informasiyadan ibarət məlumat bazalarını əhatə edir. İnternet-texnologiya üzrə təhsil xidmətlərinin təqdim edilməsi yalnız o şərtlə tam dəyərli ola bilər ki, öyrənilməsi tədris planında nəzərdə tutulmuş bütün fənlər üzrə elektron dərsliklər, elektron məsələ kitabları, elektron praktikumlar, metodik vəsaitlər, tətbiqi multimedia vasitələri mövcud olsun. Tədris materiallarının xeyli hissəsi tələbənin fərdi işi üçün, qalan hissəsi, məsələn, multimediya-əlavələr isə kiçik qruplarla (hər biri 8 nəfərdən çox olmamaqla) iş rejimində istifadə edilmək üçün nəzərdə tutulmalıdır [5, s.87].

Telekommunikasiya (informasiya-peyk) texnologiyası əsasən informasiya-tədris resurslarının translyasiya edilməsi üçün kosmik peyk vasitələrinə, eləcə də müəllimin və tələbələrin effektiv kontraktlarının təmin edilməsi, tələbələrin ali məktəbin rəqəmsal kitabxanalar, videomühazirələr və s. məlumatları əhatə edən informasiya bazalarından istifadə imkanını təmin etmək üçün qlobal və lokal şəbəkələrdən istifadə edilməsinə əsaslanır. Distant təhsilin telekommunikasiya modeli həm poçt e-mail protokollarına (POP3 və İMAP4) əsaslanan off-line rejimində, həm də interaktiv öyrədici texnologiyalardan istifadə etməyə imkan verən *http, ftp, gopher* və başqa protokollara əsaslanan “on-line” rejimində reallaşdırıla bilər. Telekommunikasiya (informasiya-peyk) texnologiyaları əsasında təlimin effektiv olması üçün aşağıdakı şərtlərin təmin edilməsi zəruridir: müdavimə yönəlmiş rabitə kanallarının buraxıcılıq qabiliyyəti ən azı 1 Mbit/c, müdavimdən kənara yönəlmiş rabitə kanallarının buraxıcılıq qabiliyyəti isə ən azı 8Kbit/c olmalıdır. Bu halda iş yerində kompüterin konfiqurasiyası tədris fəaliyyətinin müxtəlif növlərinin effektiv şəkildə həyata keçirilməsi üçün real imkanları təmin etməlidir. Hər bir iş

yerində CD qurğusunun, səs kartının və qulaqlıqların olması da zəruridir. Tədris prosesinin telekommunikasiya (informasiya-peyk) texnologiyaları üzrə təşkil edilməsi üçün dərslərin növbəliliyi nəzərə alınmaqla fərdi kompüterlərlə, videoyazılar aparılması və onların göstərilməsi üçün xüsusi aparatlarla təchiz olunmuş təhsil-iş yerlərinin təmin edilməsi zəruridir. Bundan əlavə həmin iş yerlərində videoproyeksiya və telemühazirə studiyalarının olması bütün tələbələrin telekonfranslarda iştirak etməsinə, kompüter və televiziya proqramlarına, videofilmlərə kollektiv halda baxmağa imkan verir.

Konkret ali məktəblərin hər biri distant təhsil sistemində tətbiq edilən sadaladığımız təhsil proqramlarının hamısından fərdi qaydada istifadə edir. Bu halda bir tərəfdən ən effektiv texnologiyalara, digər tərəfdən təhsil xidmətlərinin təqdim edilməsinin istifadəçilər tərəfindən daha çox tələbat olan formasına üstünlük verilir.

Distant təhsil sisteminin formalaşması postsovet məkanı ərazisində də ali təhsilin modernləşdirilməsinin strateji istiqamətlərindən biridir. Keçmiş SSRİ-nin tərkibinə daxil olan dövlətlərin təhsil praktikasının təhlili göstərir ki, bu ölkələrdə distant təhsilin inkişafında müəyyən ümumi meyillər müşahidə olunur. Məsələn, Rusiyada distant təhsilin inkişafının müasir mərhələsinin səciyyəvi cəhəti – dünya praktikasında qəbul edilmiş müxtəlif müasir təhsil texnologiyalarından geniş istifadə edilməsidir. Bu proses 90-cı illərin birinci yarısında başlamışdır. Rusiya Elm, Ali Məktəb və Texniki Siyasət Nazirliyinin Ali Məktəblər Komitəsinin 23 may 1993-cü ildə qəbul etdiyi qərara əsasən tədris materiallarının və informasiyanın istifadəçisinin harada olmasından asılı olmayaraq bilavasitə ona çatdırılması üçün ən yeni vasitələrdən və informasiya texnologiyalarından istifadə olunmasını təmin edən distant ümumtəhsil müəssisələri şəbəkəsi Rusiya Federasiyasının ali təhsil sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. Belə bir şəbəkənin yaradılması milyonlarla Rusiya vətəndaşı üçün təhsil xidmətlərinin reallaşdırılmasının yeni bir kanalını təmin etməklə, təhsil sahəsində dövlət siyasətinin təhsilin humanist xarakteri, təhsil məkanının vəhdəti, təhsilin hamı üçün əlyetərli və demokratik olması, onun tələbələrin inkişaf və hazırlıq səviyyəsinin xüsusiyyətlərinə adaptiv olması, şəxsiyyətin sərbəst inkişafı deməkdir. Rusiyanın sosial-iqtisadi inkişaf yolları, ölkədə ali məktəbin humanitarlaşdırılması bu ölkədə humanitar distant təhsil sistemi yaradılmasını zəruri edir. Distant təhsil sistemi yalnız o halda səmərəli ola bilər ki, onun əsas struktur elementlərinin mərkəzləşdirilməsi müəyyən səviyyədə olsun və bu mərkəzləşdirmə regional mərkəzlərin müstəqilliyi ilə əlaqələndirilsin. Ona görə də distant təhsil sistemi ümumdövlət xarakteri daşımalı və Rusiya Federasiyasının Ali Təhsil üzrə Dövlət Komitəsi vasitəsilə idarə edilməlidir. 1994-cü ildə RF Distant Təlim İnstitutu yaradılmışdır. 1997-1999-cu illərdə RF Təhsil Nazirliyinin distant təhsil sahəsində keçirdiyi eksperimentin nəticələri distant təhsil sahəsində birinci

dərəcəli vəzifələri və çoxsaylı problemləri aşkar etməyə, eləcə də təhsil xidmətlərinin bu formasının təqdim edilməsinin hüquqi aspektlərini tənzimləyən normativ-hüquqi baza yaradılmasının əsası kimi distant təhsil sahəsində dövlət standarlarının işlənib hazırlanmasının zəruri olmasını müəyyən etməyə imkan vermişdir. RF-nin bəzi aparıcı ali məktəbləri distant təhsilin təşkilində artıq müəyyən uğurlar qazanmışlar [6].

Müasir Azərbaycan əhalisinin yeni təhsilə tələbatını, ölkədə baş verən siyasi dəyişiklikləri, müvafiq təhsil texnologiyalarına tələbatı, beynəlxalq əlaqələrin, o cümlədən təhsil sahəsində əlaqələrin genişlənməsini; təhsil prosesinin iştirakçıları arasında informasiya mübadiləsinin keyfiyyətcə yeni texniki vasitələrinin intensiv inkişafını; təhsil xidmətləri üzrə dünya bazarlarında rəqabətin güclənməsi şəraitində təhsildə beynəlxalq inteqrasiyanın artmasını, dünya miqyaslı vahid təhsil məkanının formalaşmasını nəzərə alsaq, distant təhsilin üstünlükləri aşkardır, distant təhsilin inkişafı isə Azərbaycanın təhsil sistemi üçün də xüsusi aktuallıq kəsb edir.

Distant təhsildə tədris fəaliyyətinin təşkil edilməsinin dünya praktikasında geniş yayılmış formalarından – telekonfranslardan, işgüzar oyunlardan, qrup halında diskussiyalardan, interaktiv tədris materialları ilə iş metodlarından, *case study* üsullarından istifadə edilməsi məqsədəuyğundur. Bir faktı da nəzərə almaq lazımdır ki, distant təhsil sistemində tədris məşğələlərinin keçirilməsi forması tamamilə dəyişir: bu halda aktiv və intensiv məşğələlər (işgüzar oyunlar, «beyin hücumu», «konkret halın öyrənilməsi») formasında aparılan tütoriallara, praktiki məşğələlərə və laboratoriya işlərinə üstünlük verilir. Distant təhsildən istifadə edildikdə təhsil prosesinin təşkilinin daha bir səmərəli forması qrup halında və fərdi məsləhətlərdir. Tələbələrin qarşılaşdığı müxtəlif problemlərin həlli prosesində bu formaya xüsusi yer verilir.

Distant təhsil üçün nəzərdə tutulmuş tədris materialları aşağıdakı tələblərə cavab verməlidir: informasiya şəffaflığı, tədris materiallarının zorla qəbul etdirilməməsi, onların qavrayış üçün sadə olması, redaktə və referatlaşdırma işlərinin asanlığı, qənaətcillik, özünənəzarətin yüksək dərəcəsi, əks-əlaqə yaratmaq üçün interaktiv imkanların mövcud olması. İstər bütövlükdə distant təhsil prosesi, istərsə də hər bir təhsil kursu başlanğıc məşğələlərdən, şərhlərdən başlanmalıdır. Bu məşğələlərdə tələbə müəllim barədə məlumat alır, tədris kursunun xülasəsi, məqsədləri və vəzifələri ilə tanış olur, hər bir konkret kursun öyrənilməsində hansı dərsliklərdən və əlavə tədris materiallarından istifadə edə biləcəyi, eləcə də cari və yekun nəzarətin hansı formada həyata keçiriləcəyi barədə məlumat alır. Tədris kursuna müvafiq terminlərin qlossarisi əlavə edilməlidir. Qlossaridə həmin bilik sahəsində istifadə edilən, tələbə təhsil kursunu keçərkən onun işləməli olacağı bütün yeni terminlərin mənası izah edilir.

## 5. Distant təhsilin (ümumi qaydada (ali və orta təhsil sistemində) və əlil uşaqlar üçün) təşkili ilə bağlı zəruri hüquqi-normativ sənədlərin hazırlanması

- Distant təhsilin təşkili ilə bağlı ümumi prinsipləri əks etdirən Əmr;
- Distant təhsilin təşkili il bağlı ümc xumi şərtləri, iştirakçıları, funksiyaları və sair əks etdirən Qaydalar (Əmrə əlavə olunur);
- Distant təhsillə bağlı Koordinasiya Mərkəzi və onun Əsasnaməsi (TSİİ-də və ya Nazirlik nəzdində);
- Distant Təhsil Mərkəzləri (müstəqil və ya ümumtəhsil məktəblərində fəaliyyət göstərən Distant Təhsil Mərkəzləri) haqqında Əsasnamə;
- Distant Təhsilin təşkili ilə bağlı metodiki tövsiyələr;
- Distant təhsil məktəblərinə qoyulan standartlar, tələblər;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün distant təhsilin təşkili ilə bağlı Əsasnamə və digər zəruri sənədlər.

Yuxarıda deyilənləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, DT sisteminin Azərbaycanda təhsil praktikasına səmərəli tətbiq edilə bilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

1) sosial sifarişi, yəni Azərbaycanda DT-yə tələbatı, onun vəziyyətini və inkişaf perspektivlərini öyrənmək;

2) inkişaf etmiş dövlətlərin DT sistemlərinin inkişafının aparıcı meyillərini aşkar etmək;

3) DT-nin inkişafı üzrə dövlət proqramı yaratmaq;

4) ali təhsilin müxtəlif səviyyələri üçün baza tədris fənləri üzrə DT-nin tədris-metodik, elmi-metodik və proqram-texniki təminatını işləyib hazırlamaq: aparıcı müəllimlərin mühazirələrinin videoçəkilişi, təhsil prosesində istifadə edilən ədəbiyyatın videobankının, CD-bankının, CD-surətlərinin, distant təhsil texnologiyaları əsasında öyrəniləcək təhsil fənləri üzrə kompüter tester-trenajorları bankının yaradılması işlərinə başlamaq;

5) DT üçün kadrlar hazırlanması, onların təkrar hazırlanması və ixtisasartırma sistemini yaratmaq;

6) DT-nin normativ-hüquqi, informasiya-analitik və marketinq təminatını yaratmaq;

7) DT sistemində işləyəcək mütəxəssislər hazırlanmasını təşkil etmək;

8) ölkədə DT sisteminin inkişafını təmin edən maliyyə mexanizmlərini müəyyənləşdirmək və təşkilati-idarəetmə strukturlarını formalaşdırmaq;

9) həm ənənəvi – cari və yekun nəzarət mexanizmlərini, həm də DT sistemi üçün spesifik elektron nəzarət mexanizmlərini yaratmaq;

10) DT-nin informasiya və təhsil texnologiyalarının reallaşdırılması üçün kommunikasiya infrastrukturunu təkmilləşdirmək;

11) DT sahəsində beynəlxalq əməkdaşlığın inkişafını, beynəlxalq təhsil layihələrində iştirakı fəallaşdırmaq;

12) ölkəmizdə təhsilin ən yaxşı ənənələri, qabaqcıl beynəlxalq təcrübə, ən yeni psixoloji-pedaqoji, informasiya, kommunikasiya və digər texnologiyalar nəzərə alınmaqla tərtib edilmiş kompleks inteqrasiyalı təhsil proqramlarından istifadə edilməsi yolu ilə təhsilin yüksək standartlarını və keyfiyyətini təmin etmək;

13) müdavim kontingentinin spesifikası, onların həll etdiyi sosial və təhsil məsələlərinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla DT-nin məzmununun konkret və ünvanlı olması prinsipini reallaşdırmaq;

14) ölkədə DT haqqında müsbət ictimai rəy, DT sisteminin inkişafında iştirak etmək arzusunu bildirmiş təşkilatlar və şəxslər üçün əlverişli investisiya şəraiti yaratmaq;

15) DT-nin maliyyələşdirilməsinin çoxkanallı olmasını, DT sisteminin formasının başlanğıc mərhələsində dövlətin start maliyyələşdirməsindən sonra tədricən özünümaliyyələşdirmə rejiminə keçidini təmin etmək.

Sadalanan tədbirlərin həyata keçirilməsi DT-ni müasir dövrün sosial kontekstinə daxil etməyə imkan verəcəkdir. Bu, zərurət və Azərbaycan Respublikasının ali təhsil sisteminin modernləşdirilməsinin strateji istiqamətlərindən biridir.

## ƏDƏBİYYAT


1. Onlayn dərslər distant təhsilin təzahür formasıdır (professor Ə.Q.Pələngov) / https://xebertv.info/2862-lk-rhbrliyi-kt-sahsinin-inkiafna-xsusi-diqqt-ayrmdr.html
2. *Alışov M., Pələngov Ə., Əliyev Q.* İnformatika BASİC və PASCAL proqramları üzrə praktik və nəzəri kurs: Dərs vəsaiti Bakı: ADPU, 2005, 175 s.
3. Elm və təhsilimizin müstəqillik problemləri (İ.Əhmədov), Bakı, 2021 / https://aztehsil.com/news/16616-elm-ve-tehsilimizin-musteqillik-problemleri.html
4. Orta məktəbdə informatikanın tədrisi metodikası: Dərs vəsaiti. Bak: Elm və təhsil, 2015, 185 s.
5. *Любжин А.А.* Дистанционное образование: технологии и перспективы // Народное образование, 2003, № 6, с.89-92
6. Приказ Министерства образования РФ от 18.12.02 № 4452 “Об утверждении Методики применения дистанционных образовательных технологий (дистанционного обучения) в образовательных учреждениях высшего, среднего и дополнительного профессионального образования Российской Федерации” / www.uchitel.ru


Redaksiyaya daxil olub 02.03.2021

*UOT 37*

***S.F.Rustamova***
*Master graduate of University of Gothenburg*
*farrukhrustamov@gmail.com*

# INCLUSIVE EDUCATION IN AZERBAIJAN

***Keywords:*** *inclusive education, Azerbaijan, students with special educational needs, right to education, equality*

Inclusive education is a new concept applied in the education system of Azerbaijan, and not all members of society are familiar with this concept. National legislation provides equal, comprehensive and quality educational opportunities for all. The article provides detailed information on inclusive education in Azerbaijan and the stages of its implementation, analyzes the normative-legal documents related to inclusive education, and investigates statistics on students in need of special education. Although the Azerbaijani government supports inclusive education, there are gaps in the legislation. The establishment of a mechanism for the implementation of documents adopted in connection with inclusive education, the elimination of obstacles to the successful implementation of inclusive education are justified.

***S.F.Rüstəmova***

## AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİL

***Açar sözlər:*** *inklüziv təhsil, Azərbaycan, xüsusi təhsil ehtiyacları olan şagirdlər, təhsil hüququ, bərabərlik*

İnklüziv təhsil Azərbaycan təhsil sistemində tətbiq olunan yeni bir konsepsiyadır və cəmiyyətin bütün üzvləri bu konsepsiya ilə tanış deyillər. Milli qanunvericilik hamı üçün bərabər, əhatəli və keyfiyyətli təhsil imkanlarını təmin edir. Məqalədə Azərbaycanda inklüziv təhsil və onun tətbiqetmə mərhələləri barədə ətraflı məlumat verilir, inklüziv təhsillə bağlı normativ-hüquqi sənədlər təhlil edilir, xüsusi təhsilə ehtiyacı olan şagirdlər haqqında statistik məlumatlar araşdırılır. Azərbaycan hökuməti inklüziv təhsilə dəstək versə də, qanunvericilikdə müəyyən boşluqların olduğu göstərilir. İnklüziv təhsillə bağlı qəbul edilən sənədlərin icra mexanizminin yaradılması, inklüziv təhsilin uğurla həyata keçirilməsinə maneə olan amillərin aradan qaldırılması əsaslandırılır.

***С.Ф.Рустамова***

## ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *инклюзивное образование, Азербайджан, студенты с особыми образовательными потребностями, право на образование, равенство*

Инклюзивное образование – это новая концепция, применяемая в системе образования Азербайджана, и не все члены общества знакомы с этой концепцией. Национальное законодательство гарантирует равные, инклюзивные и качественные возможности образования для всех. В статье приводится подробная информация об инклюзивном образовании в Азербайджане и этапах его реализации, анализируются нормативно-правовые документы, касающиеся инклюзивного образования, а также исследуются статистические данные о студентах, нуждающихся в специальном образовании. Хотя правительство Азербайджана поддерживает инклюзивное образование, в законодательстве есть пробелы. Обосновано создание механизма реализации документов, принятых в связи с инклюзивным образованием, устранение препятствий для успешной реализации инклюзивного образования.

**What is inclusive education?**

To receive an education is an essential factor for every human being in today's world complexity. To get education establishes abilities for individuals to fulfill tasks in life, earning a good living, and make use of life's advanced opportunities (Federici, 2011). The written articles in an existed literature cover the economic benefits of investing in education, and obtaining education enhances a person's self-esteem and simplifies social mobility (de Beco, 2014). Numerous international legislations secure the right to education.

For the last few decades, the education system reformed considerably, and including students with special educational needs (SEN) in the same regular schools with non-SEN peers has become a significant goal in many countries (Barow & Berhanu, 2021; Berhanu, 2019; de Boer, Pijl, & Minnaert, 2011). Inclusive education is known as educating students with diverse needs in regular classroom settings along with their peers (Micheletta, 2013; Slee, 2018). Inclusive education is defined as students with learning difficulties or disabilities have access to mainstream education on an equal basis with others for progression (Barow & Berhanu, 2021; Slee, 2018; Wallace, 2015). Thus, learners participate in education to improve the quality of life and integrate into broader society, regardless of their learning difficulties, or disabilities.

Inclusive education must not transmit of academic knowledge but strengthen learning capacities (Mihai, 2017; Slee, 2018; Virgina & Kurniawati, 2018). Inclusive education awakes students into the differences of society and teaches them how to live with that. Existed studies show that students with SEN be enrolled in maintain schools is advantageous for everyone (Barow & Berhanu, 2021; de Beco, 2014; Mihai, 2017). Integration of students with SEN into the education system helps to shape the society: evolute of the society and build the tolerant society in which future generation will live in harmony with each other regardless of any differences (Mihai, 2017; Virgina & Kurniawati, 2018).

Equivalent to the process of including students with SEN into regular

schools, the terminology defined those children have been changed (de Beco, 2014; Slee, 2018). The Warnock Report (1979) suggested to switch the terms of handicaps and retarded used for students to the new term of "special educational needs (SEN)"(Warnock, 1979), and consequently, the focus moved from students' disabilities to the special needs of children in education (de Boer et al., 2011; Virgina & Kurniawati, 2018). The major reason to remove those terms and replace them with the new terminology was to eliminate the medical labeling of students, the adverse effect caused people to feel about themselves and the negative focus of those words (Bowen & Ellis, 2015).

**Inclusive education in Azerbaijan**

The Republic of Azerbaijan was ruled by the Soviet Union for 70 years and gained its independence on October 18, 1991, before the collapse of the Soviet Union. The following Armenian attack on Azerbaijan's territories during 1988-1994 caused political, economic, and social difficulties (Huseynov, 2012). The sudden decrease of the economy disadvantaged many aspects of people's lives in Azerbaijan and in particular, decreased in education access and equity, worsening educational quality, unemployment, and poverty spread over the region (Silova, Johnson, & Heyneman, 2007). Moreover, the economic deterioration led to a gradual decreasing in financing education expenditure across the region (Rust, 2008; Silova et al., 2007). Besides that, libraries were in lack of supplying wide resources and knowledge. Political difficulties started with the deportation of Azeris from Armenia starting in 1988, which was an act of forced resettlement and ethnic cleansing and ended up almost over 250000 Azeris evicted. Correspondingly, UNESCO's 1990 report clearly states that education alongside the economic, social, and political sectors in Azerbaijan encountered tremendous challenges resulting the war and losing 20 % of the territory. In order words, political difficulties were exacerbated by the outbreak of the first Nagorno-Karabakh war in 1991-1994 and resulted in around one million Azerbaijanis expelled from Nagorno-Karabakh and the loss of 20 % of the territory of Azerbaijan.

Despite all, Azerbaijan was ahead of other post-Soviet countries with high literacy rates, and the society was appraised of the importance of education and a strong education system (Bank, 2004). Azerbaijan yet inherited the general structure of the Soviet education system and continued to implement it into the Azerbaijan education system in the freedom years. However, new laws and regulatory frameworks were put forth to reform and modernize the education system in Azerbaijan to meet international standards. Over the past 30 years, several enacted legislation aimed to shape and operate the education system in Azerbaijan. The Azerbaijan Government has endorsed major conventions regarding human and child's rights and ensuring the creation of inclusive education

such as government approved on 21st of July, 1992, UN Convention on the Right of Child (UNCRC), which was the first document aimed to prevent any discrimination against children based on disability (Macdougall & Darbyshire, 2018).

Inclusive Education is a relatively new concept for the Azerbaijan education system. The latest situation of inclusive education in Azerbaijan is not satisfactory; however, this concept is in public attention recently. Azerbaijan, the former member of the Union, was built its education system on the legacy of Soviet defectology, and especially, the special education has been continued to follow the model founded by the Soviet Union in where vulnerable disabled children were forced to have residential care in special schools or large institutions (Florian & Becirevic, 2011; Mikailova et al., 2009; Mikayilova, 2019). Even after the collapse of the Soviet Union, those institutions have remained as the main model of provision for students with SEN (Florian & Becirevic, 2011), which continued to be an obstacle to the development of inclusive education in Azerbaijan. Soviet defectology created remedial education as a part of the general Russian education system during the Soviet phase of its existence (Grigorenko, 1998). Lev Semenovich Vygotsky, a founder of Soviet cognitive developmental psychology, is known for creating the discipline of abnormal child psychology in Soviet times. In his text, “The Fundamentals of Defectology” written in 1912, the word defectology was the Soviet term used for studies related to handicapped children, development of them, training for teachers, and methods (Holowinsky, 1988). Moreover, defectology was implied to children considered “difficult to cure” and “difficult to discipline”. As a matter of fact, Vygotsky’s contribution was to give theoretical support to the treatment of psychology and teaching of handicapped children.

The reformation of Inclusive education in Azerbaijan can be divided into first and second cycles. In the first cycle, the main target was integrating students with (SEN) into early childhood education and primary education. However, attempting to add new pieces into the established national education has failed. Additionally, at the early stages of applying inclusive education, students entitled to segregation from education was not considered as a problem. Azerbaijan society believed it was an ideal choice to educate them. It should be noted that Azerbaijan’s efforts to reform inclusive education started without an accurate understanding of the problem (Mikayilova, 2019). Furthermore, the statistic was not available at the start. The statistic was not released publicly until 2011; only 15% of students (SEN) were involved in education. Thereby, the first cycle of implementation of inclusive education was not targeted to solve the shortcomings of the segregated education of students (SEN) enrolled but, on the contrary, to bring inclusive education to the national educational environment (Mikayilova,

2019). Meanwhile, the education community and society's first cycle of inclusive education was not broadly known (Mikayilova, 2019). The second cycle of inclusive education was started by the adapting of the National Strategy for Educational Development in 2013. The pilot projects were undertaken in the first cycle, despite its shortcomings, established a positive attitude in society, which was an advantage for the second cycle (Mikayilova, 2019). The second cycle of inclusive education reform is given in the policy framework in detail.

**Statistic for students attending inclusive education**

Various state structures report a different number of students involved in inclusive education, whereas those statistics do not match with statistics presented from the Ministry of Education. According to the Ministry of Labour and Social Protection of Population's official statistics in 2011, 59,207 students with SEN were registered in Azerbaijan. The official data presented by the Ministry of Education of the Republic of Azerbaijan for 2011, 7,750 CWD at home, 1,105 CWD at special schools, and 2,664 at special boarding schools (McCabe, 2011). According to the Ministry of Education statistic in 2005-2009, 268 people and in 2015-2017 40 students were involved in inclusive education in experimental classes of pilot schools. Other statistics show that at the beginning of the 2016-2017 school year, the number of students with SEN were engaged in education was 6377, 3237 at special schools, 2612 at special boarding schools, and 528 at general secondary schools. The statistics of 2016-2017 depict that the most of the school-aged students (SEN) fell behind in education. Thus, while 21% of disabled students with SEN study at home, respectively 6% in special education, 6% in boarding schools, 67% of them do not study at all. According to State Statistics Committee, the number of students with SEN under the age of 18 was 71934 in 2017, while the number presented by the Ministry of Education was 65482. Out of 65482 students, 9355 were involved in education at home, 2558 at special schools, and 2725 at special boarding schools.

**Legislation on Inclusive education**

a. Curriculum

After the collapse of the Soviet Union, Azerbaijan has embarked on reforming the current curriculum within the Soviet context starting from the 1990s. The Marxist-Leninist ideology was laying in the foundation of the Soviet pedagogy, and the curriculum was predominantly theoretical and scientific. Education was focused on acquisitions of knowledge through fact memorization with excessive independence of teachers on school textbooks (Karimova, E, & I, 2014). In other words, teachers' job was to transmit standardized materials to students, and students' job was to memorize them rather than think critically or reflect on them. The curriculum was teacher-centered, and teachers would teach

students a standardized context from the same methods from same school textbook.

The curriculum reforms were mainly intended to eliminate Soviet ideology from existing curriculum content and introduced new school subjects in the 1990s. The post-Soviet curriculum was aimed at meeting the need for high-level skills, critical thinking, problem-solving and creativity, and learning skills in Azerbaijan. Students' learning was put at the center. The national curriculum was approved in 2006 by the Cabinet of Ministers and has been implemented at primary education level in schools since 2008. Unlike the Soviet curriculum, the new national curriculum was focused on standard achievements of students so that students could demonstrate at all grade levels. With the new curriculum, the role of the teachers was reformulated, and they were expected to deliver the new curriculum, to attend closely in the teaching and learning process. The curriculum was rearranged mainly in six areas in, particularly in evaluating students' achievements, determining of learning outcomes for each subject, teaching materials (school textbooks and methodological guides for teachers), teacher education, and school structure and libraries.

The principles of the Azerbaijani curriculum are as followed:

1. Considering national and universal values in education
2. Creating a learning environment suitable to all students by considering their general development level, inclinations, and interests.
3. Outcomes-based
4. Integration
5. Student-centered learning

The national curriculum of the Azerbaijan Republic was prepared content standards of general education for school subjects with learning outcomes. The content standards are designed to include general primary education (1-4 grades), general basic education (5-9 grades) and general secondary education (10-11 grades). The national curriculum aims to take everyone's talents and skills into account and implement the necessary knowledge and competencies to transform them into productive members of the community in a market economy. It is essential to the point that the curriculum considers the age, physiological, psychological, and individual characteristics and potential capacity of students.

Despite that, the national curriculum does not mention inclusive education and students with special educational needs or difficulties. Yet, the curriculum does address to a student as all students however does not specify who is meant under that term.

b. Constitution in the Republic of Azerbaijan

The Republic of Azerbaijan constitution was adopted in 1992 and contained an extensive list of the citizens' fundamental rights. According to article 12 of the Constitution, the Constitution guarantees rights and liberties and proper

living standards for a person and citizens of the Republic of Azerbaijan. Article 17 of the Constitution, deals with the rights of children protection. Article 25 of the Constitution guarantees that everyone is equal before the law and the courts. The VI paragraph of the article emphasizes that persons with impaired health have equal rights and perform all the duties included in the Constitution, unless, in some cases, the rights and duties are obstructed by their limited capacities. Article 42 of the Constitution emphasizes the right of each citizen to education, guarantees free and compulsory secondary education, and ensures the equality of the rights and freedoms to everyone. However, the constitution does not specifically refer to the rights of children with disabilities to education. In general, the Republic of Azerbaijan does not guarantee inclusive education to children with disabilities under the constitution. Even though there is no constitutional guarantee to inclusive education, the constitution addresses the right to equality and ensures that persons with disabilities are eligible for all rights given in the constitution.

c. Education Law

The National Assembly promulgated an Education Law in 1992 to carry out the provisions of the constitutions regarding education. The new law was indicated the tasks, directions, and purposes to make alterations to the education system. In addition, the 1992 Education law was formed new norms and standards (such as teacher workload, salaries, class size and, etc.) to be used for school facilities and school employees. However, it was impossible to achieve those desired norms through the economic difficulties in the 1990s. So, the Revised Education Law (1995) was issued to revise, correct shortcomings of the law, and highlight the difficulties encountered in implementating of its policies from 1992 until 1995 (Bank, 2004). Article 5.2 of Education law secures equal opportunities for every citizen in the constitution regarding educational rights, but specifically addresses intolerance to any discrimination regardless of individual’s health condition. Although it was not given in the curriculum, article 10 sub-article 10.6 of education law indicates that special curriculum shall be implemented for students with health issues and learners who are in long-duration of treatment. Despite the fact that the curriculum was revised as a separate document that does not address to special curricula. Article 14.5 provides information on which educational institutions operate in the Republic of Azerbaijan, and while the sub-article of 14.5.1 mentions pre-school educational institutions, special kindergarten was also listed as one of them. However, there is no further explanation as to whom these kindergartens are referred. Furthermore, sub-article of 14.5.2 list general education institutions (primary, secondary, general secondary education institutions) with general education boarding schools, special schools and special boarding schools, special schools and boarding schools for children with limited health status, institutions for children with special needs. No additional or

exploratory information was provided on sub-article. While the stages and levels of education were listed in article 17 of the education law, the inclusive education was not mentioned there, moreover, according to the regulation, each level of education had to implement following the curriculum.

d. Rights of Person with Disabilities

A new Law of the Republic of Azerbaijan about "Rights of Persons with Disability" was adopted on May 31, 2018, and amendments were made to the law in 2019. Following the rules of the Convention on the Rights of Persons with Disabilities, the new law covered the bases of state policy, discrimination on disability, preventing disability, development of social skills, social security of those people, rehabilitation, and other important concepts. As a result of the implemention the Degree of the President of the Republic of Azerbaijan on July 18, 2018, the implementation of the Law on the Rights of Persons with Disabilities radically transformed a traditional model of disability into a social model of disability. Article 18.1 of the preschool and extracurricular education for children with disabilities states that education of children with disabilities is carried out in state, municipal and private special kindergartens or other kindergartens within the principle of inclusion, according to the Individual Rehabilitation Program approved under article 11 of this law. According to article 20.2 of education and vocational training of persons with disabilities, education of persons with disabilities and be provided in the form of special or inclusive education. The Implementation of both articles of the law still paves the way for special education to prevail and entirely delays inclusive education.

e. Education (Special education) of persons with disabilities

The Law of the Republic of Azerbaijan on "Education (special education) of persons with disabilities was adopted on July 21, 2001. The law was accomplished by adopting of "Development program for organizing education for children with special needs (with impaired health) in the Republic of Azerbaijan (2005-2009). The Law on Education (Special education) regulates general provisions; rights and responsibilities of persons with disabilities, their parents or their legal representatives in education; organization of special education; and management of special education system. According to the III chapter of the law, due to children's health condition, education of children can be organized at home, at special pre-school institutions, at vocational schools, at rehabilitation centers, at speech therapy service, at inpatient hospitals, at special educational institutions, at special educational centers in general educational institutions. The law (5.0.1) defines the right of persons with disabilities to education (special education) free of charge and according to the examination of the psychological-medical-pedagogical commission and the relevant executive authority. Unfortunately, the provision of

the legislation still supports the medical model of disability in Azerbaijan. In sub-article 9.1 of the law, education of those who cannot study in educational institutions due to their restrained health conditions is organized at home through relevant educational institutions. The section of the law still maintains the isolation and homeschooling of people. Article 12 of the law covers the organization of inclusive education. The legislation comprises of 30 articles, and only one provision and 3 sub-articles are devoted to the organization of inclusive education. However, the rest of the law determines special education, which delays the replacement of special education with inclusive education. Sub-article 12.1 states that if the educational institution has special conditions for receiving education according to psychological-pedagogical and medical instructions, inclusive education for persons with disabilities is arranged in that institution. There is a shortcoming in the law; instead of creating conditions for the implementing of inclusive education in all school, it provides inclusive education in schools at which have conditions. Moreover, the law highlights the dominance of the medical model of disability one more time. In the legislation, the criteria of the psychological-medical-pedagogical commission and the relevant executive authority for the participation of persons with disabilities in inclusive education are not included. Moreover, the list of diseases for individuals was not defined to assess their eligibility for inclusive education. However, Article 13 of the law provides a list of impairments and disorders of persons who can study in special education institutions. The list includes (13.1):

13.1.1. speech disorders;
13.1.2. hearing impaired;
13.1.3. visually impaired;
13.1.4. mental disorders;
13.1.5. people with musculoskeletal disorders and scoliosis;
13.1.6. those with severe disabilities, including the deaf-blind;
13.1.7. those who are deficient in emotional-voluntary sphere and behavior;
13.1.8. those with chronic somatic diseases.

Furthermore, 13.2 of the law stipulates that special education can be established for people with disorders specified in 13.1 in general educational institutions. According to the article, persons with disabilities are stimulated to attend special education or special education organized in general educational institutions. But there are no indication people with disorders to study inclusive education. Article 1.016 of the law defines the term of assistant teacher. A teacher assistant is defined as a qualified specialist who assists the teacher in the organization of the pedagogical process of inclusive education in general education institutions. However, the article ends by simply indicating a definition without implying additional information. Article 11.2 yet mentions that educational institutions should arrange the necessary support for persons with disabilities in the

teaching process but does not explain what the required assistance means.

Policy framework on inclusive education

Governmental and non-governmental organizations in Azerbaijan inducted multiple projects to innovate inclusive education from the year 2003. However, those innovations had a weak impact on national educational policy (Mikayilova, 2019). Consequently, the limited impact contributed not entirely from segregation of students with (SEN) to inclusive education.

There have been various initiatives to involve people with disabilities in inclusive education. Thus, due to the regulation of inclusive education, the government launched 3 pilot projects in 2005-2009. As a result of projects, 268 students (SEN) were involved in inclusive education in 15 general educational institutions; and 13 kindergartens.

The government of Azerbaijan launched the National Program on the Development of Inclusive Education in the years 2006-2015. The program initiated pilot projects in the four cities of Azerbaijan (Baku, Sumqayit, Mingachevir and Yevlakh) and was performed by the non-governmental organization “Center for Innovations in Education (CIE) alongside World Vision Azerbaijan and International Medical Corps. The CIE pilot project included 187 children with mild and moderate disabilities in pre-school and primary education (Lesko, Ziegler, Mikailova, & Roels, 2010). Those 187 children with SEN who were included in the project were once educated in separate institutions or at home. The CIE’s pilot projects’ utilization of Step by Step methodology guaranteed students (SEN), refugee children, and internally displaced children to have equal access to education. The Step by Step methodology supplied teachers with essential structures and a range of instructional tools to meet the needs of students with (SEN) in their classrooms alongside non-disabled children.

However, the Republic of Azerbaijan acquired a new national education improvement strategy to reform inclusive education as a top strategic ambition in 2013. The President approved the latest reform-related project “State program on the development of Inclusive education” of the Republic of Azerbaijan in 2017.

Besides, the government of the Republic of Azerbaijan started the project of “ Inclusive Education Implementation in Primary Education” project in 2015-2016. 4 pilot schools were selected in Baku within the implementation of the project. 40 children with special needs was involved in inclusive classrooms at those schools.

On December 14, 2017, the State Program on the Development of Inclusive Education in the Republic of Azerbaijan 2018-2024 was confirmed by executive order no.3498 of the President of the Republic of Azerbaijan. To implement the State Program, the Action Plan, 2018 was approved by the Ministry of Education. Not only persons with disabilities are part of the program, but

persons with learning difficulties (dyslexia, dysgraphia, dyscalculia, hyperactivity, and other learning difficulties) are also involved in the program. In implementing of the State Program, "Ensure Teacher Readiness for Inclusive Education for years 2018-2020" project was put into practice. The project is being conducted within the framework of a program "Modernizing the Education System in Azerbaijan through the Involvement of Civil Society and the Introduction of Inclusive Education. The project is targeted Baku, Guba, Shamaki, Shaki, Aghjabadi, Jalilabad regions to implement the project. The program aims to place nearly 5.000 students with special educational needs at general educational institutions by 2020. In addition, 1000 primary school teachers and 400 principals, 400 instructors benefited from the program. However, there were shortcomings of the program; only primary school teachers engaged in the project, involved 6 regions of Azerbaijan, and covered only primary education.

"Expanding Inclusive Education for Children with Disabilities in Azerbaijan" project launched on November 12, 2018, was the collaborative project of the Ministry of Education of Republic of Azerbaijan, UNICEF and European Union. The two projects have been co-implemented by the UNICEF Azerbaijan and Heydar Aliyev "Regional Development" Public Union. The project has been organizing the training to improve teachers' inclusive educational skills at general education institutions and pedagogical universities. As part of the project, social campaigns have been implemented to draw attention to the rights of children with disabilities and change the public behavior toward those children. The project set objectives to contribute to the successful application of the State Program of Development of Inclusive Education.

Conclusion

The present study investigated and explained inclusive education in Azerbaijan. The study was necessitated due to the lack of sufficient information and limited research on inclusive education in Azerbaijan. Furthermore, the existing research was either outdated or did not show advances have been made until now. The study's objectivity was to explore the latest situation of inclusive education and examine legislation and policy framework in inclusive education in Azerbaijan. The current study commenced by providing information on what is inclusive education and inclusive education system of Azerbaijan after gaining independence from the Soviet Union. Despite the implementation of inclusive education in Azerbaijan's education system, the Soviet legacy of special schools continued to be used mainly, causing obstacles to the successful development of inclusive education in Azerbaijan. While the legislation has presented multiple articles and sub-articles on the implementation of inclusive education, a lack of clarification in the regulation is a significant barrier to the successful implementation of inclusive education. National legislation does not address

directly or school experience of students with SEN and any barriers and enablers they face in inclusive education. The Constitution of the Republic of Azerbaijan ensures that everyone has an equal rights to education in the country; however, it do not specifically address to educational rights of persons with disabilities. Moreover, the constitution fails to mention and yet does not guarantee inclusive education the regarding rights of persons with disabilities. Education Law, General Education Law, Rights of Persons with Disabilities and Education (Special education) of Persons with Disabilities do somehow address inclusive education, even impose conditions if the general education institutions have special conditions then inclusive education can be organized. However, these laws do not indicate any changes to standardized requirements in placing students in mainstream schools.

**REFERENCES**


1. *Bank A. D.* Education Reforms in Countires in Transition: Policies and Processes. Retrieved from, 2004
2. *Barow T. & Berhanu G.* Inclusive Education in Sweden: Policy, Politics, and Practice. 2021, In (pp. 35-51): Routledge London
3. *Berhanu G.* Intersections of race, disability, class, and gender in special/inclusive education: The case of Sweden, 2019, In (pp. 25-29): Routledge New York.
4. *De Beco G.* The Right to Inclusive Education According to Article 24 of the UN Convention on the Rights of Persons with Disabilities: Background, Requirements and (Remaining) Questions. Netherlands quarterly of human rights, 2014, 32(3), 263-287. doi:10.1177/016934411403200304
5. *De Boer A., Pijl S. J. & Minnaert A.* Regular primary schoolteachers' attitudes towards inclusive education: a review of the literature. International Journal of Inclusive Education, 2011, 15(3), 331-353. doi:10.1080/13603110903030089
6. *Federici M.* A collection of related papers on the importance of education. In J. Angiello & R. Rufer (Eds.): ProQuest Dissertations Publishing, 2011
7. Florian L. & Becirevic M. Challenges for teachers' professional learning for inclusive education in Central and Eastern Europe and the Commonwealth of Independent States. PROSPECTS, 2011, 41(3), 371-384 doi:10.1007/s11125-011-9208-4
8. *Grigorenko E.L.* Russian "Defectology": Anticipating Perestroika in the Field // Journal of Learning Disabilities, 1998, 31(2), 193-207. doi:10.1177/002221949803100210
9. *Holowinsky I.Z.* Vygotsky and the History of Pedology. School psychology international, 1988, 9(2), 123-128. doi:10.1177/0143034388092006
10. *Huseynov V.* Azerbaijan. In C.L Gleen & J.De Groof (Eds.), balancing freedom, autonomy and accountability in education, 2012, 4(7-21)
11. *Karimova Y., E. K. & I. S.* Azerbaijan: The role of teachers in curriculum reform. In I. N (Ed.), Education in Eastern Europe and Erasia, Azerbaijan: Bloomsbury Academic, 2014, pp. 259-277

12. *Lesko J., Ziegler D., Mikailova U. & Roels D.* Inclusive Education in Azerbaijan. YC Young Children, 2010, 56-61
13. Macdougall & Darbyshire C.P. Collecting Qualitative Data with Children, 2018, In (pp. 617-631).
14. *McCabe C.* Situation Assessment: People with disabilities in Azerbaijan. UNICEF Azerbaijan, 2011, 84
15. *Micheletta S. David Mitchell.* What really works in special and inclusive education. Using evidence-based teaching strategies. London-New York: Routledge (2008). Form@re, 2013, 13(3), 90-91
16. *Mihai A.* The right to inclusive education. Equal opportunities for all. (ORIGINAL PAPER)(Essay). Revista de Stiinte Politice, 2017, (53), 125
17. *Mikailova, U., Ismayilova, A., Karimova, Y., Isazade, U., Behbudov, R. & Agayev, Y. J. H. R. E. i. A. S.* Education of Children with Disabilities in Azerbaijan. 2009, 12
18. *Mikayilova U.* Inclusive Education Reform/s in Azerbaijan: An Attempt at Critical Policy Analysis. Azerbaijan Journal of Educational Studies, 2019, 688(688), 39-51. doi:10.29228/edu.29
19. *Rust, V. D. J. W. S. i. E.* Minority education policy in Azerbaijan and Iran. 2008, 9(2), 5-21
20. *Silova I., Johnson M. & Heyneman S.* Education and the Crisis of Social Cohesion in Azerbaijan and Central Asia. Comparative Education Review, 2007, 51(2), 159-180. doi:10.1086/512022
21. *Slee R.* Testing inclusive education? (1 ed.): Routledge, 2018
22. *Virgina A. & Kurniawati F.* Successful implementation of inclusive education on primary school: Roles of teachers' attitudes and their emotional support for students with special educational needs (1 ed.): CRC Press, 2018
23. *Wallace S.* Inclusive education. In (2 ed.): Oxford University Press, 2015

Redaksiyaya daxil olub 07.06.2021

*UOT 37*

***S.Ş.Tağıyeva, S.Ə.Əmirəliyeva***
*Bakı Evrika liseyi*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*tagiyeva-56@mail.ru*

# TƏLİM PROSESİ ZAMANI YARANAN DİDAKTİK PROBLEMLƏR

***Açar sözlər:*** *problemlər, qiymətləndirmə, fərziyyələr, əks-əlaqə, planlaşdırma, mühüm bacarıqlar*

Məqalədə təlim prosesində müəllimlərin, xüsusilə gənc müəllimlərin qarşılaşa biləcəyi problemlərdən danışılır. Təlim prosesinin bütün mərhələlərində qarşıya çıxacaq problemlərin həlli yolları, müəllimlərin bu problemləri həll etmək üçün xüsusi bacarıq və qabiliyyətlərindən bəhs olunur.

Gənc müəllimlərin təlim prosesində rast gələcəkləri bəzi problemlər – perspektiv və cari planlaşdırmaların tərtibi ilə bağlı, bilavasitə təlim prosesi zamanı, əks-əlaqəni yaratmaqda, qiymətləndirmə zamanı qarşıya çıxan çətinliklər olmaqla təsnif olunaraq onlar haqqında geniş məlumat verilmişdir.

Nümunəvi dərs məşğələlərinin hazırlanması, fəal dərsin planlaşdırılması və nümayişi üçün tövsiyələr verilmişdir. Təlim məşğələlərinin düzgün aparılması (vəsaitə uyğunluq, aydınlıq) məqsədilə müəllimlərin malik olacaqları bir sıra bacarıqlardan bəhs olunmuşdur.

***С.Ш.Тагиева, С.А.Амиралиева***

# ДИДАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Ключевые слова:*** *проблемы, оценивание, предположения, обратная связь, планирование, важные навыки*

В статье рассматриваются проблемы, с которыми учителя, особенно молодые учителя, могут столкнуться в процессе обучения. Обсуждаются решения проблем, которые будут возникать на всех этапах учебного процесса, специальные навыки и способности учителей решать эти задачи.

Молодые преподаватели были широко информированы о некоторых проблемах, с которыми они сталкиваются в процессе обучения – классификация перспективного и текущего планирования, процесс прямого обучения, противопоказания, трудности, возникающие во время оценивания.

Предоставляются советы по подготовке учебных занятий, планированию активного урока и демонстрации. Был обсужден ряд навыков, которыми могут обладать учителя для правильного проведения учебных занятий (соответствие материала, ясность).

***S.Sh.Taghiyeva, S.A.Amiraliyeva***

## DIDACTIC PROBLEMS ARISING IN THE LEARNING PROCESS

***Keywords:*** *problems, grading, assumptions, feedback, planning, important skills*

This article discusses the problems that teachers, especially young teachers, may encounter in the learning process. Ways to solve problems that will occur at all stages of the educational process, as well as specific skills and abilities of teachers to solve these problems.

Young teachers were widely informed about some of the problems they face in the learning process – the classification of perspective and current planning, the direct learning process, contraindications, difficulties arising during evaluation.

Tips are provided on preparing training sessions, planning an active lesson and demonstration. There are a number of skills that teachers may possess for the correct conduct of studies (compliance with material, clarity).

XXI əsrdə insanın şəxsiyyət kimi formalaşmasında, intellektual səviyyəsinin artırılmasında həm ümumtəhsil məktəblərində, həm də ali təhsil müəssisələrində fəal təlimin tətbiq edilməsi əsas məsələlərdən biridir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, uzun illərdir ki, Azərbaycan təhsil sistemində də yeni təlim metod və texnologiyalarından, xüsusilə fəal, interaktiv təlim metodlarından istifadəyə geniş yer verilir. Ali təhsil müəssisələrinin pedaqoji fakültələrində təhsil alan, gələcəyin müəllimlərinin gənc nəslin müasir tələblərə uyğun formalaşmasında fəaliyyəti üçün fəal təlimin rolu əvəzsizdir. Belə ki, müstəqil fəaliyyət göstərərək öz təcrübələrini artıran gənc müəllimlər, aktiv pedaqoji təcrübə zamanı da yeni təlim texnologiyalarından istifadə bacarıqları əldə edirlər. Lakin təlim prosesində belə gənc müəllimlər bir sıra problemlərlə üzləşirlər [1, s.19].

Təlimin keyfiyyətinin yüksəldilməsi üçün gələcək müəllim müasir dərsə verilən tələblərə mükəmməl yiyələnməlidir. Müasir tələblərə cavab verən dərs haqqında düşünən müəllim öyrənənləri elə zəruri bilik və bacarıqlarla təmin etməlidir ki, hər bir fərd sərbəst olaraq qloballaşan dünyamızda informasiya və texnologiyaları çevik mənimsəmiş olsun.

Hazırda ali təhsil müəssisələrində hazırlanan plan və proqramlar günün tələblərinə uyğun olaraq kurikulumun qarşıya qoyduğu tələblərə cavab verəcəyi formadadır. Bu cür tərtib olunmuş plan və proqramlardan istifadə təlim prosesini daha da səmərəli etmiş, təhsilin keyfiyyətində əsaslı dönüş yaratmışdır.

Gələcəyin müəllimi eyni zamanda İKT bacarıqlarına yiyələnməli, səbirli və dözümlü, nitqi səlis və inamlı olmalıdır.

Pedaqoji fakültələri bitirən gənc müəllimlər təlim prosesinin bütün mərhələlərində bir çox problemlərlə üzləşirlər. Lakin bu zaman müəllim özünə

inamla yarana biləcək hər hansı bir problemi həll etməyə qadir olmalıdır. Uzun illərin təcrübəsinə əsasən, gənc müəllimlərin təlim prosesində rast gələcəkləri bəzi problemləri aşağıdakı kimi təsnif etmək olar:

1. Perspektiv və cari planlaşdırmaların tərtibi ilə bağlı;
2. Bilavasitə təlim prosesi zamanı qarşıya çıxan çətinliklər;
3. Əks-əlaqəni yaratmaqda;
4. Qiymətləndirmə zamanı.

Uzun illərin təcrübəsi onu deməyə imkan verir ki, təlim zamanı əsas problem perspektiv və gündəlik planlaşdırmaların tətbiqi zamanı yaranır. Mövzuların perspektiv planlaşdırması zamanı sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllıqların gözlənilməsi vacib şərtlərdən biridir. Perspektiv və cari planlaşdırmaların tərtibi zamanı qarşıya çıxan çətinliklərdən biri illik planlaşdırmanın tərtibində məzmun və inteqrasiya standartlarının düzgün seçilməsidir. Bu zaman əsasən müəllim məzmun standartının mövzuya nə dərəcədə uyğun olduğuna fikir verməlidir. İnteqrasiya standartlarının seçimində isə o sərbəstdir. Əsas odur ki, müəllim planlaşdırmanı hansı sinif üçün tərtib edirsə, inteqrasiya standartları da həmin sinif üzrə seçilməlidir.

Cari və ya gündəlik planlaşdırmada isə gənc müəllimlərin xüsusilə diqqətli olmaları məsləhətdir. Belə ki, dərsin səmərəli təşkili bundan çox asılıdır. Fəal dərsin mərhələlərinə verilən tələblər gözlənilməlidir. Məsələn, müəllim bəzən təlim nəticələrini standartlara müvafiq deyil, dərsin məzmununa uyğun seçilməsinə üstünlük verir. Bu zaman standartın tələbləri kənarda qalır. Müəllim isə gözlənilən nəticədən uzaqlaşır. Belə olan halda təlim məqsədlərindən qiymətləndirmə meyarlarının seçilməsi də çətin olur. Ona görə də bu məsələyə xüsusi diqqət verilməlidir. Gündəlik planlaşdırmaların tərtibi nəinki yeni fəaliyyətə başlayan müəllimlərin, eləcə də bir çox təcrübəli fənn müəllimlərinin də əsas problemlərindən biridir. Gündəlik planlaşdırmanın tərtibində əsasən planlaşdırmanın ardıcıllığına, standartların düzgün seçilməsinə, standartlara uyğun təlim nəticələrinin müəyyən olunmasına diqqət verilməlidir. Təlim nəticələrinin düzgün seçilməsi dərsin aparılmasının əsas şərtidir. Təlim nəticələri şagirdlərin yaş səviyyəsinə, tələb səviyyəsinə və idrak səviyyəsinə uyğun verilməlidir.

Planlaşdırma zamanı dərs üçün müəyyənləşdirilən təlimin forma və üsulları da təlimin təşkilinin səmərəliliyi üçün əsasdır. Gənc müəllimlər təlim zamanı üsul və ya formaların seçilməsində çətinlik çəkirlər. Təlimin üsul və formalarının seçilməsi üçün müəllim əvvəlcədən dərsin hansı mərhələyə uyğun məqsədəmüvafiq seçəcəyi üsulları müəyyənləşdirməyi bacarmalıdır. Lakin bəzi hallarda müəllim bunu kortəbii etdiyi üçün problemlər yaranır. Bu zaman mütləq təlim nəticələrinə və mövzuya uyğun forma və üsullar seçilməlidir. Qruplarla iş forması zamanı bəzi problemlər qarşıya çıxır: müəllimin tapşırıqları diferensial formada, yaş səviyyəsinə uyğun verməməsi, vaxtdan

səmərəli istifadə etməmələri, qrup işinin qaydalarına tabe olmamaları və s. Bu zaman əsas problemlər aşağıdakı kimi ola bilər:

- bəzi öyrənənlərin digər öyrənənlərlə işləmək istəməməsi;
- qrupda bəzi öyrənənlərin passiv olması;
- bəzi öyrənənlərin təfəkkürünün aşağı səviyyədə olması;
- öyrənənlərin müxtəlif suallara cavab verə bilməməsi qorxusu;
- bir-birinin fikrini dinləməmək;
- tədqiqat zamanı qrup üzvlərindən kiminsə liderlik iddiası;
- bir-biri ilə razılaşmaması.

Fəal dərsin mərhələlərinin tətbiqi zamanı müəllimlərin ən çox çətinliklə üzləşməsi dərsin motivasiya mərhələsinin tətbiqində yaranır. Motivasiya dərsin birinci mərhələsi hesab olunur. Motivasiya mərhələsi aşağıdakı hissələrdən ibarətdir:

- problemin yaradılması üçün sual və ya tapşırıqların verilməsi;
- yönəldici sualların təklif olunması;
- fərziyyələrın irəli sürülməsi.

Motivasiya təlim zamanı öyrənənlərin idrak fəallığına təkan verən prosesdir. Aşağıdakı amillər motivasiyanın yaradılmasına kömək edir:

- müxtəlif fərziyyələri yaradan problem situasiyalar;
- tədqiqat imkanının yaradılması;
- obyektin xüsusiyyətləri (qeyri-adilik, sərbəst düşünmə, maraq yaratmaq)
- yaradıcılıq imkanlarının geniş olması.

Lakin bəzi hallarda müəllimlər bu mərhələdə qapalı suallardan istifadə etməklə böyük səhvlərə yol vermiş olur. Bu zaman öyrənənlərin təfəkkürü yox, hafizəsi işə düşür. Yaddaşında olan hansısa məsələyə aid bir cavab verir. Çünki qapalı sualın konkret bir cavabı olur. Əslində motivasiya sualı çox düşündürücü olmalı, müxtəlif fərziyyələrin irəli sürülməsinə imkan yaratmalıdır [3, s.67-68].

Müəllimlərin qarşısına çıxan problemlərdən biri də tədqiqat sualının düzgün qoyulmamasıdır. Tədqiqat sualı elə olmalıdır ki, məzmunu bütövlükdə əhatə etmiş olsun. Tədqiqat sualından sonra tədqiqatın aparılması başlanılır. Tədqiqat zamanı verilən tapşırıqlar təlim məqsədlərinə müvafiq olmalıdır.

Dərsin sonrakı mərhələsi məlumat mübadiləsidir. Bu mərhələdə qarşıya çıxan problemlərdən biri təqdimatlar zamanı şagirdlərin qeyri-fəallığı və qarşı tərəfi dinləməməsidir. Cavabların təqdim olunması lakonik, aydın və qısa zaman ərzində olmalıdır. Hər bir şagirdin fəal olmasına çalışmalı, az vaxt ərzində cavablar təqdim olunmalıdır. Deyilənlərə əməl olunması üçün müəllim əvvəlcədən bu barədə şagirdləri məlumatlandırarsa, heç bir problem yaranmaz.

Mübadilə mərhələsi zamanı irəli gələn məsələlərin müzakirəsi dərsin ən vacib anlarından biridir. Müzakirə mövzu ilə bağlı müəllimin açıqladığı bir fikirdən sonra şagirdlər tərəfindən davam etdirilir. Bu zaman qeyri-dəqiq cavablandırılan fikirlərlə bağlı müəllim tərəfindən əlavə məlumatların verilməsi

məqsədəuyğundur. Müzakirə mərhələsində verilən sualların şagirdlərin təqdimat zamanı zəif cavablandırdıqları məsələlərə aid olmasına diqqət yetirmək lazımdır.

Mövzu ilə bağlı müzakirələrdən əldə etdikləri bilik və bacarıqların ümumiləşdirilməsini apara bilmək üçün müəllim şagirdlərə yönəldici suallarla müraciət edir. Bu zaman əsas problem ümumiləşdirmənin tədqiqat sualı ilə nə dərəcədə uyğun olmasıdır. Bu mərhələdə müəllim ümumiləşdirmə və nəticə xarakterli iş aparır. Mərhələdə problemlərin yaranmaması üçün elektron dərs vəsaitindən də istifadə etmək olar.

Yaradıcı tətbiqetmə mərhələsində mövzu ilə bağlı hər şagirdə təfəkkürə əsaslanan müxtəlif yaradıcılıq tapşırığı vermək olar. Bu zaman müəllimlər ən çox bir problemlə üzləşə bilərlər – vaxt çatışmazlığı. Vaxt çatmadıqda həmin tapşırıqlar ev tapşırığı kimi verilə bilər. Mövzu ilə bağlı internet saytlarından əlavə məlumatların toplanması və təqdimatların hazırlanmasının ev tapşırığı kimi verilməsi məqsədəuyğundur.

Dərsin ilk mərhələsindən düzgün qurulmuş əks-əlaqə məhz dərsin yekun mərhələlərində daha da dəqiq aparılmalıdır. Əks-əlaqənin təşkilində ən çox problem öyrənənlərin təqdimatları və qrup işində fəaliyyətləri zamanı baş verə bilər. İstənilən zaman müəllimdən xüsusi bacarıq tələb olunur ki, əks-əlaqə düzgün yaradılsın.

Gənc müəllimlərin qarşılaşdığı problemlərdən biri də təlim prosesində qiymətləndirmənin obyektiv aparılmasıdır. Müəllim standartlar əsasında müəyyən etdiyi təlim məqsədlərinə nail olmaq üçün qiymətləndirmə meyarlarını müəyyən edərək öyrənənlərin fəaliyyətini qiymətləndirir. Bu qiymətləndirmə modelinin hazırlanması mövzu üçün götürülmüş standartlardan qiymətləndirmə meyarlarının düzgün tərtib olunmasından asılıdır. Bildiyimiz kimi, bu, gündəlik dərs prosesində aparılan formativ qiymətləndirmədir. Lakin dərs prosesində iş forması olaraq qruplarla iş götürülmüşdürsə, qrupların qiymətləndirilməsi üçün meyar cədvəli aşağıdakı kimi tərtib olunur:

| Qruplar / Meyarlar | I Qrup | II Qrup | III Qrup | IV Qrup |
|---|---|---|---|---|
| İzahetmə | | | | |
| Fikri dəqiq ifadə etmə | | | | |
| Vaxta riayət etmə | | | | |
| Əməkdaşlıq | | | | |
| Cəmi: | | | | |

Qrupların bu cür qiymətləndirilməsi zamanı hər mərhələ rəqəmli qiymətləndirilir. Bu zaman qruplar arasında yekun ballarla bağlı problem

olmasın deyə, hər mərhələyə verilən balların qrup iştirakçılarının öz razılıqları ilə verilməsi məqsədəuyğundur.

**Nümunəvi dərs məşğələlərinin hazırlanması, fəal dərsin planlaşdırılması və nümayişi üçün tövsiyələr**

Təlim prosesinin əsas probleminin dərslərin planlaşdırılması və təşkili ilə bağlı olduğunu nəzərə alaraq gənc müəllimlərə bir sira tövsiyələrin verilməsini məqsədəuyğun hesab edirik:

1. Standartları müəyyənləşdirmək.
2. Dərsin gözlənilən nəticələrini müəyyən etmək.
3. Dərsin sonunda şagirdlərin hansı nəticələrə (ümumiləşdirmələrə) gələcəklərini müəyyənləşdirmək.
4. Dərsin motivasiyasını hazılamaq (problemli situasiyanın yaradılması, motivasiya növünün seçilməsi, tədqiqat sualının düzgün qoyulması).
5. Tədqiqat zamanı yeni biliyi toplamaq üçün istifadə olunan bilik mənbələrini müəyyənləşdirmək.
6. Müəyyən edilmiş gözlənilən nəticələrə gətirə biləcək tədqiqat tapşırıqlarını hazırlamaq.
7. Tədqiqat metodlarını müəyyənləşdirmək.
8. Lazımı materialları və işçi vərəqlərini hazırlamaq, tədqiqatın təqdimat formasını müəyyənləşdirmək.
9. Müzakirə zamanı istifadə olunan yönəldici sualları müəyyən etmək.
10. Məlumatın təşkiletmə formasını işləmək (sxem, düstur, qrafik, cədvəl, şəkil, siyahı, layihə və s.)
11. Dərsin hər mərhələsi üçün vaxtı müəyyən etmək.
12. Dərsin yaradıcı tətbiqetmə mərhələsi üçün tapşırıqlar hazırlamaq.
13. Qiymətləndirmə formasını (üsulunu) seçmək, meyarları müəyyənləşdirmək.
14. Müəllim və şagirdlərin tələbatlarına əsaslanan refleksiyanın gedişatını müəyyənləşdirmək.
15. Dərsdə istifadə olunacaq texniki vasitələri müəyyənləşdirmək.
16. Dərsdə istifadə olunacaq dəftərxana ləvazimatlarını hazırlamaq.

**Nümunəvi dərs məşğələlərinin düzgün aparılması məqsədi ilə müəllimlər bir sıra bacarıqlara malik olmalıdır:**

- məşğələnin tam şəkildə aparılması;
- fasilitasiya bacarıqlarının nümayişi:
- fəal dinləmə;
- əməkdaşlıq;
- çeviklik;
- yönəldici sualların verilməsi:
- empatiya bacarığı;

- yaradıcılıq vərdişləri;
- təşkilati bacarıqlar;
- iştirakçıların stimullaşdırılması;
- diskussiyanın idarə edilməsi;
- vaxta qənaət;
- səs-küyün idarə edilməsi;
- dərsin maraqlı aparılması (müəllimin intonasiyası, əyanilik, İKT-nin istifadəsi və s.) [5, s. 143].

Müəllimlər qeyd olunan problemləri çevik həll etmək üçün kurikulumun tələblərinə əməl etməli, İKT bacarıqlarına yiyələnməli, səbirli və dözümlü, onların nitqi səlis və inamlı olmalıdır. Müəllim öyrənənlərin verə biləcəyi suallara özünü əvvəlcədən hazırlamalıdır. Onlar təlim prosesini maraqlı, rəngarəng qurmalı, ilk dərsdən fəal təlimin qarşıya qoyduğu tələblərin mahiyyətini dəqiq çatdırmalı, kurikulumun təhsilin keyfiyyətində yarada biləcəyi dönüşləri aydın şəkildə izah etməlidirlər.

## ƏDƏBİYYAT


1. *Allahverdiyeva F., Tağıyeva S.* Pedaqogika: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018, 406 s.
2. *Alxasov O.* Coqrafiyanın tədrisi metodikası. Bakı: Elm və Təhsil, 2007, 121 s.
3. *Dəmirova Z., Dəmirov A., Tağıyeva S.* Kurikulumun əsasları. Bakı: 3 saylı Bakı Mətbəəsi, 2018, 200 s.
4. *Süleymanova A.* Təhsilin əsasları: Dərs vəsaiti. Bakı: Təhsil, 2014, 132 s.
5. *Veysova Z.* Fəal/interaktiv təlim metodları: Müəllimlər üçün vəsait. Bakı: 2007, 154 s.


Redaksiyaya təkrar daxil olub 09.06.2021

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmışdır: 07.07.2021
Kağız formatı $70\times100^{1/16}$, 16,5 ç.v.
Sifariş 238. Sayı 100.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68